Ramiz Mehdiyev

# 2005-ci İL PARLAMENT SEÇKİLƏRİ: İLKİN TƏHLİL



MÜLAHİZƏLƏR, NƏTİCƏLƏR VƏ PROQNOZLAR

XXI YNE

Bakı-2006

**Ramiz Mehdiyev, fəlsəfə elmləri doktoru, professor**
"2005-ci il parlament seçkiləri: ilkin təhlil
(mülahizələr, nəticələr və proqnozlar)".
Bakı, "XXI – Yeni Nəşrlər Evi", 2006, 264 s.

**ISBN10 9952-419-03-8**
**ISBN13 978-9952-419-03-0**
1. Azərbaycan – Siyasət və hökumət. 2. Azərbaycan – Dövlətçilik – Tarix.
3. Qloballaşma – Azərbaycan. 4. Azərbaycan – İqtisadi aspektlər.
**947.54 – dc 22**

Azərbaycan Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" kitabı, adından da göründüyü kimi, ölkəmizin ictimai-siyasi həyatında çox mühüm bir hadisəyə həsr olunmuşdur.

Keçmiş sovet respublikaları Ukrayna, Gürcüstan və Qırğızıstanda baş vermiş məlum hadisələrdən sonra 2005-ci il noyabrın 6-da Azərbaycan Milli Məclisinə seçkilər bütün dünyada çox böyük maraqla izlənirdi. Bütövlükdə demokratik şəraitdə, açıq, şəffaf keçən seçkilər nəticə etibarilə Azərbaycan xalqının iradəsini əks etdirdi. Radikal müxalifət qüvvələrinin və onların xaricdəki havadarlarının arzusunda olduqları rəngli inqilab baş tutmadı. Səbəbi də məlumdur: Azərbaycanda nə seçkilərdən əvvəl, nə də seçkilər ərəfəsində hər hansı inqilabın baş verməsi üçün heç bir ilkin şərt yox idi.

Müəllif parlament seçkilərinin ayrı-ayrı mərhələlərini təhlil edir, o cümlədən seçkilərin demokratik şəraitdə keçirilməsi üçün Azərbaycan hakimiyyətinin gördüyü ardıcıl tədbirlərdən bəhs edir, bu seçkilərdə də inamlı qələbə qazanan Yeni Azərbaycan Partiyasının uğurlarının, eyni zamanda, radikal müxalifətin növbəti məğlubiyyətinin səbəblərini araşdırır. Kitabda bu təhlillər seçki kampaniyasının beş mərhələsi üzrə aparılmışdır.

Müəllif xüsusi vurğulayır ki, 2005-cü il parlament seçkilərindən sonra radikal müxalifət daha bir ağır zərbə aldı və artıq o, siyasi səhnədən getməlidir. Həyatının yeni dövrünə qədəm qoymuş Azərbaycan cəmiyyətində yeni, sivil müxalifətə tələbat vardır.

Kitab filosoflar, tarixçilər, politoloqlar, sosioloqlar, ali məktəblərin müvafiq fakültələrinin müəllim və tələbələri üçün maraq doğurur.

© Ramiz Mehdiyev, 2006.

*"...Seçkilərin normal, ədalətli keçirilməsi üçün bütün şərait yaradılmışdı. Seçki günü də bütövlükdə çox sakit keçdi, seçkilər azad, ədalətli şəkildə keçirildi... Mən seçkilərin uğurlu keçiriləcəyinə şübhə etmirdim və bütün rəy sorğuları da onu göstərirdi ki, Yeni Azərbaycan Partiyasının nümayəndələri, o cümlədən iqtidarı dəstəkləyən digər nümayəndələr daha şanslıdırlar... Seçkilərin demokratik şəkildə keçirilməsi Azərbaycanın qarşısında yeni imkanlar açır. Biz bundan sonra da demokratikləşmə prosesinə böyük diqqət göstərəcəyik. Azərbaycanda siyasi proseslərin sürətlənməsi, demokratik inkişafın möhkəmlənməsi ölkəmizin hərtərəfli inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir... Bizim gözəl iqtisadi perspektivlərimiz bilavasitə Azərbaycanda demokratiyanın inkişafı ilə bağlıdır. Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması, azad cəmiyyətin yaranması bizim başlıca vəzifəmizdir".*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Milli Məclisə seçkilərin nəticələri ilə bağlı
Azərbaycan televiziyasına müsahibəsindən
7 noyabr 2005-ci il.

## Oxucuya

Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər artıq tarixdir. Bununla belə, ölkəmizin ictimai-siyasi həyatındakı bu mühüm hadisə hələ də diqqətdən kənarda qalmayıb və yəqin ki, gələcəkdə bu barədə daha geniş təhlillər, araşdırmalar aparılacaqdır. Çünki bu seçkilərə maraq təkcə Azərbaycanın hüdudları ilə məhdudlaşmırdı, ona, demək olar ki, bütün dünyada böyük maraq göstərilirdi. Ərazisi və əhalisinin sayı baxımından kiçik ölkə olmasına baxmayaraq, müasir dünyanın ən böyük dövlətlərinin güclü maraq dairəsinə daxil olan və strateji əhəmiyyət kəsb edən regionda yerləşən, əlverişli coğrafi mövqeyə, zəngin təbii sərvətlərə malik, bölgədə lider dövlətə çevrilən Azərbaycanda seçkilərə belə diqqətin olması təbii idi.

Beynəlxalq ictimaiyyət Azərbaycanda şəffaf, demokratik seçkiləri gözləyirdi. Bu seçkilər də həmin ümidləri, demək olar ki, doğrultdu. Həqiqətən də, müəyyən nöqsanlara, qanun pozuntularına baxmayaraq, bütövlükdə seçkilər azad, şəffaf və demokratik şəraitdə keçmişdir. Prezident İlham Əliyevin vurğula-

dığı kimi, Azərbaycan xalqı seçkilərdə öz sözünü dedi, istədiyi namizədə açıq, ədalətli, azad şəkildə səs verdi, beləliklə, Azərbaycan öz demokratik inkişafında yeni mərhələyə qədəm qoydu. Bu isə ilk növbədə Azərbaycan iqtidarının iradəsi, seçkiqabağı gördüyü ardıcıl və qətiyyətli tədbirlər sayəsində mümkün olmuşdur. Bunu seçkilərin gedişini izləmiş çoxsaylı beynəlxalq və yerli müşahidəçilər, tanınmış xarici politoloqlar da təsdiq etmişlər. Seçkilərdən bir həftə sonra Vaşinqtondakı Nikson Mərkəzində keçirilmiş müzakirələrdə də vurğulanmışdır ki, seçkilərdə baş vermiş qanun pozuntuları nəticələri şübhə altına almaq səviyyəsində olmamışdır. Azərbaycanın siyasi səhnəsində irəliyə baxan Prezident və keçmişə baxan müxalifət vardır. 1993-cü ildən bəri heç bir yeni siyasi proqram irəli sürməyən müxalifət liderləri istefaya getməli və öz yerlərini yeni, əsil müxalifətə verməlidirlər.

Lakin Azərbaycanın radikal, dağıdıcı müxalifət liderləri sanki bütün bunları görmür və eşitmirlər. Onlar nəinki növbəti məğlubiyyətlərinin səbəblərini araşdırmır, əksinə, AŞPA-da Azərbaycan nümayəndə heyətinin mandatının təsdiq olunmaması barədə rüsvayçı, Avropa Şurasının tarixində görünməmiş təkliflə çıxış edirlər.





Seçki prosesinin təhlili isə deməyə əsas verir ki, müxalifətin məğlubiyyətini və hakim partiyanın qələbəsini şərtləndirən mühüm obyektiv və subyektiv səbəblər mövcuddur.

2003-cü ildə keçirilmiş prezident seckiləri Azərbaycanın ictimai-siyasi həyatında dönüş nöqtəsi olmuşdur. İlham Əliyevin təcəssüm etdirdiyi islahatçı-mütərəqqi qüvvələrin oxlokratiyanı təmsil edən, proletariatın silahı dəyənəklə, daş-kəsəklə yaraqlandırılmış, dövlət çevrilişinə cəhd edən və hakimiyyəti zor gücü ilə ələ keçirmək istəyən qüvvələr üzərində qələbəsi ölkə üçün taleyüklü əhəmiyyətə malik hadisə olmuşdur. Hakimiyyət siyasətdə varislik prinsipini qoruyaraq, yeni dünya nizamının tələblərini mənimsəmiş, sivil və demokratik dövlət quruculuğu yolunda qətiyyətli addımlar atmağa müvəffəq olmuşdur.

Qərbə sürətlə inteqrasiya edən və Avropa dəyərlərini mənimsəyən ölkədə müxalif hərəkatın taktika və strategiyasını müəyyənləşdirmək baxımından son iki il müvafiq nəticələrin çıxarılması üçün kifayət edən bir müddətdir.

2005-ci il parlament seçkilərini uduzmaqla radikal müxalifət öz fəaliyyətinin növbəti böhran dövrünə daxil oldu. Alternativ fikir və yeni siyasi düşüncə tərzini

aşılamaq, tranzitar cəmiyyətlərdə yeni siyasi aktorları təqdim etmək qurulmaqda olan plüralistik vətəndaş cəmiyyətində sivil hakimiyyət–müxalifət münasibətlərinin yaradılması və dövlətin inkişafı naminə strateji layihələrin həyata keçirilməsində hər bir siyasi qüvvənin əsas fəaliyyət prinsipi olmalıdır. Özünü "ana müxalifət" adlandıranlar son illər ərzində bu vəzifələrin öhdəsindən gələ bildilərmi? Bu sual sağlam fikirli və mütərəqqi düşüncəli vətəndaşları ölkənin siyasi səhnəsində baş verən transformasiyalar üzərində düşünməyə vadar edir. Biz isə bu suala baş verən siyasi proseslər çərçivəsində və 2005-ci il parlament seçkilərinin misalında cavab verməyə çalışacağıq.



# I

# SEÇKİ PROSESİNİN AYRI-AYRI MƏRHƏLƏLƏRİ

Azərbaycanda və ölkə hüdudlarından kənarda böyük maraqla izlənən parlament seçkiləri kampaniyası, ümumilikdə, demokratikləşmə proseslərini sürətləndirən bir çox müsbət yeniliklərlə yaddaqalan olmuş, nəticə etibarilə xalqın iradəsini əks etdirmişdir. Bu gerçəklik istər prosesdə bilavasitə iştirak edən maraqlı tərəflər, istərsə də parlament seçkiləri kampaniyasının gedişini ilk mərhələdən diqqətlə izləyən çoxsaylı müşahidəçi qrupları tərəfindən açıq etiraf olunur. Deməli, 6 noyabr parlament seçkilərinə verilən yekun qiymət də bütövlükdə parlament seçkilərinin ayrı-ayrı mərhələlərinin obyektiv və qərəzsiz təhlilinə əsaslanmalı, bütün müsbət və mənfi məqamlar qeyd olunmalıdır.

Bu baxımdan, seçki kampaniyasını 5 mərhələyə bölərək, həmin mərhələləri ayrı-ayrılıqda təhlil etməliyik:

**1)** Seçki kampaniyasının rəsmən başlanmasına qədər olan mərhələ (2005-ci ilin əvvəllərindən başla-

yaraq, seçki qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətindəki təşəbbüslər və Milli Məclisin Seçki Məcəlləsində etdiyi konkret dəyişikliklər, **Azərbaycan Prezidentinin 2005-ci il 11 may tarixli "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair"** Sərəncamı).

**2)** Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2005-ci il iyulun 4-də parlament seçkiləri kampaniyasına start verilməsi (namizədliyin qeydə alınması üçün seçki sənədlərinin dairə seçki komissiyalarına təqdim edilməsi prosesinin başa çatması – 6 iyul-28 avqust. Qeydiyyat prosesinin yekunlaşması – 7 sentyabr).

**3)** Seçkiqabağı təşviqat mərhələsi (7 sentyabr-4 noyabr. Azərbaycan Prezidenti İlham Əliyevin **2005-ci il oktyabrın 25-də "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında"** növbəti Sərəncam imzalaması).

**4)** Səsvermə günü prosesin gedişi.

**5)** Səsvermə günündən sonrakı mərhələ (MSK-nın elan etdiyi nəticələr və yol verilmiş nöqsanların aradan qaldırılması istiqamətində atılan konkret addımlar).



## 1. Seçki qanunvericiliyinin təkmilləşdirilməsi mərhələsi

**a)** Demokratiya sahəsində böyük uğurlar əldə etmiş dövlətlərin seçki praktikası göstərir ki, hər bir seçkinin demokratikliyini təmin edən şərtlər sırasında siyasi iradə amili ilə yanaşı, təkmil seçki qanunvericiliyinin mövcudluğu da olduqca vacibdir. Qısaca xatırladaq ki, Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası ölkədə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirmişdir. Əsas Qanunda təsbit olunmuş müddəalara istinadən Azərbaycanda ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli və şəxsi səsvermə yolu ilə seçkilərin hüquqi bazası formalaşdırılmışdır.

1993-cü ildən bəri ölkəmizdə keçirilmiş hər bir seçkinin əvvəlkinə nisbətən seçkilərin beynəlxalq standartlara uyğunlaşdırılması yolunda irəliyə doğru atılmış addım olduğunu beynəlxalq təşkilatların seçkilərə dair verdikləri rəylərin müqayisəli təhlili sübuta yetirir. Lakin Azərbaycan hakimiyyəti seçki praktikasının təkmilləşdirilməsi istiqamətində atılan addımlarla kifayətlənməmiş, ölkədə seçki təcrübəsinin demokratik standartlara uyğunlaşdırılması yönündə səyləri artır-

mış, beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərini gücləndirmişdir. Azərbaycan rəhbərliyinin siyasi iradəsinə uyğun olaraq, 1997-ci ildən ölkədə demokratik tələblərə cavab verən seçki qanunvericiliyinin formalaşdırılması məqsədi ilə Azərbaycan hökuməti və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) arasında qurulmuş fəal işbirliyinin müsbət nəticələri diqqəti xüsusi çəkir. Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına tam hüquqlu üzv qəbul edildikdən sonra bu sahədə əməkdaşlığın hüdudları daha da genişlənmiş, ölkədə seçki qanunvericiliyinin təkmilləşdirilməsi işində Avropa Şurasının Venesiya Komissiyası da yüksək fəallıq göstərməyə başlamışdır.

Azərbaycanda seçki qanunvericiliyinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədi ilə 2003-cü ilin mayında Azərbaycan Respublikasının Seçki Məcəlləsinin qəbulu bu əməkdaşlığın gözəl bəhrəsidir. Demokratik məzmununa görə dünyanın ən inkişaf etmiş ölkələrinin seçki qanunvericiliyinə nümunə sayıla biləcək bu Məcəllə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmiş, seçki üzrə ixtisaslaşmış beynəlxalq təşkilatların müsbət rəyini almışdır. Seçki qanunvericiliyi sahəsində böyük təcrübəyə malik





Avropa Şurası Venesiya Komissiyasının və ATƏT-in DTİHB-nin sənədlə bağlı yekun rəyində Azərbaycan Respublikasının Seçki Məcəlləsinin seçkilərin və referendumun keçirilməsi üçün əksər məsələlərdə beynəlxalq meyarlara və ən yaxşı təcrübələrə uyğun olan hərtərəfli çərçivələr nəzərdə tutduğu vurğulanmış, bu sənədin qəbuluna nail olmuş Azərbaycan rəhbərliyinin siyasi əzmkarlığı alqışlanmışdır.

Qeyd etməliyik ki, dünyanın ən demokratik ölkələrində belə, seçkilərin gedişində müəyyən qüsur və nöqsanların üzə çıxması bir sıra Qərb politoloqlarının elmi mülahizələrində də ağrılı məqam kimi vurğulanır. Hər dəfə keçirilən seçkilər seçki qanunvericiliyindəki boşluqların və qüsurların üzə çıxarılmasında və onların aradan qaldırılmasında mühüm rol oynayır. Bu baxımdan, hakimiyyət ötən seçkilərdə qeydə alınmış bir sıra qanun pozuntularının və texniki xətaların aradan qaldırılması üçün Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə səslənən təşəbbüslərə həssaslıqla yanaşmışdır. 2005-ci ilin fevral və mart aylarında hakimiyyətin, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, habelə Avropa Şurasının Venesiya Komissiyası ekspertlərinin görüşləri keçirilmiş, bu istiqamətdə geniş müzakirələr aparılmışdır. Bu müzaki-

rələrin yekunu kimi, **2005-ci ilin may ayında Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə çıxarılmış, sənədin 43 maddəsində əlavə və dəyişikliklər edilmişdir.**

Əlavə və dəyişikliklərə əsasən, Seçki Məcəlləsinin 1-ci maddəsinə 4 yeni müddəa əlavə olunmuşdur. Məcəllənin 2-ci maddəsinə edilən dəyişiklikdə parlament, prezident və bələdiyyə seçkilərinin eyni gündə keçirilməsinin mümkünsüzlüyü göstərilmişdir. Sənəddə seçki komissiyalarının fəaliyyətinin təşkilinin ümumi qaydalarına dair bir sıra dəyişikliklər də edilmişdir. Dəyişikliklər komissiya üzvlərinin keçirilən iclaslar haqqında daha geniş şəkildə məlumatlandırılmasını, habelə komissiya üzvləri arasında vəzifə bölgüsü aparmaq qaydalarını tənzimləyir. Bundan əlavə, sənədə edilmiş dəyişikliklər seçki komissiyaları üzvlərinin statusunu daha da dəqiqləşdirmişdir. Düzəlişlərə əsasən, DSK-ların qərarları komissiyanın iclasında 9 üzv iştirak etdikdə, ən azı 6 üzvün, 8 və ya 7 üzv iştirak etdikdə, azı 5 üzvün, 6 üzv iştirak etdikdə isə, azı 4 üzvün lehinə səs verməsi nəticəsində qəbul olunur. **Bununla yanaşı, DSK-ların qəbul etdiyi qərarların 24 saat müddətində dərci (əvvəllər bunun üçün ayrılmış vaxt 48 saat idi) nəzərdə tutulur.**





Seçki Məcəlləsinin "Seçki komissiyalarının fəaliyyətində aşkarlıq" adlanan 40-cı maddəsində də dəyişiklik edilmişdir. Həmin dəyişikliyə əsasən, müşahidəçilərə seçkilərin ümumi yekunları haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış olmaq hüququ verilmişdir. **Bu dəyişikliklər nəticəsində Azərbaycan praktikasında ilk dəfə olaraq, təkrar səsvermənin qarşısını almağa yönəlmiş bir müddəa – vətəndaşlara seçici vəsiqələrinin verilməsi məsələsi öz əksini tapmışdır. Bundan əlavə, seçici siyahılarının Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsi məsələsi də qanunda müddəa kimi öz əksini tapmışdır.** Məqsəd tam aşkarlığı təmin etmək idi. Çünki seçkilərlə bağlı əsas tənqidlərdən biri də ondan ibarət idi ki, guya seçici siyahıları bütün seçiciləri əhatə etmir və hətta dünyasını dəyişmiş insanların adları bu siyahılara salınır. **Eyni zamanda, Seçki Məcəlləsində namizədlərin qeydiyyat prosedurası sadələşdirilmişdir. Əgər əvvəllər namizədin qeydiyyata alınmaq üçün 2000 imza toplaması tələb olunurdusa, Seçki Məcəlləsinə edilmiş dəyişiklik nəticəsində bu rəqəm 450-yə endirilmişdir. Bundan başqa, namizədin depozitlə qeydə alınması üçün tələb olunan maliyyə vəsaiti bir neçə**

**dəfə azaldılaraq, 2250 ABŞ dolları təşkil etmişdir. Deputatlığa namizədlərin seçki fondlarına toplana biləcək maliyyə vəsaitinin maksimum həddi isə 82 min ABŞ dolları civarında müəyyənləşdirilmişdir.**

Seçki Məcəlləsinin müzakirəsi zamanı barmaqların mürəkkəblə işarələnməsi ilə bağlı bir sıra müxalifətçi deputatların səsləndirdikləri təkliflər Milli Məclis tərəfindən qəbul olunmamışdı. Bu mövqe onunla əsaslandırılmışdı ki, seçici vəsiqələrinin qanuna müvafiq formada paylanması təkrar səsvermənin qarşısının alınması baxımından kifayət qədər səmərəli və daha mütərəqqi üsuldur. Eyni zamanda, komissiyaların paritet əsasda formalaşdırılması ilə bağlı təkliflər də Azərbaycan reallığında özünü doğrultmadığından və ölkədəki real siyasi qüvvələr spektrini əhatə etmədiyindən qəbul olunmamışdır. **Hakimiyyət hələ 2000-ci ildə keçirilmiş parlament seçkiləri ərəfəsində komissiyaların formalaşdırılması ilə bağlı məsələdə müxalifətə ciddi güzəştlərə getsə də, sonradan həmin qüvvələr bundan istifadə edərək, iclaslarda iştirak etmədilər və seçkilərin pozulması təhlükəsi yarandı. Bəzi müxalifət partiyalarının MSK-nın fəaliyyətində yaratdığı böhranlı vəziyyəti aradan qaldırmaq üçün parlament seçki qanunvericiliyində**





**yenidən dəyişiklik etmək məcburiyyətində qaldı. Bu baxımdan, seçki komissiyalarının paritet əsasda formalaşdırılması ilə bağlı təkliflərin reallaşacağı halda, komissiyaların normal fəaliyyət göstərə bilməyəcəyi arqumenti Milli Məclis tərəfindən əsas götürülmüşdür. Müzakirələr zamanı çoxluğun fikri belə olmuşdur ki, paritet əsasda formalaşdırılan komissiyalarda konsensusun əldə edilməsi ehtimalı sıfırdır: uduzan tərəflər bununla razılaşmadıqları üçün komissiyaların hər hansı qərar qəbul etməsinə imkan verməyəcəklər.** Digər tərəfdən, belə arqumentlər də səsləndirilmişdir ki, Azərbaycan seçiciləri təkcə iqtidar və müxalifətdən ibarət deyil, ölkə əhalisinin əsas hissəsi bitərəflərdən ibarətdir. Ona görə də paritet ədalətli formatda müəyyənləşdı: Yeni Azərbaycan Partiyasının, bitərəflərin nümayəndələri, parlamentin azlıqda qalan siyasi partiyalarının nümayəndələri.

Demokratik şəraitdə davam edən müzakirələrdən sonra Seçki Məcəlləsinə dəyişikliklər 2005-ci il iyunun 26-da Milli Məclisdə üçüncü oxunuşda qəbul edilmişdir.

**b)** 2005-ci ilin 6 noyabrında keçirilməsi nəzərdə tutulmuş parlament seçkilərinə hazırlıq dövründə və həmin seçkilərin keçirilməsi zamanı bu sahədə baş verə biləcək əyintilərin və qanun pozuntularının

qarşısını almaq, Milli Məclisə seçkiləri Azərbaycan Respublikası Seçki Məcəlləsinin müddəalarına tam uyğun keçirmək, bu sahədə icra hakimiyyəti orqanlarının üzərlərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci il mayın 11-də "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" Sərəncam imzaladı. Ölkənin demokratik imicinin daha da yüksəldilməsi istiqamətində mühüm addım olan bu sənəd ilk gündən həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə böyük rəğbətlə qarşılanmışdır. Sərəncamda azad və ədalətli seçkilərin keçirilməsinə mane olan amillərin aradan qaldırılması yolları birmənalı olaraq göstərilmiş, eləcə də seçkiqabağı mühitin demokratikləşdirilməsi ilə bağlı konkret vəzifələr öz əksini tapmışdır. Sərəncamda "postsovet mentalitetindən" imtina olunmasının zəruriliyi xüsusi vurğulanmışdır.

Sərəncamla Mərkəzi Seçki Komissiyasına seçki rəsmilərinin, o cümlədən paytaxtdan kənarda işləyəcək seçki rəsmilərinin təlim kurslarından keçməsi məqsədi ilə müvafiq proqramlar hazırlamaq və bu sahədə bütün siyasi qüvvələr və beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlıq etmək tapşırığı verilmişdir. Mərkəzi və





yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə, digər dövlət məmurlarına seçki prosesinə qanunazidd şəkildə müdaxilə edəcəkləri halda, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, məsuliyyətə cəlb ediləcəkləri barədə ciddi xəbərdarlıq olunmuşdur.

Sərəncamla Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə, İctimai Televiziya və Radio Yayımları Şirkətinə, özəl televiziya və radio yayımları şirkətlərinə tövsiyə edilmişdir ki, deputatlığa namizədlərin bərabər əsaslarla təbliğ olunmasını təmin edən proqramlar hazırlasınlar və siyasi platformaların müzakirəsi məqsədi ilə müvafiq çıxışlar, dialoqlar, dəyirmi masalar və digər tədbirlər təşkil etsinlər.

**Sərəncamda diqqəti çəkən ən mühüm məsələlərdən biri Azərbaycanda keçiriləcək parlament seçkilərində ilk dəfə olaraq "exit-poll"un təşkili ilə əlaqədar olmuşdur. Seçicilərin səsvermədən sonra məntəqələrdən çıxışı zamanı aparılan sorğuya razılıq verməklə hakimiyyət demokratik seçkilərin keçirilməsində maraqlı olduğunu bir daha nümayiş etdirmişdir. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində ixtisaslaşmış ictimai rəyçilər tə-**

**rəfindən "exit-poll" prosesinin aparılmasına lazımi şərait yaratsınlar, həmin prosesin gedişinə qanuna-zidd olaraq müdaxilə etməsinlər. İxtisaslaşmış ictimai rəyçilər tərəfindən respublikada ilk dəfə aparılacaq "exit-poll" prosesinin həyata keçirilməsinə lazımi şəraitin yaradılması, "paralel səsvermənin" nəticələrinin ədalətli və şəffaf şəkildə həyata keçirilməsinə dair zəruri tədbirlər görülməsi barədə verilən tapşırıqlar bu Sərəncamın əhəmiyyətini artıran siyasi cəsarət və iqtidarın cəmiyyətdə böyük nüfuzunu təsdiqləyən amillərdən biri kimi qiymətləndirilə bilər.**

Sərəncamla mərkəzi və yerli icra hakimiyyəti orqanlarına bir daha tapşırılmışdır ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində deputatlığa namizədlər üçün kütləvi informasiya vasitələrindən bərabər qaydada istifadə etmələrini və onlar üçün bərabər təbliğ imkanlarının yaradılmasını təmin etsinlər. Həmçinin, Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində "paralel səsvermənin" nəticələrinin ədalətli və şəffaf şəkildə həyata keçirilməsinə dair zəruri tədbirlər görsünlər və müvafiq seçki rəsmilərinə zəruri yardım göstərsinlər. Sənəddə seçkilər ərəfəsində vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin edilməsi istiqa-





mətində tədbirlərin həyata keçirilməsi də mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qarşısına mühüm vəzifə kimi qoyulmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Sərəncamın imzalanmasından sonrakı dövrdə – bölgələrə səfərlər zamanı mütəmadi olaraq icra hakimiyyəti strukturlarının rəhbərlərini seçki prosesinə hər hansı formada müdaxiləyə cəhd etməməyə, hakimiyyətə "ayı xidməti" göstərməməyə çağırmış, qanunu pozanların sərt şəkildə cəzalandırılacağını bildirmişdir. **Seçki prosesinə qanunsuz müdaxilə faktı ilə bağlı hələ təşviqat mərhələsində ilk cəza tədbiri həyata keçirilmiş, Salyan rayon icra hakimiyyəti başçısının müavini tutduğu vəzifədən azad olunmuşdur. Sonradan bir neçə vəzifəli şəxslər də seçki qanunvericiliyini pozduğuna görə tutduğu vəzifədən azad edildi.**

**c)** Azərbaycan Prezidentinin 11 may tarixli Sərəncamında seçici siyahılarının dəqiqləşdirilməsi və vətəndaşlara seçici vəsiqələrinin verilməsi məsələlərinə xüsusi diqqət yetirilmişdir. Ümumiyyətlə, dairə seçki komissiyaları 2005-ci ilin yanvar ayından rayon polis şöbələrinin pasport qeydiyyatı xidmətləri, habelə mənzil istismar sahələri əməkdaşlarının iştirakı ilə seçici siyahılarının dəqiqləşdirilməsi prosesinə başlamış-

dılar. **Praktika göstərir ki, hazırda dünyada müşahidə olunan miqrasiya prosesləri, o cümlədən urbanizasiyanın (şəhərlərə güclü axın) yüksək səviyyəsi ilə əlaqədar olaraq, seçici siyahıları ilə bağlı problemlər bütün ölkələrdə mövcuddur.** Azərbaycanın Ermənistanın hərbi təcavüzü ilə üzləşdiyini və 1 milyondan artıq qaçqın-köçkünün müxtəlif rayonlarda məskunlaşmağa məcbur olduğunu nəzərə alsaq, real vəziyyətin nə qədər mürəkkəb olduğu aydın görünər.

Prezident Sərəncamında Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və aşağı seçki komissiyalarına tövsiyə edilmişdir ki, hər bir seçiciyə vəsiqənin çatdırılmasını təmin etsinlər, seçici siyahılarının dəqiq və dürüst tərtib edilməsi üçün Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq lazımi tədbirlər görsünlər. Yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq, öz səlahiyyətləri çərçivəsində dəqiq seçici siyahılarının tərtib edilməsi və həmin siyahıların seçkilərə ən azı 65 gün qalmış seçki məntəqələrində açıq nümayiş etdirilməsi üçün zəruri tədbirlər həyata keçirsinlər.

Dünya praktikasında seçici siyahılarının tərtib edilməsinin iki mexanizmi mövcuddur. Bunlar məcburi





qaydada və könüllülük əsasında siyahıların tərtib olunmasıdır. Məcburi qaydada seçici siyahılarının müəyyənləşdirilməsini müvafiq strukturlar həyata keçirir. Könüllülük prinsipində isə seçicilərin özlərini müvafiq seçki komissiyalarında qeydiyyatdan keçirməsi nəzərdə tutulur. Prinsip etibarilə, könüllülük əsasında seçici siyahılarının tərtib edilməsi bir çox seçicilərin səsvermədən kənarda qalmasına gətirib çıxarır. Azərbaycan qanunvericiliyinə gəldikdə, Seçki Məcəlləsi hazırlanarkən dünya təcrübəsi öyrənilmiş, seçici siyahılarının müəyyənləşdirilməsində məcburi qaydaya üstünlük verilmişdir. Çünki bu variantın bir sıra müsbət tərəfləri mövcuddur. Belə ki, səsvermə gününə qədər vətəndaş yaşayış yerini dəyişirsə, o, müraciət əsasında yerli seçki komissiyasında seçici siyahısına daxil ola bilər. Seçki Məcəlləsində seçicilərin səsvermə gününə kimi seçici siyahısına düşməsi mexanizmi dəqiq göstərilmişdir. Seçki Məcəlləsi yaşayış yerini dəyişməsindən asılı olmayaraq, hər bir seçicinin səsvermə hüququnu təmin etmişdir. Seçici siyahıları ilkin olaraq məntəqə və dairə seçici komissiyalarında dəqiqləşdirilir, sonda isə Mərkəzi Seçki Komissiyası Seçkilər İnformasiya Mərkəzinin iştirakı ilə respublika üzrə vahid seçici siyahısını tərtib edir. Qanunvericilikdə

bunun icra mexanizmi də müəyyən olunmuşdur. Hər il fevralın 5-dək məntəqə seçki komissiyaları seçicilərin siyahısını dəqiqləşdirərək, dairə seçki komissiyasına təqdim etməlidir. Dairə seçki komissiyaları isə bu siyahıları martın 5-dək dəqiqləşdirməli və aprelin 5-dək Mərkəzi Seçki Komissiyasına təqdim etməlidir. Öz növbəsində, Mərkəzi Seçki Komissiyası tərəfindən mayın 25-dək vahid seçici siyahısı təsdiq olunmalıdır. Qanunvericiliyə uyğun olaraq, seçici siyahıları səsverməyə ən azı 65 gün qalmış ümumi tanışlıq üçün məntəqələrdən asılmalıdır. Vətəndaşlar öz adlarını bu siyahıda tapmadıqda, müvafiq məntəqə seçki komissiyasına müraciət edərək, adlarını siyahıya daxil etdirə bilərlər. Bu proses səsverməyə 35 gün qalmışa qədər davam edir. 35 gün sonra isə bu problem məhkəmə yolu ilə həll olunur. Bu mexanizm seçki hüququnun təmin edilməsi üçün hər cür şərait yaradır və hər il seçici siyahılarının yenidən tərtibi, səsvermə ərəfəsində dəqiqləşdirmələrin aparılması məhz vətəndaşların seçki hüququnun tam təmin olunmasına xidmət edir.

Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə və zəruri tədbirlərin həyata keçirilməsinə baxmayaraq, bəzi texniki səbəblər üzündən seçici vəsiqələrinin paylanması prosesində də müəyyən problemlər aşkar-





lanmışdır. Xüsusən də vətəndaşların məlumatsızlığı və seçici vəsiqələrinə biganə münasibəti, eləcə də yay mövsümü ilə əlaqədar miqrasiya proseslərinin güclənməsi, ümumilikdə, təcrübənin yeniliyi bu sahədə müəyyən problemlər yaratmışdır. Odur ki, "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 25 oktyabr tarixli növbəti Sərəncamında təkrar səsvermənin qarşısının alınması üçün və bir daha iqtidarın təmiz seçkilərin keçirilməsində maraqlı olmasını nəzərə alaraq, seçicilərin barmaqlarının gözə görünməyən mürəkkəblə işarələnməsi məsələsi öz əksini tapmışdır.

Səsvermə günü – noyabrın 6-da parlament seçkilərində seçici siyahıları ilə bağlı qeyri-müəyyənliklərə çox az hallarda rast gəlinmiş və bu hallar operativ olaraq məhkəmə qaydasında aradan qaldırılmışdır.

## 2. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə parlament seçkiləri kampaniyasına start verilməsi (namizədlərə imza vərəqələrinin paylanması və qeydiyyat prosesinin başa çatması – 6 iyul-7 sentyabr)

**a) Azərbaycan Prezidenti İlham Əliyevin 2005-ci il 4 iyul tarixli Fərmanı ilə seçkinin keçiriləcəyi gün elan edilmiş (6 noyabr), beləliklə, seçki kampaniyasına start verilmişdir.** Seçki Məcəlləsinə əsasən, bu tarixdən etibarən – 2 aydan gec olmayaraq – seçici vəsiqələrinin paylanmasına başlanmışdır. Fərman dərc edildiyi gündən seçki hüququ olan vətəndaşlar, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən deputatlığa namizədlərin irəli sürülməsi prosesi başlanmışdır. Ümumiyyətlə, namizədlərin irəli sürülməsi və qeydiyyatı mərhələsi tamamilə azad, şəffaf və demokratik şəraitdə keçmiş, hər hansı qanun pozuntularına yol verilmədiyi müxalifətdən olan namizədlər tərəfindən də etiraf olunmuşdur. Namizədliyin irəli sürülməsi ilə bağlı seçki sənədlərinin dairə seçki komissiyalarına təqdim edilməsi prosesi avqustun 28-i saat 18.00-dək davam etmişdir. Sonrakı 10 gün ərzində qeydiyyat prosesi davam etmiş, sentyabrın 7-si saat 18-də başa çatmışdır.





Qeydə alınmış namizədlərin sayının rekord saya çatması **(125 yerə qarşı 2063 nəfər. Beş il əvvəl – 2000-ci ilin parlament seçkilərində qeydiyyatdan keçən deputatlığa namizədlərin sayı isə təxminən 400 nəfər idi)** bir tərəfdən, seçkilərin demokratikliyinə olan ictimai inamla, digər tərəfdən isə, qeydiyyat prosedurunun sadələşdirilməsi ilə izah olunmalıdır. Bununla yanaşı, belə imkan seçkilərin alternativlik və yüksək rəqabət şəraitində keçəcəyinə dəlalət edirdi.

Seçki Məcəlləsinə görə, namizədin və ya namizədi irəli sürən təşəbbüs qrupunun təşəbbüsü barədə sənədlərin, yaxud namizədin irəli sürülməsi haqqında siyasi partiyanın, siyasi partiyalar blokunun qərarının və digər sənədlərin dairə seçki komissiyasına təqdim edilməsindən sonrakı 5 gün müddətində komissiya deputatlığa namizədin irəli sürülməsinin təsdiq olunub-olunmaması haqqında qərar qəbul etməlidir. Deməliyəm ki, bu proses tamamilə normal qaydada keçmiş, hansısa bürokratizmə və süni maneələrə rast gəlinməmişdir. Qanuna müvafiq olaraq, səsvermə gününə ən azı 70 gün qalmış, saat 18.00-dək namizədin müdafiəsi məqsədi ilə onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçici imzalarının toplanması üçün namizədə və onun səlahiyyətli nümayəndəsinə, habelə siyasi partiyanın və

siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsinə imza vərəqələri verilmişdir. İmzatoplama prosesinə icra strukturları tərəfindən heç bir müdaxilə olmamış və 450 imzanın toplanması deputatlıq iddiasında olan şəxslərin böyük əksəriyyəti üçün heç bir problem doğurmamışdır.

Bu mərhələdə dairə seçki komissiyalarından imza vərəqələri götürənlərin ümumi sayı **2237** nəfər olmuş, tələb olunan sayda **(450)** imza vərəqələrini toplayaraq onları komissiyalara qaytaranların sayı isə **2148** nəfər **(96,02%)** təşkil etmişdir. Dairə seçki komissiyalarında namizədliyi qeydə alınanların sayı **2063** nəfər **(92,22%)** olmuşdur. Namizədliyin əsassız olaraq qeydə alınmaması ilə bağlı heç bir ciddi fakta və şikayətə rast gəlinməmişdir. **Din xadimi olmasını əsas tutaraq namizədliyini DSK-nın və MSK-nın qeydə almaqdan imtina etdiyi "İslam" Partiyasının sədri Hacıağa Nuriyevin hüququ isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən bərpa edilmişdir.** Subyektiv mülahizələrlə namizədin qeydiyyata alınmasından imtina hallarına, demək olar ki, rast gəlinməmişdir.

Seçki Məcəlləsinə görə, deputatlığa namizəd seçki gününə ən azı 10 gün qalmış **(son tarix oktyabrın 26-sı olmuşdur)** öz namizədliyini geri götürmək barədə müvafiq dairə seçki komissiyasına müraciət edə





bilər. Seçkilərin fəlsəfəsinə uyğun olaraq, təşviqat prosesində şanslarının azlığını başa düşən namizədlər belə bir addım atmışlar. Namizədliyini geri götürmək üçün DSK-lara müraciət etmiş namizədlərin sayı **476** nəfər olmuşdur. Ciddi qanun pozuntularına yol verdiklərinə görə **41** nəfərin deputatlığa namizədliyi Apellyasiya Məhkəməsi, **2** nəfərin namizədliyi isə MSK tərəfindən ləğv olunmuşdur. **2** nəfər deputatlığa namizəd seçki ərəfəsində vəfat etmişdir. Beləliklə, qeydiyyatda qalanların ümumi sayı **1541** nəfər təşkil etmiş, və ya bir yerə orta hesabla **12** nəfər, hər üç dairədən birində isə bir deputat mandatına **15-20** və daha çox namizəd iddiaçı olmuşdur. Qeydə alınmış deputatlığa namizədlərin **58** faizini siyasi partiyaların və siyasi partiya bloklarının nümayəndələri, **42** faizini bitərəflər, **11** faizini qadınlar təşkil etmişdir.

6 noyabr seçkilərində iştirak etmək üçün 48 siyasi partiya və seçki bloku qeydiyyatdan keçmişdir. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, 21 siyasi partiyanı birləşdirən 8 blok qeydə alınmışdır. Xüsusi vurğulamaq lazımdır ki, 2005-ci il avqustun 15-də Ədliyyə Nazirliyi kollegiyasının qərarı ilə 8 siyasi partiya qeydiyyata alınmışdır. Bunlar Böyük Quruluş (sədr Fazil Qəzənfəroğlu, 2003-cü ildə təsis edilib),

Təkamül (sədr Teyyub Qəniyev, 1996-cı ildə təsis edilib), Demokratik İslahatlar (sədr Asim Mollazadə, 2005-ci ildə təsis edilib), Böyük Azərbaycan (sədr Elşad Musayev, 2003-cü ildə təsis edilib), "Azadlıq" (sədr Əhməd Oruc, 1995-ci ildə təsis edilib), Tərəqqi (sədr Çingiz Dəmiroğlu, 2001-ci ildə təsis edilib), Bütöv Azərbaycan Xalq Cəbhəsi (sədr Qüdrət Həsənquliyev, 2002-ci ildə təsis edilib), Vətəndaş Birliyi (sədr Sabir Hacıyev, 2001-ci ildə yaradılıb) partiyalarıdır. Azərbaycan Xalq Cəbhəsi Partiyasının ("klassiklər") sənədlərində qanunvericiliyə uyğunsuzluq aşkarlanmışdır. Eyniadlı partiya artıq fəaliyyət göstərdiyindən, bu partiyanın qeydiyyatından imtina edilmiş, təşkilatın adında və sənədlərində müvafiq dəyişiklik edilməsi təklif olunmuşdur. Ədliyyə Nazirliyi kollegiyasının qərarı ilə 50-yə yaxın qeyri-hökumət təşkilatı da dövlət qeydiyyatına alınmışdır. Bütün bunlar seçkilərdə daha çox sayda siyasi partiyanın iştirakını təmin etmiş, seçkiqabağı mühitin liberallaşdırılması baxımından əhəmiyyətli olmuşdur.

Yeni Azərbaycan Partiyasının, Azərbaycan Liberal Partiyasının, "Yeni Siyasət" siyasi partiyalar blokunun, "Azadlıq" siyasi partiyalar blokunun 60-dan artıq dairədə namizədi qeydə alınmışdı. Mühakimə olunmuş şəxslərin əfv edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanları, siyasi müxalifətin bəzi liderlərinə bəraət verilməsi haqqında məhkəmə qərarları onlara seçki kampaniyasında fəal iştirak etmək hüququ vermişdi. Bu prosesin tamamilə azad, ədalətli və şəffaf şəraitdə keçməsinə dəlalət edən digər bir vacib məqam müxtəlif dövləti cinayətlər törətməkdə təqsirli bilinərək, barəsində məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilmiş ASDP həmsədri Ayaz Mütəllibov və ADP sədri Rəsul Quliyevin deputatlığa namizədliyinin qeydə alınması idi. Bununla belə, Baş prokuror Seçki Məcəlləsinə müvafiq şəkildə onların deputatlığa namizəd kimi toxunulmazlıq hüququnu ləğv etmişdi.

**b)** Azərbaycanda seçkiqabağı mühitin demokratikləşdirilməsi istiqamətində atılan çoxsaylı addımlar, ümumiyyətlə, 6 noyabr seçkilərinə hazırlıqla bağlı ayrı-ayrı mərhələlər aparıcı dövlətlərin və beynəlxalq təşkilatların diqqət mərkəzində olmuşdur. Xüsusi vurğulamaq olar ki, Azərbaycan Prezidentinin 2005-ci il 11 may tarixli Sərəncamı ilk gündən müsbət qarşılanmış və təqdir olunmuşdur. Sərəncam imzalandıqdan dərhal sonra ATƏT-in fəaliyyətdə olan sədri, Sloveniyanın xarici işlər naziri Dimitri Rupel, ABŞ-ın dövlət katibi Kondoliza Rays, Avropa Şurasının sədri Rene

van der Linden, Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiye, Avropa Şurasının baş katibi Terri Devis, qurumun Azərbaycan üzrə həmməruzəçiləri Andreas Qross və Andres Herkel, Azərbaycana səfər edən ABŞ konqresmenləri tərəfindən öz yüksək qiymətini almışdır. Onlar Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə azad, ədalətli, demokratik seçkilərin keçirilməsinə yönəlmiş səylərini dəstəkləyərək, 11 may tarixli Sərəncamın seçkilərin demokratikliyinə tam təminat verdiyini bəyan etdilər.

ATƏT-in fəaliyyətdə olan sədri, Sloveniyanın xarici işlər naziri Dimitri Rupel Bakıya səfəri zamanı bildirmişdi ki, təşkilat parlament seçkilərinin izlənməsi üçün Azərbaycana 528 müşahidəçi göndərəcəkdir. Parlament seçkilərində ATƏT-in Müşahidə missiyasının üzərinə böyük məsuliyyət düşdüyünü söyləyən D.Rupel seçkiqabağı vəziyyətə qiymət verərkən hakimiyyətin bu sahədə atdığı addımları yüksək dəyərləndirmişdi. O, beynəlxalq təşkilatlar tərəfindən irəli sürülmuş təkliflərin mühüm qisminin yerinə yetirildiyini, noyabra qədər bu vəzifələrin digər qisminin də yerinə yetiriləcəyinə əmin olduğunu bildirmişdi: **"Azərbaycan hökumətinin seçki sahəsində atdığı addımları yüksək qiymətləndirirəm. Bu istiqamətdə tövsiyələr yerinə yetirilib və böyük işlər görülüb. Seçkilərə qədərsə, hələ iki ay vaxt var. Hesab edirəm ki, bu dövrdə də müəyyən işlər görüləcək".**





Azərbaycandakı mövcud reallıq Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin gəldiyi qənaətdə daha parlaq şəkildə əks olunmuşdu: **"Azərbaycan demokratik prosesə təkamül yolu ilə çatmaq istiqamətini tutub. Onda məhz bu cür addımlar atılmalıdır. Müəyyən mərhələdə irəliləyişlər olmalı, seçki prosesinin gedişi ilə bağlı cəmiyyətə obyektiv məlumatlar verilməlidir. Önəmlisi odur ki, indi əldə edilmiş hüquqlar seçkidən sonra da saxlansın və növbəti seçkilərdə bu hüquqlar daha da inkişaf etdirilsin".**

ATƏT-in Bakı ofisi Prezident İlham Əliyevin seçki praktikasının təkmilləşdirilməsinə dair Sərəncamını ilk gündən yüksək qiymətləndirmişdi. ATƏT-in Bakı ofisinin rəhbəri Mauritsio Pavezi demişdir: **"İcra strukturları tərəfindən seçki qanununun mümkün pozuntularının qarşısını almaq məqsədi daşıyan bu təşəbbüs mənim qiymətləndirdiyim və təqdir etdiyim çox əhəmiyyətli bir addımdır".**

Onun fikrincə, Azərbaycan Sərəncamın icrası, seçki qanunvericiliyinin və təcrübəsinin daha da təkmilləş-

dirilməsi yolu ilə beynəlxalq standartlara tam cavab verə biləcək seçki keçirə biləcəkdir.

İyulun 11-də Bakıya rəsmi səfər edən ABŞ Milli Demokratiya İnstitutunun rəhbəri Madlen Olbrayt Azərbaycan Prezidentinin seçki praktikasının təkmilləşdirilməsinə dair Sərəncamında sərbəst toplaşmaq, siyasi plüralizm, mətbuat orqanlarının sərbəstliyi, qanunun aliliyi prinsipinin təmin olunması kimi mühüm müddəaların əhatə edildiyini çox yüksək qiymətləndirmiş, bu sənədin imzalanmasını yaxşı başlanğıc hesab etdiyini bildirmişdi.

AŞPA-nın keçmiş sədri, hazırda təşkilatda parlamentar kimi fəaliyyət göstərən lord Rossel Conston bəyanatla çıxış edərək bildirmişdi ki, Azərbaycanda vətəndaşlara seçici vəsiqələrinin verilməsi olduqca mütərəqqi addımdır. Bu qayda hətta Avropanın inkişaf etmiş bir çox demokratik dövlətlərində də tətbiq olunmamışdır.

İyulun 26-27-də Bakıda səfərdə olan ABŞ dövlət katibinin müavini Paola Dobrianskaya dövlət rəsmiləri və müxalifət nümayəndələri ilə görüşmüş və Azərbaycan hakimiyyətinin seçkilərin demokratikliyinin təmin olunması istiqamətində atdığı addımları dəstəklədiyini bildirmişdi.

ABŞ-ın ATƏT Daimi Şurasındakı səfiri Culiya Finli də Azərbaycanda 6 noyabr seçkilərinin azad və ədalətli





keçiriləcəyinə ölkəsinin inandığını ifadə etmişdi. Diplomat dövlətimizin başçısı İlham Əliyevin bu istiqamətdə ciddi siyasi iradə və prinsipiallıq nümayiş etdirməsindən razılığını bildirmişdi: **"Biz Prezident İlham Əliyevin bu istiqamətdə atdığı bütün addımlardan ruhlanmışıq və seçki üçün zəmin hazırlayan 11 may tarixli Sərəncamı xüsusi qeyd etmək istəyirik. Biz Prezident Əliyevi və onun hökumətini Azərbaycanın demokratik gələcəyi ilə bağlılıqlarını nümayiş etdirən yolla irəliləməyə və seçkilərin uğurla keçirilməsini təmin etmək üçün bütün vacib tədbirləri həyata keçirməyə çağırırıq... Hər bir seçici şəxsiyyət vəsiqəsinə malik olmalıdır və biz hökumətin bütün seçicilərin səs verməsinə imkan yaratmağa yönələn səylərini dəstəkləyirik".**

AŞPA-nın "Aqo" qrupunun rəhbəri Roland Vegenerin Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı mövqeyi də reallığın əyani təsdiqi kimi diqqəti cəlb etmişdir. O bildirmişdi ki, dövlət başçısının seçki praktikasının təkmilləşdirilməsinə dair Sərəncamı Azərbaycanda parlament seçkilərinin obyektiv keçiriləcəyinə əsaslı inam yaradır və bu baxımdan seçki komissiyalarının tərkibində hansısa dəyişiklik etməyə heç bir ehtiyac yoxdur.

Sentyabr ayından Bakıda fəaliyyətə başlamış ATƏT-in Müşahidə missiyası da seçki qanunvericiliyinin pozulması ilə bağlı ciddi faktlara malik deyildi. Missiya 43 nəfər seçki məsələləri üzrə mütəxəssisdən və uzun müddət fəaliyyət göstərəcək müşahidəçilərdən ibarət olmuşdur. Missiyanın rəhbəri Geert Arens bildirmişdi ki, seçki günü təşkilatın 500-dən çox müşahidəçisi prosesi yaxından izləyəcəkdir. ATƏT təmsilçisi seçki komissiyalarının tərkibi ilə bağlı narahatlıqlara ciddi əsas görmədiyini demişdir: "**...Siyasi iradə olan yerdə Azərbaycanda mövcud qanunvericilik əsasında da düzgün, demokratik seçkilərin həyata keçirilməsi mümkündür**".

Oktyabrın 19-da isə ABŞ Prezidenti cənab Corc Buş 18 oktyabr – Azərbaycanın Dövlət müstəqilliyi günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda dövlətimizin başçısının parlament seçkilərinin demokratik standartlara uyğun keçirilməsi üçün nümayiş etdirdiyi böyük siyasi əzmkarlığı alqışladığını, onunla əməkdaşlığı parlament seçkilərindən sonra da davam etdirəcəyini vurğulamışdı.

Beləliklə, xarici dövlətlərin və beynəlxalq təşkilatların təmsilçilərinin mövqeyindən də göründüyü kimi, onlar Azərbaycanın Seçki Məcəlləsini, habelə Prezidentin 11 may tarixli Sərəncamını demokratik





seçkilərin keçirilməsi baxımından təkmil sənədlər kimi qiymətləndirmişlər. Eyni zamanda, siyasi iradə nümayişi nəticəsində 6 noyabr parlament seçkilərinin azad və ədalətli şəraitdə baş tutmasına ciddi inam ifadə olunmuşdu.

## 3. Seçkiqabağı təşviqat mərhələsi (7 sentyabr - 5 noyabr)

**a) Azərbaycan Respublikasının Seçki Məcəlləsinə müvafiq olaraq, 2005-ci il sentyabrın 7-dən etibarən Azərbaycanda seçkiqabağı təşviqata start verilmiş və bu kampaniya seçkilərə 24 saat qalmışa qədər – noyabrın 5-i saat 8.00-dək davam etdirilmişdir.** Bu dövrdə Azərbaycanda indiyə qədər rast gəlinməmiş dərəcədə genişmiqyaslı, əhatəli və azad təşviqat kampaniyası aparılmış, müəyyən çatışmazlıqlara, nöqsanlara baxmayaraq, proses ümumən müsbət məcrada keçmişdir. Mərkəzi Seçki Komissiyası təşviqat mərhələsinin başlanmasına qədər Seçki Məcəlləsinin tələblərinə tam əməl olunması, namizədlərə bərabər imkanların yaradılması üçün bütün zəruri tədbirləri həyata keçirmiş, bununla əlaqədar xüsusi təlimat hazırlamışdır.

Təlimatda təşviqatla bağlı bütün məqamlar nəzərə alınmışdır. Sənəd siyasi mənsubiyyət fərqi qoymadan bütün namizədlər üçün bərabər rəqabət mühitinin yaradılması məqsədinə xidmət etmişdir. Seçki Məcəlləsinin və MSK-nın həmin təlimatının müvafiq müddəalarına əsasən, birmandatlı seçki dairələri üzrə qeydə alınmış namizədlər, namizədləri qeydiyyatdan keçən siyasi partiyalar və seçki blokları, eləcə də seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış partiya və bloklar təsisçiləri dövlət orqanları olan, yaxud dövlət büdcəsindən maliyyələşən teleradio verilişləri təşkilatlarının ayırdığı efir vaxtından və dövri nəşrlərdən faydalanmaq imkanı əldə etmişlər.

60-dan artıq dairədə namizədləri olan partiya və bloklarla, birmandatlı seçki dairələri üzrə qeydə alınmış namizədlər, habelə seçki dairələrinin 60-dan azında namizədləri qeydiyyatdan keçmiş partiya və bloklar arasında qoyulan fərq də kifayət qədər ədalətlidir. Azərbaycan ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan teleradio verilişləri təşkilatlarının kanallarında, eləcə də Azərbaycan ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan, həftədə ən azı bir dəfə çıxan dövri nəşrlərdə pulsuz təşviqat imkanları yalnız 60 dairədən çoxunda namizədləri olan partiya və bloklar üçün yaradılmışdır. Birmandatlı seçki





dairələri üzrə qeydə alınmış namizədlər, 60-dan az dairədə namizədləri olan partiya və bloklar isə ölkə ərazisinin yarıdan az hissəsinə, yarısına və yaxud yarıdan çoxuna yayımlanan teleradio verilişləri təşkilatlarının müvafiq bölmələrindən pulsuz efir vaxtı, eyni zamanda konkret ərazilərə aid regional dövri nəşrlərdə təşviqat materiallarının pulsuz dərci üçün yer ala bilmişlər. Təsisçiləri dövlət orqanları, idarələri, təşkilatları olan və ya dövlət büdcəsindən maliyyələşən, ölkə ərazisinin yarısına, yaxud yarısından çoxuna yayımlanan teleradio verilişləri təşkilatlarının seçkiqabağı təşviqat üçün ayırdıqları ödənişsiz efir vaxtının ümumi həcmi həftədə 3 saatdan az olmamışdır. Beləliklə, 60-dan artıq dairədə namizədi olan partiya və bloklara həftədə 3 saatdan az olmayaraq AzTV-1-də, ictimai televiziyada və bu şirkətlərə aid radiolarda pulsuz efir vaxtı verilmişdir. Həmin partiya və blokların namizədlərinin təşviqat materialları mərkəzi dövlət qəzetlərində də ("Azərbaycan", "Xalq qəzeti", "Respublika") ödənişsiz əsaslarla yerləşdirilmişdir. Digər namizədlər isə seçki prosesinə qatıldıqları ərazilərə aid yazılı və elektron kütləvi informasiya vasitələrinin imkanlarından bəhrələnmişlər. Konkret regionlar çevrəsində fəaliyyət göstərən teleradio təşkilatlarının namizədlər üçün ayırdığı efir vaxtının həcmi isə həftədə 1 saat 30 dəqiqədən az olmamışdır.

Həm teleradio efirində, həm də mətbuat orqanlarında namizədlərin təşviqatı üçün ayrılan vaxt və həcm səsvermə tarixinə 60 gün qalmış müvafiq dairə seçki komissiyaları tərəfindən namizədlər, partiyalar və bloklar arasında püşkatma yolu ilə bölünmüşdür. Püşkatmanın təşkili üçün müəyyənləşdirilmiş qaydalar bu prosesin şəffaf şəraitdə keçirilməsinə təminat yaratmışdır. Seçki komissiyasının üzvləri, ayrı-ayrı namizədlərin, namizədləri qeydə alınmış siyasi partiya və blokların səlahiyyətli nümayəndələri, habelə müşahidəçi statusu almış Azərbaycan vətəndaşları və beynəlxalq müşahidəçilər bu prosesdə iştirak etmişlər.

Deputatlığa namizədlər üçün teleradio təşkilatlarında və dövri nəşrlərdə ödənişli əsaslarla təşviqat aparmaq üçün də geniş imkanlar yaradılmışdır. Təlimatda bununla bağlı irəli sürülən müddəalar kifayət qədər demokratikdir. Təşviqat prosesində yol verilməsinə qadağa qoyulan hallar da MSK-nın qəbul etdiyi sənəddə aydın şəkildə təsbit olunmuşdur. Bu qadağalar xarici vətəndaşların, beynəlxalq qurumların, dövlət hakimiyyəti orqanları və bələdiyyələrin, hərbçilərin, xeyriyyə təşkilatlarının, dini birliklərin, dövlət qulluqçularının, seçki komissiyaları üzvlərinin hər hansı namizədin təşviqat kampaniyasında iştirakının qarşısının alınması məqsədinə yönəlmişdir. Təlimatda yazılı və elektron kütləvi informasiya vasitələrində aparılacaq təşviqatın formaları da göstərilmişdir. Kampaniya dövründə namizədlərin təbliği üçün müsahibə, mətbuat konfransı, açıq müzakirə, debat, dəyirmi masa, siyasi reklam, açıq və qapalı görüşlər və s. formalardan istifadə edilmişdir.





Mərkəzi Seçki Komissiyasının 2005-ci il 10 sentyabr tarixli qərarı ilə 60-dan artıq deputatlığa namizədləri qeydə alınmış siyasi partiya və bloklara dövlət hesabına pulsuz efir vaxtı ayrılması qaydaları təsdiqlənmişdir. Qərara əsasən, Azərbaycan Respublikası "Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və İctimai Televiziya və Radio Yayımları Şirkətinin seçkiqabağı təşviqat dövründə ayıracaqları ödənişsiz efir vaxtının həftəlik ümumi həcmi 4,5 saat (270 dəqiqə) müəyyən olunmuşdur. Seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiya və bloklar hər həftənin I-VI günlərində saat 22.00-dan "Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətində, həmin günlər saat 21.30-dan isə İctimai Televiziya və Radio Yayımları Şirkətində ödənişsiz təşviqat aparmaq hüququ əldə etmişlər. Ödənişsiz təşviqatın vaxtı hər bir siyasi partiya və siyasi blok üçün gündə 4 dəqiqə olmaqla, cəmi 16 dəqiqə nəzərdə tutulmuşdur. Ödənişsiz təşviqat aparmaq hüququ 60-dan çox deputatlığa

namizədi qeydə alınmış Yeni Azərbaycan Partiyasına, Liberal Partiyasına, "Azadlıq" seçki blokuna və "Yeni Siyasət" seçki blokuna verilmişdir.

"Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti və İctimai Televiziya və Radio Yayımları Şirkəti seçkiqabağı təşviqat məqsədi ilə hər həftənin bazar günləri növbəlilik əsasında dəyirmi masalar üçün 24 dəqiqəlik ödənişsiz efir vaxtının ayrılmasını təmin etmişlər. Bundan əlavə, "Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış hər bir siyasi partiya və siyasi partiyalar blokuna hər həftənin II və IV günlərində radioda saat 20.30-dan 4,5 dəqiqə olmaqla cəmi 18 dəqiqə, hər həftənin VI günü isə saat 20.30-dan dəyirmi masa üçün 18 dəqiqə efir vaxtı ayırmışlar. Dövlət teleradio kanallarında təşviqat üçün ayrılan efir vaxtının həcmi əvvəlki seçkilərlə müqayisədə iki dəfə artıq olmuşdur.

Seçki Məcəlləsinə əsasən, istənilən deputatlığa namizəd, o cümlədən siyasi partiya və siyasi partiyalar bloku ödənişli əsaslarla yazılı və elektron KİV-də geniş təbliğat aparmaq hüququna malikdirlər. Namizədlərin, siyasi partiya və siyasi partiyalar blokunun təşviqat məqsədi ilə seçicilərlə görüşməsi üçün dairə seçki komissiyaları müvafiq yerlər ayırmışlar.





İcra hakimiyyəti orqanlarının sərəncamı ilə bütün seçki dairələrində seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün xüsusi lövhələr qoyulmuşdur. Bu yenilik təşviqat kampaniyasının daha müasir və sivil formada aparılmasına hesablansa da, texniki səbəblərdən özünü tam doğrultmamışdır. Deputatlığa namizədlərin sayı çox olduğuna görə, bu lövhələrin ölçüləri yetərli olmamışdır. Nəticədə, namizədlər yenə də binaların, tarixi abidələrin, küçələrin estetik görünüşünə ciddi xələl gətirən, ictimai narazılığa səbəb olan və kor-koranə xarakter daşıyan "divar təbliğatı"na geniş yer vermişlər.

**b)** Bir qayda olaraq, seçkiqabağı təşviqat bütün ölkələrdə siyasi ehtirasların qızışması, siyasi fəallığın artması ilə müşayiət edilir. Namizədlərin sayca çoxluğu Azərbaycanda da təşviqat prosesinin nisbətən fəal şəraitdə keçməsi ilə müşayiət olunmuşdur. Təşviqat prosesinin müsbət və mənfi məqamları daha çox kütləvi informasiya vasitələrində özünü qabarıq göstərmişdir. Təşviqat mərhələsində bütün deputatlığa namizədlər ödənişli əsaslarla istədikləri kütləvi informasiya vasitələrində öz təşviqat materiallarını yerləşdirmək imkanı qazanmışlar.

Lakin təəssüflə qeyd etməliyik ki, bəzi qəzetlərdə hələ iyun ayının 14-də imzalanmış Davranış kodeksinin pozulması hallarına rast gəlinmişdir. Davranış kodek-

sində KİV-lərin seçki kampaniyasını qanunamüvafiq surətdə işıqlandırmaq, seçki prosesi barədə ədalətli, bitərəf və qərəzsiz informasiya verilməsi üçün səylər göstərmək, bütün siyasi partiyalara, siyasi partiya bloklarına və namizədlərə seçkiqabağı təşviqat aparılması üçün bərabər imkanlar yaratmaq barədə etik öhdəliklər nəzərdə tutulmuşdur. Avropa Şurasının Monitorinq Qrupu bununla bağlı həftəlik keçirdiyi monitorinqin nəticələrinə əsasən, Seçki Məcəlləsinin tələblərini pozan yazılı və elektron kütləvi informasiya vasitələrinin adını açıqlamışdır.

Efir vaxtından istifadə edərək, bəzi namizədlər öz rəqiblərinin şərəf və ləyaqətini təhqir edən, siyasi partiyaların və siyasi partiya bloklarının nüfuzunu sarsıdan məlumatların yayılmasına yol vermişlər. Yaranmış demokratik şəraitdə bir çox müxalifətçi namizədlərin çıxışlarında ölkə rəhbərliyi, iqtidarın bəzi nümayəndələri haqqında şayiə, böhtan, təhqir xarakterli məlumatlar, zorakılığa və vətəndaş itaətsizliyinə çağırışlar səslənmişdir. Bununla əlaqədar Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçkiqabağı təşviqatın gedişində efir vaxtı verən teleradio şirkətlərinə müraciət qəbul edərək, seçki qanunvericiliyinin müddəalarının ciddi şəkildə gözlənilməsini tələb etməyə məcbur olmuşdur.





Bəzi elektron kütləvi informasiya vasitələri kommersiya maraqları naminə Seçki Məcəlləsinin tələblərini pozaraq, həftədə 6 saatdan artıq ödənişli efir vaxtı ayırmış, nəticədə Milli Televiziya və Radio Şurası oktyabrın ikinci yarısında onlara rəsmi qaydada xəbərdarlıq etmək məcburiyyətində qalmışdır. Bu qanuni tələblə razılaşan müstəqil ANS teleradio şirkəti və "Televiziya və Radio Verilişləri" QSC əvvəlcədən namizədlərlə imzaladıqları bir sıra müqavilələrə yenidən baxmalı olmuşlar. Müxalifətdən olan namizədlər teleşirkətlərin yol verdiyi bu qanun pozuntusunun məsuliyyətini əsassız olaraq hakimiyyətin üzərinə atmağa çalışmış, təşviqat imkanlarının məhdudlaşdırıldığını iddia etmişlər.

Onlar Azərbaycan Prezidenti ilə bağlı məlumatların efirə verilməsini yanlış olaraq təşviqatda tarazlığın Yeni Azərbaycan Partiyasının xeyrinə pozulması kimi şərh etməyə çalışmışlar. Halbuki, KİV-lərin seçkiqabağı ərəfədə dövlət başçısının fəaliyyəti ilə bağlı informasiyaları cəmiyyətə çatdırmasında heç bir qanun pozuntusu və yaxud anormallıq yoxdur. Prezident öz səlahiyyətlərini həyata keçirməlidir və onun keçirdiyi tədbirlər təbii olaraq KİV-lərdə işıqlandırılmalıdır. Bu, qanunla da məhdudlaşdırılmamışdır.

Təşviqat mərhələsində deputatlığa namizədlərin seçicilərlə sərbəst görüşlərinin təşkili məqsədi ilə dairə seçki komissiyaları, şəhər və rayon icra hakimiyyətləri ilə birgə qapalı və açıq yerlər müəyyənləşdirmişdilər. **Təkcə Bakı şəhərində 5 böyük meydan, 200-dək digər yerlər ayrılmışdı. Bu dövrdə bütün deputatlığa namizədlərin seçiciləri ilə 22704 görüşü olmuşdur. Onların 5566-nı müxalifətin nümayəndələri, 8223-nü hakim partiyanın nümayəndələri, 8815-ni müstəqil namizədlər keçirmişlər. Təşviqat məqsədi ilə çoxlu sayda mitinq, yığıncaq və yürüşlər də keçirilmişdir.** Bu məqsədlə Bakı şəhərinin icra hakimiyyəti orqanlarına daxil olmuş 64 müraciətin 47-si müxalifətdən alınmış, onların 38-nə icazə verilmişdir. "Azadlıq" blokunun təmsilçiləri oktyabr ayından başlayaraq, Azərbaycanın müxtəlif bölgələrinə çoxsaylı səfərlər etmiş, seçiciləri ilə azad və sərbəst şəkildə görüşlər keçirmiş, bu zaman onlar heç bir məhdudiyyətlə üzləşməmişlər. "Azadlıq" blokuna daxil olan partiyaların "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun tələbləri ilə məhdudlaşdırılan yerlərdə – strateji dövlət obyektlərinin yerləşdiyi mərkəzi meydan və küçələrdə mitinq-yürüş keçirmək barədə müraciətlərinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən müsbət cavab verilməmişdir. Bakı Şəhər İcra Hakimiy-





yəti bu qadağanı qanunun müvafiq müddəaları ilə əsaslandırmış və əvəzində 4 marşrut üzrə yürüş-mitinq keçirməyi təklif etmişdir. Bununla razılaşmayan "Azadlıq" bloku eyni vaxtda şəhərin müxtəlif meydanlarında icazəsiz aksiyalar keçirməyə cəhd göstərmiş, nəticədə polis ictimai asayişin təmin edilməsi üçün zəruri tədbirlər görməyə məcbur olmuşdur. Bu aksiyalar zamanı polisə müqavimət göstərən radikal müxalifətçilərdən müxtəlif kəsici və deşici alətlər aşkar edilərək götürülmüş, onların bəzilərinə qarşı inzibati cəza tətbiq edilmişdir. Qeyd etməliyik ki, qanunsuz çıxışların, aksiyaların qarşısını alan zaman bəzi hallarda polislərin qeyri-adekvat güc tətbiq etməsi hallarına da rast gəlinmişdir. Belə faktlar diqqətdən kənarda qalmamış, Daxili İşlər Nazirliyinin rəhbərliyi qanunun tələblərini pozan polis əməkdaşlarına qarşı inzibati tənbeh tədbirləri görmüşdür. Bakının mərkəzi meydanlarında qanunsuz mitinqlərə icazə verilmədiyini və onların qarşısının alındığını görən radikal müxalifət Azərbaycan Konstitusiyasının müvafiq maddəsini əsas gətirərək iddia edirdi ki, guya ölkədə sərbəst toplaşmaq hüququ kobud surətdə pozulur. Bu məsələyə aydınlıq gətirmək lazım idi. Ona görə də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Ali Məhkəmənin müraciətinə baxaraq, 2005-ci

il 21 oktyabr tarixli qərarına əsasən, Konstitusiyanın 49-cu maddəsində nəzərdə tutulan sərbəst toplaşmaq hüququnu qanunla müəyyənləşdirilmiş hüdudlar daxilində məhdudlaşdırmağı mümkün hesab etmişdir.

Təşviqat kampaniyası zamanı bəzi namizədlərin seçiciləri ələ almaq məqsədi ilə yerlərdə müxtəlif abadlıq və təmir-tikinti işləri həyata keçirmələri, eləcə də digər şirnikləndirici vasitələrdən istifadə etmələri ilə bağlı hakimiyyət orqanlarına müxtəlif şikayətlər də daxil olurdu. Amma bununla bağlı MSK-ya ünvanlanan şikayətlər bir çox hallarda ümumi mülahizələrə söykənir, konkret faktlara əsaslanmırdı. **Azərbaycanda son illər geniş vüsət alan quruculuq və tikinti işlərinin davamı kimi icra orqanlarının, bələdiyyələrin, ayrı-ayrı sahibkarların fəaliyyəti nəticəsində iş yerlərinin açılması, sosial xarakterli və abadlıq işlərinin görülməsi bəzən əsassız olaraq, ayrı-ayrı namizədlərin seçkiqabağı təşviqatı ilə əlaqələndirilirdi.** Lakin bəzi məlumatlar öz təsdiqini tapmışdı. MSK bu şikayətlər əsasında ciddi araşdırmalar aparmış və belə halların qarşısını almaq üçün müvafiq tədbirlər görülmüşdür. 43 nəfərin deputatlığa namizədliyinin MSK və Apellyasiya Məhkəməsi tərəfindən ləğv olunması da bu araşdırmaların real nəticəsi kimi xüsusi vurğulanmalıdır.





**c)** Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 25-də – seçkiqabağı təşviqat kampaniyasının həlledici mərhələsində icra strukturlarının rəhbərləri ilə görüşərək, o vaxta qədər yol verilmiş bəzi nöqsanların aradan qaldırılması üçün konkret tapşırıqlar vermiş və müşavirənin yekunu kimi **"Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında"** Sərəncam imzalamışdır. Bu sənəd seçki mühitinin daha da liberallaşdırılması, seçki qanunvericiliyinin təkmilləşdirilməsi baxımından beynəlxalq təşkilatlar və aparıcı demokratik dövlətlər tərəfindən müsbət qarşılanmışdır.

Seçkilərin demokratikliyinə xidmət edən uğurlu nəticələrlə yanaşı, təşviqat mərhələsində bəzi problemlərin meydana çıxması, Seçki Məcəlləsinin bir sıra tələblərinin pozulması halları barədə daxil olan məlumatlar narahatlıq doğurmaya bilməzdi. Odur ki, Azərbaycan Prezidenti vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin olunmasında, seçici vəsiqələrinin paylanmasında və seçici siyahılarının tərtib edilməsində yol verilən nöqsanlar haqqında, habelə bəzi icra hakimiyyəti orqanlarının seçki prosesinə qanunsuz müdaxiləsi, inzibati resurslardan istifadə olunması, ayrı-ayrı namizədlər tərəfindən seçkiqabağı təşviqat zamanı qanunla qadağan olunmuş üsullara əl atılması və sair faktlara

dair məlumatlara prinsipial reaksiya vermişdir. Qeyd etməliyik ki, Prezident İlham Əliyevin 2005-ci il 25 oktyabr tarixli Sərəncamı seçki praktikasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin səmərəliliyinin artırılması, Seçki Məcəlləsinin müddəalarının seçkilərə hazırlıq dövründə və səsvermə günü tam və şərtsiz həyata keçirilməsi, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədindən irəli gəlmişdir.

Sərəncamla Milli Məclisə təklif edilmişdi ki, nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan və ya başqa cür maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının prezident, Milli Məclis və bələdiyyə seçkilərini müşahidə etməsinə qadağanın götürülməsi məsələsini müzakirə etsin. Digər mühüm təklifə görə, Milli Məclis seçici vəsiqələrinin paylanması və seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı yaranmış problemlərlə əlaqədar səsvermə günü seçicilərin barmaqlarının gözə görünməyən mürəkkəblə işarələnməsi qaydalarına dair müvafiq təlimatı qısa müddətdə hazırlayıb Mərkəzi Seçki Komissiyasının müzakirəsinə çıxarmışdı. MSK-ya tövsiyə olunmuşdu ki, seçki hüquqlarının pozulması haqqında seçki komissiyalarına daxil olan şikayətlərə baxılması qaydaları barədə təlimatı qısa müddətdə hazırlayıb təsdiq etsin; deputatlığa namizədlərin seçkiqabağı təşviqat kampaniyası zamanı yol verdikləri qanun pozuntularına dair qətiyyətli mövqe bildirsin, qanunla ona verilmiş inzibati tənbeh səlahiyyətlərindən tam və dönmədən istifadə etsin; məntəqə seçki komissiyalarında seçicilərin ünvanlarının tam göstərildiyi seçici siyahıları ilə bütün maraqlı şəxslərin tanış olmaları üçün müvafiq şərait yaradılmasını təmin etsin.





Sənəddə həmçinin "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq siyasi partiyalara, siyasi partiyaların bloklarına və deputatlığa namizədlərə müəyyən olunmuş yerlərdə kütləvi tədbirlər və seçkiqabağı təşviqatın keçirilməsi üçün bütün zəruri şəraitin yaradılması barədə tapşırıq verilmişdi.

Sərəncamla Daxili İşlər Nazirliyinə tapşırılmışdı ki, şəxsiyyəti təsdiq edən heç bir sənədi olmayan vətəndaşlara seçki gününədək şəxsiyyət vəsiqələrinin verilməsini təmin etsin. Rabitə və İnformasiya Nazirliyi, "Azərenerji" Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları dairə və məntəqə seçki komissiyalarının yerləşdiyi binaların rabitə və elektrik enerjisi ilə fasiləsiz təmin olunmaları üçün zəruri tədbirlər görsün.

Baş prokurora tövsiyə edilmişdi ki, seçki günü vətəndaşların seçki hüquqlarının pozulması ilə

əlaqədar Mərkəzi Seçki Komissiyasından daxil olan cinayət tərkibi olması ehtimal edilən məlumatları təcili araşdırsın və cinayət əməlləri törətməkdə təqsirli bilinən şəxslərin məsuliyyətə cəlb olunmasını təmin etsin. Aidiyyəti dövlət orqanlarına "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 11 may tarixli Sərəncamında nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar müvafiq hesabatları beş gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmələri tapşırılmışdı.

Azərbaycan Prezidentinin imzaladığı Sərəncamda nəzərdə tutulan bütün məsələlər qısa müddətdə öz həllini tapmış, Milli Məclis Sərəncamdakı tövsiyələrə müsbət reaksiya vermişdir. **Müsbət məqamlardan biri kimi onu qeyd etmək olar ki, MSK vətəndaşların şəxsiyyət vəsiqəsi ilə təmin olunması sahəsindəki bəzi problemləri nəzərə alaraq, seçicilərin köhnə sovet pasportları və "9 №-li forma" ilə səs verməsinə imkan yaradan xüsusi qərar qəbul etmişdir.**

Bir sözlə, Azərbaycan Prezidentinin 25 oktyabr tarixli Sərəncamı seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində mühüm və həlledici addım olmuşdur.



## 4. Səsvermə günü seçki prosesinin gedişi

**a)** Seçki günü respublikada 125 seçki dairəsində səsvermə keçirilmişdir. Ölkə üzrə 5137 məntəqədə seçicilərin öz iradəsini təmin etməsi üçün lazımi şərait yaradılmışdı. Səhər saat 8.00-dan 19.00-dək fəaliyyət göstərən seçki məntəqələrində seçki komissiyalarından əlavə, yerli və xarici müşahidəçilərin, o cümlədən KİV təmsilçilərinin iştirakı üçün Seçki Məcəlləsinə uyğun işlər görülmüşdü. Bütün seçki məntəqələri müəyyən edilmiş vaxtda açılmış, lazımi sənədlərlə, avadanlıq və informasiya materialları ilə təmin edilmişdi. Məntəqələrin çoxunda ana və uşaqlar üçün otaqlar, tibb məntəqələri yaradılmışdı. Məntəqələrin əksəriyyətində səsvermə sakit və işgüzar şəraitdə, qanunvericiliyə uyğun keçirilmişdir.

MSK-nın nəzdində fəaliyyət göstərən Seçkilər İnformasiya Mərkəzində səsvermənin gedişini canlı izləmək mümkün olmuşdur. Seçki günü seçici fəallığı barədə 2 saatdan bir ictimaiyyətə məlumatlar verilmiş, səsvermə başa çatdıqdan dərhal sonra ilkin nəticələr cəmiyyətə çatdırılmışdır. Ölkədə fəaliyyət göstərən bütün televiziya kanalları Seçkilər İnformasiya Mərkəzindən canlı yayımlar təşkil etmək imkanına malik olmuşdur. Bundan əlavə, mərkəzin **www.infocenter.gov.az**

saytında seçkilərin nəticələri ilə bağlı məlumatlar yerləşdirilmiş və mütəmadi qaydada yeniləşdirilmişdir. Seçicilərin problemlərinin operativ həlli üçün Mərkəzi Seçki Komissiyasında "qaynar xətt" açılmışdı. Bu xətt bütün sutka boyu fəaliyyət göstərmişdir.

**b)** Seçkilərin hüquqi bazasını Konstitusiyanın, Seçki Məcəlləsinin müddəaları, Prezidentin sərəncamları, Milli Məclisə seçkilərin keçirilməsi ilə bağlı Mərkəzi Seçki Komissiyasının, habelə Konstitusiya Məhkəməsinin qərarları təşkil etmişdir. İlk dəfə olaraq, parlament seçkiləri 2003-cü ilin mayında qəbul edilmiş və 2005-ci ilin iyununda təkmilləşdirilmiş, bütün seçki prosesini tənzimləyən kompleks hüquqi akta çevrilmiş Azərbaycan Respublikasının Seçki Məcəlləsinə müvafiq surətdə keçirilmişdir. Seçkilərin keçirilməsinə 15 nəfərdən ibarət çevik Mərkəzi Seçki Komissiyası nəzarət etmişdir. Seçki günü 125 dairə seçki komissiyasının tərkibinə 1116 adam daxil olmuş, 5137 məntəqə seçki komissiyasında 30822 nəfər işləmişdir. Seçki komissiyaları "Seçki Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi haqqında" 2003-cü il 27 may tarixli qanuna müvafiq surətdə formalaşdırılmışdır. Bütün səviyyələrdə seçki komissiyalarına siyasi partiyaların, siyasi partiya bloklarının nümayəndələri və bitərəflər daxil olmuş, onların tərkibinin 36 faizini





qadınlar təşkil etmişdir. Seçki kampaniyası dövründə Mərkəzi Seçki Komissiyası dairə seçki komissiyalarının nümayəndələri ilə Bakı şəhərində və regionlarda seminar-müşavirələr keçirmişdir. Seçki komissiyalarına kömək üçün Seçki Məcəlləsinin tələblərinin əməli surətdə tətbiqinə dair 40-dan çox qayda, təlimat və izahat hazırlanmışdır. Dairə və məntəqə seçki komissiyaları üzvlərinin parlament seçkiləri zamanı öz hüquq və vəzifələrini, seçici siyahıları ilə işləməyi, səsvermə və səsverməyə yekun vurulması prosedurlarını ətraflı öyrənməsi məqsədi ilə onlar üçün məşğələlər keçirilmişdir. İlk dəfə olaraq, seçicilərin vahid siyahısı internetdə yerləşdirilmişdir.

**c)** Seçkilərin nəticələrinə görə, Yeni Azərbaycan Partiyası böyük üstünlük əldə etmişdir. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, 125 deputat mandatından 56-nı Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən namizədlər qazanmışlar. 41 yerə isə müstəqil namizədlər sahib olmuşlar. Yerdə qalan mandatları müxalifət partiyalarının namizədləri əldə ediblər. Müsavat Partiyası 5, AXCP 1 deputat mandatı qazanmışdır.

Azərbaycan Liberal Partiyasından 1, Ana Vətən Partiyasından 2, Vətəndaş Həmrəyliyi Partiyasından 2, Azərbaycan Demokratik İslahatlar Partiyasından 1, Ümid Partiyasından 1, Vətəndaş Birliyindən 1, Bütöv

Azərbaycan Xalq Cəbhəsi Partiyasından 1, Azərbaycan Milli Dövlətçilik Partiyasından 1, Böyük Quruluş Partiyasından 1, Azərbaycan Sosial Rifah Partiyasından 1 nəfər yeni parlamentdə təmsil olunmaq hüququ almışdır.

Beləliklə, üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə 115 nəfər deputat seçilmişdir.

Bununla yanaşı, 4 dairə üzrə seçkilərin nəticəsi MSK tərəfindən ləğv edilmişdir. Bunlar 42 saylı ikinci Sumqayıt, 9 saylı ikinci Binəqədi, 38 saylı ikinci Nizami (Gəncə), 110 saylı Zaqatala dairələridir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən isə aşağıdakı 6 dairədə seçkilərin nəticələri ləğv olunmuşdur. 31 saylı Suraxanı ikinci, 44 saylı Sumqayıt-Abşeron, 69 saylı Cəlilabad-Masallı-Biləsuvar, 103 saylı Gədəbəy, 106 saylı Tovuz-Qazax-Ağstafa, 119 saylı Ağdam kənd.

Mərkəzi Seçki Komissiyasının qərarı ilə 460 seçki məntəqəsində seçkilərin nəticələri etibarsız hesab edilmiş, seçkilərin hazırlanması və keçirilməsi dövründə fəaliyyətlərində nöqsanlara yol vermiş 6 dairə və 108 məntəqə seçki komissiyalarının tərkibi buraxılmışdır.

**d)** Bu seçkilərdə Azərbaycan tarixində ilk dəfə "exit-poll" keçirilmişdir. "Exit-poll"un keçirilməsi üçün hökumət tərəfindən hər şərait yaradılmışdı. ABŞ-ın "PA Consulting Group" (USAİD) və "Mitofsky





İnternational" və Estoniyanın "Saar-poll" şirkətləri seçki günü məntəqələrin qarşısında sorğu keçirərək, seçicilərin kimə səs verdiyini dəqiqləşdirməyə çalışmışlar. "Mitofsky İnternational" bütün seçki dairələrində, "PA Consulting Group" (USAİD) 65 seçki dairəsində "exit-poll" keçirmişdir. Demək olar ki, əksər dairələrdə "exit-poll"un nəticələri ilə MSK-nın elan etdiyi nəticələr üst-üstə düşmüşdür. Konkret olaraq demək olar ki, bütün siyasi spektrin etimad göstərdiyi ABŞ-ın "PA Consulting Group" şirkətinin elan etdiyi nəticələr rəsmi nəticələrlə 85-87 faiz üst-üstə düşmüşdür.

**e)** Hakimiyyət şəffaflığı təmin etmək üçün seçki prosesini çoxsaylı yerli və xarici müşahidəçilərin izləməsinə şərait yaratmışdır. MSK-nın məlumatına görə, seçkilərin monitorinqində namizədlərdən, siyasi partiyalardan, siyasi partiyaların bloklarından, vətəndaşlardan və qeyri-hökumət təşkilatlarından **17014** yerli müşahidəçi iştirak etmişdir.

**Seçkiləri həmçinin 45 ölkədən olan 1586 beynəlxalq müşahidəçi izləmişdir.** Onlar bölgələrdə, hətta ucqar kəndlərdəki məntəqələrdə belə seçkilərin gedişini müşahidə edə bilmişlər. Missiyasını paytaxtda həyata keçirən xarici müşahidəçilər qruplar şəklində dairə və məntəqələrdə olmuşlar. Rəsmi məlumatlara görə, müşahidəçilər əsasən beynəlxalq təşkilatları,

ayrı-ayrı ölkələri, beynəlxalq qeyri-hökumət təşkilatlarını, eləcə də respublikamızda fəaliyyət göstərən diplomatik korpusu təmsil etmişlər. **Onların tərkibinə gəlincə, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosundan (DTİHB) 663 nəfər, Avropa Şurasından 1 nəfər, Avropa Şurası Parlament Assambleyasından 51 nəfər, MDB-dən 361 nəfər, Estoniya parlamentindən 15 nəfər, ABŞ-ın Azərbaycandakı səfirliyindən 40 nəfər, Polşanın Azərbaycandakı səfirliyindən 4 nəfər, İran səfirliyindən 4 nəfər, Ukrayna Mərkəzi Seçki Komissiyasından 3 nəfər, Qazaxıstan səfirliyindən 4 nəfər, Gürcüstan səfirliyindən 1 nəfər müşahidəçi seçkilərin gedişini izləmək üçün MSK-da qeydiyyatdan keçmişdi. Bundan əlavə, Türkiyəni təmsil edən 81 nəfər, Beynəlxalq Böhran Qrupundan 3 nəfər, Seçki Sistemləri üzrə Beynəlxalq Fonddan (İFES) 2 nəfər, Avrasiya Fondundan 1 nəfər, Latviya Mərkəzi Seçki Komissiyasından 5 nəfər, Bolqarıstanın CİFDE qeyri-hökumət təşkilatından 33 nəfər, LİNKS qeyri-hökumət təşkilatından 4 nəfər, Fransanın Diplomatik və Strateji Araşdırmalar Mərkəzindən (DSAM) 25 nəfər, Almaniyanın Maqdeburq Universitetindən 6 nəfər, Latviyadan 13 nəfər, Estoniyadan 3 nəfər, Seçki və Demokratiya Mərkəzindən 6 nəfər, Bosniya**





**və Herseqovinadan 2 nəfər, Rumıniyadan 1 nəfər, Macarıstandan 3 nəfər, Almaniyadan 2 nəfər, Sloveniyadan 3 nəfər, ABŞ-dan 3 nəfər, Böyük Britaniyadan 2 nəfər də qeydiyyatdan keçənlər arasında idi.**

Xarici müşahidəçilərə seçkilərin gedişini izləmək və beynəlxalq müşahidənin həyata keçirilməsi üçün lazımi hüquqi və təşkilati-texniki şərait yaradılmış, seçki məntəqələrinə maneəsiz gəlmək, namizədlərlə və onların vəkilləri ilə, partiyaların, siyasi partiyalar bloklarının və kütləvi informasiya vasitələrinin nümayəndələri ilə sərbəst ünsiyyət hüququ təmin edilmişdi. Müşahidəçilər seçkiləri tənzimləyən sənədləri öyrənmək, bütün səviyyələrdən olan seçki komissiyalarının işi ilə tanış olmaq və onlardan lazımi informasiya almaq imkanına malik olmuşlar. Müxtəlif müşahidə missiyalarının nümayəndələri Mərkəzi Seçki Komissiyasının, Daxili İşlər Nazirliyinin, Ali Məhkəmənin, Respublika Prokurorluğunun və digər əlaqədar dövlət orqanlarının rəhbərliyi ilə görüşlər keçirmiş, ortaya çıxan məsələləri müzakirə etmişlər. Müşahidəçilər bu və ya digər hüquq pozuntularının xarakteri, habelə onlara baxılmasının gedişi və nəticələri barədə səhih informasiya almaq imkanına malik olmuşlar.

Göründüyü kimi, xarici müşahidəçilər arasında üstünlüyü ATƏT və Müstəqil Dövlətlər Birliyindən

olan müşahidəçilər təşkil etmişdir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu artıq sentyabrın 5-dən seçkiləri uzunmüddətli müşahidə missiyasının işinə start vermişdi. Tanınmış diplomat Geert Arensin rəhbərlik etdiyi uzunmüddətli müşahidə qrupuna ATƏT-ə üzv olan 18 ölkədən 43 seçki mütəxəssisi daxil edilmişdi. İlkin dövrdə missiya 11 nəfərlik heyətlə işə başlamışdı. Seçki günü yaxınlaşdıqca, missiyanın heyəti genişləndirilmiş, qrupun üzvləri respublikanın 16 bölgəsində yerləşdirilmişdi.

Seçkiləri izləyən ən böyük müşahidə missiyalarından biri də MDB-dən olmuşdur. Son məlumatlara görə, bu qrupun MSK-da 640 nəfər müşahidəçisi akkreditə edilmişdi. Missiyanın tərkibinə Birliyin üzvü olan dövlətlərin, MDB Parlamentlərarası Assambleyasının, Belarus və Rusiya İttifaqı Parlament Məclisinin, MDB İcraiyyə Komitəsinin nümayəndələri daxil idi.

MDB-dən Müşahidəçilər missiyasının işinin əlaqələndirilməsini missiyanın fəaliyyətinin təmin olunması üzrə qərargah həyata keçirirdi. Qərargah oktyabrın 6-da Bakıda işinə başlamış və onun Gəncə, Lənkəran, Naxçıvan və Xaçmaz şəhərlərində 4 şöbəsi fəaliyyət göstərmişdir. Parlament seçkilərinə hazırlığı uzunmüddətli müşahidə Milli Məclisə seçkilər keçirilməsi barədə Azərbaycan Respublikasının seçki qanunveri-





ciliyini təhlil etməyə, seçki prosesinin başlanğıc mərhələlərində seçki komissiyalarının fəaliyyətini öyrənməyə imkan vermişdir. 42 nəfərdən ibarət uzunmüddətli müşahidəçilər seçki komissiyalarının işi, komissiya üzvlərinin təlimi, seçici vəsiqələrinin verilməsi, deputatlığa namizədlərin seçkiqabağı təşviqatının təşkili monitorinqi həyata keçirmişlər.

f) Seçki prosesini beynəlxalq təşkilatların nümayəndələrindən əlavə, xarici ölkələrin çoxsaylı KİV təmsilçiləri də işıqlandırmışdır. Xarici jurnalistləri qarşılamaq, yerləşdirmək və onlara normal iş şəraiti yaratmaq məqsədi ilə xüsusi mərkəz fəaliyyət göstərirdi. Mərkəz kifayət qədər nəqliyyat və kompyuterlə təmin olunmuşdu. Son məlumatlara görə, seçkinin gedişini 80 ölkədən olan 310 jurnalist izləmişdir. Onlar əsasən ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Türkiyə, Rusiya, Ukrayna, İtaliya, İran, Gürcüstan, Qazaxıstan və başqa ölkələri təmsil etmişlər. Həmin jurnalistlər geniş fəaliyyət göstərərək, seçkilərlə bağlı beynəlxalq ictimaiyyətə kifayət qədər məlumatlar göndərə bilmişlər. Adıçəkilən ölkələrin KİV-lərinin rəsmi internet səhifələrini izlədikdə, Azərbaycanda keçirilən parlament seçkiləri ilə bağlı çoxlu informasiya görmək olardı. Akkreditə olunmuş xarici jurnalistlərin fəaliyyətləri ilə bağlı hər hansı problemlə üzləşməsi faktı

qeydə alınmamışdır. Əcnəbi jurnalistlər də onlara yaradılan şəraitdən razılıqlarını bildirmişlər. Qeyd edək ki, həm yerli, həm də xarici jurnalistlərin səsvermənin gedişatını daha yaxından izləmələri və təmsil etdikləri kütləvi informasiya vasitələrinə dəqiq, obyektiv məlumat vermələri üçün bütün dairələrdə, məntəqələrdə rahat şərait yaradılmışdı. Bundan başqa, Seçkilər İnformasiya Mərkəzində də jurnalistlərin rahat fəaliyyət göstərmələri üçün hər bir şərait vardı. Media mənsubları burada quraşdırılmış kompyuterlərdən istifadə edərək, bütün dairələrdə səsvermənin gedişini yaxından izləyə bilmişlər. Xarici jurnalistlər Azərbaycana gələrkən hava limanında, gömrükdə, eləcə də bir neçə şəhərimizdə olduqları günlərdə hər hansı problemlə üzləşməyiblər.

## 5. Səsvermədən sonrakı mərhələ (qanun pozuntularının aradan qaldırılması istiqamətində atılan addımlar)

**a)** Seçki prosesi ilə bağlı Apellyasiya Məhkəməsinə 23 şikayət daxil olmuş, onların 18-nə baxılmış, 7-si təmin edilmiş, qalanları Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən icraata götürülmüşdür. Seçkinin





gedişində Respublika Prokurorluğuna 35 şikayət, o cümlədən MSK-dan 20, dairə komissiyalarından 10 şikayət, hüquq mühafizə orqanlarının və seçki bloklarının hərəsindən 4 şikayət daxil olmuşdur. Şikayətlər yerli icra strukturlarının və seçki komissiyalarının seçkiqabağı təşviqata müdaxiləsi, namizədlərin dəqiq olmayan informasiya yaymaq, seçiciləri şirnikləndirib ələ almaq, seçicilərə hədə-qorxu gəlmək yolu ilə təşviqata maneçilik törətməklə bağlıdır. 6 noyabrdan sonra qanunla müəyyən edilmiş 3 gün ərzində Mərkəzi Seçki Komissiyasına seçki qanunvericiliyi normalarının pozulması barədə 538, ümumiyyətlə isə, 1050-yə yaxın ərizə və şikayət daxil olmuşdur. Onların 21-i prokurorluq orqanlarına, 22-si daxili işlər orqanlarına, 998-i dairə seçki komissiyalarına göndərilmiş, qalanlarına mahiyyəti üzrə baxılmışdır.

Seçkilərdən sonra da qanun pozuntularına yol verənlərin cəzalandırılması istiqamətində konkret addımlar atılmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, seçki saxtakarlığına yol verilmiş 4 dairədə nəticələr ləğv edilmişdir. 163 saylı Sabirabad birinci və 8 saylı Binəqədi birinci seçki dairələrində bəzi məntəqələrin nəticələrinin ləğv olunmasından sonra nəticələrdə dəyişiklik əmələ gəlmişdir. MSK-nın qanun pozuntularına yol verilən məntəqələrdə nəticələri ləğv etməsi sayə-

sində reallıqda əksər səsləri qazanmış namizədlərin parlamentdə təmsil olunmaq imkanı bərpa edilmişdir. MSK rəhbərliyi seçkilərdən sonra daxil olan bütün şikayətlərə baxılacağı barədə bəyanat vermişdir. Eyni zamanda, qanun pozuntularına yol verənlərin cəzalandırılması istiqamətində də addımlar atılmışdır.

Prezident İlham Əliyev 11 may və 25 oktyabr tarixli Sərəncamlarının icrasında yol verdikləri pozuntulara və səsvermə prosesinə müdaxilələrinə görə Suraxanı, Sabirabad və Zaqatala rayonlarının icra hakimiyyəti başçılarını vəzifəsindən azad etmişdir. MSK-nın müraciətinə əsasən, Respublika Prokurorluğunda da Seçki Məcəlləsinin pozulması ilə bağlı araşdırmalar aparılmışdır. Azərbaycan Respublikasının Prokurorluğu seçki pozuntuları ilə əlaqədar daxil olmuş məlumatları araşdırmış və təsirli tədbirlər görmüşdür.

Baş prokurorun **“Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə bağlı müvafiq seçki komissiyalarından Respublika Prokurorluğuna daxil olan cinayət tərkibli olması ehtimal edilən məlumatların araşdırılması üzrə əlavə tədbirlər barədə”** 2005-ci il 2 noyabr tarixli sərəncamı ilə Respublika Prokurorluğunda 59 əməkdaşdan ibarət 18 işçi qrupu təşkil olunaraq, 2005-ci il noyabrın 5-dən ölkənin bölgələrinə ezam edilmişdir. Mərkəzi Seçki Komissiyası





ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən işçi qrupları seçki günü vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar dairə seçki komissiyalarından daxil olan cinayət tərkibli olması ehtimal edilən məlumatların təcili araşdırılmasını və cinayət əməli törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasını təmin etmək üçün müvafiq işləri yerinə yetirmişlər.

2005-ci il noyabrın 6-da – seçki günü əlaqədar dövlət təsisatları, o cümlədən hüquq mühafizə orqanları tərəfindən görülən tədbirlər nəticəsində bütün ölkə ərazisində sabitliyin və əmin-amanlığın qorunub saxlanması təmin edilmiş, ictimai asayişin pozulması cəhdlərinin qarşısı vaxtında alınmaqla, seçkilərin sakit keçirilməsi üçün normal şərait yaradılmışdır.

Bilavasitə seçki günü Respublika Prokurorluğunun işçi qruplarına dairə seçki komissiyalarından qanunla müəyyən edilmiş qaydada göndərilmiş, cinayət tərkibli olmaları ehtimal edilən 5 məlumat daxil olmuş və araşdırılmışdır. Onların 3-ü seçki komissiyalarının fəaliyyətinə müdaxilə, 1-i seçiciləri ələ alma, 1-i seçiciləri iradələrinə zidd olaraq səsverməyə məcburetmə ilə əlaqədardır.

Bu məlumatların araşdırılması 1 halda cinayət işi başlanması, 4 halda isə cinayət işi başlanmasının rədd edilməsi barədə qərarların çıxarılması ilə nəticələn-

mişdir. Belə ki, 99 saylı Şəmkir kənd seçki dairəsi dairə seçki komissiyasının qərarı ilə Prokurorluğa göndərilmiş müraciətin araşdırılması nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikası Milli Məclisinə deputatlığa namizədliyi qeydə alınmış Cəfərov Vahid Fazil oğlu 2005-ci il noyabrın 6-da saat 10.50 radələrində həmin dairənin 35 saylı seçki məntəqəsində səsvermə zamanı səsvermə otağına daxil olaraq səs-küy salmış, stolun üstündə olan seçki bülletenlərinin və zərflərin hər birindən 5 ədədini özbaşına götürərək qaçmış və bu seçkilərdə deputatlığa namizədlikləri qeydə alınmış Tacəddin Mehdiyev, Şahin Nəcəfov və Məzahir Məmmədova verməklə seçki komissiyasının işinə müdaxilə etmişdir. Əməldə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 160.1-ci maddəsi ilə nəzərdə tutulmuş cinayətin (seçki komissiyalarının işinə müdaxiləetmə və ya təsir göstərmə və ya seçki komissiyası üzvünün öz vəzifəsini yerinə yetirməsi ilə bağlı fəaliyyətinə müdaxilə-etmə) əlamətləri olduğundan cinayət işi başlanmışdır.

Ümumiyyətlə, seçki günü ərzində yuxarıda qeyd edilən müraciətlərlə birlikdə, Prokurorluğa cəmi 39 müraciət daxil olmuşdur. Cinayət tərkibli olması ehtimal edilməyən müraciətlərin bir qismi üzrə baş verə biləcək hüquq pozuntularının qarşısı profilaktik tədbirlər görül-





məklə alınmışdır. Müraciətlərin ikisi dairə seçki komissiyalarının səlahiyyətləri çərçivəsində həll edilməli olduğundan, müvafiq komissiyalara göndərilmişdir.

Seçki hüquqlarının pozulması ilə bilavasitə bağlı olmayan, lakin seçki prosesi zamanı baş vermiş 7 hadisə barədə müraciətlər üzrə seçki prosesinə müdaxilə edilmədən aparılan araşdırmalar nəticəsində cinayət işi başlanması barədə 1 qərar qəbul edilmişdir. Belə ki, seçkilərdə müstəqil müşahidəçi qismində iştirak edən Vaqif Fərman oğlu Əmirov seçki günü saat 14 radələrində 84 saylı Füzuli seçki dairəsinin Bakı şəhərinin Sabunçu rayonu ərazisində yerləşən 67 saylı məntəqəsində cəmiyyətə açıq hörmətsizlik göstərməklə ictimai qaydanı pozmuş, digər müşahidəçi Adil Ələsgərovun sifətinə başı, sonra isə əli ilə zərbələr vurub, ona sağlamlığın uzun müddətə pozulmasına səbəb olan az ağır bədən xəsarətləri yetirmiş, seçki məntəqəsinin fəaliyyətini bir müddətə pozmuşdur. Bu faktla bağlı Sabunçu Rayon Polis İdarəsi tərəfindən Azərbaycan Respublikası CM-in 221.1-ci (xuliqanlıq) və 127.2.3-cü (xuliqanlıq niyyəti ilə qəsdən sağlamlığa az ağır zərər vurma) maddələri ilə cinayət işi başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin seçki zamanı bir sıra seçki dairələrində yol verilmiş hüquq pozuntularının ciddi araşdırılması barə-

də göstərişlərinin icrası istiqamətində də Respublika Prokurorluğu tərəfindən təxirəsalınmaz zəruri tədbirlərin görülməsi təmin edilir. Belə ki, vətəndaşların seçki hüquqlarının və Seçki Məcəlləsinin tələblərinin kobud şəkildə pozulması ilə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən 9 saylı Binəqədi və 42 saylı Sumqayıt ikinci seçki dairələri üzrə Prokurorluğa göndərilən materiallar əsasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmaqla, bu faktlarla bağlı Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaq aparılır. Artıq prokurorluq orqanları tərəfindən 5 komissiya sədri saxlanılmış və barələrində cinayət işləri başlanmışdır.

Azərbaycan Respublikasının Prokurorluğu seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq, seçki komissiyalarından daxil olan cinayət tərkibli olması ehtimal edilən məlumatların araşdırılması, respublikanın digər hüquq mühafizə orqanları ilə birlikdə Azərbaycan Respublikasının Milli Məclisinə təkrar seçkilərin də sabit ictimai-siyasi şəraitdə başa çatması, bu dövrdə insan hüquq və əsas azadlıqlarının təmin olunması sahəsində üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üçün lazımi tədbirləri həyata keçirməkdə davam edir.



# II

# BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR

Müşahidəçilik təsisatı müasir seçki praktikasının ayrılmaz komponentinə çevrilmişdir. Lakin müşahidəçi təsisatının seçki barədə rəyi hüquqi əhəmiyyət kəsb etməsə də, müşahidəçilərin missiyasını əsasən üç istiqamətdə dəyərləndirmək olar:

-müşahidəçilərin, əsasən də onların əcnəbi kontingentinin rəylərinin seçki və seçki keçirilən ölkə barədə beynəlxalq aləmdə reputasiyanın formalaşması prosesinə ciddi təsiri:

-müxtəlif siyasi qüvvələri təmsil edən müşahidəçilərin seçkinin demokratiya prinsipləri əsasında keçirildiyini təsdiqləyən başlıca amillərdən biri rolunda çıxış etməsi;

-müşahidəçilərin səsvermə prosesinə ictimai nəzarəti, hər hansı bir saxtalaşdırma niyyətinin manevr imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırması.

Beləliklə, nüfuzlu beynəlxalq təşkilatları təmsil edən müşahidəçilərin rəyləri həmin qurumların seçki haqqında qənaətinə mühüm təsir göstərir. Həmin təşkilatların hesabatları isə ümumilikdə dövlətin beynəlxalq imicinin formalaşmasında müstəsna amillərdən

biri kimi çıxış edir. Əsasən postsovet məkanında keçirilən seçkilər göstərir ki, burada müşahidəçilər yuxarıda sadaladığımız funksiyaları yerinə yetirməklə yanaşı, həm də postseçki mərhələsinin ən mübahisəli problemlərindən birinin mövzusuna çevrilirlər. Belə ki, son illər ərzində müşahidəçilərin gəldikləri qənaətə geosiyasi amilin təsiri böyükdür. Bunu biz postsovet məkanında baş verən üç mühüm hadisə zamanı da müşahidə etdik. Söhbət Gürcüstan, Ukrayna və Qırğızıstanda keçirilən seçkilər və onların ardınca baş verən davamlı kütləvi aksiyalardan və hakimiyyət dəyişikliklərindən gedir. Göründüyü kimi, bu seçkilər və onların müşahidəsi əsil geosiyasi mübarizə predmetinə çevrilmişdi. Nəticədə, əsasən, Qərbdən olan müşahidəçilər seçkilərin demokratik keçmədiyini bildirir, MDB və Rusiyadan olanlar isə prosesin şəffaflıq və ədalət prinsiplərinə uyğun baş tutduğunu deyirdilər. Öz növbəsində, Azərbaycan da olduqca nadir ölkədir. Lakin onun ərazisi geosiyasi qarşıdurma deyil, əməkdaşlıq və maraqların uzlaşması məkanına çevrilmişdir. Bu isə özünü "seçki geosiyasəti"ndə göstərməyə bilməz. 2005-ci il parlament seçkiləri bunu bir daha təsdiqlədi. Eyni zamanda, həm Qərbdən, həm də MDB-dən olan müşahidəçilərin seçki barədə məzmunca yaxın bəyanatlarla çıxış etmələri parlamentə seçkilərin ədalətli keçdiyinə də işarədir.





Seçkilərin demokratik, şəffaf, ədalətli, bir çox beynəlxalq səviyyəyə, ATƏT və Avropa Şurası prinsiplərinə uyğun keçirildiyini xarici müşahidəçilərin verdikləri rəylər bir daha göstərir. Hərçənd ki, radikal müxalifət partiyaları və onların təsir dairələrində olan qəzetlər beynəlxalq qurumların seçkilərin nəticələrini tanımadığını və seçkilərin ədalətli keçirilmədiyini bildirdiklərini iddia edirlər. Ancaq müxalifət bu iddianın əsaslı olduğunu konkret faktlarla təsdiq edə bilmir. Bunun səbəbi isə sadədir, çünki ortalıqda beynəlxalq qurumların seçkilərin nəticələrini tanımamaq barədə rəyi yoxdur. Fakt ondan ibarətdir ki, bütün beynəlxalq demokratik təsisatlar seçkilərdə mühüm irəliləyişlər olduğunu və onun, əsasən, azad və ədalətli keçdiyini bəyan edir.

Birmənalı deyə bilərik ki, başa çatan parlament seçkiləri ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsinin, demokratik cəmiyyətin formalaşması prosesinin fəallaşmasının, əhalinin rifahının artmasının, Azərbaycan Respublikasının beynəlxalq strukturlara daha da inteqrasiya etməsinin təsirli amili olacaqdır. Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsini müşahidə etmiş xarici ölkələrin və beynəlxalq təşkilatların təmsilçiləri də noyabrın 7-də oxşar bəyanatla çıxış etmişlər.

# 1. ATƏT

**ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu** artıq sentyabrın 5-dən seçkiləri uzunmüddətli müşahidə missiyasının işinə start vermişdi. Tanınmış diplomat **Geert Arensin** rəhbərlik etdiyi uzunmüddətli müşahidə qrupuna ATƏT-ə üzv olan 18 ölkədən 43 seçki mütəxəssisi daxil edilmişdi. İlkin dövrdə missiya 11 nəfərlik heyətlə işə başlamışdı. Seçki günü yaxınlaşdıqca, missiyanın heyəti genişləndirilmişdir. Qrupun üzvləri hər biri 2 nəfər olmaqla, respublikanın 16 bölgəsində yerləşdirilmişdi.

Seçki ərəfəsində Azərbaycana ATƏT-in daha 500 nəfər qısamüddətli müşahidəçisi gəlmişdi. ATƏT-in Seçki Müşahidə Missiyası hətta qapalı məntəqələr olan hərbi hissələrdə və islah əmək müəssisələrində yaradılan seçki məntəqələrində də seçki prosesini izləmək imkanına malik olmuşlar. Missiya seçki prosesini bütövlükdə müşahidə etmişdir. Dövlət orqanları missiyanın fəaliyyətinə lazım olan bütün köməyi göstərmişdir. Missiyanın rəhbəri G.Arens dəfələrlə Prezident İlham Əliyev, Prezidentin İcra Aparatında, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, əlaqədar nazirliklərin rəhbərləri tərəfindən qəbul edilmiş və lazımi yardımları ala bilmişdi. Geert Arens seçkiqabağı hazırlıq dövründə Azərbaycan rəhbərliyinin seçki





prosesinin yaxşılaşdırılması istiqamətində böyük işlər gördüyünü qeyd etmişdi. Prezident İlham Əliyevin seçki praktikasının təkmilləşdirilməsi və seçkilərin hazırlığı və keçirilməsi haqqında iki Sərəncam imzaladığını bildirən G.Arens əlavə etmişdi ki, seçicilərin barmaqlarının rənglənməsi kimi vacib prosedurların həyata keçirilməsi ilə bağlı qərar qəbul olunmuşdur. "ATƏT seçkilərin nəticələrini tanımamaq kimi mövqe tutmaq niyyətində deyildir". Missiya fəaliyyəti dövründə 3 aralıq hesabat hazırlamış və seçki prosesi ilə bağlı müsbət və mənfi məqamları işıqlandırmışdır. Hesabatlardan biri sentyabr ayında, ikisi oktyabr ayında açıqlanmışdır. Yekun hesabat isə seçkilərin səhərisi gün, noyabrın 7-də təqdim edilmişdir.

6 noyabr parlament seçkilərinin obyektivliyi **Seçkiləri Beynəlxalq Müşahidə Missiyasının** (SBMM) ilkin faktlar və nəticələr haqqında bəyanatında da öz əksini tapır. Azərbaycanda keçirilmiş parlament seçkilərini müşahidə edən Seçkiləri Beynəlxalq Müşahidə Missiyası **ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları üzrə Ofisinin, ATƏT-in Parlament Assambleyasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, NATO Parlament Assambleyasının** birgə fəaliyyətidir. Seçkiyə hazırlıq prosesində, eləcə də səsvermə gedişində

nəzərəçarpan müsbət meyillər bu bəyanatda xüsusi qiymətləndirilir.

Missiyanın bəyanatında SBMM-in seçki günü müşahidə apardığı məntəqələrin 87 faizində səsvermə müsbət dəyərləndirilmişdir. Sənəddə, ilk növbədə, seçkiqabağı təşviqat kampaniyası dövrünə diqqət yönəlmişdir. Dövlət büdcəsindən maliyyələşən teleradio qurumlarının deputatlığa namizədlərə pulsuz efir vaxtı ayırmasına dair qanunun müddəalarına dəqiqliklə əməl edilməsi faktı xüsusi vurğulanmışdır. Efirə gedən debatların namizədlərə öz mesajlarını seçicilərə çatdırmaq imkanı verdiyi qeyd edilmişdir. Bəyanatda o da bildirilmişdir ki, müxalifət nümayəndələri yaradılan şəraitdən istifadə edərək, yürüş-mitinqlər və seçicilərlə digər formalı görüşlər keçirə bilmişlər. 2005-ci ilin iyun ayında Seçki Məcəlləsinə edilən dəyişikliklərlə Azərbaycanın seçki qanunvericiliyinin təkmilləşdirilməsi də bəyanatda diqqət yetirilən əsas məqamlardandır. Sənəddə həmçinin o da vurğulanır ki, Mərkəzi Seçki Komissiyası tərəfindən seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi barədə qərar, səslərin sayılması və hesablanmasının etibarlılığını artırmaq məqsədi ilə çoxlu sayda təlimat qəbul olunmuşdur. MSK KİV vasitəsilə seçicilərin maarifləndirilməsi sahəsində geniş kampaniya həyata keçir-





mişdir. Seçki komissiyaları şəffaf və kollegial şəkildə fəaliyyət göstərmişdir. Qanunu pozduqları üçün ayrı-ayrı namizədlərə və rəsmi şəxslərə xəbərdarlıq edilmişdir. ATƏT-in Müşahidə missiyası seçkilər ərəfəsində əhalinin əksər hissəsinə yeni şəxsiyyət vəsiqələrinin paylanmasını da təqdirəlayiq hal kimi qiymətləndirərək əlavə edir ki, bu, gələcək seçkilərdə seçicilərin qeydiyyata alınmasına müsbət təsir göstərə bilər. Büdcəsinin 30 faizindən çoxu xaricdən maliyyələşən yerli QHT-lərin seçkilərdə müşahidəçi qismində iştirakına qoyulan qadağanın aradan qaldırılması bəyanatda müsbət hallardan biri kimi nəzərdən keçirilir. Sənəddə müşahidəçilər üçün yaradılmış şəraitdən söhbət açılır və bildirilir ki, yerli müşahidəçilər, demək olar, heç bir maneə ilə qarşılaşmadan fərdi qaydada qeydiyyatdan keçə bilmişlər.

Bir sözlə, müəyyən qüsurlara, çatışmazlıqlara baxmayaraq, 6 noyabr parlament seçkiləri ümumilikdə demokratik və azad şəraitdə keçmiş, xalqın mütləq əksəriyyətinin iradəsini əks etdirmişdir.

## 2. MDB-nin müşahidə missiyası

MDB müşahidə missiyasının rəhbəri Vladimir Ruşaylo hesab edir ki, belə mütəşəkkil seçki, bəlkə də, MDB dövlətləri arasında birincidir: "Gün ərzində bir neçə seçki məntəqəsində olduq, insanların rəylərini öyrəndik. Hamı seçkilərin gedişindən razı idi. Seçkilərin bu cür mütəşəkkil keçirilməsinə heyran olduq".

Missiyanın Bəyanatında isə deyilir: "MDB-dən Müşahidəçilər missiyasının tərkibinə Birliyin üzvü olan dövlətlərin Parlament Assambleyasının, Belarus və Rusiya İttifaqı Parlament Məclisinin, MDB İcraiyyə Komitəsinin nümayəndələri daxil idi.

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Müstəqil Dövlətlər Birliyindən müşahidəçi kimi 640 nəfər akkreditə olunmuşdu. Onların beynəlxalq müşahidənin həyata keçirilməsi üzrə fəaliyyəti Müstəqil Dövlətlər Birliyinin üzvü olan dövlətlərdə demokratik seçkilərin, vətəndaşların seçki hüquqları və azadlıqlarının standartları haqqında Konvensiyaya, Birliyin üzvü olan dövlətlərdə prezident və parlament seçkilərində, habelə referendumlarda MDB-dən olan Müşahidəçilər missiyası haqqında əsasnaməyə, beynəlxalq hüququn hamılıqla tanınmış digər sənədlərinə və normalarına əsaslanırdı.

MDB-dən olan müşahidəçilər öz funksiyalarını yerinə yetirərkən siyasi bitərəflik və qərəzsizlik, müstə-





qillik və qeyri-asılılıq, aşkarlıq və açıqlıq, seçki prosesinin iştirakçıları barəsində hər hansı rəğbətin ifadə olunmasından imtina etmək prinsiplərini rəhbər tutur, Azərbaycan Respublikasının qanunlarına riayət edir və seçkilər prosesinə qarışmırdılar.

MDB-dən Müşahidəçilər missiyasının işinin əlaqələndirilməsini missiyanın fəaliyyətinin təmin olunması üzrə qərargah həyata keçirirdi. Qərargah oktyabrın 6-da Bakıda işinə başlamış və onun Gəncə, Lənkəran, Naxçıvan və Xaçmaz şəhərlərində 4 şöbəsi fəaliyyət göstərirdi.

MDB-dən olan müşahidəçilər bildirirlər ki, Azərbaycan Respublikasında parlament seçkilərinə beynəlxalq müşahidənin həyata keçirilməsi üçün lazımi hüquqi və təşkilati-texniki şərait yaradılmış, seçki məntəqələrinə maneəsiz gəlmək, namizədlərlə və onların vəkilləri ilə, partiyaların, siyasi partiyalar bloklarının və kütləvi informasiya vasitələrinin nümayəndələri ilə sərbəst ünsiyyət hüququ təmin edilmişdir. Müşahidəçilər seçkiləri tənzimləyən sənədləri öyrənmək, bütün səviyyələrdən olan seçki komissiyalarının işi ilə tanış olmaq və onlardan lazımi informasiya almaq imkanına malik idilər.

İlk dəfə olaraq, parlament seçkiləri 2003-cü ilin mayında qəbul edilmiş və 2005-ci ilin iyununda təkmil-

ləşdirilmiş, bütün seçki prosesini tənzimləyən kompleks hüquqi akta çevrilmiş Azərbaycan Respublikasının yeni Seçki Məcəlləsinə müvafiq surətdə keçirilirdi. Müstəqil Dövlətlər Birliyindən olan müşahidəçilərin fikrincə, bu Məcəllə azad və demokratik seçkilər keçirməyə imkan verən sənəddir.

Buna baxmayaraq, Məcəllənin və seçkilər zamanı onun tətbiq edilməsi praktikasının öyrənilməsi göstərdi ki, onun ayrı-ayrı normalarını daha da təkmilləşdirmək mümkündür.

MDB-dən olan müşahidəçilərin fikrincə, məntəqə seçki komissiyalarına adları seçki siyahısına daxil edilməyən, lakin həmin seçki dairəsinin ərazisində yaşadığını təsdiqləyən sənədə malik vətəndaşları bu siyahıya daxil etmək hüququ vermək olardı. Bu baxımdan belə qərarın səsvermədən azı 35 gün əvvəl və səsvermə zamanı ancaq məhkəmə tərəfindən qəbul edilməsini müəyyənləşdirən Məcəllənin 46.1-ci maddəsini dəyişdirmək tövsiyə olunur.

Məcəllədə seçkilər günü səs verə bilməyən bütün seçicilərə vaxtından əvvəl səs verməyə icazə verən norma nəzərdə tutulması məqsədəuyğun hesab edilir.

Azərbaycan Respublikasının seçki komissiyaları sistemini seçkilərin hazırlanmasını və keçirilməsini, vətəndaşların seçki hüquqlarının müdafiəsini təmin edən





Mərkəzi Seçki Komissiyası, dairə və məntəqə seçki komissiyaları əhatə edir.

Mərkəzi Seçki Komissiyası 15 nəfərdən ibarət idi, 125 dairə seçki komissiyasının tərkibinə 1116 adam daxil idi, 5137 məntəqə seçki komissiyasında 30 822 nəfər işləyirdi.

Seçki komissiyaları "Azərbaycan Respublikası Seçki Məcəlləsinin təsdiq edilməsi və qüvvəyə minməsi haqqında" 2003-cü il 27 may tarixli Qanuna müvafiq surətdə formalaşdırılmışdır.

Bütün səviyyələrdə seçki komissiyalarına siyasi partiyaların, siyasi partiya bloklarının nümayəndələri və bitərəflər daxil idi, onların tərkibinin 36 faizini qadınlar təşkil edirdi.

Mərkəzi Seçki Komissiyası dairə seçki komissiyalarının nümayəndələri ilə Bakı şəhərində və regionlarda seminar-müşavirələr keçirmişdir. Seçki komissiyalarına kömək üçün Seçki Məcəlləsinin tələblərinin əməli surətdə tətbiqinə dair 40-dan çox qayda, təlimat və izahat hazırlanmışdır. Dairə və məntəqə seçki komissiyaları üzvlərinin parlament seçkiləri zamanı öz hüquq və vəzifələrini, seçici siyahıları ilə işləməyi, səsvermə və səsverməyə yekun vurulması proseduralarını ətraflı öyrənməsi məqsədi ilə onlar üçün məşğələlər keçirilmişdir. İlk dəfə olaraq, seçicilərin vahid siyahısı internetdə yerləşdirilmişdir.

Seçki komissiyaları seçicilərə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə iştirak etmək barədə xüsusi bildirişləri vaxtında göndərmişdir. Bildirişlərdə seçkilərin keçirilməsinin vaxtı və yeri, hər bir seçicinin səsvermə proseduru barədə də ətraflı məlumat vardı.

Azərbaycan Respublikasında seçkilərin keçirilməsi praktikasında ilk dəfə olaraq seçici vəsiqələri verilmiş, onları seçicilərin 95 faizindən çoxu almış, habelə bülletenlər alınarkən barmaqların görünməyən mürəkkəblə işarələnməsindən istifadə edilmişdir. Bu tədbirlər demokratik seçki prosesinin təmin olunmasına, eyni bir şəxsin təkrar səs verməsinin mümkünlüyü faktlarının qarşısının alınmasına yönəldilmişdir.

Namizədlərin irəli sürülməsi və qeydə alınması Azərbaycan Respublikasının Seçki Məcəlləsi əsasında həyata keçirilmişdir. MDB-dən olan müşahidəçilər bildirirlər ki, siyasi partiyaların, siyasi partiya bloklarının nümayəndələrinin və vətəndaşların parlament seçkilərində fəal iştirakı üçün bərabər şərait yaradılmışdır. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, 21 siyasi partiyanı birləşdirən 8 blok qeydə alınmışdır.



## 3. ABŞ

**ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Adam Ereli** 2005-ci il noyabrın 7-də keçirdiyi brifinqdə Azərbaycandakı parlament seçkilərinə rəsmi Vaşinqtonun münasibətini açıqlamışdır. Adam Ereli bildirmişdir ki, Azərbaycanda seçki prosesində yaxşılaşma hallarına baxmayaraq, pozuntular da müşahidə edilmişdir: “Biz Azərbaycan hökumətinə bu pozuntuları Azərbaycan qanunlarına və seçki qanunvericiliyinə müvafiq surətdə ciddi şəkildə araşdırmağa başlamağı məsləhət görürük. Biz həmçinin nəzərə çatdırmalıyıq ki, bütün etiraz nümayişləri dinc xarakter daşımalı və qanun çərçivəsində keçirilməlidir. Bütün partiyalar zorakılıq törətməkdən çəkinməlidirlər”. Adam Ereli bəyan etmişdir ki, seçki prosesindəki irəliləyişlər göz qabağındadır: seçkilərdə iştiraka olduqca çox namizəd buraxılmışdır, mətbuat seçkiləri geniş işıqlandırmaq imkanına malik idi, əcnəbi müşahidəçilərin səsvermə prosesini izləmək imkanı vardı. ABŞ-ın Azərbaycanla müəyyən münasibətləri olduğunu, C.Buş administrasiyasının bu münasibətləri inkişaf etdirmək niyyətini ifadə edən Adam Ereli energetika, təhlükəsizlik, terrorizm, iqtisadi, siyasi sahələrdə, regional və ikitərəfli əməkdaşlıq məsələlərində əməkdaşlığı inkişaf etdirmək istədiklərini demişdir. O bil-

dirmişdir ki, ABŞ-ın planları Azərbaycanda parlament seçkilərindən asılı vəziyyətə salınmamalıdır. Adam Ereli parlament seçkilərində ayrı-ayrı saxtakarlıq halları olduğunu, onların araşdırılmasının vacibliyini vurğulamışdır: "Ciddi pozuntular olub və saxtakarlıqlar haqqında bəyanatlar verilibdir. Lakin bu ittihamlar ümumən seçki prosesinə aid deyildir. Narahatlıq doğuran və araşdırılmalı olan ayrı-ayrı hallar və ayrı-ayrı əməllər mövcuddur, odur ki, təhqiqat aparmaq və diqqəti buna cəlb etmək çox vacibdir". ABŞ Dövlət Departamentinin rəsmisi bildirmişdir ki, ABŞ ATƏT-in Azərbaycanda parlament seçkiləri ilə bağlı nöqteyi-nəzərini bölüşür. Ötən seçkilərlə müqayisədə vəziyyət yaxşıdır, lakin kobud pozuntu halları qeydə alınmışdır və bu hallar Azərbaycan dövləti tərəfindən araşdırılmalıdır.

**ABŞ Dövlət Departamentinin bəyanatında** qeyd edilmişdir ki, Azərbaycan hökumətinin 6 noyabr parlament seçkiləri gedişində yol verilmiş pozuntu hallarının da aradan qaldırılması məqsədi ilə gördüyü işlər ABŞ tərəfindən diqqətlə izlənir və bu istiqamətdə atılan bütün addımlar təqdir edilir. Bəyanatda qeyd edilir ki, ABŞ Prezidenti Corc Buş Azərbaycanın dövlət rəhbəri İlham Əliyevin müvafiq tədbirlər haqqında niyyətini tanıyaraq, Azərbaycan hökumətinin seçkilər zamanı qanun pozuntularının səsvermənin nəticələrinə





təsir etmiş məntəqələrdə müvafiq addımlar atacağına ümidlidir. Amerika Dövlət Departamentinin mətbuat katibi Adam Ereli ilkin bəyanat yayılandan bir gün sonra keçirdiyi gündəlik brifinqdə bildirmişdir ki, bəzi dairələrdə nəticələrin MSK tərəfindən ləğvi qanun pozuntuları və çatışmazlıqlara Azərbaycan hökumətinin reaksiyasının göstəricisidir. O, MSK vasitəsilə qanun pozuntuları hallarının fəal araşdırılmasından ABŞ-ın məmnun qaldığını söyləmişdir. Adam Ereli onu da deyib ki, ABŞ hələ davam edən araşdırmaların bitərəf və şəffaf şəkildə, Azərbaycan təsisatları vasitəsilə və Azərbaycan qanunlarına uyğun həyata keçiriləcəyini gözləyir.

ABŞ dövlət katibinin müavini Daniel Fridin BBC-nin Azərbaycan xidmətinə müsahibəsi də xeyli maraq doğurur. "Biz hesab edirik ki, bazar günü keçirilmiş parlament seçkiləri əvvəlkilərlə müqayisədə yaxşı olub" – deyən D.Frid vurğulayıb ki, bununla yanaşı, onlar təqdim olunan bütün şikayətlərə baxılması istəyindədirlər və MSK-nın bu istiqamətdə atdığı addımlar, bəzi dairələrdə səslərin yenidən hesablanması Ağ evi məmnun edib: "Aldığım informasiyaya və başa düşdüyümə görə, söhbət hələ ki, fırıldağa yol verilmiş beş dairədən gedir. Bunu da bilirəm ki, onlar bunlardan əlavə də müəyyən iş görmək istəyirlər və bu prosesin başa çatdığını hələ demək olmaz. İnanmaq istərdim ki,

MSK mümkün qədər çox sayda problem barədə tədbir görməyə çalışacaqdır. Bu, yaxşı başlanğıcdır və ümid edirəm ki, bütün başqa problemlər də öz həllini tapacaq". Amerikalı diplomat əllərində olan informasiya əsasında fikir yürüdərək nə hökumətin, nə də müxalifətin deyil, öz mövqelərindən çıxış etdiklərini vurğulayıbdır. D.Frid ölkəsinin Azərbaycanda strateji və iqtisadi maraqlarının olduğunu da gizlətməyib: "Biz ümid edirik ki, Azərbaycanın nefti onun xalqına xeyir gətirəcəkdir. Biz Azərbaycanın qanuni təhlükəsizlik maraqlarını da nəzərə alırıq və bunu da bildiririk ki, həqiqi sabitliyə yol islahat və demokratiyadan keçir. Demokratiya sabitsizlik demək deyildir".

ABŞ-ın Azərbaycandakı səfiri **R.Harniş** bir sıra qəzetlərin əməkdaşlarına Azərbaycanda parlament seçkiləri mövzusu ilə bağlı müsahibə vermişdir. Səfir qeyd etmişdir ki, Beynəlxalq Müşahidə Missiyasının rəyində Azərbaycanda müəyyən sahələrdə irəliləyişlərin olması ilə yanaşı, seçkilərin ATƏT-in və Avropa Şurasının bir sıra öhdəliklərinə və standartlarına cavab vermədiyi göstərilir. Səfir "exit-poll"un tətbiq edilməsini, barmaqların boyanmasını, bütün bölgələrdə aksiyaların keçirilməsi üçün şərait yaradılmasını, hakim partiyadan, müxalifətdən olan namizədlərin, bitərəflərin seçicilərlə görüşməyə heç bir maneçilik törədilmə-





diyi barədə rəy verdiklərini, insanların televiziya vasitəsilə namizədlərin fikirlərini öyrənmək imkanına malik olmasını xüsusi qeyd etmişdir. R.Harniş bildirmişdir ki, seçki günü 15 məntəqədə müşahidə aparmışdır. O, getdiyi məntəqələrin hər birində 15-ə yaxın müşahidəçi gördüyünü, həmin müşahidəçilər arasında "Azadlıq" və "Yeni Siyasət" bloklarının təmsilçilərinin olduğunu, onların çox fəal olduqlarını, bütün məsələlərlə bağlı seçki komissiyalarının rəhbərlərinə öz fikirlərini bildirdiklərini, müşahidəçilərin seçki məntəqələrinin protokollarını əldə etmək imkanına malik olduqlarını və məntəqələri protokollarla tərk etdiklərini müşahidə etdiyini bildirmişdir. R.Harniş "Vaşinqton Post" qəzetinin "Azərbaycan imtahandan çıxmadı" tezisini qəbul etmədiyini bildirmişdir: "ATƏT-in yekun hesabatı gələn ayın ortalarında hazır olacaqdır. Biz həmin hesabata – nəticəyə də şərik çıxacağıq. Yekun hesabatın necə olacağı isə Azərbaycan hökumətinin dekabrın ortasına qədər hansı işlər görəcəyindən asılıdır. Şikayətlərə indidən baxılarsa və prokurorluq bunların əsasında araşdırma apararaq ölçü götürərsə, şübhəsiz ki, yekun mətndə bu, öz əksini tapacaqdır". Səfir qeyd etmişdir ki, ABŞ da daxil olmaqla, bütün ölkələrdə seçki saxtakarlığı baş verir, ancaq önəmli olan hökumətin bu saxtakarlığı araşdır-

masıdır. R.Harniş Azərbaycanda keçirilmiş seçkilərdə yol verilmiş pozuntuların aradan qaldırılması üçün dövlət rəhbərliyinin iradəsi olduğunu vurğulamış, buna misal kimi Azərbaycan Prezidentinin mövqeyini, həmçinin MSK sədri M.Pənahov və Baş prokuror Z.Qaralovla görüşlərinin təfərrüatını və ən əsası, bu günə kimi görülmüş işləri xatırlatmışdır. Səfir qeyd etmişdir ki, 2005-ci il parlament seçkiləri 2003-cü il prezident seçkilərindən fərqlənir. O, bu seçkilərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Beynəlxalq Müşahidə Missiyasının ilkin hesabatına münasibət bildirdiyini, həmin sənədin vacibliyini qeyd etdiyini, bu sənədin diqqətlə nəzərdən keçirildiyini vurğuladığını demişdir. R.Harniş MSK sədri və Baş prokurorla görüşləri barədə bildirmişdir: "Onlar qarşıma rəqəmlər qoyurlar, işləri barədə məlumat verirlər. MSK dörd seçki dairəsində nəticələri dəyişmişdir. Daha üç (Zaqatala seçki dairəsi ilə dörd) dairədə isə nəticələr ləğv edilibdir. Məzahir Pənahov şikayətlərin yorulmadan araşdırıldığını bildiribdir. Z.Qaralov isə qeyd edib ki, seçki saxtakarlığına görə dörd nəfər həbs olunub, 14 nəfər barədə cinayət işi açılıbdır. O, kifayət qədər dəlil olarsa, seçki saxtakarlığına yol vermiş icra başçılarına qarşı da cinayət işi açılacağını söyləyibdir. Prezident Suraxanı, Sabirabad, Zaqatala RİH başçılarını





vəzifələrindən azad edibdir. Odur ki, hələ yekun qərar verilmədiyindən, "Vaşinqton Post"un rəyi erkəndir". Səfir ABŞ-ın Azərbaycanla bütün sahələrdə – təhlükəsizlik, islahatlar, enerji və demokratiya sahəsində geniş əməkdaşlıq etdiyini vurğulamışdır. O, bütün təbəqələrin nümayəndələrinin parlamentdə mandat qazandığını, buna misal kimi Ə.Kərimli, L.Ş.Hacıyeva, P.Hüseyn kimi müxalifət nümayəndələrinin qələbə qazandıqlarını bildirmişdir. R.Harniş Azərbaycanda parlament seçkilərinin yenidən keçirilməsi ideyasının dəstəklənmədiyini diqqətə çatdırmışdır. O, indi seçki pozuntuları ilə bağlı şikayətlərin araşdırılmasının vacib olduğunu qeyd etmişdir. Səfir bildirmişdir ki, seçkilərin nəticələrinin ləğv olunmasını tələb etməkdənsə, baş vermiş pozuntularla bağlı müvafiq orqanlara müraciət etmək, faktlar təqdim etmək və onların baxılmasına nail olmaq daha məqsədəuyğundur. R.Harniş "PA Consulting Group" şirkətinin keçirdiyi "exit-poll"un nəticələrindən məmnun qaldığını, şirkətin vəzifəsinin öhdəsindən gözəl gəldiyini qeyd etmişdir. O bildirmişdir ki, şirkətin keçirdiyi "exit-poll" ABŞ-dakından da keyfiyyətli olmuşdur. Belə ki, şirkət Azərbaycanda 3 min sorğuçudan istifadə edib, ABŞ-da isə bundan az adam cəlb edilir: "O insanlar ki, "exit-poll"a bağlı şikayət edirlər, mən onlara heç nə deyə bilmərəm.

"Exit-poll"un nəticələrində heç kimə qarşı ayrıseçkiliyə yol verilməmişdir".

ABŞ Beynəlxalq Strateji Təhqiqat Assosiasiyasının tədqiqatlar şöbəsinin direktoru **Cozef Dobryanski** seçkilərin legitim olduğunu bəyan etmişdir: "Şəxsi təəssüratlar, yerli seçki komissiyalarının rəsmiləri, siyasi partiyaların müşahidəçiləri və müstəqil müşahidəçilərlə görüşlərimin nəticəsi olaraq apardığım müşahidə və elektoral proseslərin analizi seçkilərin legitim olmasını, onların Azərbaycan qanunvericiliyinə uyğun həyata keçirildiyini deməyə əsas verir. Seçkilərin qanunvericilik bazası beynəlxalq standartlara uyğundur. Yerli seçki komissiyalarının üzvləri professionallıqla seçildilər. Praktiki olaraq bütün məntəqələrdə yüksək şəffaflıq, müxtəlif siyasi partiyaların nümayəndələrinin bir-birinə qarşı tolerantlığı müşahidə olundu". C.Dobryanski seçicilərin fəallığını və onların xarici müşahidəçilərə xoş münasibətini də xüsusi olaraq qeyd etmişdir: "Ümumilikdə, Azərbaycanda parlament seçkiləri ölkə qanunlarına və hamı tərəfindən qəbul edilən demokratik normalara uyğun keçirildi. Seçki şəffaf, iradənin ifadəsi üçün azad oldu və Azərbaycan xalqının siyasi iradəsini və rəğbətini əks etdirdi".

Noyabrın 6-da Bakıdakı "Landmark" mehmanxanasında ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD)





Azərbaycan üzrə əlaqələndiricisi **Ceyms Dogen** və Milli Məclisə seçkilərdə "exit-poll"u həyata keçirən ABŞ-ın "PA Consulting Qroup" şirkətinin vitseprezidenti **Din Vayt** ilkin nəticələrdən, seçicilərin fəallığından, seçkilərin şəffaflığından razı olduqlarını söyləmişlər.

"Heritac" Fondunun eksperti **Ariel Kohen** də Azərbaycanda bütün tələblərə cavab verən əsil şəffaf seçkilərin keçirildiyini bildirmişdir: "Rusiya ilə Şərqi Avropa ölkələrində izlədiyim seçkilərlə müqayisədə buradakı seçkilər çox dəqiq, intizamlı, müxtəlif partiyalardan müşahidəçilərin iştirakı, ciddi "exit-poll" sistemi üzrə sorğunun aparılması ilə, asayiş pozulmadan keçdi. Azərbaycanda müsbət dinamikanı görməkdən çox məmnunam. Seçkilərin təşkilat sistemi yaxşı işləyir və ən başlıcası, sovet sisteminə ehtiyac olmadığını dəfələrlə bildirən və müvafiq sərəncamlar imzalayan Prezident İlham Əliyevin liderliyi var". A.Kohen əlavə edib ki, Azərbaycan hamı tərəfindən qəbul edilmiş çoxpartiyalılıq əsasında Avropa modelinə doğru gedir: "Belə seçkilərin nəticələri olan parlament Azərbaycanda parlamentarizmin inkişaf etdirilməsində mühüm vasitəyə çevriləcəkdir. Çünki deputat mandatı uğrunda ədalətli və şəffaf mübarizə şəraitində parlamentə gələn adamlar vəzifələrini məsuliyyətlə yerinə yetirəcəklər".

Birləşmiş Ştatların Missuri ştatının keçmiş qubernatoru **Bob Holden** parlament seçkilərində istər seçki məntəqələrində fəaliyyət göstərənlərin peşəkarlığından, istərsə də seçicilərin bu mühüm siyasi kampaniyaya olan marağından məmnun qaldıqlarını qeyd etmişdir. ABŞ müşahidəçisi 17 dairədə və 52 məntəqədə olduqlarını söyləmiş, "bu seçkilərin Azərbaycanda demokratiyanın inkişafına xidmət edəcəyini" bildirmişdir. Missuri ştatındakı Trumen Universitetinin politologiya üzrə professoru **Con Şyema** seçkilərin demokratik keçirilməsindən razılığını ifadə etmişdir. O, ciddi rəqabətin gözlənildiyi məntəqələrdə seçkiləri müşahidə etdiklərini vurğulamışdır. Jurnalistlərin suallarına cavab verərkən amerikalı müşahidəçilər bir daha qeyd etmişlər ki, onların baş çəkdikləri dairə və məntəqələrdə seçki prosesi kifayət qədər şəffaf olmuşdur. Amerikalılar müşahidə prosesi zamanı təzyiqlə bağlı heç bir faktla üzləşmədiklərini diqqətə çatdırmış, seçici siyahılarında adı olmayan bəzi seçicilərin isə məhkəməyə müraciət edərək, sonradan vətəndaşlıq borclarını yerinə yetirdiklərini bildirmişlər.

Seçkilərdən dərhal sonra Bob Holden bəyanat yaymışdır. Bəyanatda deyilir:

"Seçki prosesində seçki rəsmilərinin peşəkarlıq səviyyəsi və səsvermə prosesini izləyən müşahidəçilərin





həmrəylik və dostluq əhval-ruhiyyəsi bizdə xoş təəssürat yaratdı. Biz çox az sayda narazılıq hallarına rast gəldik. Ölkənin bütün ərazisində müşahidə apara bilməsək də, ancaq seçki məntəqələrinin açılmasından səsvermənin yekununadək gördüklərimiz bizdə inam yaratdı ki, bu, ədalətli seçkidir və Azərbaycan xalqı öz seçimini etməkdə qətiyyətlidir. Hər kəsin demokratik prinsiplərə dəstəyi, seçkilərdə iştirakı bizi müsbət mənada təsirləndirdi. Biz inanırıq ki, bu seçkilər Azərbaycanın gələcəyi üçün yaxşı təminat verir.

Bəzi müşahidəçilər bizə məlumat verdilər ki, Azərbaycanın demokratik inkişaf prosesində cəmi 15 illik təcrübəsi vardır. ABŞ isə bu prosesdə 200 ildən çoxdur ki, addımlayır. Bu baxımdan Azərbaycanın nailiyyətləri yüksəkdir. Seçicilər azad və şəffaf seçkini tez bir zamanda öyrənmiş və mənimsəmişlər. Bu mənada amerikalılar sizin ölkənin vətəndaşlarından öyrənə bilərlər. Biz Azərbaycan vətəndaşlarının seçkilərdə fəal iştirakından qürur duyduq. Seçkilərdə iştirak edən hər bir şəxsi alqışlayır və ölkəsinin taleyini öz üzərlərinə götürən seçiciləri səmimiyyətlə salamlayırıq".

ABŞ-ın Vebster Universitetinin professoru **Coi İşiyama** isə parlament seçkilərini qısaca olaraq belə qiymətləndirmişdir: "Azərbaycan demokratiyaya doğru sıçrayış etdi. Biz hesab edirik ki, seçkilər şəffaf keçirildi".

London Beynəlxalq Demokratiya İnstitutunun direktoru **Reyçel Erenfeld** və Demokratiya İnstitutunun analitiki doktor **Radişevski** də Azərbaycanda təsəvvür etdiklərindən də artıq ürəkaçan mənzərə ilə qarşılaşdıqlarını bildiriblər. R.Erenfeld rəhbərlik etdiyi müşahidəçi qrupunun Bakının bir çox rayonlarında seçkilərin gedişini izlədiyini deyərək əlavə edib ki, ciddi qanun pozuntusu ilə qarşılaşmayıblar: "İnsanların seçkilərdəki fəallığı yüksəkdir. Adlarını seçici siyahısında tapa bilməyənlərin tezliklə öz hüquqlarının bərpası istiqamətində atdığı addımlar müsbət təəssüratlar yaratmışdır. Rastlaşdığımız bəzi şikayətlər bizi o qədər də heyrətləndirmədi. Çünki bu problemlər yerindəcə, operativ həll olundu. Deyə bilərəm ki, seçkilər azad, demokratik və şəffaf keçirildi. "Hər bir seçici səsinin mahiyyətini dərk edir". O deyib ki, təşkilatçılıq işləri onları çox razı salıbdır. Cənab Radişevski isə təəssüratını belə ifadə edib: "Biz MDB ölkələri olan Ukrayna, Qırğızıstan və digər yerlərdə də müşahidələr aparmışıq. Etiraf etməliyəm ki, Azərbaycanda belə yüksək səviyyəli səsvermə məntəqələrinin yaradılması bizdə yüksək təəssürat oyatdı. Seçicilər demokratik seçki yolunda məsuliyyətlərini və vəzifələrini hiss edirdilər. Azərbaycan hökuməti də seçicilərin fəal iştirakı üçün mövcud imkanlarından maksimum istifadə





etmiş, vətəndaşların demokratik prosesdə iştirakına şərait yaratmışdır".

Azərbaycanda 2005-ci il 6 noyabr parlament seçkiləri respublikanın inkişafının demokratik xəttini təsdiq etdi. Vaşinqtonda **Nikson adına Mərkəzdə** Azərbaycanda parlament seçkilərinə həsr olunmuş konfransa toplaşmış ABŞ politoloqlarının əksəriyyəti bu qənaətə gəlmişdir.

Konfransda çıxış edənlərin istisnasız olaraq hamısı əvvəlki seçkilərlə müqayisədə xeyli tərəqqi əldə edildiyini vurğulamışdır. Nikson Mərkəzinin beynəlxalq təhlükəsizlik və energetika siyasəti məsələləri üzrə proqramlarının direktoru **Zeyno Baran** demişdir: "Azərbaycanda indiki seçkilər əvvəlkindən qat-qat yaxşı keçmişdir". Politoloqlar müsbət hal kimi onu da nəzərə çarpdırmışlar ki, bu dəfə deputatlığa namizədlərin qeydiyyatı ilə bağlı problemlər olmamış, səsvermə istər yerli, istərsə də xarici KİV-lərdə geniş işıqlandırılmışdır, seçkilərin gedişini isə çoxsaylı müşahidəçilər izləyirdi.

**Ceymstaun Fondunun** eksperti **Vladimir Sokorun** qeyd etdiyi kimi, respublikada seçki prosesi mükəmməllikdən uzaq olsa da, aşkara çıxarılmış pozuntular seçkilərdə hakim Yeni Azərbaycan Partiyasının qələbəsini şübhə altına almır. Onun fikrincə, Prezident İlham

Əliyev öz hərəkətləri ilə əhaliyə sübut etdi ki, o, gələcəyə istiqamət götürmüş siyasətçidir. Halbuki, müxalifət liderləri arasında keçmişə nəzər salmaqla hərəkət edən adamlar çox olmuşdur. Müxalifət dəqiq siyasi proqrama malik deyildir və bu, onun məğlubiyyətini xeyli dərəcədə əvvəlcədən müəyyənləşdirmişdir.

Konfrans iştirakçıları belə bir cəhətə diqqət yetirmişlər ki, Azərbaycan hökuməti ATƏT-dən olan müşahidəçilər missiyasının bəyanatına çox tez reaksiya vermişdir. Azərbaycan rəhbərliyi onların rəylərini qəbul etməklə və mövcud nöqsanları düzəldəcəyinə söz verməklə demokratik xəttə sadiq qaldığını təsdiqləmişdir. Politoloqlar Prezident İlham Əliyevin seçkilərin ertəsi günü verdiyi bəyanatı bu baxımdan müsbət əlamət kimi qiymətləndirirlər. O, bəyanatında söz vermişdir ki, parlament seçkilərinin gedişində pozuntularda bu və ya digər dərəcədə əli olmuş bütün vəzifəli şəxsləri cəzalandıracaqdır. Onlar seçkilərdən sonra müxalifətin ayrı-ayrı nümayəndələrinin vəziyyətin sabitliyini pozmaq cəhdlərinə baxmayaraq, qan tökülməsinə yol verilməməsini də Prezident İlham Əliyevin xidməti hesab edirlər. ABŞ mütəxəssisləri dəfələrlə vurğulamışlar ki, Azərbaycanda demokratikləşmə prosesi inqilabi yolla deyil, təkamül yolu ilə getməlidir.





O ki qaldı Amerika-Azərbaycan münasibətlərinə, politoloqlar əmindirlər ki, Azərbaycan ABŞ üçün mühüm strateji tərəfdaş olaraq qalacaqdır. Bu, respublikanın təkcə çox böyük neft ehtiyatlarına malik olması ilə deyil, həm də onun coğrafi mövqeyi ilə izah edilir. Bu mənada Vaşinqton demokratik Azərbaycanı regionda sabitliyin təminatçısı hesab edir. ABŞ genişsəpkili məsələlərdə, o cümlədən energetika, təhlükəsizlik, antiterror mübarizəsi sahəsində Azərbaycanla münasibətləri davam etdirmək niyyətində olduğunu bildirmişdir.

## 4. Avropa

**ATƏT-in hazırkı sədri, Sloveniyanın xarici işlər naziri Dimitri Rupelin** "Uoll-strit cornel" qəzetində dərc olunmuş məqaləsində vurğulanır ki, Azərbaycanda elə qüvvələr var ki, öz xudbin məqsədlərinə çatmaq üçün ölkədəki sabitliyi zorakılıqla əvəz etməyə hazırdırlar. Əgər Azərbaycanda sabitlik pozulsa, Dağlıq Qarabağ münaqişəsinin həlli təxirə salına bilər.

Cənab Rupel bildirmişdir ki, neftin qiymətlərinin yüksək səviyyəyə qalxması Azərbaycan hökumətinə neftdən daha çox gəlir əldə etmək kimi tarixi fürsət vermişdir. Tezliklə Azərbaycan külli miqdarda gəlir əl-

də edəcək və bunu müxtəlif sahələrin inkişafına yönəltmək olar. Lakin iqtisadi islahatlar, sabitlik və ümumi təhlükəsizlik olmasa, uzunmüddətli iqtisadi tərəqqi mümkün deyildir.

Məqalədə daha sonra deyilir ki, beynəlxalq birlik Azərbaycanda hökumət-müxalifət münasibətlərində və hökumətdaxili münasibətlərdə şəffaflığı təmin etməlidir. ATƏT sədrinin fikrincə, üçüncü qüvvənin vasitəçiliyi olmadan da, dialoqun başlaması mümkündür. Prezident İlham Əliyev iqtisadi və siyasi liberallaşmanı sürətləndirmək istiqamətində xeyli addımlar atmışdır. Lakin siyasi proseslər daha qanuni əsaslarla getsə, hökumətin mövqeyi daha da möhkəmlənə bilər.

Avropa Parlamentinin müşahidə missiyasının rəhbəri **Marian İsler Bequin** ümumilikdə seçkilər haqqında müsbət təəssürata malik olduqlarını bəyan etmişdir. O, Beynəlxalq Müşahidə Missiyasının məntəqələrin 87 faizində seçki prosesindən razı qaldığını da vurğulamışdır.

Avropa Birliyinin elm proqramının nümayəndəsi, politologiya professoru **Verner Myunx** isə Prezident İlham Əliyevin 11 may və 25 oktyabr tarixli Sərəncamlarına toxunaraq, bu sənədlərin şəffaf, ədalətli və düzgün seçkilərin keçirilməsi üçün bir çox vacib tapşırıqları nəzərdə tutduğunu demişdir: "Azərbaycanda





seçkilərin müşahidəsi göstərdi ki, az sayda olan mənfi məqamlar istisna edilməklə, bu tapşırıqların hamısı həyata keçirildi. Seçkilər ərəfəsində və seçkilər zamanı baş vermiş hadisələri Avropaya inteqrasiya prosesində çox mühüm addımlar kimi qiymətləndirirəm. Mən bu addımların davam etdiriləcəyinə şübhə etmirəm".

Almaniyalı müşahidəçi **K.Esenge** də seçkinin gedişatından razı qaldıqlarını ifadə etmişdir: "Biz səhər-səhər qaldığımız ofisdən çıxıb seçki məntəqələrinə gedərkən nə ilə qarşılaşacağımızı bilmirdik. Ancaq gün ərzində mütəşəkkil və qaydalara tam uyğun gələn seçkilərin şahidi olduq. Ondan artıq seçki məntəqəsini gəzdik, qaçqın və məcburi köçkünlərin məskunlaşdığı məntəqələrə də baş çəkdik. Azərbaycanın seçkilərə bu cür mütəşəkkil formada hazırlığı bizi təəccübləndirdi".

Sloveniyadan olan müşahidəçi qrupu da parlament seçkilərinin ədalətliliyini tanıdığını bildirmişdir. "Azərbaycandakı seçkilərlə Avropadakı seçkilər arasında böyük fərqlər yoxdur". Belə bəyanatla Sloveniyanın müşahidə missiyasının rəhbəri **Elen Çiç Zmaqo** çıxış etmişdir. Onun sözlərinə görə, sloveniyalı müşahidəçilər ciddi qanun pozuntularına rast gəlməyiblər. O, həmçinin Seçki Məcəlləsini yüksək qiymətləndirir və bu fikirdədir ki, Prezidentin məlum Sərəncamları seçki prosesinə müsbət təsir göstərmişdir.

London Beynəlxalq Demokratiya İnstitutunun analitiki **Kemi Pirs** isə fikirlərini belə ifadə etmişdir:

"Azərbaycanda keçirilən parlament seçkiləri beynəlxalq ekspert kimi məndə xoş təəssürat oyatdı. Müşahidəçi qrupu ilə birlikdə mən səsvermə prosesini bir çox məntəqədə izlədim. Seçicilərin könüllü şəkildə məntəqələrə gəlməsini, seçkilərin açıq olmasını Qərb demokratiyasına doğru addım kimi dəyərləndirmək olar. Azərbaycan vətəndaşları birlik göstərərək, seçdikləri namizədə səsə verdilər. Həmişə çoxluğun seçimi qalib gəlir, azlıq isə buna tabe olmalıdır. Yerli müşahidəçilərlə, siyasi partiyaların təmsilçiləri ilə, müstəqil namizədlərlə söhbətlərdən belə bir qənaətə gəlmək olar ki, sosial-iqtisadi sahədə böyük inkişafa nail olan Azərbaycan həm də dövlət quruculuğu sahəsində daha da demokratikləşir. Kim bilir, bəlkə 5 ildən sonra Azərbaycanda elektron səsvermə keçiriləcəkdir".

Ukrayna MSK-nın üzvü **İqor Koçur** seçkinin tamamilə obyektiv və ədalətli keçirildiyini demişdir: "Seçki məntəqələrində hökm sürən sakitlik bizi heyrətə gətirdi. İnsanlar – sadə vətəndaşlar, seçki komissiyalarının üzvləri, müşahidəçilər özlərini çox sakit aparırdılar. Biz Ukraynaya xoş təəssüratla qayıdacaq, təəssüratımızı həmkarlarımızla, seçicilərimizlə bölüşəcəyik. Azərbaycan xalqını seçkilərin uğurlu keçməsi münasibətilə təbrik edə bilərəm". O, həmkarı Mixail Oxendovski ilə təşkil etdikləri mətbuat konfransında seçkilərin çox mütəşəkkil, sakit, müasir beynəlxalq standartlara uyğun keçirildiyini vurğulamışlar. Onlar baş çəkdikləri bütün seçki məntəqələrində seçki komissiyalarının mütəşəkkil və nizamlı işlədiyinin, səsvermə prosesinin, habelə səslərin hesablanmasının sakit və çox yaxşı təşkil edildiyinin şahidi olmuşlar.





Rumıniyanın İnsan Hüquqları üzrə komissarı, bu ölkənin BMT-dəki nümayəndəsi **Nikolae Spirou** demişdir:

"Beynəlxalq Elmi Şuranın İnsan hüquqları üzrə ekspert komissiyası Azərbaycanda noyabrın 6-da keçirilən parlament seçkilərinin yekunları ilə bağlı rəsmi məlumat hazırlamışdır. Həmin məlumatda seçki günü də daxil olmaqla, 3 gün ərzində müşahidə etdiklərimiz öz əksini tapmışdır. Sənəddə demokratik quruculuq istiqamətində müsbət amillərlə yanaşı, mənfi amillər də əks olunmuşdur. Mənim təmsil etdiyim Rumıniya kimi, Azərbaycan da demokratiya xətti götürmüşdür. Burada ABŞ-ın Azərbaycandakı səfiri Rino Harnişin "Amerikada olan demokratiyanı ideal demokratiya hesab etmək olmaz" deyimi yerinə düşür. Bu kontekstdə gənc ölkə kimi demokratiya xətti götürən Azərbaycandan mükəmməllik və əsaslılıq gözləmək düzgün

olmazdı. Sabitliyin və demokratiyanın möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər müsbət proseslərdə marağı olan qüvvələrin inamlarını artırmış olur. Bütün Avropa ölkələri maraqlıdır ki, Azərbaycan öz sabitliyi ilə Cənubi Qafqaz regionunun "təhlükəsizlik adası" olsun".

BMT yanında müşahidəçi statusuna malik olan İnsan Hüquqları Müdafiəsi Təşkilatının sədri **Flarentin Skaletski** seçkilərin başa çatması ərəfəsində demişdir: "İndiki parlament seçkisi əvvəlkilərdən onunla fərqlənir ki, ümumiyyətlə, ölkədə gərginlik hiss olunmur". Seçkiləri şəxsi təşəbbüsü ilə müşahidə edən ekspert seçki prosesini belə qiymətləndirmişdir: "Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil olunmuşdur. Başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda seçkilərdən sonra hər hansı bir dəyişikliyin olmasına əsas görmürəm. Seçki qutularının açılmasına az vaxt qalmışdır. Deyə bilərəm ki, heç bir qanun pozuntusuna rast gəlməmişəm. Hər şey öz qaydasındadır və problem yoxdur". F.Skaletski Azərbaycanda parlament seçkilərinin yüksək səviyyədə təşkil olunduğunu təkrarən vurğulayaraq demişdir: "Seçki praktikasının təkmilləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin verdiyi Sərəncamlarda seçkilərin demokratik keçirilməsi üçün bir sıra mühüm məsələlər var. Mənim xoşuma gələn





bir məsələ ondan ibarətdir ki, 30 faiz xaricdən maliyyələşən qeyri-hökumət təşkilatları da seçkiləri müşahidəçi statusu ilə izlədilər".

Estoniya parlamentinin deputatı **Arnold Kimber** əvvəlki seçkilərlə müqayisədə seçicilərin daha çox fəallığının müşahidə olunmasına diqqət çəkib: "Əsas, parlamentə xalqın seçdiyi adamların düşməsidir. Biz müşahidə zamanı heç bir pozuntu ilə qarşılaşmadıq".

Estoniya parlamentinin digər deputatları **Helle Kalda** və **Maya Rastra** da demokratik seçkilər keçirilməsində böyük irəliləyişin müşahidə edildiyini deyiblər: "İnsanlarla söhbətlərimizdə əmin olduq ki, onlar seçkilərin demokratik və şəffaf keçirilməsinə şübhə etmirlər".

Estoniyanın "Saar-poll" şirkətinin rəhbəri **Andreus Saar** isə fikrini belə ifadə etmişdir: "Azərbaycanın özünəməxsus adət-ənənələri, mədəniyyəti və mentaliteti var. Bütün bunları nəzərə alaraq, biz "exit-poll" keçirməyə hazırlaşdıq və ölkənin 44 dairəsində "exit-poll" keçirdik. Hər seçki məntəqəsində səs verənlərin beşindən biri sorğuya cəlb olunurdu. Sorğuya cavab verməkdən imtina halları ilə də rastlaşdıq, telefon əlaqəsi ilə də problemlər olurdu. Eyni zamanda, supervayzerlər və intervyerlər işlərini kifayət qədər vicdanla yerinə yetirdilər. Bizim anketdə 3 sual – cins, yaş və kimə

səs verilməsi barədə suallar var idi. Axşam saat 12-də biz nəticələri elan edə bilərdik, təəssüf ki, bəzi dağ rayonlarından informasiyaları səhər saat 4-ə qədər gözləməli olduq. Bizim müşahidələrə əsasən, bəzi texniki səhvlər nəzərə alınmaqla, seçkilər demokratik keçmişdir".

Seçki prosesini izləmək üçün ölkəmizə gələn müşahidəçilər sırasında Latviya və Litva nümayəndələri də olmuşdur. İlk dəfədir ki, Azərbaycanda olduqlarını deyən Latviya MSK-nın sədri **Armis Simdars** seçki prosesini diqqətlə izləmişdir. Onun sözlərinə görə, seçki zamanı sadə insanların daha yaxından iştirak etdıyinin şahidi olublar. Latviya nümayəndəsinin fikrincə, bunun əsas səbəbi onunla bağlıdır ki, sadə insanlar seçkiyə, daha doğrusu, namizədlərə inanaraq səsverməyə gəliblər. Yəni, həmin insanlar inanırlar ki, səs verdikləri namizədlər seçildikdən sonra onların problemləri həll olunacaqdır. Seçilənlər isə onların inamını doğrultmalıdırlar. Hər ölkədə fərqli seçki prosesi aparıldığını deyən A.Simdars Azərbaycanda da mentalitetə uyğun prinsiplərin gözlənildiyini bildirmişdir. Parlament seçkilərinin pozuntu olmadan keçməsinin əsas səbəbini açıqlayan Latviya nümayəndəsinin sözlərinə görə, Prezident İlham Əliyevin seçki prosesi ilə bağlı imzaladığı Sərəncamlar qanun pozuntusunun qarşısının alınmasına kömək etmişdir.





Seçkinin gedişi zamanı çoxlu müşahidəçinin olduğunu deyən Litva MSK-nın sədri **Zenonas Vaykauskas** Azərbaycanın inkışafa doğru getdiyini vurğulamışdır. O bildirmişdir ki, onların olduqları məntəqələrdə komissiya sədrləri ilə müşahidəçilər arasında heç bir münaqişə qeydə alınmamışdır. Eyni zamanda, məlumatların internetdə yerləşdirilməsinin çox yaxşı hal olduğunu deyən Litva nümayəndəsi seçkinin gedişi zamanı sadə insanlarla söhbət etdiklərini bildirib və qeyd edib ki, onlar seçkinin demokratik keçəcəyinə inanırdılar. Seçici siyahıları ilə bağlı problemlərin olmasına gəldikdə isə, Z.Vaykauskas belə çətinliklərin hər bir ölkədə olduğunu vurğulamışdır.

## 5. Rusiya və Müstəqil Dövlətlər Birliyi

"Azərbaycandakı seçkilər göstərdi ki, Rusiya və digər MDB dövlətlərinin ATƏT-də islahatlar aparmaq cəhdləri öz nəticələrini verir". Bu bəyanatla seçkilərin ertəsi günü Rusiya XİN-in rəhbəri **Sergey Lavrov** çıxış etmişdir. "Biz dəfələrlə təklif etmişik ki, ATƏT təkcə Avropa Şurası və NATO PA ilə deyil, MDB-dən olan müşahidəçilərlə də əməkdaşlıq etsin. Belə bir əməkdaşlığı biz Azərbaycanda keçirilən seçkilərdə

gördük. Heç kim düşünməsin ki, MDB-nin seçki prosesində nə isə başqa gözləntiləri var".

"Rusiya Azərbaycanda 6 noyabr parlament seçkilərini legitim sayır və hesab edir ki, bütövlükdə seçkilər qüvvədə olan qanunvericiliyə uyğun keçirilmişdir". Azərbaycanda parlament seçkilərinə belə bir qiyməti **Rusiya Xarici İşlər Nazirliyi** vermişdir. Bu rəy noyabrın 8-də Rusiya XİN-in İnformasiya və mətbuat departamentinin rəsmi saytında dərc olunmuşdur.

Sənəddə deyilir ki, Rusiya beynəlxalq müşahidəçilər qrupunun tərkibindəki təxminən 300 müşahidəçinin fikrinə əsaslanaraq, seçkilərlə bağlı öz ixtisaslı rəyini vermişdir. Seçkilərdə pozuntular müşahidə olunmuşdur, lakin heç bir seçki pozuntusuz keçirilmir və onların miqyası nəticələrin legitimliyini və seçkilərin hamı tərəfindən qəbul olunmuş standartlara müvafiqliyini şübhə altına almağa imkan vermir, mövcud pozuntu halları isə seçkilərə təsir göstərə bilməz.

**Rusiya Federal Məclisi Federasiya Şurası** sədrinin müavini, Avropa Şurasının Avropanın yerli və regional hakimiyyət orqanları konqresində Rusiya nümayəndə heyətinin rəhbəri **Svetlana Orlova** noyabrın 9-da Strasburqda Konqresin sessiyasında çıxış edərək, Azərbaycanda parlament seçkiləri barədə təəssüratlarını bölüşmüşdür. O bildirmişdir ki, Azərbaycanda





gənc demokratiya beynəlxalq normalara və insan hüquqlarına ardıcıl surətdə əməl edilən azad, demokratik cəmiyyətin standartlarına uyğun gəlmək kimi mühüm imtahandan ləyaqətlə çıxdı.

Demokratiyanın təşəkkül tapdığı ölkələr son 10 ildə Azərbaycanın açıqlıq, aşkarlıq, insan hüquqlarına əməl edilməsi, yaşayış səviyyəsinin yüksəldilməsi və davamlı iqtisadi artımın təmin olunması istiqamətində etdiyi sıçrayışı layiqincə qiymətləndirəcəklər.

Seçkilərdə 1586 beynəlxalq müşahidəçi, o cümlədən MDB-dən 640 müşahidəçi, 310 əcnəbi jurnalist akkreditə olunmuşdu. Monitorinqdə 17014 yerli müşahidəçi də iştirak etmişdir.

Xanım Orlova demişdir: "Mən Azərbaycanda parlament seçkilərində MDB Parlamentlərarası Assambleyasından müşahidəçilər qrupunun əlaqələndiricisi, eyni zamanda, – bu, mənim üçün xüsusilə xoşdur, – Avropa Şurasının Yerli və regional hakimiyyət orqanları konqresinin nümayəndəsi idim. Qrupumuzun tərkibində Rusiya, Ukrayna, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Belarusdan olan müşahidəçilər işləyirdilər. Biz Bakı, Sumqayıt, Göyçay şəhərlərində və Abşeron rayonunda 45 seçki məntəqəsində olduq. Şəxsən mən 8 seçki məntəqəsində və iki dairə seçki komissiyasında oldum. MDB-dən gəlmiş müşahidəçilər 3987 seçki məntə-

qəsində oldular ki, bu da məntəqələrin ümumi sayının 60 faizini təşkil edir. 2838 seçki məntəqəsində müşahidələr digər beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in nümayəndələri ilə birlikdə həyata keçirilmişdir.

Oktyabrın 6-da fəaliyyətə başlayan MDB missiyası seçkilərin gedişində uzunmüddətli müşahidə aparmışdır. Demək lazımdır ki, respublikada azad və demokratik seçkilər keçirilməsinin beynəlxalq normalara uyğun hüquqi əsası yaradılmışdır. İlk dəfə olaraq, seçkilər yeni Seçki Məcəlləsi əsasında keçirilmişdir.

Seçkilərin açıqlığını və şəffaflığını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün Azərbaycan Prezidenti icra orqanlarının seçki prosesinə mümkün qanunazidd müdaxiləsinin qarşısının alınması, vətəndaşların siyasi mənsubiyyətinə görə təqib olunmasına yol verilməməsi, bütün namizədlərə bərabər şərait yaradılması üçün əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır. Deputatlığa namizədlərin dəstəklənməsi üçün imzalar kvotası xeyli azaldılmışdır: əvvəllər müəyyən edilmiş 2000 imza əvəzinə, indi cəmi 450 imza tələb olunurdu.

Bundan əlavə, ilk dəfə seçki vəsiqələri, – onları seçicilərin 95 faizi almışdır, – tətbiq olunmuş, habelə təkrar səsverməyə yol verilməməsi üçün səsvermə günü seçki bülletenləri alarkən seçicilərin barmaqları görünməyən mürəkkəblə işarələnmişdir. Respublika Prokurorluğu seçkilərin təşkili və keçirilməsi zamanı yol verilmiş pozuntular barədə alınan bütün ərizələrə operativ surətdə baxmışdır. MSK-ya 1050 ərizə və şikayət daxil olmuş, onlara mahiyyətcə baxılmış, bir hissəsi prokurorluğa və dairə seçki komissiyalarına göndərilmişdir".





Xanım Orlovanın bildirdiyinə görə, MSK-nın Müstəqil İnformasiya Mərkəzi tərəfindən seçicilərin internetdə yerləşdirilmiş, habelə bütün seçki məntəqələrində asılmış siyahıları ilə, MSK-nın internetdəki saytından çıxarılan digər informasiya ilə sərbəst tanış olmaq seçkilərin informasiya baxımından açıqlığı və aşkarlığını təmin edirdi. MSK-nın saytındakı informasiya daim təzələnirdi.

Rusiya nümayəndəsi daha sonra demişdir: "Deputatlığa namizədlər arasında alternativlik və yüksək rəqabət seçkilərin demokratikliyinə sübutdur. Seçki günü 125 deputat yeri uğrunda qeydə alınmış 1541 namizəd mübarizə aparırdı ki, bu da bir yerə orta hesabla 12 nəfər deməkdir. Qeydiyyatdan keçmiş namizədlərin 58 faizi siyasi partiyaların və siyasi partiyalar bloklarının nümayəndələri, 42 faizi bitərəflər, qeyd etmək xüsusilə xoşdur ki, 11 faizi qadınlar idi. 21 siyasi partiyanı birləşdirən 8 blok qeydə alınmışdı.

"Meydan demokratiyası" prinsipinə də əməl edilmişdir: çoxsaylı mitinqlər, yığıncaqlar, yürüşlər keçi-

rilmişdir. Təkcə Bakıda kütləvi tədbirlər keçirilməsi üçün 299 yer ayrılmışdı. Deputatlığa namizədlərə televiziyada pulsuz efir vaxtı verilmişdi.

Təşviqat kampaniyaları geniş, müxtəlif reklamlardan və tədbirlərdən istifadə etməklə keçirdi. Seçkiqabağı təşviqat dövründə deputatlığa namizədlərin seçicilərlə 22704 görüşü olmuş, o cümlədən müxalifət nümayəndələri 5566 görüş keçirmişlər.

Seçkilərin uzunmüddətli və qısamüddətli müşahidələri zamanı seçki prosesinin gedişi barədə obyektiv rəy formalaşmışdır.

Müşahidəçilərin hesabatında göstərilir ki, seçki məntəqələri müəyyən olunmuş vaxtda açılmış, lazımi sənədlərlə, avadanlıq və informasiya materialları ilə təmin edilmişdi, bir çox məntəqələrdə ana və uşaqlar üçün otaqlar, tibb məntəqələri vardı. Səsvermə əsasən, sakit və işgüzar şəraitdə, seçki qanunvericiliyinə uyğun keçirdi.

Bununla yanaşı, seçki prosesinin pozulmasına dair ayrı-ayrı hallar qeydə alınmışdır: qohumların yerinə səs verilir, səsvermə zamanı təşviqat aparılır, səsvermə kabinələrində eyni vaxtda 2 adam olurdu, "exit-poll"un informasiya materialları aşkara çıxarılmış, "exit-poll" təşkilatçılarının apardıqları sorğu bir sıra hallarda ciddi pozuntularla keçirilirdi. MDB-dən olan





müşahidəçilər seçkilərdə "exit-poll"ar keçirilərkən saxtakarlıqlar barədə çoxsaylı faktlar aşkarlamışlar.

Barmaqların işarələnməsi proseduru səsvermə prosesini və məntəqə seçki komissiyalarının işini çətinləşdirir, əlavə vaxt sərf olunmasını tələb edir və məntəqələrdə növbələr yaradırdı.

O ki qaldı seçkilərin qiymətləndirilməsinə, E.Hastinqsin öz çıxışında kimləri və hansı əsaslarda təmsil etdiyi qətiyyən aydın deyildir. Zənnimizcə, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) mətbuat üçün məlumatında da qeyri-obyektivlik var. Bu məlumatda Azərbaycanda seçkilərin keçirilməsinin mənfi tərəfləri açıq-aşkar qabardılır. DTİHB-nin tammiqyaslı yekun sənədini gözləmək lazımdır. Ümidvarıq ki, bu sənəddə seçkiləri izləyən qısamüddətli müşahidəçilərin, o cümlədən də rusiyalı müşahidəçilərin məlumatı nəzərə alınacaqdır. Rusiya ATƏT-in tamhüquqlu üzvüdür və onun saxlanılmasına pul ödəyir. Lakin Rusiya nümayəndələri DTİHB-nin xətti ilə uzunmüddətli müşahidələrə buraxılmadılar.

Sonda qeyd etmək istəyirəm ki, Azərbaycanda seçkilər beynəlxalq müşahidəçilərin ciddi nəzarəti altında demokratik və açıq əsasda baş tutmuşdur. Düşünürəm ki, ATƏT nümayəndələri demokratiyanı Avropa Şurasının Yerli və regional hakimiyyət orqanları

konqresində öyrənə bilərlər. Biz Avropa Şurasının Yerli və regional hakimiyyət orqanları konqresində toplanmış təcrübəni tətbiq edərək, Azərbaycanda və demokratiyanın gənc olduğu digər dövlətlərdə demokratik proseslərin inkişafına kömək göstərəcəyik".

**Dövlət Dumasının Beynəlxalq işlər komitəsinin sədri Konstantin Kosaçov** bildirmişdir ki, beynəlxalq müşahidəçilərin rəylərinin hələlik bir-birindən fərqlənməsinə baxmayaraq, baş tutmuş seçkilərin legitimliyi heç vəchlə şübhə altına alına bilməz. O demişdir: "Bəzi qüsurları hələ aradan qaldırmaq lazım gələcəkdir. Göründüyü kimi, bu, elə Azərbaycanın hakimiyyət orqanlarının da niyyətidir. Seçkilər baş tutmuşdur və onun nəticələrini şübhə altına almaq üçün əsas yoxdur". K.Kosaçovun sözlərinə görə, müxalifətin adamları küçələrə çıxarmaq yolu ilə səsvermənin yekunlarını ləğv etmək cəhdləri vəziyyəti gərginləşdirmək təsiri bağışlayır.

**Dövlət Duması Təhlükəsizlik komitəsinin** üzvü **Nikolay Leonov** demişdir ki, Azərbaycanda heç bir "narıncı inqilab"ın baş verməyəcəyinə əmindir: "Ukrayna ilə Gürcüstan ayrı məsələdir, Azərbaycanda isə heç bir inqilab olmayacaqdır. Qərb də belə bir inqilaba yol verməyəcək, onu dəstəkləməyəcəkdir. Zənnimcə, hazırda Azərbaycan Qərbin planlarında böyük rol oy-





nayır, çünki Bakı-Tbilisi-Ceyhan layihəsi həyata keçirilir və əlbəttə, Azərbaycan böyük məbləğdə xarici sərmayə cəlb edəcəkdir. Bir sözlə, indi Azərbaycanda başqa bir vəziyyət yaranmışdır".

Rusiya Federasiya Şurasının Beynəlxalq işlər komitəsinin sədri **Mixail Margelov** seçkilərin ölkə əhalisinin Cənuba tərəf üz tutmadığını sübut etdiyini bildirmişdir: "Əksinə, inkişafın dünyəvi yolunu seçir. İndi Azərbaycanın radikal islam ideyalarının yayılmasının qarşısına sipər çəkən, bəlkə də, başlıca barrikada olduğunu nəzərə alaraq, bu qələbəni strateji cəhətdən mühüm hesab etmək olar. Nəticələr sorğuların yekunlarından çox da fərqlənmir və iqtidarın əhali tərəfindən dəstəkləndiyinə sübutdur. Azərbaycanda seçkilər barəsində ABŞ-ın və Avropa Birliyinin Rusiya ilə eyni mövqe tutduğunu nəzərə alaraq, müxalifətin bu cür əməlləri ölkə rəhbərliyini deyil, məhz onun özünü hörmətdən salar".

MDB-dən, xüsusilə də Rusiyadan olan müşahidəçilər Qərbdən və beynəlxalq təşkilatlardan olan bir sıra müşahidəçilərin postsovet məkanında keçirilən seçkilərə vahid "resept"lə reaksiya verdikləri qənaətindədirlər. Onların fikrincə, Qərbdən olan bəzi dairələr MDB-də keçirilən seçkilərin demokratikliyini bilərəkdən şübhə altına almaq istəyirlər.

MDB-dən olan müşahidəçi **Sergey Markov** hesab edir ki, qeydə alınmış namizədlərin çoxluğu müsbət haldır. Azərbaycanda siyasi demokratiya gördüyünü deyən Markova görə, barmaqların mürəkkəblənməsinə heç bir ehtiyac yoxdur: "Bu qərarın verilməsinə ATƏT təsir edib, necə ki, bunu Afrika ölkələrində də edirlər". Onun fikrincə, gələcəkdə barmaqların rənglənməsi sistemindən imtina etmək lazımdır, normal texnologiyalar kifayətdir.

ATƏT DTİHB-nin tərkibində olan rusiyalı müşahidəçilər adıçəkilən qurumun hesabatındakı bəzi məqamları qeyri-obyektiv hesab edirlər. Onların fikrincə, qurumun press-relizində yalnız mənfi tərəflər işıqlandırılır. **Aleksandr Çepurinin** fikrincə, rusiyalı müşahidəçilər seçkiləri sakit şəraitdə izləyiblər. "Əsas odur ki, Azərbaycandakı daxili narazılıqlar seçkidən sonra sivil şəkildə, zorakılıq olmadan həll edilsin.

Bizim hamımız yaxşı xatırlayırıq ki, vaxt var idi hər dairədən bir nəfər namizəd idi. İndi isə parlamentdəki bir yerə hətta 30 namizəd iddia edir. Müşahidəçiliyi təkcə xarici deyil, yerli müşahidəçilər də həyata keçirirdilər. Bu isə o deməkdir ki, seçkilər ciddi nəzarət altında keçmişdir". ATƏT missiyasının rusiyalı təmsilçisinin fikrincə, ATƏT-in yekun hesabatında nəzərə alınmamış müsbət məqamlar da öz əksini tapmalıdır:





"ATƏT-in hesabatı geniş hazırlanıb, amma birtərəfli mahiyyət kəsb edir. Mən bilmirəm, Hastinqs kimdir və o, burada belə qiymətlər verir?"

"Qeyd etməliyəm ki, Azərbaycanda seçkilər sivil şəkildə keçdi və biz qanun pozuntusunu qeydə almadıq. Ancaq ayrı-ayrı ölkələrin nümayəndələri məntəqələrdə qalmaqal yaratmaq istəyirdilər. Onlar, əsasən, indi nəticələrdən narazı qalan ATƏT təmsilçiləri idilər". Bu bəyanatın müəllifi isə Rusiyadan olan müşahidəçi **Vadim Dubiçevdir**. Onun sözlərinə görə, seçkilər zamanı mövcud olan bir sıra formal prosedurlar saxtakarlığı mümkünsüz edirdi.

ATƏT missiyasının tərkibində olan mütəxəssis, Rusiyanın Seçki Hüququ İctimai İnstitutunun sədri **İqor Borisov** isə ATƏT-i öz vəzifələrinin əksinə olaraq, siyasi şəraiti gərginləşdirməkdə suçlayır: "Mən əmin oldum ki, onlar o qədər də təmiz "oyun oynamırlar". Bakıya gələn kimi mənə müqaviləni imzalamağı təklif etdilər. Müqaviləyə görə mən, ATƏT-in razılığı olmadan heç kimlə, əsasən də, dövlət nümayəndələri ilə ünsiyyətə girməməliydim. Mən təbii ki, müşahidələrim zamanı əldə etdiyim məlumatla bölüşməyimi qadağan edən maddə ilə razılaşa bilməzdim. Bunu ATƏT-ə bildirdikdə, mənə dedilər ki, geriyə qayıtmaq üçün mənə bilet təqdim edə bilməyəcəklər. ATƏT

missiyası seçki prosesinə nəzarət edir və söhbət post-sovet məkanı dövlətlərindən düşərkən onlar əvvəlcədən hazırdırlar ki, saxtakarlıqları ifşa etsinlər və bununla da siyasi vəziyyəti silkələsinlər. Mən bizi "iş"ə necə hazırladıqlarını gördüm. Bizə Azərbaycandakı vəziyyətdən danışdılar və əsas funksiyalarımıza olduqca az vaxt sərf etdilər. Yəni təlimatlar açıq siyasi xarakter daşıyırdı və ATƏT-in Azərbaycandakı fəaliyyəti müşahidəçilərin görüşlərinə əsaslanmırdı. Bütün nəticələr əvvəlcədən çıxarılmışdı".

"Azərbaycanda keçirilən seçkilərdə pozuntular oldu, amma saxtakarlıq qeydə alınmadı. Bu pozuntular o miqyasda deyildi ki, kimsə müxalifətin əlindən qələbənin oğurlandığını iddia etsin". Bu bəyanatı isə MDB Ölkələri İnstitutunun direktoru **Konstantin Zatulin** vermişdir.

Rusiyanın Effektiv Siyasət Fondunun prezidenti **Qleb Pavlovski** hesab edir ki, Azərbaycanda da müxalifət Ukrayna ssenarisi ilə hakimiyyətə gəlmək istəyirdi, amma Prezident İlham Əliyev bu niyyətin reallaşmasının qarşısını ala bildi. "Azərbaycanda Prezident İlham Əliyevin tədbirləri nəticəsində potensial təhlükə olan koalisiyanın qarşısı alındı. Azərbaycan müxalifəti əsil müxalifət deyil, sadəcə, iqtisadi ittifaqların sualtı birliyinin su üstündə olan hissəsidir. Müxalifət bu mahiyyətini itirdikdən sonra, onun seçkiyə niyə getməyinin əhəmiyyəti də itdi. Müxalifət seçkiyə deyil, çevrilişə hazırlaşırdı, ona görə də uduzaraq, belə alçaldıcı nəticələrə nail oldu. Məğlubiyyətin əsas səbəbi bu idi".





İTAR-TASS agentliyi baş direktorunun birinci müavini **Mixail Qusman** Azərbaycanda "narıncı inqilab"ın baş verməsinin qeyri-mümkün olmasına toxunub və müxalifətin zəif olduğunu bildirmişdir: "Burada inqilab etməyə qadir qüvvələr yoxdur. Çünki Azərbaycan müxalifətini cəmiyyətdə qidalandıran qüvvələr yoxdur".

Gürcüstan parlamentinin komitə sədri **Givi Tarqamadze** parlament seçkilərində hakim partiyanın qələbəsinin əsas səbəbi kimi müxalifətin zəif olmasını göstərmişdir: "Bu qüvvələr konkret demokratik alternativ təklif edə bilmirlər. Azərbaycan müxalifəti beynəlxalq ictimaiyyətin tələb etdiyi səviyyədə demokrat ola bilmədi. Seçki prosesində pozuntular müşahidə edilsə də, yekun nəticə barədə heç kimin sözü ola bilməz".

Gürcüstan Mərkəzi Seçki Komissiyasının üzvü **Giza Mçelidze** isə seçkilərin pozuntusuz keçdiyini müşahidə etdiklərini və bu ölkənin nümayəndə heyətinin müşahidə apardığı dairələrdə heç bir kobud qanun pozuntusuna rast gəlmədiklərini bildirmişdir.

Ukrayna Mərkəzi Seçki Komissiyasının üzvləri **İqor Kaçur** və **Mixail Oxendovski** də seçkilərlə bağlı

mövqelərini açıqlayıblar. Ukrayna nümayəndə heyətinin üzvləri vurğulayıblar ki, seçkilərin gedişini müşahidə etmək üçün seçki məntəqələrinin seçimində onlara heç bir məhdudiyyət qoyulmayıb. Qrupun üzvləri seçkilər zamanı hər məntəqədə namizədlərin müşahidəçilərinə suallar veriblər. Səsvermə və səslərin hesablanması zamanı namizədlərin vəkilləri tərəfindən pozuntular barədə onlara heç bir şikayət daxil olmayıb. Azərbaycanda parlament seçkiləri sakit şəraitdə keçib: "Biz bu azad seçkilərin şahidi olduq".

Qazaxıstanın "Gənclərin seçkisi" təşkilatının həmsədri **Alina Xamatdinova** da seçicilərin fəallığının diqqəti cəlb etdiyini və olduqları məntəqələrdə heç bir qanun pozuntusu müşahidə etmədiklərini söyləmişdir.

## 6. Türkiyə

Türkiyə Böyük Millət Məclisinin 19 deputatından ibarət müşahidəçilər qrupunun rəhbəri **Haluk İpək** bəyan edib ki, müşahidə apardıqları məntəqələrdəki seçici fəallığı onları razı salıb: "Hiss olunur ki, ölkə bu seçkiyə daha yaxşı hazırlaşıb. Respublikanın seçki praktikasında ilk dəfə tətbiq olunan barmaqların boyanması, "exit-poll" da bu mühüm siyasi kampaniyanın şəffaf və





ədalətli keçirilməsinə kömək edib. Polis də gözə görünmürdü, qutular şəffafdır. Tərəfimizdən seçki pozuntusu qeydə alınmayıbdır".

Türkiyənin Mərmərə Qrupu Vəqfinin rəhbəri **Akkan Suver** də Azərbaycanda beynəlxalq norma və prinsiplərə riayət etməklə seçkilərin yüksək səviyyədə keçirildiyini, seçici fəallığının, mütəşəkkilliyin xüsusi nəzərə çarpdığını bildirmişdir: "Seçki prosesi qurtardıqdan sonra ən önəmlisi – bülletenlərin sayılması zamanı böyük bir ciddilik və işə məsuliyyət hissi gördük. Millət vəkili seçilmiş namizədlərdən 63 nəfərinin iqtidar partiyasından, 41-nin müstəqil olmasını, yerdə qalanın, yəni 21 nəfərin müxalifəti təmsil etməsi demokratiyanın əsil göstəricisidir. İstənilən seçkidə qazanan və məğlub tərəfin olması labüddür".

Akkan Suver seçkilərin beynəlxalq standartlara uyğun təşkil olunduğunu alqışladığını bildirmişdir. Onun sözlərinə görə, müşahidələrdən məlum oldu ki, müxtəlif məntəqələrdə çalışanlar heç bir təzyiqlə, ciddi qanun pozuntuları ilə üzləşməmiş, vəzifələrini şəffaflıq şəraitində yerinə yetirmişlər. Zaqatala, Gəncə, Şamaxı, Salyan, Sumqayıt, Lənkəran, İsmayıllı, Göyçay, Abşeron, Bakının Əzizbəyov və Qaradağ rayonlarında seçki prosesini izləyiblər, müxtəlif partiya təmsilçiləri seçkilərdən şikayətçi olmayıblar. Hər bir məntəqədə şəf-

faflıq və qarşılıqlı hörmət hiss olunmuşdur. Müşahidəçilər bəzi namizədlərlə də görüşüb söhbət etmiş, onlar seçkinin şəffaf və demokratik keçirildiyini, bütün şərtlərin yerinə yetirildiyini bildirmişlər. A.Suver nəticələrin Azərbaycan xalqının xeyrinə olacağına əminliyini vurğulamışdır.

## 7. İran

Parlament seçkilərinin şəffaf şəraitdə keçdiyini İrandan olan müşahidə qrupu da bəyan etmişdir. Bu ölkənin Azərbaycandakı səfiri **Əfşar Süleymani**nin sözlərinə görə, iranlılar 180 məntəqədə müşahidə aparıblar. "Seçkilər Azərbaycan üçün çox əhəmiyyətli idi, hər bir məntəqədə biz azad və ədalətli səsverməni müşahidə etdik. Seçicilər fəal idilər, söhbətləşdiyimiz beynəlxalq və yerli müşahidəçilər də seçkilərin demokratikliyini qeyd edirdilər". İran nümayəndə heyətinin rəhbəri **Əhəd Qəzai** isə bəyan edib ki, Azərbaycanın seçki sistemi daim təkmilləşir və bu, noyabrın 6-da bir daha təsdiqləndi.

**Nəticə.** Göründüyü kimi, 2005-ci il noyabrın 6-da Azərbaycanda keçirilmiş parlament seçkiləri barədə müsbət rəy dünyanın və bölgəmizin əsas güc mərkəz-





lərinin, belə demək mümkündürsə, aparıcı oyunçularının hər birinin nümayəndələri tərəfindən səslənir. Bu, bütövlükdə dünyanın baş tutmuş parlament seçkilərinin şəffaflığına, ədalətliliyinə, demokratik prinsiplərə uyğun keçirilməsinə, demokratiya istiqamətində növbəti addım olmasına inamının göstəricisidir. Şübhə yoxdur ki, ayrı-ayrı müşahidəçilər öz ölkələrində ictimai rəyə ciddi təsir göstərən şəxslərdir. Ən azı o baxımdan ki, onlar öz ölkələrində ciddi dövlət vəzifələrini icra edirlər, nüfuzlu "beyin mərkəzləri"nin təmsilçiləridir, yaxud da digər yollarla ictimai rəyə təsir göstərmək imkanına malikdirlər. Deməli, onların qənaətlərinin Azərbaycanda keçirilmiş parlament seçkiləri barədə həmin ölkələrdə və bütövlükdə dünyada müsbət ictimai rəyin formalaşmasına əhəmiyyətli töhfəsi olacaqdır.

Beynəlxalq müşahidəçilərin Azərbaycanda keçirilmiş parlament seçkilərinə dair rəyləri müəyyən mənada 2 müsbət meylin də əsasını qoyur. Birincisi, bu seçki ilə gələcək seçkilərdə də müxtəlif ölkələrin nümayəndələrinin müşahidələrinin və qənaətlərinin üst-üstə düşməsi ənənəsi yaranmış oldu. Bu, təbii ki, sivil mübarizə tərəfdarı olan hakimiyyətlə müasirləşə bilməyən radikal müxalifət arasındakı gərgin münasibətlərə müəyyən təsir göstərmiş olar. O nöqteyi-nəzərdən ki,

məğlub olmuş tərəf obyektiv gerçəkliyin təkcə opponenti deyil, neytral tərəfin – beynəlxalq ictimaiyyətin də mövqeyini və rəyini görər. Hərçənd, Azərbaycanın barışmaz müxalifəti, lazım gəldiyi anda beynəlxalq müşahidəçiləri və beynəlxalq təşkilatları da qeyri-obyektivlikdə qınaya bilər. Necə ki, bunu edir.

İkincisi, bu ənənə təkcə ölkə çərçivələri ilə məhdudlaşmayaraq, daha geniş məkanı, daha dəqiqi isə, postsovet ölkələrini əhatə edə bilər. Xatırlatmaq olar ki, "məxməri inqilabların" baş verdiyi ölkələrdə dövlət çevrilişlərini stimullaşdıran əsas elementlərdən biri də məhz elə beynəlxalq müşahidəçilərin bir qrupunun seçkinin nəticələrini şübhə altına almaları olmuşdu. Digər tərəfin isə seçkilərin ədalətli keçdiyinə iddia etmələri postseçki dövrünə geosiyasi mübarizə və maraqların toqquşması çalarını əlavə edirdi. Deməli, beynəlxalq aləmdə Azərbaycanın demokratik prinsiplərə sadiqliyinin qəbul edilməsi dövlətimizin həm daxili sabitliyinin, həm də milli təhlükəsizliyinin təminatverici amillərindən birinə çevrilir.



# III

# DEMOKRATİK SEÇKİ NÜMUNƏSİ

**2005-ci il parlament seçkiləri Azərbaycanda siyasi qüvvələrin güc nisbətini, fəaliyyət prinsipləri və istiqamətlərini, ayrı-ayrı siyasi partiyaların, siyasi partiya bloklarının, eləcə də müstəqil namizədlərin qələbəsinin və məğlubiyyətinin səbəblərini müəyyən etmək üçün kifayət qədər geniş material verir. Seçki prosesinin bütün mərhələlərində – deputatlığa namizədlərin irəli sürülməsi, təşviqat kampaniyası və bilavasitə seçki günü siyasi partiya və siyasi partiya bloklarının nüfuz dairəsinin, ictimai rəyə təsir əmsalının, təşviqat kampaniyasını necə qurmalarının, hansı texnologiyalardan istifadə etmələrinin və digər vacib məsələlərin təhlili hər hansı siyasi qüvvənin şansını tam aydın təsəvvür etmək imkanı yaratmışdır. Seçki prosesinin təhlili deməyə əsas verir ki, müxalifətin məğlubiyyətini və hakim partiyanın qələbəsini şərtləndirən mühüm obyektiv və subyektiv səbəblər mövcuddur.**

Sadaladığımız məsələlərin təhlilinə keçməzdən əvvəl parlament seçkilərinin azad, demokratik, beynəl-

xalq normalara uyğun keçirilməsi üçün hakimiyyət tərəfindən atılmış addımlara nəzər salmaq zəruridir. Belə ki, istər seçki qanunvericiliyinin demokratikləşdirilməsi və təkmilləşdirilməsi, istərsə də seçkilərin ədalətli, şəffaf və obyektiv keçirilməsi üçün hakimiyyətin ortaya qoyduğu iradə baxımından builki seçki tariximizdə analoqu olmayan hadisə kimi xarakterizə edilməlidir. Seçki Məcəlləsinə mühüm əlavə və dəyişikliklər edilməsi, Azərbaycan Prezidenti İlham Əliyevin 11 may və 25 oktyabr tarixli Sərəncamları beynəlxalq təşkilatların Azərbaycan hökumətinə seçki qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı verdiyi bir sıra əsas tövsiyələrin nəzərə alınması ilə yanaşı, həm də hakimiyyətin seçkilərin demokratik keçirilməsində iradəsini və marağını ortaya qoymuşdur. Məhz bunun nəticəsidir ki, əvvəllər inzibati resurslardan istifadə edilməsi, sərbəst toplaşmaq və söz azadlığının məhdudlaşdırılması, müxalifət partiyalarının namizədlərinə süni maneələr yaradılması ilə bağlı nüfuzlu beynəlxalq təşkilatların iradları budəfəki seçkilər ərəfəsində, demək olar, müşahidə edilmədi. Həm yerli, həm də xarici müşahidəçilər, eyni zamanda, müxalifət nümayəndələri namizədlərin irəli sürülməsi və təbliğat-təşviqat kampaniyası dövründə yaradılmış demokratik ab-havanı xüsusi qeyd etdilər. Bu məsələnin prinsipial





əhəmiyyəti ondan ibarətdir ki, hakim partiyanın qələbəsini və müxalifətin məğlubiyyətini şərtləndirən amillər sırasında hakimiyyətin qeyri-qanuni üsullardan, inzibati resurslardan istifadə etməsi, müxalifətə məhdudiyyət tətbiq olunması barədə əvvəlki seçkilərlə bağlı irəli sürülən əsassız iddialar xeyli dərəcədə öz əhəmiyyətini itirmişdir. Beləliklə, siyasi partiyaların, siyasi partiya bloklarının, müstəqil namizədlərin öz potensiallarını tam açmaq, proqram və platformalarını ictimaiyyətə təqdim etmək, seçicilərlə həm KİV vasitəsilə, həm də canlı ünsiyyət qurmaq, öz siyasi opponentlərini tənqid etmək və qanunvericiliyin şərait yaratdığı digər təşviqat formalarından və mübarizə üsullarından istifadə etmək imkanları var idi.

Normal məntiq tələb edir ki, ilk növbədə, Yeni Azərbaycan Partiyasının qələbəsini şərtləndirən amillərə diqqət yetirək. Xüsusi qeyd etməliyik ki, 2005-ci il parlament seçkiləri daha şəffaf, demokratik şəraitdə, beynəlxalq təşkilatların, Qərb və ABŞ-ın demokratik seçkilər tələbinin sərtləşdiyi, bütün demokratik beynəlxalq ictimaiyyətin gözü Azərbaycanda olduğu bir dövrdə keçirildi. Belə bir vəziyyət YAP-ın ortaya daha prinsipial mövqe qoymasını, partiya üzvlərinin, öz elektoratının daha sıx birliyini təmin etməsini, müasir seçki texnologiyalarından istifadəsini, geniş təşviqat kampa-

niyası qurmasını, opponentlərin əks-təbliğatını neytrallaşdırmağı, bilavasitə yerlərdə seçicilərlə ciddi işləməsini zəruri edirdi. Seçki strategiyasını və taktikasını düzgün müəyyənləşdirmək, öz potensialından istifadə edərək, güclü namizədlər siyahısı formalaşdırmaq, eyni zamanda rəqiblərini nəzərə almaq, müasir təşviqat metodlarından istifadə edərək, ictimaiyyətə öz mövqeyini düzgün çatdırmaq, rasional, praqmatik, elmi şəkildə əsaslandırılmış platforma ilə çıxış etmək seçki prosesinə qoşulan bütün siyasi qüvvələrin qarşısında duran ağır vəzifə idi. Seçki prosesinin nəticələri bir daha göstərdi ki, Yeni Azərbaycan Partiyası istisna olmaqla, heç bir siyasi qüvvə bu vəzifələrin öhdəsindən gələ bilmədi. Beləliklə, Yeni Azərbaycan Partiyasının qələbəsini şərtləndirən səbəblər hansılardır?

## 1. Yeni Azərbaycan Partiyası ölkənin ən güclü və nüfuzlu siyasi qüvvəsidir

**Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın əsas siyasi qüvvəsidir.** Məlumdur ki, seçki kimi mühüm tədbirə qoşulan siyasi qüvvələrin qiymətləndirilməsində onların cəmiyyətdə yeri, rolu, gördüyü işlər diqqət mərkəzində olur. Əsası Azərbaycan xalqının





ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycan dövlətinin formalaşmasında, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində və Azərbaycanın bugünkü inkişaf səviyyəsinə gəlib çıxmasında özünəməxsus mühüm rolu və xidmətləri olmuşdur. Ölkənin ən nüfuzlu və böyük partiyası kimi Yeni Azərbaycan Partiyası öz sıralarında 400 minə yaxın insanı birləşdirir. YAP xalqın bütün təbəqələrini təmsil edir, intellektual səviyyəsinə, idarəçilik təcrübəsinə, siyasi potensialına və cəmiyyətdəki nüfuzuna görə onun alternativi yoxdur. Yarandığı gündən keçdiyi dövr ərzində YAP daha güclü, nizamlı, mütəşəkkil qüvvəyə çevrilmiş, təcrübəsi xeyli artmış, onun cəmiyyətdəki mövqeyi əhəmiyyətli dərəcədə güclənmişdir. Cəmiyyətin avanqardı rolunda çıxış edən Yeni Azərbaycan Partiyası ölkənin davamlı dinamik inkişafını təmin etmək, düzgün istiqamətdə aparmaq, xalqımızın qarşısında duran bütün taleyüklü problemlərin həllinə nail olmaq, sivil vətəndaş cəmiyyəti qurmaq iqtidarındadır. İctimai fikrin təhlili göstərir ki, insanlar YAP-ı məqsədi müstəqil Azərbaycan dövlətini möhkəmləndirməkdən, Azərbaycanı dünyanın zəngin, firavan ölkəsinə çevirməkdən, vətəndaşlarımızın rifah içində yaşamasına nail olmaqdan, ölkəmizi dünya birliyinin layiqli üzvü etməkdən

ibarət olan partiya kimi qəbul edir. Həqiqətən də, partiyanın başlıca məqsədi bundan ibarətdir.

**Nüfuzlu xarici və yerli rəy sorğuları YAP-ın liderliyini göstərdi.** Aparılan çoxsaylı sorğular göstərir ki, ölkədə Yeni Azərbaycan Partiyasına alternativ ola biləcək siyasi qüvvə yoxdur. ABŞ-ın Respublikaçılar İnstitutu hələ 2003-cü ildə ABŞ-da Xüsusi Sosial Mərkəzin nümayəndələri ilə birlikdə Azərbaycanda çox yüksək, peşəkar səviyyədə sorğu keçirmişdilər. Respondentlərin 69 faizi YAP-ın, 7 faizi Müsavatın, 4 faizi AXCP-nin, 3 faizi AMİP-in və 3 faizi ADP-nin namizədini dəstəklədiyini bildirmişdi. ABŞ-ın İFES təşkilatının 2004-cü ilin sonunda keçirdiyi rəy sorğuları yenə də YAP-ın lider mövqeyini saxladığını göstərmişdi. Respondentlərin 40 faizi YAP-ın, cüzi qismi isə Müsavat, AXCP və AMİP-in adlarını çəkmişdi. Eynilə Soros Fondunun keçirdiyi sorğu YAP-ın aparıcı siyasi qüvvə olduğunu və əhali tərəfindən dəstəkləndiyini göstərmişdi. 2005-ci ilin ortalarında ABŞ-ın məşhur "Gellap İnternational" təşkilatının keçirdiyi rəy sorğusu müəyyən etmişdi ki, Azərbaycan vətəndaşlarının 72 faizi Azərbaycan Prezidentinin siyasi xəttini dəstəkləyir.

Bilavasitə seçkilər ərəfəsində yerli təşkilatların keçirdiyi sorğular da Yeni Azərbaycan Partiyasının aparıcı siyasi qurum olduğunu bir daha sübut etmişdir. Məsələn,





2005-ci ilin avqustunda "Rəy" sorğu mərkəzinin keçirdiyi sorğunun nəticələrinə görə, siyasi fəal əhalinin tən yarısı parlament seçkilərində YAP namizədlərinə səs verəcəyini bildirmişdi. Respondentlərin 12,8 faizi "Azadlıq" blokuna, 13,2 faizi müstəqil namizədlərə səs verəcəyini qeyd etmişdi. Həmin mərkəzin sentyabrda keçirdiyi sorğunun nəticələrinə görə, respondentlərin 39,1 faizi YAP-a, 9,8 faizi müstəqil namizədlərə, 6,9 faizi isə "Azadlıq" blokuna üstünlük verdiyini bəyan etmişdi. Hüquqi və Demokratik İslahatlar Mərkəzinin sentyabrda keçirdiyi sorğu da YAP-ın üstünlüyünü bir daha təsdiq etdi. Respondentlərin 62,8 faizi YAP-a, 6,5 faizi Müsavata, 5,4 faizi AXCP (k)-yə, 5,1 faizi AXCP (i)-yə, 4,3 faizi BAXCP-yə, 2,7 faizi AMİP-ə, 2,6 faizi ASDP-yə, 2,2 faizi VHP-yə, 2,2 faiz AVP-yə, 1,6 faizi Sosial Rifah Partiyasına üstünlük verdiyini bildirmişdi. Müxtəlif vaxtlarda və bilavasitə seçkilər ərəfəsində beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş rəy sorğularından göründüyü kimi, Azərbaycan seçiciləri davamlı surətdə Yeni Azərbaycan Partiyasını dəstəkləmiş, ölkənin həyatında oynadığı rolu yüksək qiymətləndirmiş və ona rəğbət bəslədiklərini, seçkilərdə YAP-ın namizədlərinə üstünlük verəcəklərini bəyan etmişlər.

**YAP seçkilərə real iş və proqramla getdi.** Azərbaycanın son 13 illik tarixi göstərir ki, ümummilli

liderimiz Heydər Əliyevin müəyyən etdiyi, Yeni Azərbaycan Partiyasının rəhbərliyi və bilavasitə iştirakı ilə həyata keçirilən siyasət dağılmaq və bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üzləşmiş Azərbaycanı regionun ən sürətlə inkişaf edən və ən nüfuzlu ölkəsinə çevirmişdir. Son 13 ildə həyata keçirilən siyasət nəticəsində Azərbaycanda iqtisadi infrastruktur bərpa edilmiş, əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmış, ölkəmiz beynəlxalq və regional əhəmiyyətli layihələrin mərkəzinə çevrilmiş, dünya əhəmiyyətli məsələlərdə səsi eşidilən dövlət olmuşdur. Mövcud nailiyyətləri əsas kimi götürən Yeni Azərbaycan Partiyasının istifadə etdiyi seçki texnologiyaları, ümumiyyətlə, seçki prosesinə münasibəti də tam fərqli olmuşdur. Təsadüfi deyil ki, bütün dövrlərdə mütəşəkkillik nümayiş etdirərək, parlaq qələbələrə imza atmış Yeni Azərbaycan Partiyasının şanslarını xarici müşahidəçilər xeyli yüksək qiymətləndirmişlər. Almaniya Bundestaqının Azad Demokratlar Partiyasından olan üzvü Vörner Hoyer "Liberation" qəzetinə verdiyi müsahibədə bildirmişdi: "Hakimiyyətdəki YAP müxalifət partiyalarının hamısı ilə müqayisədə çox güclüdür və daha böyük potensiala malikdir. Bu partiya yeniləşməyə meyillidir".

YAP seçkilərə praqmatik, rasional proqramla getmiş, ictimaiyyətə gördüyü işlərlə bağlı müntəzəm və





real hesabat vermiş, gələcək planlarını açıqlamışdır. YAP-ın platformasında ölkə həyatının bütün sahələrində dinamik inkişafı nəzərdə tutan elmi şəkildə əsaslandırılmış, konseptual təkliflər öz əksini tapmışdır. Partiya ölkənin sosial-iqtisadi, ictimai-siyasi, xarici siyasət, mədəniyyət, incəsənət və digər sahələri ilə bağlı real təkliflər irəli sürmüş və onların həyata keçirilməsi mexanizmlərini açıqlamışdır. Həmçinin, partiyanın bilavasitə yaxından iştirakı ilə həyata keçirilmiş və müxtəlif sahələrin inkişafına ciddi təkan vermiş böyük layihələrin, proqramların nəticələri göstərirdi ki, YAP-ın irəli sürdüyü təkliflər real əsaslara malikdir və müxalifətin təklif etdiyi utopik layihələrdən uzaqdır.

Yeni Azərbaycan Partiyası namizədlərinin siyahısını gec açıqlasa da, yeni, tamamilə fərqli münasibət ortaya qoymuşdu. Başlıca məsələ isə ondan ibarət idi ki, YAP güclü namizəd potensialından və obyektiv yanaşma metodundan istifadə edirdi. Məsələn, YAP-ın namizədlər siyahısında namizədliyi irəli sürülən şəxslərin Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət etmək, parlamentdə yüksək səviyyədə qanunvericilik fəaliyyəti ilə məşğul olmaq, xalqın etimadını qazanmaq imkanları, Azərbaycanı həm ölkənin daxilində, həm də xaricdə təmsil etmək qabiliyyəti və intellekt səviyyəsi əsas meyarlar kimi götürülmüşdü. Digər tərəfdən, siyahıda yaş, demoqrafik,

cinsi, sosial, etnik və digər şərtlərə tam riayət olunmuşdu. Partiya həmişə yeniləşmə tərəfdarı kimi çıxış edir. Bu da 2005-ci il parlament seçkiləri ərəfəsində təqdim olunmuş siyahıda öz əksini tapmışdır. Bu yeniləşmənin məqsədi Azərbaycan parlamentinin səviyyəsinin daha da yüksəldilməsi, ölkədə qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsini və onun səmərəli icrasını təmin etməkdir. Siyahıda yeniləşmə və varisliyin saxlanılması meyarları da uzlaşdırılmışdır. YAP-ın namizədləri ölkənin tanınmış elm xadimləri, nüfuzlu ziyalılar, peşəkar mütəxəssislər, bacarıqlı istehsalat rəhbərləri, qabiliyyətli gənclər, bölgələrin tanınmış şəxsləri idilər.

Bütün bunlarla yanaşı, YAP seçki prosesində siyahıda adları göstərilmiş namizədlərindən daha şanslı partiya üzvlərini, bitərəfləri dəstəkləyəcəyi barədə bəyanat vermişdi. Bu, əslində, YAP-ın namizədlərlə bağlı yeni prinsip tətbiq etdiyinin göstəricisi kimi səciyyələndirilməlidir. Seçki prosesi göstərdi ki, bəzi hallarda seçicilər tərəfindən dəstəklənən, xalqa, dövlətə sədaqəti ilə seçilən, real iş görmək qabiliyyəti olan nüfuzlu bitərəf namizədlərə, həmçinin YAP-a yaxın olan partiyaların namizədlərinə üstünlük verildi. Seçki gününə az qalmış YAP öz namizədlərinə müraciət edərək, onları daha real şansı olan, sağlam mövqeli şəxslərin xeyrinə namizədliklərini geri götürməyə çağırdı.





**YAP-ın təşviqat kampaniyası.** Bu başdan qeyd etmək lazımdır ki, YAP öz təşviqat kampaniyasını rasional və praqmatik əsaslar üzərində qurmuşdu. Söz yox ki, seçkilərə gedən hər bir siyasi qüvvə seçki prosesinin təşviqat kampaniyasına xüsusi əhəmiyyət verir. Azərbaycan Prezidentinin seçki praktikasının təkmilləşdirilməsi haqqında 2005-ci il 11 may tarixli Sərəncamı təşviqat kampaniyası dövründə namizədlərə yaradıla biləcək bütün maneələrin aradan qaldırılmasını bir tələb kimi irəli sürmüşdür. Tam məsuliyyətlə demək olar ki, bu mərhələdə heç bir namizədə süni maneə yaradılmamışdır. Bu, nəinki yerli müşahidəçilər və müxalifətin nümayəndələri tərəfindən, hətta mütəmadi olaraq Azərbaycana qarşı sərt mövqe tutan bəzi Qərb ekspertləri tərəfindən də etiraf edilmişdir. 60-dan çox seçki dairələrində namizədləri qeydə alınmış siyasi partiya və siyasi partiya bloklarına televiziya, radio və rəsmi qəzetlərdə pulsuz efir vaxtının verilməsi, müstəqil KİV-lərdə təşviqat aparmaq üçün heç bir maneə olmaması, seçicilərlə görüşlər üçün xüsusi yerlərin ayrılması (təkcə Bakı şəhərində 200 xüsusi yer və 5 böyük meydan ayrılmışdı) təşviqat kampaniyasını uğurla həyata keçirmək üçün yaradılmış imkanlar idi.

Əsas məsələ siyasi partiyaların və siyasi partiya bloklarının bu imkanlardan necə istifadə etməsidir. Yeni Azərbaycan Partiyasının təşviqat kampaniyasında

Azərbaycanın mövcud reallığı, ölkənin inkişaf strategiyası, seçicilərin mövqeyi və baxışları, bunun əsasında təşviqat kampaniyasının düzgün qurulması və uğurla həyata keçirilməsi üçün bütün şərtlər nəzərə alınmışdır. Belə ki, YAP təşviqat kampaniyasını elmi şəkildə əsaslandırılmış, Azərbaycanın gələcək inkişaf perspektivlərini özündə əks etdirən konsepsiya üzərində qurmuşdur. Partiya seçkilərin özünəməxsusluğunu, yəni majoritar qaydada keçirildiyini nəzərə alaraq, birincisi, indiyədək görülmüş işlər barədə hesabat vermişdir, seçicilərə gələcək planlarını açıqlamışdır, ikincisi, seçicilərlə birbaşa yerlərdə səmərəli iş aparmışdır. Yeni Azərbaycan Partiyası, əsasən, bitərəf səslər uğrunda mübarizə aparmışdır. Bitəreflərə öz məqsəd və məramı barədə müfəssəl məlumat vermiş, onları inandıraraq, əsas hissəsini öz elektoratına çevirməyə nail olmuşdur. YAP-ın namizədləri görüşlərdə real işlər barədə danışaraq, insanları maraqlandıran məsələləri gündəlikdə saxlamış, onların həlli istiqamətində görülən və bundan sonra görüləcək işlər barədə məlumat vermişlər. Partiya səmərəli əks-təbliğat kampaniyası qura bilmiş, rəqiblərinin bütün ittihamlarına faktlarla cavab verməyi bacarmış, radikal müxalifətin böhtan, uydurma, dezinformasiya xarakterli ittihamlarını, ictimai rəyi çaşdırmaq cəhdlərini dəlillər əsasında ifşa etmişdir. Eyni zamanda, partiyanın namizədləri radikal





müxalifətin əsil simasının üzə çıxarılması, onların vədlərinin populizm (məsələn, Neft Fondundan hər adama ildə 200 ABŞ dollarının verilməsi kimi) və utopiya olduğunu sübut etməyi bacarmışlar. Xüsusilə sosial-iqtisadi sahədə radikal müxalifətin irəli sürdüyü avantürist təkliflərin reallıqdan uzaq olduğunu seçicilər qarşısında sübuta yetirmişlər. YAP seçicilərə göstərmişdir ki, köhnəlmiş, radikal müxalifət xalqa yeni heç bir şey verə bilməz. Onların təklifləri ya utopiya, aldadıcı bir fənddir, yaxud da iqtidarın həyata keçirdiyi proqramların, layihələrin bəsit bir şəkildə təqdim olunmasıdır. YAP-ın bu məsələ ilə bağlı xarici ekspertlərin rəylərini təşviqat kampaniyası dövründə ictimaiyyətə çatdırılması (İsa Qəmbərin Vaşinqtonun Enterprayzer Mərkəzində çıxışı zamanı Z.Baran, V.Sokor, S.Kornell və digərlərinin tutduğu iradlar) xüsusi əhəmiyyətə malikdir.

Seçki dövründə Yeni Azərbaycan Partiyası iki möhtəşəm mitinq keçirərək, hər mitinqə 50-70 min nəfər toplamış, ictimaiyyət müxalifət partiyaları ilə müqayisədə YAP-ın gücünü, nüfuzunu, təşkilatçılıq bacarığını yüksək qiymətləndirmişdir.

Təşviqat kampaniyasının vacib məqamlarından biri də bu olmuşdur ki, YAP-la radikal müxalifət ölkənin gələcəyi ilə bağlı bir-birindən tam fərqli iki xətti təbliğ etmişlər. Yeni Azərbaycan Partiyası real bazisə əsaslanaraq Azərbaycanın sabit, dinamik inkişaf etdiriləcə-

yini, insanların rifah halının yaxşılaşdırılması istiqamətində işləri sürətləndirəcəyini, demokratik inkişafa və Qərbə inteqrasiya siyasətinə sadiq olacağını, sülh və əmin-amanlığın qorunub saxlanacağını vəd etmişdir. Radikal müxalifət isə təbliğatını 13 ildə görülmüş işləri, qazanılmış uğurları bir kənara ataraq, hər şeyi yenidən qurmaq, hədsiz radikalizm, cığallıq, təhqir, böhtan və qeyri-real vədlər, ziyanlı çılğınlıq üzərində qurmuşdur. Tam məsuliyyətlə demək olar ki, hər bir sağlam düşüncəli seçici radikal müxalifətin bu çağırışlarının arxasında 1992-1993-cü illərin ağır nəticələrə səbəb olmuş simptomlarını görürdü və bu səbəbdən də böyük əksəriyyətin seçimi Yeni Azərbaycan Partiyasının tərəfində olmuşdur.

## 2. İqtisadiyyatın inkişafı və xalqın rifah halının yaxşılaşdırılması istiqamətində atılmış addımlar

Məlum olduğu kimi, hakim partiyanın, ümumiyyətlə, hakimiyyətin reytinqinə müsbət təsir edən ən mühüm amillərdən biri ölkədə aparılan sosial-iqtisadi siyasətdir. Bu məsələ insanların, seçicilərin sosial durumuna, həyat səviyyəsinə birbaşa təsir etdiyi üçün hər bir seçici bu və ya digər siyasi qüvvə arasında seçim





edəndə sosial-iqtisadi amili əsas şərtlərdən biri və bəlkə də, birincisi kimi götürür. Bu da təbiidir. Ümumiyyətlə, Azərbaycanın 15 illik müstəqillik tarixi göstərir ki, sosial-iqtisadi məsələlər insanların seçiminə ən çox təsir edən amillərdəndir. Təsadüfi deyil ki, builki parlament seçkiləri ərəfəsində keçirilən sorğuların nəticələri də insanların gündəlik problemlərinin həllinə digər məsələlərdən daha çox üstünlük verdiyini göstərmişdir. Eyni zamanda, xüsusilə vurğulanmalıdır ki, Azərbaycan seçicisinin gözü qarşısında yaxın tariximizin kəskin fərqli mənzərəsi mövcuddur. Ehtimal ki, seçicilər məntəqələrə getməzdən öncə hansı siyasi qüvvənin namizədinə səs verəcəklərini ölçüb-biçərkən, qeyri-ixtiyari AXC-Müsavat hakimiyyəti dövründə tüğyan edən xaos və dağıntılarla bu günün sabit inkişafını müqayisə etməli olurdular. Bu amilin əksər seçicilərin rəyinə təsiri şübhəsizdir.

**Son 13 ilin sosial-iqtisadi mənzərəsi.** Son 13 ilin sosial-iqtisadi mənzərəsini daha yaxşı təsəvvür etmək üçün bir sıra faktlara nəzər salaq. Əvvəlki hakimiyyət ölkəni iqtisadi-siyasi böhran vəziyyətinə salmış, "bazar" iqtisadiyyatı bəzi dairələrə ölkənin sərvətlərini əsil "oğru" qanunları ilə talamağa şərait yaratmış, xalqın dilənçiliyə sürüklənməsinə gətirən iqtisadi qərarlar verilmişdir. 1991-1993-cü illərdə aparılan iqtisadi

siyasətin nəticəsi olaraq çoxsaylı iqtisadi, siyasi, hərbi və sosial problemlər yaranmışdı. Təsdiq edilmiş büdcənin olmaması, səhv maliyyə siyasəti və xarici iqtisadi siyasət, inflyasiyanın məhvedici təsiri 1994-cü ildə Azərbaycanda ÜDM-in iki dəfə, sənaye istehsalının 1,6 dəfə, kənd təsərrüfatının 44 faiz azalmasına, əhalinin rifah halının 3,7 dəfə aşağı düşməsinə, orta aylıq əmək haqqının 1990-cı ildəki real əmək haqqının 17 faizini təşkil etməsinə gətirib çıxarmışdı.

1995-2000-ci illərdə ölkədə ictimai-siyasi sabitlik bərqərar edilmiş və genişmiqyaslı iqtisadi və struktur islahatları həyata keçirilmişdir. 1995-ci ildən başlayaraq, makroiqtisadi sabitliyin təmin olunması, struktur islahatlarının həyata keçirilməsi, iqtisadiyyatın bərpası, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün 3 genişmiqyaslı proqram reallaşdırılmağa başlanmışdır. Nəticədə 1994-cü illə müqayisədə 2000-ci ildə ÜDM-in artımı 25 faiz, əhalinin real pul gəlirləri 2,7 dəfə, orta aylıq əmək haqqı 3,5 dəfə artmış, inflyasiya 2-3 faiz səviyyəsinə endirilmişdir. 2001-2005-ci illər isə ölkə iqtisadiyyatının yüksək tempdə inkişafı illəridir. Cənab İlham Əliyevin Prezidentliyinin iki ilində 15 orta və uzunmüddətli məqsədyönlü proqram həyata keçirilməyə başlanmışdır. Bu proqramların əsas məqsədi yeni iş yerlərinin açılmasına paralel olaraq yoxsulluğun





azaldılması, regionların kompleks inkişaf etdirilməsi, sahibkarlığa dövlət yardımının həyata keçirilməsi, özəlləşdirmənin başa çatdırılması, təhsil, səhiyyə, turizm, ekologiya, nəqliyyat, rabitə və telekommunikasiya sahələrinin inkişafına nail olmaqdır. 2001-2005-ci illərdə ÜDM 1,7 dəfə artmış və ötən il Azərbaycan 1990-cı il səviyyəsinə çatmışdır. ÜDM-in adambaşına düşən həcmi 2000-ci ildəki 665 dollardan fərqli olaraq, 2005-ci ildə 1500 dollar təşkil etmişdir. Özəl sektorun ÜDM-də çəkisi 70 faizdən 77 faizədək yüksəlmişdir. Son beş ildə büdcə gəlirləri 4 dəfə artmış, 2005-ci ildə bu, 2,3 milyard dollar təşkil etmişdir. 2001-2005-ci illərdə qeyri-neft sektorunun bütün sahələrində 12-13 faizlik sabit artım müşahidə olunmuşdur. Son 5 il ərzində əhalinin pul gəlirləri 1,8 dəfə, işçilərin orta əmək haqqı isə 2,6 dəfə artmış və 2005-ci ildə 133 dollar səviyyəsinə çatmışdır. 2001-2005-ci illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan artıq investisiya yatırılmışdır ki, bunun da 15,4 milyardı xarici sərmayədir. Hazırda Azərbaycan dünyanın 130 ölkəsi ilə ticarət əlaqələri qurub, xarici ticarət dövriyyəsi son 5 ildə 28,8 milyard dollar olmuşdur. Artıq Azərbaycanın tam iqtisadi müstəqilliyi təmin edilmişdir. Həm daxili, həm də xarici ekspertlər hesab edirlər ki, yaxın 10-15 ildə Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri sırasına daxil olacaqdır.

**Azərbaycan Prezidentinin sosial-iqtisadi inkişafın təmin edilməsi istiqamətində apardığı siyasət.** Göründüyü kimi, son 13 ildə iqtisadi vəziyyətin təhlili Azərbaycanın güclü iqtisadi böhran dövründən iqtisadi intibah dövrünə qədəm qoyduğunu və əksər sahələr üzrə ciddi irəliləyişlərə nail olduğunu göstərir. Bütün bunlarla yanaşı, əksər ekspertlər, iqtisadçılar hesab edirlər ki, 2003-cü ildə İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra ölkənin sürətli sosial-iqtisadi inkişafının təmin edilməsi məsələsi bir nömrəli vəzifəyə çevrilmişdir. Azərbaycan Prezidentinin regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını, yoxsulluğun azaldılması Dövlət Proqramını və digər bu kimi vacib sənədləri təsdiqləməsi hakimiyyətin sosial-iqtisadi sahədə daha ciddi irəliləyişlərə nail olmaq istədiyini açıq şəkildə göstərmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin ardıcıl şəkildə regionlara səfəri, ictimaiyyətlə görüşləri, müxtəlif təyinatlı müəssisələrin açılışında iştirakı, eyni zamanda, bütün rayonlarda aparılan quruculuq və abadlıq işləri xüsusi qeyd edilməlidir. Çünki insanlar dövlətin, Prezidentin onlara qayğısını bilavasitə hiss edir, qarşıda duran problemlərin həlli istiqamətində real addımlar atıldığını görürlər.

Söz yox ki, Azərbaycanın bütün rayonlarında sosial-iqtisadi inkişaf eyni səviyyədə deyildir. Ölkə rəhbərliyi





də bu məsələni xüsusi qeyd edərək, vicdanla çalışan məmurların daha yaxşı işləməsi üçün zəruri şərait yaradır, öz vəzifəsinin öhdəsindən gəlməyən şəxslər isə işdən azad edilirlər. Son iki ildə 30-dan artıq icra hakimiyyəti başçısının dəyişdirilməsi bu məsələdə hakimiyyətin qəti niyyəti olduğunu göstərir. Bu addımların əhali tərəfindən təqdir edildiyi şübhəsizdir. Eyni zamanda, xüsusi vurğulanmalıdır ki, Azərbaycan Prezidenti dövlət proqramlarının icra vəziyyətinə şəxsən nəzarət edir. Onun bütün regionlara səfəri zamanı keçirdiyi ənənəvi zona müşavirələri və bunların yekunu olaraq, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncamlar imzalaması da dediyimizə əyani sübutdur.

Həyata keçirilən sosial-iqtisadi islahatlar, reallaşdırılan dövlət proqramları son nəticədə 2005-ci ilin nəticələrinə olduqca müsbət təsir etmişdir. Belə ki, 1996-cı illə müqayisədə bütün maliyyə mənbələri hesabına iqtisadiyyata investisiya qoyuluşu 7,4 dəfə, orta aylıq əmək haqqı 10,4 dəfə, dövlət büdcəsinin gəlirləri 8,5 dəfə artmış, adambaşına düşən büdcə xərcləri 473 ABŞ dollarına yüksəlmişdir. Dövlət Neft Fondunun və Milli Bankın valyuta ehtiyatlarının həcmi 2,2 milyard ABŞ dollarını ötmüşdür ki, bu da xarici dövlət borcundan 700 milyon ABŞ dolları çoxdur. Əhalinin həyat

səviyyəsinin yaxşılaşdırılması üçün ölkə rəhbərliyinin atdığı mühüm addımlardan biri də minimum əmək haqqının oktyabr ayının 1-dən 150 min manata çatdırılması olmuşdur. Bu, büdcə təşkilatlarında çalışan 630 min nəfərdən çox vətəndaşın sosial problemlərinin daha dolğun həll olunmasına imkan vermişdir. Son 3 ildə minimum əmək haqqı 27 dəfə artmışdır.

**2006-cı ilin proqnozları.** Beləliklə, mövcud iqtisadi göstəricilər Yeni Azərbaycan Partiyasının namizədlərinin təşviqat kampaniyasında ən ciddi dəlillərdən biri olmuşdur. Onlar seçicilərlə görüşlərində, KİV-lərdə çıxışlarında son illər Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətləri tam təfsilatı ilə seçicilərin diqqətinə çatdırmış və onlara partiyanın, ümumilikdə hakimiyyətin işini qiymətləndirmək üçün real faktlar və rəqəmlər təqdim etmişlər. Eyni zamanda, namizədlər seçicilərə sosial-iqtisadi inkişaf sahəsində gələcəkdə görülməsi nəzərdə tutulan işlərlə də bağlı məlumat vermişlər.

2006-cı ilin dövlət büdcəsi Azərbaycanı gələcəkdə hansı parlaq perspektivlər gözlədiyini açıq şəkildə göstərir. Burada ən mühüm məqamlardan biri odur ki, son 3 ildə dövlət büdcəsi bir neçə dəfə artmışdır. Məsələn, 2004-cü ildə Azərbaycanın dövlət büdcəsi 1,25 milyard dollar, 2005-ci ildə 2,3 milyard dollar olmuş,





2006-cı ildə isə 3,8-4 milyard dollar təşkil edəcəkdir. Belə artım dünyanın heç bir ölkəsində müşahidə olunmur. 2006-cı ildə dövlət büdcəsi ümumi daxili məhsul real olaraq 30,5 faiz, əhalinin pul gəlirləri 26,4 faiz, orta aylıq əmək haqqı 25 faiz artımla qəbul edilmişdir. 2005-ci illə müqayisədə, büdcənin gəlirləri 67,7 faiz artaraq 3,8 milyard ABŞ dollarını, xərcləri 64,1 faiz artaraq 4 milyard ABŞ dollarını keçəcəkdir. Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, sistemin maddi-texniki bazasının dünya standartlarına yaxınlaşdırılması üçün xərclər təqribən 2 dəfə artırılmışdır. "İpoteka haqqında" Qanunun tətbiqi ilə əlaqədar 2006-cı ilin büdcəsində 100 milyard manat, minimum əmək haqqının 30 faizdən çox artırılması üçün 157 milyard manat, əhalinin səbirsizliklə gözlədiyi əmanətlərin indeksləşdirilməsi üçün 250 milyard manat vəsait nəzərdə tutulmuşdur. Sahibkarlığın inkişafı üçün 2005-ci illə müqayisədə 2 dəfə çox, investisiya xərcləri üçün 3,8 dəfə artıq vəsait ayrılmışdır. Aztəminatlı əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi üçün dövlət büdcəsində 361 milyard manat, əmək pensiyalarının orta hesabla 25 faiz artırılması üçün 835 milyard manat vəsait nəzərdə tutulmuşdur. Regionlarda avtomobil yollarının vəziyyəti, kommunal sektorun, ələlxüsus abadlıq işlərinin genişləndirilməsi diqqətdən yayınma-

mış, cari illə müqayisədə abadlıq işlərinə 52,4 faiz, yolların əsaslı təmiri və tikintisinə 65,2 faiz çox vəsait nəzərdə tutulmuşdur. Büdcədən ölkənin enerji sektoru üzrə güclərin artırılmasına təqribən 450 milyon ABŞ dollarından çox vəsait sərf ediləcəkdir. Kənd təsərrüfatının inkişafı, idxalı əvəz edən məhsulların istehsalının stimullaşdırılması, bir sıra ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın daha dolğun ödənilməsi məqsədi ilə gübrə alınması üçün büdcədən ilk dəfə olaraq 50 milyard manat, aqrolizinqin inkişafı üçün 150 milyard manat vəsait ayrılmışdır. Ölkədə istilik təchizatının yaxşılaşdırılması və bərpası üçün "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə ilk dəfə olaraq 52 milyard manat vəsait ünvanlanmışdır. Yerli özünüidarəetmənin fəallaşdırılması məqsədi ilə bələdiyyələrə ayrılan dotasiya 50 faiz artırılacaqdır. Dövlət büdcəsinə ayrılan transferlə yanaşı, 2006-cı ildə Dövlət Neft Fondunun vəsaitindən 1,8 trilyon manat, o cümlədən qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına 516 milyard manat, yeni yaradılacaq Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının yaradılmasına 450 milyard manat, Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsinə və Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 635 milyard manat vəsait yönəldiləcəkdir.





Bu rəqəmlər, həqiqətən də, gələn il Azərbaycanda güclü sosial-iqtisadi inkişafın müşahidə ediləcəyini deməyə əsas verir. Əlbəttə, seçicilər bunu görür və qiymətləndirirlər. Hər halda, onlar real iqtisadi əsasları olan statistika ilə heç bir əsası olmayan və boş vədlərdən ibarət iddiaları bir-birindən seçmək imkanındadırlar. Buna görə də Azərbaycan vətəndaşları 2005-ci il parlament seçkilərində real sosial-iqtisadi inkişaf konsepsiyası ilə utopik vədlər arasında kəskin fərqi anlamış və düzgün seçim etmişlər.

## 3. Xarici siyasət və Dağlıq Qarabağ probleminin həllinə yönəlmiş fəaliyyət

Heydər Əliyev hələ 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki nitqində demişdi: "Respublikamızın qarşısında duran əsas vəzifələrindən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz, birinci növbədə, Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr

yaratmaq və inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Azərbaycanın xarici siyasətinin 13 illik tarixinə nəzər salsaq görərik ki, ölkənin mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli düşünülmüş, özünün aydın vəzifə və prinsipləri ilə seçilən, bitkin, ardıcıl xarici siyasət bütün istiqamətlərdə bu gün də özünü doğrultmaqdadır. Prezident İlham Əliyev 2005-ci il dekabrın 2-də üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində demişdir: "Azərbaycanın xarici siyasəti dəyişməz olaraq qalır. Biz öz siyasətimizi ilk növbədə, Azərbaycan xalqının maraqları üzərində qururuq və bu siyasət bundan sonra da davam etdiriləcəkdir" ("Azərbaycan" qəzeti, 3 dekabr 2005).

Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün apardığı çoxşaxəli, fəal xarici siyasətin nəticəsidir ki, indi ölkəmiz dünyada baş verən siyasi proseslərdə özünə layiqli yer tutmuş, regionun problemlərinin həllində təsirli mövqe qazanmış, qlobal transformasiyalar dövründə





bütün dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı əməkdaşlığa nail olmuşdur. Hazırda regionda və dünyada baş verən hadisələr və proseslərdə Azərbaycan layiqincə təmsil olunur, öz sözünü deyir və milli maraqlarını qoruyur. Heç də təsadüfi deyil ki, Azərbaycanın daxilində gedən modernləşmə, uğurlu xarici siyasət dünyanın ən qüdrətli dövlətlərinin və nüfuzlu beynəlxalq qurumlarının diqqətini bizə yönəltmişdir.

Azərbaycanın xarici siyasətinin əsas vəzifələrindən biri Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həllinə nail olmaqdır. Azərbaycanın taleyüklü problemlərindən biri kimi, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı siyasi qüvvələrin nümayiş etdirdikləri mövqe seçici səsləri uğrunda mübarizədə önəmli yerlərdən birini tutur. Azərbaycanın siyasi palitrasını təşkil edən siyasi qurumların mövqeyində bu məsələdə bir növ həmrəylik mövcuddur. Bu mənada ki, bütün siyasi qüvvələr Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinə tərəfdardırlar. Lakin bu problemin həlli yolları ilə bağlı siyasətçilərin mövqeyində birmənalı oxşarlıq yoxdur. Bir qisim siyasətçilər Dağlıq Qarabağ probleminin həllini hərbi əməliyyatların bərpasında, digərləri danışıqlar prosesinin davam etdirilməsində, bəziləri Azərbaycanın

demokratik dövlətə çevrilməsində və s. görürlər. Məsələ ilə bağlı Yeni Azərbaycan Partiyasının və "Azadlıq" blokunun yanaşmasına diqqət yetirək.

Qeyd etməliyik ki, son dövrlərdə Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq hüququn norma və prinsipləri əsasında ümid verən proseslərin şahidi oluruq. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq hüququn Azərbaycanın tərəfində olduğu təsdiqlənmiş, BMT, Avropa Şurası, digər təşkilatlar reallığı əks etdirən qərarlar qəbul etmişlər. Həmçinin ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın məqsədyönlü məskunlaşdırma apardığını təsdiqləmiş və bu qeyri-qanuni hərəkətlərin dayandırılmasını tələb etmişdir.

Beynəlxalq qurumların və ümumiyyətlə Qərbin mövqeyi ondan ibarətdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh yolu ilə həll olunsun. Elə Azərbaycan hökuməti də münaqişənin ilk günündən bu mövqedə olubdur. Lakin siyasətdə çox vaxt arzu ilə həqiqi vəziyyətin üst-üstə düşməsi üçün bəzi hallarda uzun məsafə getmək tələb edilir. Məsələ ondan ibarətdir ki, bu münaqişənin sülh yolu ilə həllinin əsas şərtlərindən biri də Qərbin və Rusiyanın buna hazır olmasıdır. Lakin təəssüf ki, hələ belə deyildir. Götürək Rusiyanın mövqeyini. Qeyd etməliyik ki,





bu gün Azərbaycan-Rusiya münasibətləri çox yüksək səviyyədədir, üzə çıxan bütün problemlər qarşılıqlı anlaşma yolu ilə həll olunur, bütün sahələrdə əməkdaşlıq inkişaf edir. Ancaq Rusiya Ermənistanı özünün forpostu kimi saxlayaraq, bütün aspektlərdə onun maraqlarını təmin edir, münaqişədə Ermənistanın mövqeyini müdafiə edərək, onu əldən buraxmaq istəmir, hər vəchlə özündən asılı vəziyyətdə saxlayır. Dağlıq Qarabağı isə "Damokl qılıncı" kimi Azərbaycanın başı üstə saxlayır ki, onu yenə də özündən asılı etsin. Ancaq görüntü üçün Qərbdən gələn səsləri dəstəkləyir və deyir ki, "Ermənistan və Azərbaycan hansı razılığa gəlsələr, biz də ona razıyıq". Əlbəttə, bu, səmimiyyətdən uzaq diplomatik gedişdir.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli böyük və hərtərəfli səylər tələb edir. Bir həqiqət var ki, münaqişənin həll olunmaması, ölkə ərazisinin 20 faizinin işğal altında qalması və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində yaşaması ölkənin sürətli inkişafına böyük əngəldir, onun bütün potensialının işə düşməsinin qarşısını alan amildir. Bütün bunlarla yanaşı, Prezident İlham Əliyev, prinsipial mövqedə dayanaraq bəyan edir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü

çərçivəsində öz həllini tapa bilər. Başqa heç bir variant müzakirə olunmur. Başqa heç bir variant nəzərdən keçirilmir. Bu, bizim prinsipial mövqeyimizdir" ("Azərbaycan" qəzeti, 3 dekabr 2005).

Eyni zamanda, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli siyasətinin uğurunu təmin etmək üçün əsas vasitə Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi, ordunun gücləndirilməsi və ölkəmizin regionun qüdrətli dövlətinə çevrilməsi seçilmişdir. Regional proseslərin gedişi və ekspertlərin gəldiyi nəticələr göstərir ki, potensial inkişaf resurslarından məhrum olmuş Ermənistanda tənəzzül daha da sürətlənir, ölkədən əhali axını güclənir, iqtisadi və siyasi böhran dərinləşir. Beləliklə, yaxın illərdə regionda güclü və inkişaf etmiş Azərbaycanla getdikcə tənəzzül edən Ermənistan üz-üzə qalacaq ki, bu da birincinin öz haqlı istəyinə nail olmasını təmin edəcəkdir. Məhz buna görə Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunarkən bildirmişdir: **"Əgər biz Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etmək istəyiriksə, gərək Ermənistandan on qat güclü olaq və biz buna nail ola bilərik. İndi Azərbaycanın büdcəsi Ermənistanın büdcəsindən 4 dəfə böyükdür. Gələn il 6 dəfə çox olmalıdır. Məqsəd də qoyulub ki, 10 dəfə çox olsun.**





**Azərbaycan öz hərbi potensialını da gücləndirir və ordu quruculuğu istiqamətində böyük işlər görüləcəkdir".** Daha sonra dövlət başçısı demişdir: **"Əlavə etsək ki, Azərbaycanın iqtisadi potensialı artır, hərbi potensialı artır və Ermənistanla müqayisədə Azərbaycan daha çox inkişaf etmiş bir ölkədir, sabah bu fərq, bu uçurum daha da böyüyəcək, biz öz torpaqlarımızı işğaldan azad edəcəyik". Əslində, bu, Azərbaycan iqtidarının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, Azərbaycanın milli maraqları çərçivəsində həllinin düsturu kimi də qəbul oluna bilər.**

Bəs "Azadlıq" bloku Dağlıq Qarabağ probleminin həlli ilə bağlı hansı planı irəli sürür? Əvvəlcədən onu qeyd edək ki, müxtəlif qüvvələr hakimiyyətə gəlmək üçün Dağlıq Qarabağ problemini özlərinə əsas və asan vasitə kimi seçiblər. Vaxtilə AXC bundan çox məharətlə istifadə etdi. Radikal müxalifət bu faktdan yenə də bəhrələnmək arzusundadır. Bu gün "Azadlıq" blokunun platformasında bildirilir ki, Dağlıq Qarabağ probleminin həlli Azərbaycanın demokratikləşməsindən asılıdır. Bəyanatlarda bu tezis çox tez-tez səslənir, lakin bu tezisin dayaqları çox zəifdir. Beynəlxalq ictimaiyyət heç vaxt Azərbaycanda tam demokratiya bərqərar olandan sonra da Dağlıq Qarabağı Azərbay-

cana "qızıl nimçədə" təqdim etməyəcəkdir. Elə demokratiyanın beşiyi sayılan Qərb ölkələrində də xalqların milli azadlıqları uğrunda apardığı mübarizə buna əyani sübutdur.

Digər tərəfdən, **birincisi,** demokratik inkişaf və Qərbə inteqrasiya Azərbaycanın daxili və xarici siyasətinin əsas məqsədlərindən biri kimi müəyyən olunmuşdur və bu istiqamətdə uğurlu addımlar atılır. **İkincisi,** Azərbaycan bütün dünyada Ermənistanın işğalçı rejim və Dağlıq Qarabağın qeyri-qanuni qurum kimi tanınmasına nail olmuşdur. **Üçüncüsü,** Azərbaycan iqtisadiyyatın və ordunun gücləndirilməsi istiqamətində mühüm işlər görür. **Dördüncüsü,** Azərbaycanın nüfuzu gündən-günə artır, ölkəmizlə daha çox hesablaşmağa başlayırlar, onun mövqeyini nəzərə alırlar, dövlətimiz həm siyasi, həm iqtisadi layihələrin əsas iştirakçısıdır. Dağlıq Qarabağ probleminin həlli üçün bütün məsələlər kompleks şəkildə həyata keçirilir. Bu münaqişəni yalnız demokratikləşmə prosesindən asılı vəziyyətə salmaq isə siyasi daltonizmdən başqa bir şey deyildir. "Azadlıq" blokunun iddiaları bir daha onu göstərir ki, bu insanlar Azərbaycanın problemlərinin həlli ilə bağlı aydın təsəvvürə malik deyillər və istənilən məsələyə öz maraqlarının reallaşması prizmasından baxırlar.



## 4. Korrupsiyaya qarşı mübarizə

Korrupsiya kimi ümumbəşəri problemin hər bir ölkə üçün, xüsusilə də hakimiyyət üçün ən ciddi başağrısı olması sirr deyildir. Xüsusilə inkişaf etməkdə olan ölkələrin müxalifəti hakimiyyət uğrunda mübarizədə bu amildən əsas silah kimi istifadə edir. "Rəngli inqilabların" baş verdiyi ölkələrdə – Gürcüstanda, Ukraynada müxalifətin ən təsirli vasitə kimi bu amildən istifadə etməsi, korrupsiyanın mövcudluğunu qabartması və hakimiyyətə gələcəyi təqdirdə bu problemin aradan qaldırılacağını vəd etməsi, sözsüz ki, seçicilərin mövqeyinə ciddi təsir göstərmişdir. 2005-ci il parlament seçkiləri göstərdi ki, radikal müxalifət hakimiyyətə qarşı ittihamlarında korrupsiya məsələsindən əsas şüarlardan biri kimi istifadə edir. "Azadlıq" blokunun platformasında istənilən məsələyə münasibət korrupsiya amilinin qabardılması ilə müşayiət olunmuşdur. Radikal müxalifət belə bir tezislə çıxış edirdi ki, korrupsiya Azərbaycanda bütün problemlərin əsasında dayanır və onunla səmərəli mübarizə bütün problemlərin aradan qaldırılmasında əsas şərtdir. Yəni radikal müxalifətin hər şeyi mütləqləşdirmək xətti bu məsələdə də özünü qabarıq şəkildə büruzə verdi. Lakin bu cənablar digər məsələlərdə olduğu kimi, korrupsiya amilində də vacib bir məqamı unutdular. Bu da ondan

ibarətdir ki, radikal müxalifət Gürcüstan və Ukraynanın reallığı ilə Azərbaycandakı vəziyyətin fərqli olduğunu nəzərdən qaçırdı. Əgər Ukrayna və Gürcüstanda hakimiyyət korrupsiya ilə mübarizə sahəsində təsirli addımlar atmadısa, Azərbaycanda bu istiqamətdə xeyli işlər görüldüyü ictimaiyyətin nəzərindən qaçmadı.

Etiraf edilməlidir ki, son zamanlar korrupsiya ilə mübarizə sahəsində Azərbaycan iqtidarı çox mühüm addımlar atmaqdadır. Qəbul edilmiş sənədlər, təsis edilmiş qurumlar tez bir zamanda bu sahədə də ciddi nəticələr əldə ediləcəyinə əsas verir. Radikal müxalifət korrupsiya probleminə çox səthi yanaşaraq, hər şeydə iqtidarı günahlandırmağa çalışır. Elə təsəvvür yaranır ki, guya onlar hakimiyyətdə olduğu dövrdə ölkədə nə rüşvətxorluq, nə də dövlət əmlakının talanması olmuşdur. Elə bil, vaxtilə yüksək tribunalardan bir-birini rüşvətxorluqda, korrupsiyada ittiham edənlər onlar deyillər. Bunun üçün 1993-cü ildə o vaxtkı Prezident Əbülfəz Elçibəyin sədrliyi ilə keçirilən müşavirə zamanı AXC-Müsavat iqtidarı təmsilçilərinin bir-birini korrupsiya və rüşvətxorluqda ittiham etmələrini xatırlamaq kifayətdir.

Korrupsiyanın səbəblərinin araşdırılması və aradan qaldırılması elmi yanaşma tələb edir. Məhz belə yanaşmanı Azərbaycan Prezidenti İlham Əliyev nümayiş etdirmişdir: "Korrupsiyanın başlıca səbəbi bizim keçmi-





şimizlə, totalitar sistemlə, əhalinin həyat səviyyəsinin aşağı olması, çox böyük sayda insanların yoxsulluq içində yaşaması ilə, habelə dövlət orqanlarının iqtisadiyyata təsiri ilə bağlıdır. Ona görə də biz müxtəlif istiqamətlərdə iş aparırıq. Özəl sektorda korrupsiya yoxdur. Özəl müəssisədə korrupsiya yoxdur, aldatma yoxdur, oğurluq yoxdur, çünki o, şəxsi mülkiyyətdir. Biz daha tam özəlləşdirmə, dövlətsizləşdirmə və güclü orta sinif yaratmaq prosesinə nail olduqdan sonra korrupsiya kəskin surətdə azalacaqdır". Göründüyü kimi, korrupsiyaya qarşı mübarizədə Azərbaycan Prezidentinin əsas silahı iqtisadi islahatların dərinləşdirilməsi, liberal iqtisadi sistemin tam formalaşmasına nail olmaqdır. Radikal müxalifət isə cəmiyyətdə totalitar rejimlərə xas nəzarət mexanizmləri ilə bu bəlanın aradan qaldırılmasını təklif edir.

Xüsusi qeyd edilməlidir ki, son illər korrupsiya ilə mübarizə sahəsində atılan praktiki addımlar Azərbaycan iqtidarının bu problemin aradan qaldırılmasında qəti iradəsinin olduğunu göstərir. Tam əminliklə demək olar ki, bu ilin noyabrında bir sıra məmurların ifşa olunaraq həbs edilməsi, onların korrupsiya ilə sıx bağlılığının ictimaiyyətin diqqətinə çatdırılması ictimai rəyə olduqca müsbət təsir edən məqamdır. Sirr deyil ki, dövlət çevrilişinə cəhddə təqsirləndirilərək həbs edilən

məmurlar – Əli İnsanov, Fərhad Əliyev və başqaları korrupsioner simalar kimi insanlarda daha çox mənfi emosiyalar oyadırdılar. Keçirilmiş rəy sorğuları göstərmişdir ki, hakimiyyət çevrilişinə cəhd edərək, radikal müxalifəti çirkli pullarla maliyyələşdirən məmurların həbsi, radikal müxalifətin korrupsioner məmurlarla işbirliyinin ifşa olunması hakimiyyətin nüfuzunu daha da artırmışdır. İnsanlarda bu prosesin davamlı olacağı və korrupsiyada əli olan hər bir şəxsə qarşı müvafiq ölçü götürüləcəyi ilə bağlı əminlik yaranmışdır. Bu hadisələrin fonunda – korrupsiyalaşmış məmurlarla "korrupsiyaya qarşı mübarizəni əlində əsas şüar etmiş" radikal müxalifətin işbirliyinin ifşa olunması xüsusilə "Azadlıq" blokunun və onun tərəfdarlarının nüfuzuna ciddi zərbə vurmuşdur. Bir tərəfdən, beynəlxalq təşkitlatlar, xarici dövlətlərin nümayəndələri, digər tərəfdən isə, müxalifətə meyilli olan, lakin müxalifətin sabit elektoratı hesab edilməyən kütlə radikal müxalifətdən üz döndərdi. Təsadüfi deyil ki, bu məmurların həbsinə qədər xaricilərin nümayiş etdirdiyi mövqe ilə həbslərdən sonra ortaya qoyulmuş mövqe arasında fərq mövcuddur. Qərb və ABŞ, bir tərəfdən, hakimiyyətin gücünü, xalqın böyük dəstəyinə malik olduğunu gördüsə və keçirilmiş sorğuların görüntü yox, reallıq olduğunu başa düşdüsə, digər tərəfdən də, müxalifətin cı-





lızlığını və acizliyini müşahidə etməklə, bu qüvvələrin özlərinin korrupsiyaya və cinayətkar ünsürlərlə əlaqəyə can atdığını açıq gördü. Bu amilin Qərbin, ABŞ-ın və ümumilikdə xalqın seçiminə təsiri şübhəsizdir.

## 5. "Azadlıq" blokunun parlament seçkiləri ilə bağlı planlarının bəzi cizgiləri

2004-2005-ci illərdə qəzetlərdə dərc olunan məqalələrin təhlili göstərir ki, müxalifətin radikal qanadı noyabrın 6-da keçiriləcək parlament seçkilərinə əvvəlcədən çox "ciddi" hazırlıq işləri görürdü. "Azadlıq" blokuna daxil olan Müsavat, AXCP, ADP və bloka qoşulmuş Lalə Şövkət parlament seçkiləri zamanı ən azı 70-75 deputat yeri qazanmağı nəzərdə tuturdu. Müxalifət liderləri hesab edirdilər ki, müxalifətin parlamentdə böyük üstünlük əldə etməsi Gürcüstanda olduğu kimi, Azərbaycanda da müxalifətin hakimiyyətə gəlməsinə təkan verəcəkdir. Müxalifətin radikal qanadı əvvəlcə parlamentdə, daha sonra isə Prezident Aparatında hakimiyyəti ələ almağı planlaşdırırdı.

Radikal müxalifət xaricin göstərişlərinə uyğun olaraq, öz tərkibində özünü zahirdə cəmiyyətə müstəqil göstərən, əslində isə faktiki olaraq partiya liderlərindən

asılı vəziyyətdə olan müxtəlif gənclər təşkilatları yaratmışdır ki, həmin gənclər təşkilatları da "narıncı inqilab" zamanı müxalifətin siyasi lokomotivi rolunu oynamalı idi. İsa Qəmbərin nəzarətində olan "Yox", "Məqam", "Dalğa", "Son" və Əli Kərimlinin "Yeni fikir" Gənclər Hərəkatı birləşərək, "Arı" adlı hərəkat yaratmışdılar. Bu təşkilatın idarə heyətində birləşən müxalifətçi gənclər "Azadlıq" blokunun avqustun axırı – sentyabrın əvvəllərində keçirilməsi nəzərdə tutulan mitinqlərində birgə fəaliyyət göstərməli idilər.

"Azadlıq" bloku Gürcüstan və Ukraynada olduğu kimi, dinc inqilab zamanı gənclərə üstünlük verməyi planlaşdırırdı. Əsas dəlil ondan ibarət idi ki, gənclər həddən ziyadə maksimalist və idealist olduqlarından qarşıya qoyulan vəzifələri maksimum səviyyədə həyata keçirməyə çalışırlar. Bu amil isə müxalifətin öz siyasi planlarını reallaşdırması üçün ən mühüm vasitələrdən biri hesab edilirdi. Ona görə də universitetlərdə təhsil alan gənclərə xüsusi diqqət yetirilirdi.

Müxalifətçi gənclərin "narıncı inqilab"a mükəmməl hazırlanması üçün onların ən fəalları və partiya liderlərinə daha yaxın olanları Ukrayna və Gürcüstana göndərilirdi. Onlar həmin ölkələrdə inqilabi hərəkatda fəal iştirak etmiş şəxslərdən təlimatlar almalı, inqilabların təcrübəsini öyrənməli idilər. Belə ki, 2005-ci ilin iyun





ayında Müsavat başqanı İsa Qəmbərin oğlu İlkin Qəmbər Albaniyanın Kruya şəhərində olmuş və orada 13 ölkənin gənclər təşkilatı ilə əməkdaşlıq haqqında razılıq əldə etmişdi. Həmin razılaşmaya əsasən, parlament seçkiləri zamanı Serbiyanın "Otrav", Belarusun "Zubr" və eləcə də, Ukraynanın "Pora" gənclər təşkilatları Azərbaycan müxalifətinin gənclər təşkilatına beynəlxalq dəstək verməli idilər. Müxalifətçi gənclərin Ukrayna ilə əlaqələrində Müsavat Partiyasının Ukrayna üzrə təmsilçisi Əvəz Kazımlı mühüm rol oynayırdı. Azərbaycanda isə müxalifətçi gənclərin siyasi əlaqələndiricisi rolunu Bakıdakı xarici ölkə səfirlərinin birinin əməkdaşı həyata keçirirdi.

Xaricilər radikal müxalifətin hakimiyyətə gəlməsi üçün üç əsas şərtə əməl etməyi tələb kimi qoymuşdular. Birincisi, "Azadlıq" blokunun timsalında müxalifətin siyasi birliyi qorunub saxlanılmalıdır. İkincisi, keçirilən mitinqlər zamanı kütləvilik təmin edilməli, yəni mitinqlərə çoxlu sayda insanlar cəlb olunmalıdır. Üçüncüsü, müxalifət parlament seçkiləri zamanı yalnız dinc metodlardan istifadə etməlidir. Məsələn, əllərində qərənfil olan müxalifətçilər seçkilərin saxtalaşdırılacağı təqdirdə "Qələbə" kinoteatrının qarşısında dinc oturaq mitinq (fasiləsiz şəkildə) keçirməlidirlər və iqtidar müxalifəti təxribata çəkə bilməməlidir. Lakin mitinqlər zamanı yerli xüsusiyyətlər də nəzərə alınmalıdır.

"Azadlıq" bloku və ona qoşulmuş Lalə Şövkətin "Milli Birlik Hərəkatı" parlament seçkiləri ərəfəsində hadisələrin siyasi inkişaf perspektivlərini əsasən üç variantda görürdü. Birincisi, Moldova variantıdır ki, bu halda ABŞ, Avropa Birliyi, Türkiyə və Rusiya Azərbaycanla bağlı razılaşmaya gəlirlər. Həmin variantda Azərbaycanda yarıdemokratik bir seçki keçirilir və bunun nəticəsində ölkəmizdə mərhələli inkişaf təmin olunur. İkinci variant isə belədir ki, iqtidar öz üzərinə götürdüyü öhdəliklərə, yəni seçkilərin tam demokratik keçirilməsinə əməl etmir və bu halda müəyyən dekorativ addımlar atılır, lakin seçkinin nəticələrinin saxtalaşdırılması səbəbindən xalq küçələrə çıxır. Lakin beynəlxalq birliyin təsiri və təzyiqi ilə hakimiyyət küçələrə çıxmış xalqa zor tətbiq edə bilmir. Nəticədə hadisələr Gürcüstan və Ukraynada olduğu kimi cərəyan edir. Üçüncü variant isə hakimiyyətdaxili qruplaşmaların parlament seçkiləri ərəfəsində saray çevrilişi vasitəsilə ölkədə siyasi böhran yaratmasıdır. Müxalifət bu vəziyyətlərdən də istifadə edərək, mitinq yolu ilə oliqarxlara (Əli İnsanov, Fərhad Əliyev və başqalarına) hakimiyyətə gəlməyə imkan verməməlidir.

Radikal müxalifətin parlament seçkiləri zamanı saxtalaşdırmalar əleyhinə dinc mitinqlər keçirəcəyi təqdirdə istifadə edəcəyi əsas metod – permanent təzyiq





metodu üstünlük təşkil etməli idi. Belə ki, mitinqlər zamanı beynəlxalq birliyin təzyiqi altında iqtidardan bir-birinin ardınca güzəştlər qoparan radikal müxalifət öz uğurları ilə kifayətlənmir və öz uğurlarını artırmaq üçün yeni səylər göstərir. Həmin vaxt müxalifətin mitinqləri beynəlxalq təşkilatların və dünya mətbuatının diqqət mərkəzində olur. Müxalifətə verilən beynəlxalq siyasi dəstək "Qələbə" meydanında qurulmuş monitorlar vasitəsilə əyani şəkildə nümayiş etdirilir. Bu siyasi dəstək isə müxalifət liderlərini mənəvi cəhətdən ruhlandırır və onlar əhalini mübarizənin sonrakı mərhələsinə istiqamətləndirirlər.

Müxalifət funksionerləri belə hesab edirdilər ki, parlament seçkiləri zamanı mübarizə bir yox, iki, hətta üç mərhələdən də keçə bilər. Elə buna görə də mübarizənin birinci mərhələsində qüvvələri bacardıqca qoruyub saxlamaq və mübarizənin sonrakı mərhələsinə çıxarmaq lazımdır. Həm də mitinqlər zamanı iqtidarın sosial bazasına zərbə vurmaq üçün rayonlardan, əsasən də Gəncə, Mingəçevir, Sumqayıt, Lənkəran, Saatlı, İmişli, Sabirabad, Göyçay, Zaqatala, Qax, Cəlilabad və sair yerlərdən paytaxta əlavə adamlar gətirilməlidir. Əlbəttə ki, bu işdə xarici qrantlar əsas rol oynamalı idi.

Hesab olunurdu ki, təkcə kəmiyyətə yox, həm də mütəşəkkilliyə böyük əhəmiyyət verilməlidir. Radikal

müxalifətin planını tərtib edənlər belə düşünürdülər ki, Azərbaycanda noyabr ayında havalar mülayim olur və bu da onların bir neçə gün mitinq keçirmələrinə heç bir məhdudiyyət və əngəl yaratmayacaqdır. Lakin onların yalnız dinc metodlardan istifadə edəcəyi yeganə variant deyildi. Belə ki, iqtidarın müxalifətə güzəştə getməyəcəyi təqdirdə nəqliyyat vasitələrini, telekommunikasiya xətlərini, dövlət idarə, müəssisə və təşkilatlarının fəaliyyətini iflic vəziyyətinə salmaq üçün zorakı metodlardan istifadə ediləcəyi də istisna olunmurdu. Hər şeyi həmin dövrdəki siyasi vəziyyət müəyyən etməli idi. Bu işdə əsas qüvvə kimi "Arı" hərəkatının ön plana çıxması nəzərdə tutulmuşdu.

Bütün bunlarla bərabər, səsvermənin paralel hesablanması üçün nəzərdə tutulmuş "exit-poll"a da həlledici əhəmiyyət verilməli idi. "Exit-poll"un nəticələrinin MSK-dan əvvəl elan edilməsini müxalifət özü üçün əlverişli bir hal hesab edirdi. Guya bu zaman hakimiyyət fakt qarşısında qalaraq, geri çəkilməyə məcbur olacaq və siyasi təşəbbüs müxalifətin əlinə keçəcəkdir.

Müxalifət, həmçinin, mitinqlər zamanı "idarə olunan xaos" vəziyyəti yaradır, hakimiyyətin güc strukturlarının əməkdaşları ilə üzbəüz qaldıqda isə, əllərində qərənfil olan müxalifət qüvvələri psixoloji cəhətdən dözümlülük nümayiş etdirir və bu da müxalifətin hər





hansı bir qarşıdurma və təxribata keçməsinin qarşısını alır. Bundan sonra, müxalifət siyasi şəraitdən istifadə edərək MSK-ya, Prezident Aparatına və Milli Məclisə dinc yürüş edir. Müxalifət həm də "müqavimət – əksmüqavimət metodu" ilə hərəkət edir. Dördlüyün üzvləri razılığa gəlmişdilər ki, mitinqlər zamanı onlar hakimiyyətlə hər hansı bir separat danışıqlara getməməlidirlər. Çünki başa düşürdülər ki, parlament seçkiləri, ən uzağı isə, 2008-ci ilin prezident seçkiləri onların son şansıdır və öz məntiqlərinə görə, bu dəfə hakimiyyətə heç bir vəchlə güzəştə gedilməməlidir. Əks təqdirdə, radikallar birdəfəlik siyasi səhnədən silinməlidir. Radikal müxalifət funksionerləri belə hesab edirdilər ki, Azərbaycanda 1993-cü ildən bu yana heç bir seçki demokratik keçirilməyib və bu da beynəlxalq birliyin hesabatlarında öz əksini tapmışdır. Yəni Azərbaycanda iqtidar kifayət qədər seçki saxtakarlığına yol verdiyindən, dünyanın superdövləti sayılan ABŞ daha bu qanunsuzluğa yol verməyəcəkdir. "Azadlıq" blokunun bölgələrdə mitinqlər keçirməsinin başlıca səbəbi isə əhalinin hər yerdə iqtidardan narazı olduğunu ABŞ-a göstərmək idi.

Seçkinin nəticələrinin saxtalaşdırılacağı ehtimalının yüksək olacağını düşünən AMDP-nin sədri İsgəndər Həmidov da "Azadlıq" blokuna qoşulacağını bəyan et-

mişdi. Düzdür, taktiki məsələlərdə İ.Həmidovla "Azadlıq" blokunun rəhbərləri arasında bəzi fikir ayrılıqları var idi. Məsələn, İ.Həmidov fasiləsiz oturaq mitinqlərə seçkidən əvvəl başlanılmasında israr edirdi. İsa Qəmbər isə seçkilərin nəticələrinin bilinməsindən sonra oturaq mitinqlərə başlamağı məqsədəuyğun hesab edirdi.

Hər həftə Müsavat Partiyasının qərargahında "Çağrı" gənclər təşkilatının iclasları keçirilirdi. İclaslarda "Çağrı"ya yeni üzvlərin cəlb edilməsi məsələsi, eləcə də, ölkədəki siyasi vəziyyət müzakirə olunurdu. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, Müsavat Partiyasındakı kuluar söhbətlərinə görə, guya iqtisadi inkişaf naziri Fərhad Əliyev 2003-cü ilin prezident seçkilərindən əvvəl İsa Qəmbərə 80 min dollar pul göndərmişdir. Bu pul müxalif partiya liderlərinin birinin əli ilə İsa Qəmbərə çatdırılmışdır. İsa Qəmbər isə bu faktı Divan üzvlərindən gizlətmişdir.

"Azadlıq" bloku parlament seçkiləri uğrunda siyasi mübarizənin gedişində qeyri-hökumət təşkilatları ilə işləməyə də diqqət verirdi. O, hesab edirdi ki, qeyri-hökumət təşkilatları cəmiyyətin tərkib hissəsi olaraq, onun siyasi baxışlarına təsir göstərə bilər. Eləcə də, onun üçün hakimiyyətlə mübarizənin gedişində tələbə gənclərin fəaliyyətinin əlaqələndirilməsi də böyük əhəmiyyət kəsb edirdi.





Radikal müxalifət müstəqil televiziya yaratmağı da özünün başlıca vəzifələrindən biri hesab edirdi. Bu, seçkilərdən çox-çox əvvəl gündəliyə çıxarılmışdı. Hesab olunurdu ki, müstəqil televiziyanın yaradılması müxalifətə seçki kampaniyasının gedişində təbliğat işini qurmağa böyük kömək göstərməlidir. Belə ki, müxalifət təmsilçilərinin fikrincə, müstəqil televiziyanın yaradılması onların fəaliyyəti barəsində cəmiyyətə informasiya ötürülməsi üçün əlverişli şərait yaradar. Bu məqsədlə maliyyə mənbələrinin axtarışı başlanılmışdı. Maliyyə dayaqlarının tapılmayacağı təqdirdə isə, mitinqlər zamanı İctimai Televiziyadan geniş istifadə etmək planlaşdırılırdı.

Qeyd olunanlarla yanaşı, radikal müxalifət seçki kampaniyasının gedişində xarici dövlətlərin və beynəlxalq təşkilatların maliyyə dəstəyi ilə əhali arasında təbliğat məqsədi ilə müxtəlif layihələr həyata keçirməyə çalışır, demokratik dövlətlər hesab etdikləri Gürcüstan və Ukraynadan olan tərəfdarları ilə də intensiv əlaqələr qurulmasına xüsusi önəm verirdi. Belə əlaqələr mitinqlər zamanı həmin dövlətlərin müxalifətə siyasi dəstək verməsinin mühüm şərtlərindən biri olmalı idi.

## 6. Müxalifətin məğlubiyyətinin səbəbləri

Bu mövzunun təhlilinə başlamazdan və müxalifəti məğlubiyyətə aparan səbəblərin araşdırılmasından əvvəl radikal müxalifət düşərgəsində hökm sürən ab-havaya diqqət yetirmək vacibdir. Sirr deyil ki, Azərbaycan ictimaiyyəti son 13 ildə müxalifət düşərgəsində adət halını almış qarşıdurmaların, ziddiyyətlərin, partiya rəhbərləri və funksionerləri səviyyəsində qarşılıqlı ittiham və təhqirlərin, xaotik və prinsipsiz birləşmələrin və parçalanmaların, ideyasızlığın, vahid ideya-siyasi xəttin olmamasının şahididir. Yalan, populist vədlər, ictimai rəylə kobud manipulyasiya cəhdləri, davakarlıq, hərc-mərcliyə və qarşıdurmaya meyillilik, istənilən pozucu amildən hakimiyyətə qarşı istifadə etmək, yararlanmaq cəhdləri radikal müxalifətə rəhbərlik edən şəxslərin xarakterini, mövqeyini, baxışlarını və dünyagörüşünü səciyyələndirən əsas cəhətlərdir. Bu, bizim bütövlükdə götürülmüş ictimai-siyasi həyatımızın reallığıdır.

İnkişaf etmiş ölkələrin müxalifət partiyalarına nəzər saldıqda aydın görünür ki, hər bir siyasi qüvvənin elmi şəkildə əsaslandırılmış prinsipial mövqeyi, sabit elektoratı, müxalifət qurumlarına rəhbərlik edən şəxslərin isə nəzəri baxışları, ölkənin inkişafı və problemlərin həlli ilə bağlı konseptual proqram və platformaları mövcuddur. Bu partiyalar çəkisindən və vacibliyindən





asılı olmayaraq, bütün məsələləri iqtidar nümayəndələri ilə masa arxasında, səmərəli müzakirə edilməsi və çıxış yolunun axtarılması vasitəsilə həll etməyə üstünlük verirlər. Televiziya və mətbuat vasitəsilə verilən açıqlamalarda iqtidara qarşı əsassız ittihamlar, qərəzli fikirlər səsləndirilmir, ictimaiyyətə mövcud problem barədə məlumat verilir, bu problemin həllinə dair siyasi qüvvənin təklifləri çatdırılır, yəni mövqeyi ictimaiyyətin müzakirəsinə təqdim olunur. Almaniya, Böyük Britaniya, Fransa, ABŞ, Türkiyə və digər ölkələrdə siyasi partiyaların fəaliyyəti ilə tanış olan hər kəsin bu reallığı müşahidə etmək imkanı var.

Azərbaycanda isə tam fərqli mənzərə müşahidə olunur. Bu da ondan irəli gəlir ki, ümumiyyətlə, Azərbaycanda müxalifət sözün əsil mənasında partiya kimi formalaşmayıb və demokratik müxalifət yoxdur. Söhbət dağınıq müxtəlif qruplardan və dəstələrdən gedə bilər. Ölkəmizdə belə bir ənənə yaranıb ki, müxalifətdə olan partiyanı adına, mövqeyinə, siyasi xəttinə görə deyil, ona rəhbərlik edən şəxsə görə tanıyırlar. Bu partiyalarda avtoritar idarə üsulu hökm sürür, demokratik partiya quruculuğu, fikir plüralizmi, söz azadlığı yoxdur, butun proseslər partiya rəhbərinin iradəsinə və istəyinə uyğunlaşdırılmışdır. Özəl şirkət anlayışı bu partiyalara daha uyğundur.

2005-ci il parlament seçkiləri ərəfəsində müşahidə olunan bəzi hadisələri xatırlamaqla bu fikrin nə qədər əsaslı olduğunu görə bilərik. Məsələn, seçkilər ərəfəsində AXCP (i)-də Əlimәmmәd Nuriyev və Asim Mollazadənin fikir ayrılığı qəbul edilmədi və onlar partiya sıralarından xaric olundular. Eynilə, seçkilər ərəfəsində Rasim Musabəyov, İbrahim İbrahimli kimi tanınmış Müsavat funksionerləri partiyanın seçki marafonundan kənarda qaldılar. Bütün bunlar göstərdi ki, radikal müxalifət partiyalarının xətti onlara rəhbərlik edən şəxslərin ambisiyası, mövqeyi əsasında qurulur və bu xətdən azacıq yayınma ciddi cəza ilə nəticələnir.

Eyni zamanda, vacib bir məqam da ondan ibarətdir ki, müxalifət partiyalarına rəhbərlik edən şəxslər bir-birinə rəqib kimi baxır, bir-birini qəbul etmirlər. Hətta "əsas müxalifət partiyalarının birliyi" kimi qələmə verilən "Azadlıq" blokunun daxilində də bu məqam özünü qabarıq şəkildə büruzə vermişdir. Buna misal kimi, Əli Kərimli ilə bağlı Türkiyə mətbuatında xoşagəlməyən məlumatların yayılmasının Müsavat Partiyasında sevinclə qarşılanmasını göstərmək olar. Öz radikallığı ilə seçilən və AXCP (i) ilə hətta əməkdaşlıq haqqında saziş imzalamış Milli Demokrat Partiyasının sədri İsgəndər Həmidovun bu məsələyə münasibəti də dediklərimizi sübut edir. Oxşar münasibət R.Quliyevin





"qayıdış şousu" zamanı İ.Qəmbər və Ə.Kərimli tərəfindən də müşahidə edilmişdir. Göründüyü kimi, "Azadlıq" blokunda "birlik" zahiri xarakter daşıyırdı. Bu, heç də təsadüfi deyildir. Çünki "Azadlıq" bloku bəzi xarici dairələrin diktəsi ilə qurulmuş birlikdir. Lakin blokun təsisçiləri ilk gündən yaxşı bilirdilər ki, bu qurumda həqiqi birlik heç vaxt baş tutmayacaqdır. Çünki bloka daxil olan qurumların rəhbərləri hər biri özünü birinci görür və hansısa vahid ideyadan söhbət getmir. Müsavat, AXCP (i) və ADP-nin rəhbərləri bir həqiqəti dərk edə bilmirlər ki, demokratiya yolu ilə gedən cəmiyyətdə mahiyyətcə bu tipli birliklərin yaranması daha çox totalitar təfəkkürün məhsulu kimi qiymətləndirilir. Bu düşüncənin sahibləri olan üç partiyanın rəhbərlərinin bir-birini qəbul etməməsini gizlətmək, pərdələmək heç vaxt mümkün olmamışdır. Həmçinin, bu blokda təmsil olunan partiyaların hər birinin özünü "ana müxalifət" kimi təqdim etməsi də qıcığa və ziddiyyətlərə səbəb olan vacib məqamlardan biri kimi qəbul edilməlidir. Həmin partiyaların nəzarətində olan qəzetlərdə "müttəfiq" partiyaların rəhbərləri haqqında gedən materiallar da onların arasında dərin ziddiyyətlərin mövcudluğunu göstərmişdir.

Vəziyyətin belə axarı bəzi xarici qüvvələri narahat etməyə bilməzdi və onlar çalışdılar ki, müxalifət lider-

ləri fəallığını artırsınlar, parçalanmaya yol verməsinlər. Müxalifət liderlərinin (Əli Kərimli, İsa Qəmbər, Sərdar Cəlaloğlu, Etibar Məmmədov və Lalə Hacıyeva) 2005-ci ilin iyun ayında 6 xarici ölkənin nümayəndələri ilə keçirdiyi görüşdə, sonra özlərinin dediklərinə görə, müxalifətin taktiki hərəkətləri, seçkiyə hansı formada qatılacaqları və digər məsələlər müzakirə edilmişdi. Əsas məsələlərdən biri qrant məsələsi olmuşdu. Əli Kərimli əhalinin siyasi fəallığının artırılması üçün ayrılmış qrantın həcminin az olduğunu bildirmişdi. Ayrılan qrantın səmərəli istifadə olunması ilə bağlı xaricilər tərəfindən Əli Kərimliyə iradlar da səslənmişdi. Buna baxmayaraq, müxalifət liderləri mitinqlərə çıxan adamların az olması, qrantların hələlik 100-150 min nəfər adamın çıxarılmasını təmin etməyəcəyini bildirmişdilər.

"Azadlıq" blokunun təsisçilərinin dediklərinə görə, müxalifət funksionerlərinə seçki ilə bağlı hərəkət taktikasını hazırlayıb təqdim etmək haqqında göstəriş veriblər. Bu plan ekspertizadan keçəndən sonra qaytarılacaq, bundan sonra müxalifət liderləri plana uyğun fəaliyyətlərini quracaqlar.

Əli Kərimlinin müavini Fuad Mustafayev yaxın ətrafına böyük sevinclə bildirirdi ki, guya görüşlərdə razılığa gəlinib ki, əgər sentyabr ayının sonuna kimi mitinqlərə 100-150 min adam çıxarılarsa, seçkidən əvvəl hakimiyyətin istefası məsələsi gündəliyə gətiriləcək-





dir. Beləliklə, müxalifətin mitinqlərinə çıxanların sayının bir neçə dəfə şişirdilməsinin də səbəbi elə bundadır.

Seçkilər ərəfəsində xarici dairələrin tapşırığı ilə yaranmış və daha çox siyasi partiyaların birliyi deyil, fərdlərdən ibarət "Yeni Siyasət" blokunda nə baş verdiyi, ümumiyyətlə, anlaşılmazdır. Bu blok "açıq qapı" prinsipini rəhbər tutaraq, siyasi mövqeyindən və baxışlarından asılı olmayaraq, hamını öz sıralarına qəbul etməyə hazırlığını nümayiş etdirmişdir. Hətta nə siyasətə, nə də seçki prosesinə heç bir aidiyyəti olmayan və əcaib adlı QHT-lərin bu bloka qəbul edilməsi onun sosial bazasının olmadığından xəbər verirdi. Təsadüfi deyil ki, blokun yaranmasından az keçmiş ziddiyyətlər özünü büruzə vermiş, "Milli Birlik Hərəkatı"nın sədri L.Ş.Hacıyeva "Yeni Siyasət"i tərk etmişdi. Daha sonra "Azadlıq" bloku ilə əməkdaşlıq haqqında saziş məsələsi gündəliyə gələndə, ASDP həmsədri Araz Əlizadə ortaya qəti mövqe qoyaraq, bu sazişə imza atmayacağını bildirmişdir. Yarandığı gündən qeyri-ciddi təəssürat bağışlayan "Yeni Siyasət"in hər hansı uğur qazana bilməyəcəyi aydın idi. Əslində, "Yeni Siyasət" bloku qum üzərində qurulmuş tikilini xatırladır. Böyük ümidlərlə yaranan blok ilk imtahandan belə çıxa bilmədi. Heç də təsadüfi deyil ki, blokun təsisçilərinin onun gələcəyi haqqında təsəvvürləri belə yoxdur.

Müxalifətin digər blokunda – "Demokratik Azərbaycan" adlanan qurumda Ədalət, VHP və "Azadlıq" partiyaları birləşmişdi. Hər bir şəxsə məlumdur ki, bu partiyalar digərlərindən az-çox konstruktivliyi ilə fərqlənsə də, onların ictimaiyyət arasında nüfuzu və ictimai rəyə təsir imkanları zəifdir.

Azərbaycan müxalifətinin özünəməxsusluğunu göstərən şərtlərdən biri də ondan ibarətdir ki, bu düşərgədə təmsil olunmuş qurumların sabit elektoratı yoxdur. Ümumilikdə, müxalifətin elektoratı anlayışı var. Əgər paytaxtda Müsavat, AXCP (i), ADP, AMİP və bir sıra digər partiyalar müxtəlif aksiyalar zamanı müəyyən miqdarda insanları pulla cəlb edə bilirdisə, regionlarda isə, ümumiyyətlə, hər hansı partiyanın sabit elektoratı anlayışı mövcud deyildir.

Artıq bir neçə vaxtdır ki, müxalifət düşərgəsində radikalların məğlubiyyəti geniş müzakirə mövzusu olmaqda qalır. Ümumiyyətlə, Azərbaycanda bütün sahələrdə yeniləşmənin sürətinin artırılması, demokratik islahatların aparılması, Qərbin Prezident İlham Əliyevlə əməkdaşlığı genişləndirməsi və s. müsbət addımlar müqabilində müxalifətin Azərbaycan cəmiyyətinə inteqrasiya olunmaması, İsa Qəmbərin, Əli Kərimlinin, Sərdar Cəlaloğlunun, Lalə Şövkətin və digərlərinin həqiqətləri etiraf etməməsi, nəyin bahasına olursa-olsun





siyasi səhnənin önündə olmaq cəhdləri, bunun üçün daim yeni təxribatlara əl atmaları, insanları aldadıb "şirin yuxular" və nağıllar danışmaları müxalifətin liberal meyilli nümayəndələrini ciddi düşündürür.

Belə vəziyyətin yaranmasını müxalifət qəzetlərinin səhifələrindəki materiallardan da tez-tez görmək olur. Bu da onu deməyə əsas verir ki, müxalifət düşərgəsində baş verənlərin həqiqi mahiyyətini açıqlayanlar, artıq radikal müxalifətin perspektivini görmürlər, yalandan, böhtandan və liderlərin kütlüyündən doyublar. Məsələ o yerə gəlib çıxıb ki, "liberallar" (yaxud özlərini belə göstərənlər) bu dördlüyün bəyanatlarını, davranışlarını, düşüncələrini kəskin tənqid edir, onların özlərini demokrat adlandırmasına istehza ilə yanaşırlar. Radikal liderlər bir də ona görə tənqid atəşinə tutulurlar ki, guya 2005-ci ilin noyabrında Qərb Azərbaycanda demokratiyanı neftə görə satdı və "Azadlıq" blokuna xəyanət etdi. Bu azmış kimi, həmin adamlar hətta "ABŞ Azərbaycanda Rusiyaya uduzdu" tipli cəfəng, mənasız bəyanatlardan belə çəkinmirlər.

Həqiqət isə ondan ibarətdir ki, bütün dünyada demokratiyanın bərqərar olması Qərbin əsas məqsədi, strategiyasıdır. Bu mənada Azərbaycan istisna deyildir. Məsələ bundadır ki, "Azadlıq" bloku heç də Azərbaycanda demokratiya ilə eyniləşdirilmir. Qərb yaxşı bilir

ki, demokratiya dəyərləri qısa müddətə formalaşmır, hər xalqın və ölkənin özünəməxsus xüsusiyyəti var. Bu proses aşağıların və yuxarıların birgə səyləri və iqtisadiyyatın yüksəlişi nəticəsində baş verir. Demokratiya ayrı-ayrı adamların və təşkilatların arzusu ilə yaranmır. Bütün cəmiyyət bunu qəbul etməli, ona hazır olmalıdır. Azərbaycan üçün belə təkamül yolu ən optimal, əlverişli yoldur. Başa düşürəm ki, bizim opponentlər bu dəlili qəbul etmirlər. Onda onlara sual vermək istərdim: məgər sosialist sistemindən çıxmış Şərqi Avropa ölkələrində demokratiya tam qələbə çalıb? Onlar da bu yolu mərhələ-mərhələ keçirlər. Qərb ölkələrinin nümayəndələri də özlərindəki demokratiyaya tənqidi yanaşırlar.

Radikal müxalifətin məğlubiyyətini onun mahiyyətində axtarmaq lazımdır. On ildən artıqdır ki, müxalifətin bu qanadı ifrat inkarçılıq, dağıdıcılıq və pozuculuq hərəkətlərini özü üçün əsas taktiki xətt seçibdir. Görünür, bu müxalifətin liderləri keçən əsrin 90-cı illərinin meydan "tilsimindən" çıxa bilmirlər, özlərindən asılı olmayaraq, davakar instinktin girovuna çevrilirlər. Onların davakar, dağıdıcı mahiyyəti, yuxarıda qeyd etdiyimiz kimi, son parlament seçkilərində özünü bir daha büruzə verdi. Bu müxalifətdən olan namizədlər öz seçki kampaniyalarını normal çərçivədə apara bilmədilər. Düşünmək olar ki, bütün çirkabı cəmiyyətin





üzərinə tökmək üçün məqam gözləyirdilər. Hər dəfə onların çıxışları insanlarda ağır təəssürat yaradırdı.

Hələ seçkilərdən çox əvvəl radikallar gündəlik təbliğatını "seçkilər saxtalaşdırılacaq" tezisi üzərində qururdular. Bu da artıq qarşıdan gələn seçkilər zamanı davakarlıqdan, pozuculuqdan xəbər verirdi. Məlum məsələdir ki, seçkiləri uduzan müxalifət partiyaları dinc oturmayacaq və hər dəfə olduğu kimi, yenə də siyasi sabitliyi pozmağa çalışacaqdır. Necə ki, 6 noyabr seçkilərindən sonra silsilə mitinqlər keçirib seçkilərin nəticələrini ləğv etmək və təkrar seçkilər keçirmək niyyətinə düşdülər. Cəfəng bir iddiadır. Onlar dərk edə bilmirlər ki, 115 deputat seçilib və parlament öz fəaliyyətinə başlayıbdır. Bu da "Azadlıq" blokunun mübarizə prinsiplərinin davakarlığa, dağıdıcılığa və ifrat radikalizmə əsaslandığının konkret göstəricisidir.

Parlament seçkiləri başa çatandan sonra "Azadlıq" bloku Lalə Şövkətlə birlikdə, guya seçkilərdə kütləvi qanun pozuntuları olduğunu əsas götürərək, onların namizədlərindən seçilmiş deputatların parlamentin işinə qatılmayacağı haqqında bəyanatlar verirlər. Artıq 2006-cı il yanvar ayının 17-də Lalə Şövkət deputat mandatından imtina haqqında MSK-ya ərizə ilə müraciət etmişdir. Əsas məqsəd Milli Məclisin işini pozmaq, boykot etməkdir. Radikallar bu addımları ilə guya

parlamentdə real müxalifətin olmadığını göstərərək, beynəlxalq təşkilatların diqqətini bu məsələyə cəlb etmək istəyirlər. Lakin onların iddiaları suda boğulanın saman çöpündən yapışması kimi görünür. Çünki bu yolla parlamentin fəaliyyətinə təsir göstərmək real deyildir. İctimai fikir də bu məsələyə onlar gözlədikləri kimi reaksiya verməyəcəkdir. Əksinə, cəmiyyət bir daha radikal müxalifətin ağılsızlığının və pozuculuq xislətinin şahidi olacaqdır.

Radikal müxalifətin bu addımına Böyük Quruluş Partiyasının sədri Fazil Qəzənfəroğlu faydasız bir iş kimi baxır: "Real müxalifətdən çox ağıllı müxalifətə, fikir müxalifətinə önəm verirəm". Ola bilsin, Azərbaycanda xeyli real, razı olmayan azərbaycanlılar var, müxalifdirlər. "Amma bu, situasiyanı dəyişə biləcək bir gücdürmü? Yaxud parlament müstəvisində də sayca 15 nəfər real müxalifətin gəlməsi nəyi dəyişəcək, hansı qərara təsir edə biləcək? Deməli, burada daha çox fikir müxalifətçiliyindən söhbət getməlidir. Daha kəmiyyət və say müxalifətçiliyindən yox... O baxımdan bu anlayış dəyişmədikcə, gəlsələr də, gəlməsələr də ölkənin gələcəyi ilə proqnozlaşdırmalarda ortaya heç bir faydalı mövqe qoya bilməyəcəklər.

İştirak etməmək də o deməkdir ki, aktiv siyasi həyatdan təcrid olunublar. Çünki artıq siyasətin parlament-





dənkənar müstəvidə davam etdirilməsi ya aclıq aksiyasıdır, ya da mitinqlər keçirməkdir... Müasir dövr bu taktikanı həzm edə bilmir... Azərbaycan cəmiyyətinə ağıllı proqnozlarla inandırma yoluna getmək və dəstək almaq lazımdır. Bundan başqa ikinci bir yolu indiki situasiyada mən hələlik görmürəm" ("Şərq", 17 yanvar 2006).

Zərdüşt Əlizadənin fikrincə, ağıllı adamlar radikal müxalifəti tərk edir. "Hər dəfə deyirəm ki, müxalifət elə bil "zəif bənd" oynayır, zəiflər toplaşıb gücünü göstərirlər ki, oyunda özlərindən güclüsü qalmasın. Müxalifətin bütövlükdə inkişaf potensialı zəifləyib... hakimiyyətə gəlmək üçün gərək mədəni, ağıllı olasan və komandan olsun. Xalq bilsin ki, sən sabah hakimiyyətə gələndə baş nazirin, digər məmurların kimlər olacaq. Baxıb görürlər ki, bunların sağında, solunda oturanlar dövlət xadiminə, mütəxəssisə oxşamırlar".

Həqiqətən də, potensialı zəif olan müxalifət sivil mübarizə yolu tuta bilmir, onun seçimi çox məhduddur. O, məcburən davakarlıq, pozuculuq yoluna düşür və Azərbaycanda olduğu kimi, parlament seçkilərində özünü elə aparır ki, "elə bil prezident seçkiləri gedirdi... parlament seçkilərində onlar konkret yerlər uğrunda mübarizəni bir kənara qoyub, hakimiyyət davası döyürdülər" ("Gün", 24 dekabr 2005).

Bu yaxınlara qədər Müsavat Partiyasının tanınmış simalarından biri olmuş Rasim Musabəyovun fikrincə, o,

"Azadlıq" blokunun təmsilçilərinin "seçkinin nəticələrini ləğv etdirib yeni seçki keçirməyə güclərinin çatacağına" inanmır. "Belə olan halda ortalığa növbəti prezident seçkisi məsələsi çıxa bilər. Ona görə də indidən mövqe mübarizəsi başlayıb" ("Xalq cəbhəsi", 23 dekabr 2005).

Bəli, radikal müxalifət üçün 2005-ci il parlament seçkiləri artıq arxada qalıbdır. Bu gün "Azadlıq" blokunun təsisçilərini daha çox 2008-ci ildə keçiriləcək prezident seçkiləri düşündürür. Elə blokun daxilindəki vurnuxmalar da təsisçilərin bir-birini "aradan çıxarmaq", kim "super partiyanın başında durmalı" və "vahid namizəd" statusunu almalı məqsədini güdür.

Radikal müxalifətin mahiyyətini araşdırarkən, onun qisasçılıq mahiyyətini unutmamalıyıq. Bu müxalifətin liderləri hesab edirlər ki, əsassız radikallıqla və qisasçı çağırışlarla insanların narazı hissəsini öz tərəflərinə çəkəcəklər. Müxalifətdən olan namizədlər hakimiyyətə gəldikləri təqdirdə, cəmiyyət həyatının bütün sahələrini təftiş edəcəklər, varlı adamlara qarşı mübarizə aparıb, onların varidatını əlindən alıb xalqa paylayacaqlar. Görünür, bolşeviklərin təcrübəsi radikal müxalifət üçün çox xoşdur.

Radikal müxalifət partiyalarının iflasa uğramasının səbəblərindən biri də onların daxilində olan avtoritar, antidemokratik ab-havadır. Bu mənada Müsavat,





AXCP, ADP və Liberal partiyaları bir-birindən fərqlənmir. Bu partiyaların liderləri demokratik idarəetmə prinsipini özləri üçün qorxulu hesab edirlər. Məsələn, özünü demokrat adlandıran Əli Kərimli inzibatçılıq prinsipini əsas götürərək, partiyada ondan fərqli düşünənləri əzib sıradan çıxardı. Yaxud götürək Müsavatı. On ildən artıqdır ki, hakimiyyət eyni adamların əlindədir və bütün uğursuzluqlara baxmayaraq, onlar istefa vermək fikrində deyillər. Bu vəziyyət radikal partiyaları çox mənfi tərəfdən xarakterizə edir və cəmiyyətdə böyük etinasızlıqla qarşılanır.

Belə halda radikal müxalifətin demokratikləşməsi tələbi cəmiyyətin inkişaf qanunauyğunluğu ilə üst-üstə düşür və yeni libasda olan bu partiyalar Azərbaycanın bugünkü tərəqqisi ilə ahəngdar olacaqdır.

Beləliklə, seçkilər ərəfəsində müxalifət düşərgəsinə nəzər salarkən aşağıdakı mənzərəni görürük:

- müxalifət klassik partiya strukturu kimi formalaşmayıbdır;
- müxalifət pərakəndə, dağınıq haldadır, birləşmə perspektivləri yoxdur;
- ümumiyyətlə, ölkədə demokratik müxalifət yoxdur;
- müxalifət düşərgəsində ciddi ziddiyyətlər və qarşıdurmalar mövcuddur, hətta bir blok çərçivəsində birləşən siyasi qurumlar bir-birini qəbul etmirlər;

- müxalifətin vahid ideya-siyasi xətti yoxdur, heç bir müxalifət "partiyası" liderlik xüsusiyyətləri nümayiş etdirə, digərlərini öz ətrafında birləşdirə bilmir;

- müxalifət "partiyalarının" daxilindəki avtoritar idarə üsulu, bütün məsələlərdə bir nəfərin rəyinin əsas götürülməsi və hər şeyin onun iradəsinə tabe olması ciddi narazılığı və qopmaları zəruri edir;

- cəmiyyət müxalifəti ciddi qəbul etmir, bu qrupların ayrı-ayrılıqda elektoratı faktiki olaraq yox dərəcəsindədir. Müxalifətin ümumi şəkildə sabit, dəyişməz azsaylı elektoratı var;

- Müsavatın, AXCP (i) və ADP-nin "qocalmış" rəhbərlərinin ambisiyaları və düşüncə tərzi demokratik, sivil müxalifətin formalaşmasına böyük əngəldir.

Yuxarıda göstərilən şərtlər onu deməyə əsas verir ki, 2005-ci il parlament seçkilərinə Azərbaycanın "ana müxalifəti" əvvəlki seçkilər zamanı müşahidə edilmiş ağır durumda qatılmışdır. **Bu isə müxalifətin hər hansı ciddi uğur əldə edə bilməyəcəyini əvvəlcədən deməyə əsas verirdi.**



## 7. İdeoloji boşluq

Azərbaycanın siyasi reallığının təhlili, hətta siyasi palitraya səthi baxış onu deməyə əsas verir ki, özünü siyasi partiya adlandıran qurumların əksəriyyəti vahid ideya-siyasi xəttə, nəinki təkmil, hətta formalaşmaq mərhələsində olan ideoloji prinsiplərə malik deyildir. Siyasi səhnənin bir qütbündə əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, praqmatizm və neokonservatizm kimi elmi-fəlsəfi nəzəriyyələrin prinsiplərini özündə birləşdirən, azərbaycançılıq ideoloji-siyasi bazasına əsaslanaraq, cəmiyyətin inkişaf perspektivlərini müəyyənləşdirən, Azərbaycanın, regionun və dünyanın reallığını nəzərə alaraq, proqramlar hazırlayan və onların həyata keçirilməsini təmin edən, 1992-ci ildən başlayaraq ciddi siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasını görürük. Digər qütbdə isə ideya-siyasi xətti olmayan, cəmiyyətin, dünyanın inkişaf istiqamətləri, qlobal proseslərin cərəyanı haqqında aydın təsəvvürə malik olmayan, bu günə kimi elmi əsaslara malik heç bir proqram və konsepsiya ilə çıxış etməmiş davakar, pozucu müxalifət dayanır. Təbii ki, Azərbaycanın siyasi səhnəsində konstruktiv müxalifət də rüşeym halında mövcuddur. Siyasətə yeni qədəm qoymuş bu tipli partiyalar hələ formalaşma mərhələsindədir. Lakin partiyaların inki-

şafına mane olan əsas amil bəzi siyasətçilərin və onların rəhbərlik etdikləri qurumların Azərbaycanda müxalifət adını inhisara alması, müxalifətçiliyi öz biznesinə çevirməsidir. Bu mənada, "Yeni Siyasət" blokunun namizədi, AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə qısa bir vaxtda baş nazirin səlahiyyətlərini icra etmiş Əli Məsimovun dediklərində bir həqiqət var: "Azərbaycanda radikal müxalifət yox, maskalanmış münasibətlər və bundan pul qazanan bir qrup insan var. Onlar siyasəti kommersiyaya çeviriblər və postsovet məkanında olduğu kimi, onların da axırı çatıb. Onlar artıq son akkordlarını vurur və siyasi səhnədən getməlidirlər". Bu prosesin nə qədər uzun çəkəcəyini söyləmək çətin olsa da, sonda yeni, konstruktiv müxalifətin formalaşacağı və radikal müxalifəti sıxışdırıb siyasi səhnədən çıxaracağı şübhəsizdir.

Maraqlı məqam ondan ibarətdir ki, radikal müxalifət adlanan siyasi qurumların konseptual hərəkət xətti yoxdur. Onların heç biri sistemli ideoloji konsepsiyaya malik deyildir. Məsələn, Müsavat Partiyasının başında duranlar Azərbaycanın bir dövlət kimi inkişaf strategiyasını tənqid edirlər. Özləri isə bu günə kimi Azərbaycanın hər hansı sahəsinin inkişafı və ya probleminin həlli ilə bağlı real əsaslara malik, konkret proqram ya təklif hazırlamamışlar. Digər bir misal, ötən əsrin sonlarında sovet respublikalarında azadlıq hərəkatına rəhbərlik edən xalq cəbhələri müstəqillik əldə edildikdən sonra öz yerlərini digər siyasi qüvvələrə təhvil verərək, siyasi səhnəni tərk etdilərsə, Azərbaycanda bu günə kimi AXCP adlı qurum səmərəsiz, artıq antimilli fəaliyyətini davam etdirməkdədir. Təzad da ondadır ki, SSRİ dağılandan, müstəqil Azərbaycan qurulandan sonra AXCP adlı qurumun tarixin öhdəsinə buraxılmış prinsiplər əsasında yaşamasına ehtiyac varmı? Buna görə də vətəndaşlarımız AXCP-nin bugünkü missiyasını başa düşmür, bu adda qurumun kimə və nəyə xidmət etdiyini anlaya bilmirlər.





Azərbaycan Demokrat Partiyasının demokratiya prinsiplərinə nə qədər sədaqətli olub-olmamasını anlamaq üçün, bu partiyaya rəhbərlik edən şəxslərin bioqrafiyasına, davranışına, açıqlamalarına, baxışlarına diqqət yetirmək kifayətdir. Qarşıdurmaya, böhtan və təhqirə meyillilik, cığallıq, çılğınlıq – ümumiyyətlə, nəinki demokratik prinsiplərə, özünə hörmət edən heç bir siyasətçiyə və ya siyasi quruma yaraşmayan mübarizə prinsipləri ADP-də rəhbər tutulur. Builki seçki kampaniyası dövründə birdən-birə radikallaşmış Azərbaycan Liberal Partiyasının da liberallıq ideologiyasına nə dərəcədə sadiq olduğu məlum oldu. Seçkilərdən sonrakı hadisələr bir daha təsdiq etdi ki, ölkədə həqiqi

liberal partiyanın formalaşması üçün zaman lazımdır, liberalizm ideologiyasının mahiyyətinə uyğun və sadiq siyasətçilərə ehtiyac duyulur. Ümumiyyətlə, Azərbaycanda özlərini "sağçı", "solçu", "mərkəzçi", "liberal", "demokrat", "millətçi" və s. adlandıran digər çoxlu siyasi qurumlar mövcuddur. Mübaliğəsiz demək olar ki, həmin qurumlara rəhbərlik edən şəxslər bu terminləri izah etməkdə çətinlik çəkirlər və onların davranışları heç bir halda rəhbərlik etdikləri qurumların fəaliyyəti ilə uyğun gəlmir.

İndiki müxalifətə rəhbərlik edən şəxslər, əsasən, xalq hərəkatı dövründə yaranmış Azərbaycan Xalq Cəbhəsinin yetişdirdiyi siyasətçilərdir. Onlar, əsasən, köhnə məfkurə ilə yaşayan, dağıdıcı, meydan psixologiyasına malik insanlardır. Nə qədər qəribə görünsə də, Əli Kərimlinin, İsa Qəmbərin və Lalə Şövkətin müttəfiqi olan Rəsul Quliyevin özü də hesab edir ki, keçən əsrin 90-cı illərinin əvvəllərindən bu günə kimi radikal müxalifətin mahiyyətində dəyişiklik baş verməyibdir. "1991-ci ildən indiyə qədər siyasətdə olan liderlərin 99 faizi eyni adamlardır. Fikrimcə, müxalifət liderləri keçmişdə baş vermiş hadisələrin təsirindən heç vəchlə xilas ola bilmir".

Rəsul Quliyev dolayısı yolla açıq etiraf edir ki, hakimiyyət ölkəni nəzarətdə saxlayır, idarəçilik qabiliy-





yəti yüksəkdir və o, AXC-Müsavat cütlüyü hakimiyyəti kimi zəif deyildir. "Əlbəttə, indiki Azərbaycan hökuməti 1993-cü ilin iyunundakı Azərbaycan hökuməti kimi zəif deyil".

Onun fikrincə, müttəfiqləri səhvə yol verərək, 6 noyabr seçkilərində 2003-cü ilin seçkilərini təkrarladılar. Ona görə də məğlubiyyət qaçılmazdı. "2003-cü il prezident seçkiləri günü də eyni ab-hava mövcud idi, nəticəsi bəllidir. Ağır məğlubiyyətə baxmayaraq, 2005-ci ilin aprel-mayından başlayaraq, iki il əvvəlki eyforiya vəziyyəti böyük sürətlə və çox təhlükəli şəkildə bərpa olunmaqda idi".

"Azadlıq" blokunun təsisçiləri və Lalə Şövkət 6 noyabr parlament seçkiləri ərəfəsində özlərini "ana müxalifət", "real müxalifət", "müxalifət avanqardı" kimi təqdim etdilər. Özləri haqqında yüksək fikirdə idilər, düşünürdülər ki, guya artıq xalqı hakimiyyətə qarşı səfərbər ediblər. Radikallar qələbə çalacaqları ilə bağlı əvvəlcədən geniş bəyanatlar verirdilər. Ancaq hər şey əksinə oldu – yenə də məğlub oldular. Buna Rəsul Quliyevin reaksiyası özünəməxsus oldu: "12 ildir ki, Azərbaycanda məğlubiyyət ardınca məğlubiyyətə və nəhayət, sarsıdıcı məğlubiyyətə məruz qalan müxalifət nəyə görə, hansı səbəbdən öz məğlubiyyətinin səbəblərini təhlil etmir, daha ağır məğlubiyyətə aparan eyforiyaya təkrar-təkrar düşür?!" ("Bakı xəbər", 10-11 yanvar 2006).

Yerinə düşən sualdır. Lakin "köhnəlmiş" və müxalifətçilikdə "qocalmışlardan" buna cavab gözləmək qeyri-realdır. Bu suala cavabı Rəsul Quliyevə yaxınlığı ilə seçilən ADP Ali Məclisinin sabiq sədri Zəminə Dünyamalıyeva verir: "Bunların hamısı boş sabun köpüyüdür... Bunların missiyası bitib. Ona görə də mən hesab edirəm ki, liderlər, ancaq özlərini sığortalamaqla məşğuldurlar. Aldığım məlumata görə, Ukraynada, orada-burada biznes qurublar. Görünür, elə xaricə səfərləri də bununla bağlı olub... Onlar keçmiş əsrin müxalifətidir... Onlar bu seçkidən gələn seçkiyə mal-mülk yığdı". Onun fikrincə, müxalifət adı altında qalıb varlanmaq üçün demokratik görüntü yaradıblar. "Siz fikir verin: necə olur ki, seçkidən əvvəl liderin dalınca yüyürənlər, seçkidən sonra ərşə çəkildilər. Həmin mitinqlərdə iqtidar nümayəndələrinin özü maraqlı idi və ora çıxanların 80 faizi də onların öz adamlarıdır. Bunlar bu oyunları 1993-cü ildən bu günə qədər davam etdirirlər. Yenə də deyirəm, bunların erası bitdiyi üçün getməlidirlər. Qoy heç olmasa, yeni hakimiyyətin yeni müxalifəti olsun... Mən Azərbaycanda gedən situasiyanı açıb göstərmək istəyirəm ki, bu müxalifətin dalınca düşənlər oyuna getdiklərini anlasınlar... şouya qoşulmasınlar" ("Xalq cəbhəsi", 14 yanvar 2006).

Azərbaycan Xalq Cəbhəsi SSRİ-nin dağılması dövrünə təsadüf etsə də, onun əsas məqsədi siyasi sistemi





dəyişmək, müstəqillik uğrunda mübarizə aparmaq deyil, Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq, xalqı erməni işğalçılarına qarşı səfərbər etməkdən ibarət olubdur. Təəssüflər olsun ki, AXC-nin başında duranlar bu şərəfli missiyanı da layiqincə yerinə yetirməyi bacarmadılar. Baxmayaraq ki, xalqımız böyük insan itkisinə məruz qaldı, vətənpərvər və fədakar oğullarını itirdi. Çünki AXC-nin rəhbərliyində təmsil olunmuş şəxslərin ideyası qurmaq, qurulanı qoruyub saxlamaq yox, dağıtmaq, məhv etmək olub və bu gün də belədir. Məhz bu səbəbdəndir ki, müstəqil Azərbaycan dövləti yarandıqdan sonra onlar quruculuq prosesinin fəal iştirakçılarına çevrilə, Azərbaycanın problemlərinin həllində yaxından iştirak edə bilmədilər və bu gün də mövcud reallığa uyğunlaşa bilmirlər. Radikal müxalifət qurumlarının ardıcıl məğlubiyyətlərinin kökündə duran səbəblərdən biri də məhz bu amildir. Əgər xalq hərəkatının ilk dövründə xalq bu insanların şüarlarını qəbul edirdisə, SSRİ süqut etdikdən sonra özlərində güc tapıb yeni reallığa uyğunlaşa bilməyən şəxsləri qəbul edə bilmədi.

Təsadüfi deyil ki, ideoloji boşluqdan əziyyət çəkən müxalifət real proqramlar işləyib hazırlamaq əvəzinə, köhnəlmiş, təsir gücünü itirmiş şüarlardan istifadə edir. Buna görə də seçkilər dövründə xalq davakar, dağıdıcı

müxalifətin namizədlərindən yalnız iki istiqamətdə fikirlər eşitdi – birincisi, bu iqtidar pisdir, o, getməlidir, ikincisi, biz gələcəyik, hər şey yaxşı olacaqdır. Lakin heç bir müxalifət namizədi əsaslandıra bilmədi ki, bu iqtidar nəyə görə pisdir və o, niyə getməlidir. Heç bir müxalifət nümayəndəsi göstərə bilmədi ki, onlar necə gələcəklər və real nə etmək fikrindədirlər. Düzdür, əsassız vədlər çox idi, lakin sağlam şüur bunları qəbul etmirdi. İstər-istəməz, insanlarda belə bir fikir formalaşdı ki, müxalifət onlara yaxşı heç nə vəd edə bilmir. Bu məqam sonradan Müsavat funksioneri Hikmət Hacızadə tərəfindən də etiraf edildi: "Kimsə durub deyə bilər ki, "Azadlıq" blokunun lideri, bəs deyirdin gəlirəm, niyə gəlmədin?". Lider də deyə bilər ki, mən belə deməsəydim, sən heç evindən çıxıb məntəqəyə də getməyəcəkdin. Yaxud deyə bilər ki, qardaş, axı sən məndən bu nağılı istəyirsən... Əhalinin böyük bir qismi hələ də bu nağıllarla yaşayır və bu nağıllar onlara söylənilir". Bu, müxalifətin yalan vədlər verdiyinin, xalqa nağıl danışdığının acı etirafıdır. Bu, radikal müxalifətin ideyasızlığının, pozuculuqdan başqa heç nəyə qadir olmamağının təzahürüdür. Bu aksiomadır ki, ideologiyadan kasadlıq çəkən siyasi qüvvə qələbə haqqında düşünməməlidir. Hakimiyyət mübarizəsinə qoşulan siyasi qüvvənin müasir həyatın





reallığına cavab verən və qələbəyə aparan ideologiyası olmalıdır. Azərbaycanın radikal müxalifətinin məğlubiyyətinin əsas səbəblərindən biri də onun belə bir ideologiyasının olmamasıdır. Ona görə də radikal müxalifət hər məğlubiyyətdən sonra məcburiyyət qarşısında qalıb qısaömürlü ideologiyalardan bərk-bərk yapışır, bir-birini inkar edən şüarları və ideyaları birləşdirməyə çalışır.

Serbiyada, sonra Gürcüstan, Ukrayna və Qırğızıstanda baş verən rəngli inqilablar ("narıncı", "məxməri", "lalə") Azərbaycanın radikal düşərgəsini "millətçilik-türkçülük" ideyası daşıyıcılarından "narıncı inqilaba" transfer etdi. Lakin həmin ölkələrdən fərqli olaraq, Azərbaycanın radikal müxalifəti bu ideyanı həyata keçirə bilmədi. Ona görə yox ki, xaricdən kifayət qədər dəstək ala bilmədi. Əsas səbəb Azərbaycanda bunun üçün obyektiv və subyektiv amillərin yoxluğu idi. İkinci səbəb isə, xalqla hakimiyyətin sarsılmaz birliyi və iqtidarın idarəçilik bacarığı idi. Bu amillərin nəticəsidir ki, radikalların "narıncı inqilaba" bəslədikləri ümidlər boşa çıxdı. Onu da qeyd etmək lazımdır ki, növbəti məğlubiyyət radikalları sarsıtsa da, onlar uğursuz, dağıdıcı ideologiyadan əl çəkməyiblər. Axtarışlar onlarda "islam inqilabı" ideyasını önə çıxartdı. Yəni bir halda ki, "narıncı inqilab" ideyası baş tutmadı, demək,

onun rəngini dəyişib "yaşıl rəngli inqilab" ideyasına arxalanmaq lazımdır. Beləliklə, radikallar son vaxtlara qədər ehkam saydıqları ideologiyadan əl çəkib yenisini əsas götürmək haqqında düşünməyə başlayıblar.

İnamla demək olar ki, ölkənin sürətli inkişafı bu "gecəqondu" ideologiyanı da gərəksiz edəcək, onun Azərbaycanda istifadəsinə yer qoymayacaqdır.

## 8. Məğlubiyyətə yönələn seçki strategiyası

Seçkilər kimi mühüm məsələlərdə hər bir siyasi qüvvə mövcud reallığı dərindən təhlil etməli, əhatəli proqram hazırlamalı və seçkilərə əsaslandırılmış planla getməlidir. Bu planda strateji məqsədlərə çatmaq üçün istifadə olunacaq taktika dəqiq müəyyənləşdirilməli, prosesə mənfi təsir edən amillərin neytrallaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilməli, əsas məqsədin reallaşdırılması üçün lazımi addımlar atılmalıdır. Məlumdur ki, parlament seçkilərində əsas məqsəd siyasi qurumun strategiyası qələbə qazanaraq, ali qanunverici orqanda öz tərəfdarlarının çoxluğunu təmin etməkdən ibarətdir. Digər məsələ isə, taktiki gedişlər, yəni bu məqsədə nail olmağın yollarıdır. Radikal müxalifətin seçki strategiyasının təhlili onu göstərir ki, bu qüvvələr əsasən iki prinsipi rəhbər tutublar:





**Birincisi,** müxalifətin fəaliyyəti seçkilərə hazırlaşmağa və onu udmağa yox, seçkilərdən sonrakı dövrə hazırlaşmağa, iqtidara daim təzyiq göstərməyə yönəlmişdir. Məqsəd, həqiqi nəticələrdən asılı olmayaraq, müxalifətin qələbəsini etiraf etməyə məcbur etmək, parlamentdə çoxluğa nail olmaq və onun imkanlarından istifadə edib hakimiyyəti ələ keçirməkdən ibarət idi.

**İkincisi,** əgər birinci variant istənilən nəticəni verməzsə, onda radikal vasitələrdən istifadə olunmalıdır, yəni "inqilabi" vəziyyət yaradaraq, hakimiyyətin bilavasitə devrilməsini təmin etməkdir.

Beləliklə, müxalifət parlament seçkilərini ölkənin ali qanunverici orqanında təmsil olunmaq imkanı kimi deyil, hakimiyyətə gəlməyin yolu kimi qiymətləndirmişdi ki, bunun da əvvəlcədən reallıqdan uzaq, ağılsız bir plan olduğunu sonrakı proseslər sübut etdi. Müxalifətin seçki strategiyasını qura bilməməsi sonrakı addımlarda ciddi səhvlərin və nöqsanların ortaya çıxmasını şərtləndirdi. Belə ki, müxalifət yenə də romantizm eyforiyasına qapılıb seçki reallığını dərk etmədi. Reallıq isə göstərirdi ki, majoritar qayda ilə keçirilən seçkilərdə bloklaşma siyasəti səmərəli üsul deyildir. Müsavat, ADP və AXCP (i) bir blokda birləşərək,

"əsas müxalifət partiyalarının birliyi" görüntüsü yaratdı və elə zənn etdi ki, bu ad seçicinin onların xeyrinə seçiminə təsir etmək üçün kifayətdir. Buna görə də həm KİV-lərdə, həm də seçicilərlə azsaylı görüşlərdə namizədlərdən daha çox blokun təbliğatı aparıldı. Lakin seçki ərəfəsində keçirilən sorğuların nəticələri YAP-ın istənilən müxalifət partiyasını və blokunu böyük fərqlə geridə qoyduğunu göstərirdi. Radikal müxalifət bu gerçəkliyi nəzərə almaq istəmədi və fərdi qaydada namizədlərinin təbliğatı ilə məşğul olmağı özünə rəva bilmədi. Bu lovğalığı "Yeni Siyasət" bloku da təkrarladı. Bu blokun təmsilçilərinin çıxışlarında daha çox "Yeni Siyasət"in tam fərqli bir qurum olduğu, özündə yeni (əslində isə, əsasən köhnə, nüfuzunu itirmiş) simaları birləşdirdiyi təbliğ edildi. Seçkilərin nəticələri göstərir ki, bu blokların fərdi qaydada təşviqat quran namizədləri daha çox uğur qazandılar.

"Azadlıq" və "Yeni Siyasət" bloklarından heç də fərqlənməyən Azərbaycan Liberal Partiyası da seçki prosesinə ciddi yanaşa bilmədi. Partiyanın namizədləri öz platformalarından danışmaq əvəzinə, daha çox qurumun sədrini tərifləməklə məşğul idilər. O sədr ki, telekanallarda canlı çıxışdan imtina edib, yeganə klipini fırladırdı. ALP-nin uğur qazana bilməməsinin əsas səbəbi kimi bu partiyanın tanınmamasını, nüfuzlu namizədlərinin olmamasını, ifrat radikallığını göstərmək də olar. Beləliklə, radikal müxalifətin taktiki gedişləri daha çox proporsional sistemə xas olan texnologiyanı ehtiva etdiyindən, hər hansı uğurlu nəticələrin əldə olunmaması da təbii görünür.





Radikal müxalifət öz gücünü düzgün qiymətləndirə bilmədi ki, bu da seçki strategiyasının müəyyənləşdirilməsində öz əksini tapdı. Belə ki, seçki siyahıları açıqlandıqdan sonra AXCP (i) sədri Ə.Kərimli "Azadlıq" blokunun ən azı 70-75 yerə iddialı olduğunu bildirmişdi. S.Cəlaloğlu Yeni Azərbaycan Partiyasının cəmi 25-30 mandat uğrunda mübarizə aparacağı barədə proqnoz verdi. Bu proqnozun kökündən yanlış olduğunu əsaslandırmağa lüzum olmasa da, "Azadlıq" blokunun belə cəfəng açıqlamaları digər müxalifət nümayəndələrinin ciddi narazılığını üzə çıxardı və onlarda "Azadlıq" bloku əleyhinə əhval-ruhiyyəni daha da gücləndirdi. Ekspertlərin fikrincə, "Azadlıq" bloku seçkilərdə qələbə uğrunda deyil, parlamentdə 15-20 yer uğrunda real mübarizə aparırdı. Heç də təsadüfi deyil ki, seçki kampaniyası ərəfəsində YAP ilə "Azadlıq" bloku arasında aparılan dialoq zamanı Pənah Hüseynov Prezidentin İcra Aparatının məsul işçilərindən xahiş edirdi ki, "bizə parlamentdə 20-25 yer verin, bu qarşıdurmaya, mitinqlərə son qoyaq". Radikal

müxalifətin sözçüsü funksiyasını yerinə yetirən AŞPA həmməruzəçisi A.Qross da "real müxalifətə" 25 yer istəyirdi. Çünki beynəlxalq təşkitlatların nümayəndələri də başa düşürdülər ki, "Azadlıq" blokunun potensial imkanları ən yaxşı halda yalnız buna çata bilərdi. "Azadlıq" blokunun 115 namizəd irəli sürməsi və parlamentdə 75 mandata iddialı olması əsassız idi və seçkilərin nəticələri də bunu açıq göstərdi. ABŞ-ın "PA Consulting Group" şirkətinin keçirdiyi "exit-poll"un nəticələri də radikal müxalifətin uğursuz seçki strategiyası seçdiyini sübut etdi.

## 9. Ziddiyyətli seçki siyahısı

Ümumiyyətlə, müxalifətdaxili ziddiyyətlər özünü ən çox seçki siyahılarının müəyyənləşdirilməsində büruzə vermişdir. Məsələn, "Azadlıq" blokunda seçki siyahılarının üç partiya arasında paritet əsasda formalaşdırılması qərara alınsa da, siyahıların üzərində iş getdiyi dövrdə partiya rəhbərlərinin siyahıya öz tərəfdarlarını mümkün qədər çox daxil etmək istəyi açıq görünürdü. Müsavat, ADP və AXCP-nin potensialını təhlil etdikdə, Müsavatın daha çox namizəd irəli sürmək imkanları müşahidə edilmişdi. Lakin ADP və AXCP-nin təzyiqləri nəticəsində Müsavat Partiyası





hətta iki tanınmış funksionerini siyahıdan çıxarmağa məcbur olmuşdu. Həmin dövrdə ADP sədrinin birinci müavini mətbuata açıqlamalarında Müsavata ultimativ tonda xəbərdarlıq ünvanlayaraq, "özbaşınalıq edən" funksionerlərə qarşı tədbir görülməsini tələb edirdi.

Digər vacib məsələ mübahisəli dairələrdə namizədlərin müəyyənləşdirilməsi olmuşdur. Ekspertlər namizədlərin müəyyənləşdirilməsinin bu mexanizmini "Azadlıq"blokunun özünəməxsus "novatorluğu" kimi qiymətləndirmişlər. Mübahisəli dairələrdə namizədlərin müəyyənləşdirilməsinin iki variantını – praymeriz və püşkatmanı müzakirə edən partiya rəhbərləri seçimi sonuncu variantın xeyrinə etmişdilər. Beləliklə, "Azadlıq" bloku siyahını namizədlərin dairələrdə nüfuz göstəricilərinə, tərəfdarlar potensialına, peşəkar siyasətçi xüsusiyyətlərinə görə deyil, bəxt amili əsasında müəyyənləşdirməyə üstünlük vermişdi. "Azadlıq" blokunun namizədləri püşkatma yolu ilə müəyyənləşdirilmişdi ki, bu da bir çox şanslı namizədləri seçki prosesindən kənarda qoymaqla bərabər, daha şanssız namizədlərin seçki prosesinə qoşulmasına şərait yaratmışdı və bu da nəticələrə öz mənfi təsirini göstərmişdi. Sonrakı mərhələdə bu seçim hər üç partiyada, xüsusilə də Müsavatda mərkəzdənqaçma meyillərini yenidən stimullaşdırmışdı.

Seçki siyahısı açıqlandıqdan sonra əksər ekspertlərin fikri belə olmuşdur ki, "Azadlıq" bloku bu siyahı ilə parlamentdə maksimum 10-12 yerə iddialı ola bilər. Bunun da səbəbi bu blokun əksər namizədlərinin yerlərdə tanınmaması, onların ictimaiyyət tərəfindən qəbul olunmaması olmuşdur. Siyahı ilə yaxından tanış olduqda görünür ki, xüsusilə bölgələrdən irəli sürülmüş namizədlərin əksəriyyəti rayonlarda tanınmadığına görə qəbul olunmur və onların Yeni Azərbaycan Partiyasının şanslı namizədləri, habelə tanınmış bitərəf namizədlərlə bərabər səviyyədə rəqabət aparmaq imkanları yoxdur. Bəzi namizədlər mətbuat səhifələrindən azçox tanınsalar da, daha çox hay-küyçü tənqidi imicə malik insanlar idi.

Ödənişsiz efir vaxtı üçün tələb olunan 60 dairəlik baryeri aşmış ALP və "Yeni Siyasət" blokunda seçki siyahılarının müəyyənləşdirilməsində heç bir texnologiya əsas götürülməmişdi. Belə ki, bu qurumların əsas məqsədi real seçki siyahısı müəyyənləşdirmək deyil, nəyin bahasına olursa-olsun, 60 dairəlik baryeri aşmaq olmuşdur. Naimzədlərin tanınıb-tanınmaması, şanslarının qiymətləndirilməsi isə əsas şərtlərin sırasına daxil edilməmişdi. Bunun nəticəsidir ki, parlamentdə "Yeni Siyasət" bloku 2 yer, ALP isə cəmi 1 yer qazanmışdır.



## 10. "Narıncı inqilab" eyforiyası

2005-ci il yanvar ayının ortalarında İsa Qəmbər guya "narıncı inqilab" vasitəsilə Azərbaycanda dəyişikliklərin olacağı haqqında danışaraq deyirdi: "1992-ci ildə biz məgər "məxməri inqilab" nəticəsində hakimiyyətə gəlmədik" ("Yeni Müsavat", 14 yanvar 2005). Müxalifyönlü qəzetlər və beynəlxalq mətbuat Azərbaycanda "narıncı inqilab"ın baş tutacağını aksioma kimi söyləyirdilər. Hesab olunurdu ki, hakimiyyətin zəifliyinə görə Azərbaycan emissarların poliqonuna çevrilə və Ukraynada baş verən hadisələr burada təkrarlana bilər. Hətta internetdə, sonra isə radikalların mətbuatında ("Azadlıq", 13 yanvar 2005) belə bir məlumat yayılırdı ki, xaric Ukrayna inqilabını Azərbaycana ixrac etməkdə qərarlıdır və AXCP liderini dəstəkləyəcəkdir. Bir sözlə, Azərbaycanın radikal müxalifəti Ukraynadakı "narıncı inqilabdan" sonra çox ciddi surətdə "inqilaba hamilə" idi və bunun baş tutması üçün hərtərəfli hazırlaşırdı.

Lakin nə qədər paradoksal olsa da, seçki prosesinin bütün mərhələlərinin təhlili göstərir ki, elə müxalifətin məğlubiyyətinin əsas səbəblərindən biri bu düşərgənin seçkilərə "narıncı inqilab" ideyası və planları ilə qatılması idi. Məlum olduğu kimi, 2003-cü ildən başlayaraq MDB məkanında "rəngli inqilablar" ssenarisi-

nin reallaşdırılmasına başlandı. İlk olaraq Gürcüstanda, sonra isə Ukraynada və Qırğızıstanda hakimiyyət dəyişikliyindən sonra bir sıra analitiklər bu prosesin davamlı olacağını, sonrakı mərhələlərdə Azərbaycanı, Ermənistanı, Belarusu, Mərkəzi Asiya respublikalarını – Qazaxıstanı, Özbəkistanı, hətta Rusiyanı əhatə edəcəyini deyirdilər. Lakin az sonra bu proseslərin əks-təsiri elə həmin analitikləri bu məsələlər üzərində yenidən fikirləşməyə məcbur etdi. Gürcüstan və Ukrayna hadisələrinin ildönümü ilə bağlı Qərb mətbuatında bu ideyanın özünü doğrultmadığı, hər iki ölkədə bəzi göstəricilər üzrə tənəzzül müşahidə olunduğu açıq şəkildə vurğulandı. BBC, CNN, "The Washington Post", "Wall Street Journal", "New York Times", "The Guardian", "The Independent", "Die Welt", "Handelsblat" və digər nüfuzlu KİV-lərdə "rəngli inqilablar" ssenarisinin iflasa uğradığı barədə geniş materiallar verildi. Bu materiallarda hətta "narıncı inqilab" ideoloqları da Azərbaycanda və oxşar vəziyyət yaşanan ölkələrdə rəngli inqilabların mümkün olmadığını və belə cəhdlərin uğursuz olacağını bildirirdilər.

ABŞ, Avropa siyasətçiləri və analitiklərinin bu reallığı dərk etdiyi bir dövrdə, Azərbaycanın radikal müxalifəti yenə tərs bir inadla öz dediyinin üstündə duraraq, "narıncı inqilab" ssenarisini həyata keçirmək üçün





"dəlillər" axtarırdı. Məsələn, "Azadlıq" blokunun versiyasına görə, Azərbaycanda avtoritar rejim hökm sürür və o, güclənməkdə davam edir. Buna görə də Gürcüstanda və Ukraynadakı "narıncı inqilab" Azərbaycanda da həyata keçirilməlidir. Lakin bu məsələdə müxalifəti məyus edən kifayət qədər ciddi məqamlar mövcud idi.

**Mənimsənilmiş ideya.** Uzun illərdir ki, Azərbaycan müxalifətinə qarşı sürülən ittihamlardan biri dağıdıcı düşərgənin ortaya yeni ideya qoya bilməməsi ilə bağlı olmuşdur. Əgər Gürcüstanda müxalifət hakimiyyət çevrilişi prosesini "qızılgül inqilabı", Ukraynada "narıncı inqilab" adlandırdısa, Azərbaycan müxalifəti həyata keçirməyə can atdığı prosesə hətta özünəməxsus ad da verə bilmədi və faktiki olaraq, Ukrayna müxalifətinin simvollarını özününküləşdirdi. Təbii ki, bu fakt radikal müxalifətin nə qədər qeyri-ciddi, bəsit olduğuna dəlalət edən bir göstəricidir. Simvol kimi seçilən qərənfil isə uzun illərdir Azərbaycanda kədər, hüzn rəmzi kimi qəbul edilir. Təsadüfi deyil ki, bu seçim hətta bütün radikal müxalifət düşərgəsinin özündə belə birmənalı qarşılanmadı. "Azadlıq" blokunun rəhbərlərinə qarşı sərt ittihamlar səsləndirildi. Onlar plagiatda ittiham olundu, milli mentalitetdən uzaqlaşdıqları vurğulandı.

**İdeya və reallıq.** Hələ seçkilərə start verilməmiş, "Azadlıq" blokunun rəhbərləri Ukrayna və Gürcüstan-

da həyata keçirilmiş hakimiyyət dəyişikliklərinə birmənalı şəkildə rəğbətlərini gizlətmir, tez-tez Qırğızıstan hadisələrinə işarə vurur, Azərbaycanda da hadisələrin bu istiqamətdə inkişafında maraqlı olduqlarını bildirirdilər. 2003-cü ilin acı təcrübəsindən lazımi nəticə çıxarmayan radikal müxalifət hakimiyyətin ölkədə ictimai-siyasi sabitliyin qorunub-saxlanılması istiqamətində qəti iradəsini ikinci dərəcəli iş kimi vurğulayır və ictimai-siyasi vəziyyətdən asılı olmayaraq, demokratiyanı önə cəkir, bu iki amilin paralel getməsinin əleyhinə çıxış edirdi. Verilən bəyanatlar buna bariz sübutdur: əgər demokratik seçki keçirilməsə, müxalifət xalqı küçələrə çağıracaq, hakimiyyətə qarşı ciddi mübarizə aparacaqdır; yaxud da, müxalifət inqilaba hazırlaşmır, ancaq hakimiyyət seçkiləri düzgün keçirməsə, müxalifət öz iradəsini ortaya qoymalı olacaqdır. Bu kimi fikirlərin arxasında isə aşkar bir məqam dururdu: əgər müxalifət istəyinə nail olmasa, inqilab qaçılmazdır. Sonuncu fikri P.Hüseyn, S.Cəlaloğlu, Q.Məmmədov, R.Arifoğlu daha açıq şəkildə ifadə edir və 2003-cü ildə olduğu kimi, insanları iğtişaşlara, qarşıdurmaya, qanunazidd hərəkətlərə çağırırdılar.

Rasim Musabəyovun fikrincə, "inqilab Azərbaycanın xarakterinə yaddır. Bizdə haçan böyük inqilab olub? Nə 1918-ci ildə inqilab olub, nə də bolşeviklər



Ramiz Mehdiyev. 2005-ci il parlament seçkiləri: ilkin təhlil

gələndə... Məxməri inqilab güclərin potensialı bir qədər yaxın olanda baş verə bilər. Bizdə bu, yoxdur... İnqilabı tərifləyənlərin inqilabdan heç xəbərləri yoxdur. İnqilab nə deməkdir? Cəmiyyət adi, təbii dəyişiklikləri həyata keçirə bilmir, yaxud bu dəyişikliklər qaçılmazdırsa, onu eybəcər şəkildə həyata keçirir. Bu prosesin isə bir çox hallarda itkisi qazancdan çox olur. Romantik yaş həddində – 15-18 yaşında olan adam inqilaba müsbət yanaşa bilər, amma 55 yaşında bir insan kimi mən inqilaba mənfi yanaşıram, bunu istəmirəm" ("Gün", 17 dekabr 2005).

Müsavat Partiyasının Divan üzvü Hikmət Hacızadə müxalif mövqedə olmasına baxmayaraq, o, ölkədəki mövcud vəziyyəti demək olar ki, düzgün qiymətləndirir və R.Musabəyovla həmfikirdir. O, Ermənistanın "Aravot" qəzetinin suallarına cavab verərək demişdir: "İsa Qəmbər, Əli Kərimli və Rəsul Quliyev ona görə bir blokda birləşiblər ki, onlar demokratik yolla hakimiyyətə gələ bilməyəcəklərini başa düşürlər... Azərbaycanda heç bir rəngli inqilab olmayacaq. Şərait elədir ki, müxalifətin buna imkanları yoxdur... Qərb Azərbaycanda xaos yaranmasında maraqlı deyil... İnqilab olması üçün ona uyğun şərait olmalıdır. Azərbaycanda isə bu, yoxdur. Çayxanada çay içib, söhbət etməklə iş bitmir". Hikmət Hacızadə "Azadlıq" blokunun təsis-

çilərinin tutduğu yolu, nəyə və kimə arxalandıqlarını belə səciyyələndirir: "Onlar hesab edirlər ki, hansısa siyasət meydanı var. İndiki partiyaların taktikası buna yönəlib. Amma bu, mifdir. Təəssüf ki, bizim siyasətçilərimiz, partiyalarımız da bu oyunu oynamaqda davam edirlər. Bunlar özlərini Ərbakan, Süleyman Dəmirəl və ya Məsud Yilmaz hesab edirlər".

Azərbaycanda parlament seçkiləri ərəfəsindəki vəziyyətin təhlili göstərir ki, ölkədə "narıncı inqilab" üçün heç bir real əsas yoxdur. Xalq və hakimiyyət birliyi buna əyani sübutdur. Həqiqətən də, inqilab üçün tələbat və bu dəyişiklikləri həyata keçirən qüvvə olmalıdır. Bunların heç biri Azərbaycanda mövcud deyildir. Azərbaycan Prezidenti İlham Əliyev üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində tamamilə əsaslı olaraq demişdir: "İnqilabı şərtləndirən amillər var... Azərbaycana gəldikdə, əlbəttə ki, burada çevriliş etmək üçün müəyyən amillər lazım idi və onlar da Azərbaycanda yoxdur.

İlk növbədə, iqtidarla xalq arasında uçurum olmalıdı. Bizdə əksinə, xalqla iqtidar arasında birlik var, inam var... Digər tərəfdən, çevriliş etmək üçün güclü müxalifət lazımdır və cəsarətli müxalifət lideri lazımdır. Azərbaycanda nə o var, nə də bu. Bundan başqa, bunu etmək üçün təkcə müxalifətin güclü olması





kifayət etməz. Ciddi ictimai bir fikir də olmalıdır. İctimai, yaxud da sosial sifariş olmalıdır. Bu, Azərbaycanda bütövlükdə yoxdur və mövcud deyildir. Azərbaycan ictimaiyyəti bunu dəstəkləmir. Parlament seçkiləri, onun nəticələri və seçkilərdən sonra baş vermiş hadisələr bunu bir daha təsdiqləyir. Əksinə, Azərbaycanda vətəndaş cəmiyyəti formalaşır. Azərbaycanda, sözün əsil mənasında, vətəndaş həmrəyliyi mövcuddur" ("Azərbaycan", 3 dekabr 2005).

Radikal müxalifət rəhbərlərinin seçkiqabağı dövrdə mətbuata açıqlamalarının ümumi təhlili onu deməyə əsas verirdi ki, "Azadlıq" bloku seçkilərə deyil, seçkilərdən sonrakı dövrə hazırlaşırdı. Bunun üçün Gürcüstan və Ukraynanın təcrübəsi də var idi: seçkilərin saxtalaşdırıldığını iddia edən müxalifət xalqı küçələrə çağırır, hakimiyyət beynəlxalq təzyiq altında iflic vəziyyətinə salınır, bu boşluqdan istifadə edən müxalifət hakimiyyəti zəbt edir.

Azərbaycanda bunun üçün zəmin olub-olmaması onları o qədər də maraqlandırmırdı. Həqiqət isə başqadır. Ölkədə sosial-iqtisadi, ictimai-siyasi durumun təhlili onu deməyə əsas verirdi ki, Tbilisidə, Kiyevdə və Qırğızıstanda baş vermiş hadisələrin Bakıda təkrarlanması üçün obyektiv və subyektiv amillər mövcud deyildir. Elə götürək onu ki, Azərbaycan iqtidarının

apardığı siyasət nəticəsində ölkə iqtisadi inkişaf sürətinə görə dünyada liderlər sırasına çıxıbdır. Əhalinin sosial problemlərinin həlli istiqamətində hakimiyyət tərəfindən lazımi addımlar atılır. Cəmiyyətdə, əslində, təkamül yolu ilə ciddi müsbət dəyişikliklər baş verir. Hakimiyyətlə xalq arasında birlik, vəhdət mövcuddur. Keçirilən sorğular Azərbaycan Prezidentinin yüksək (76-77 faiz) nüfuza malik olduğunu göstərir. Radikal müxalifətin seçkiqabağı sınaq mitinqləri də göstərdi ki, xalq müxalifəti dəstəkləmir.

Qırğızıstan, Ukrayna və Gürcüstandan fərqli olaraq, Azərbaycanda ciddi seçki islahatı həyata keçirildi, beynəlxalq təşkilatların tövsiyələrinin tam əksəriyyəti nəzərə alındı. Seçki prosesi sadələşdirildi, inzibati resurslardan istifadənin qarşısı alındı, bütün namizədlərə, siyasi partiyalara bərabər şərait yaradıldı. Azərbaycan Prezidentinin 11 may və 25 oktyabr tarixli Sərəncamları və mövcud qanunvericiliyin təmin olunması istiqamətində atılmış addımlar beynəlxalq birlik tərəfindən müsbət qarşılandı. Beynəlxalq birlik Azərbaycan müxalifətinin zəif olduğunu yaxından müşahidə etmək imkanı qazandı, bu qüvvələrin hakimiyyətə gəlməsinin həm ölkə, həm də ümumilikdə region üçün, Qərbin regionda strateji maraqları üçün hansı təhlükə yaratdığını açıq gördü. Gürcüstan və Ukraynadan fərqli





olaraq, Azərbaycanın radikal müxalifəti qarşıdurmaya, güc nümayiş etdirməyə meyillidir. Bu da regionda sabitliyi pozan amildir. Ölkədə fəaliyyət göstərən bütün müxalifət siyasi səhnəyə vahid lider çıxara bilmədi. Bütün dünya gördü ki, Azərbaycanda demokratik islahatlar həyata keçirilir və Azərbaycanda demokratiyanın təkamül formasında inkişafı ən optimal variantdır.

Azərbaycanda açıq-aydın görünən bu reallıqlar müxalifət tərəfindən nəzərə alınmadı. Hələ seçkilərdən xeyli əvvəl yerlərdə partiya fəalları ilə görüşlər keçirən "Azadlıq" blokunun funksionerləri partiya rəhbərlərinin təlimatlarını yerinə yetirərək, öz tərəfdarlarına kütləvi iğtişaşlar törətmək barədə tapşırıqlar verirdilər. Seçkilərə az qalmış müxalifətin yerlərdəki fəallarına seçki gününün sonunda məntəqələrin qarşısına toplaşmaq və etiraz mitinqləri keçirmək barədə göstərişlər verildi. Bu, onu göstərirdi ki, müxalifət məğlubiyyətini əvvəldən başa düşmüşdü, lakin bununla barışmaq niyyətində deyil və ən son variant kimi qarşıdurmaya gedəcəkdir.

**Uğursuz çevriliş cəhdi.** Zənnimizcə, oktyabrın 17-də ADP sədri R.Quliyevin "qayıdış" şousunun qarşısı alınandan sonra radikal müxalifətin inqilab planlarının üzərindən birdəfəlik xətt çəkildi. Müxalifətin Rəsul Quliyev ilə birlikdə hakimiyyətdə müəyyən dairələrlə cinayət əlaqəsinə girərək, dövlət çevrilişi planı radikal

qüvvәlәrin hakimiyyәt iddialarını qeyri-demokratik yolla hәyata keçirmәk niyyәtinin bariz göstәricisi idi. Oktyabrın 17-dәn sonrakı hadisәlәr dә "Azadlıq" blokunun vә ona yaxın olan "Milli Birlik Hәrәkatı" adlı qurumun öz niyyәtlәrinә çatmaq üçün istәnilәn qüvvә ilә әmәkdaşlığa hazır olduğunu bir daha açıq göstәrdi.

17 oktyabr hadisәlәri göstәrdi ki, radikal müxalifәt hakimiyyәtә konstitusion vә demokratik vasitәlәrdәn istifadә edәrәk gәlmәk niyyәtindә, gücündә deyil vә buna görә dә qeyri-qanuni üsullardan istifadә edir. "Azadlıq" bloku hakimiyyәt iddialarını gerçәklәşdirmәk üçün hәtta cәmiyyәt arasında ikrah doğuran imicә malik olan korrupsionerlәrlә işbirliyinә getmәyә hazırdır. Radikal müxalifәtin ictimai rәyә "xalqın dәstәyi" kimi tәqdim etdiyi aksiyalar "çirkli pullar" hesabına tәşkil olunur. "Azadlıq" bloku Lalә Şövkәtlә birlikdә, seçkilәrin taleyini hәll edәcәk xalqa deyil, hakimiyyәti zorla әlә keçirmәkdә maraqlı olan bir qrup xarici vә daxili qüvvәlәrin dәstәyinә arxalanır.

Düzdür, radikal müxalifәt Rәsul Quliyev "fenomeni" haqqında susmağa üstünlük verir. Bir müddәt Rәsul Quliyevin gәlişinә böyük qәlәbә ümidi bәslәyәnlәr, bu şou baş tutmadıqdan sonra әks mövqelәr tutmağa başlayıblar, hәtta onun gәlişini müxalifәtә qarşı yönәlmiş tәxribat adlandırdılar. Görünür, belә sәrfәlidir. Mәsәlәn, Pәnah Hüseynov belә fikirdәdir ki, Rәsul Quliyevin gәlişi ilә bağlı bütün açıqlamalar öz cavabını tapmayıbdır. "Qeyd edәk ki, Rәsul Quliyev özü xarici xidmәt orqanlarının tәşkil etdiyi oyunda könüllü iştirak etmişdi. Bunda mәqsәd isә Azәrbaycanda demokratik qüvvәlәrә vә siyasi inqilablara zәrbә endirmәk idi " ("Savaş", 17 dekabr 2005).





Bәli, Pәnah Hüseynovun bu açıqlaması ortaya iki mәsәlәni qoyur: bir tәrәfdәn, tәsdiqlәyir ki, 2005-ci il 17 oktyabr hadisәlәrinin arxasında xarici qüvvәlәr dayanmışdı; digәr tәrәfdәn, radikal müxalifәtin mәğlubiyyәtini xaricilәrin üzәrinә yıxmaq istәyir. Daha doğrusu, "qapazaltını" göstәrmәk istәyir. Onu da vurğulayır ki, Rәsul Quliyevi bu işә biz cәlb etmәmişik, o, özü qoşulubdur. Bir şey dә mәlumdur ki, Rәsul Quliyevi Azәrbaycana gәtirәn tәyyarәdә onu Qәrb ölkәlәrinin birinin xüsusi xidmәt orqanlarının әmәkdaşı müşayiәt edirdi.

Pәnah Hüseynovun açıqlamasını, guya "Rәsul Quliyev Azәrbaycanda "narıncı inqilab"ın qarşısını almaq mәqsәdini güdәn xarici dövlәtlәrin xüsusi xidmәt orqanlarının planlarında әsas fiqurdur" kimi qәbul etmәk dә olar.

Bu, Pәnah Hüseynovun mövqeyidir. Lakin ADP-nin fәal üzvlәrindәn biri, Rәsul Quliyevә sәdaqәti ilә seçilәn Zәminә Dünyamalıyevanın mövqeyi tamam әksi-

nədir. O hesab edir ki, "Azadlıq" blokunun təsis olunmasının məqsədlərindən biri də radikal müxalifətin Rəsul Quliyevə olan qısqanclığından irəli gəlir. Onlar Rəsul Quliyevin Azərbaycana qayıdışında maraqlı deyildilər. "Mən hələ o vaxt demişdim ki, blokun yaranması birbaşa Rəsul Quliyevin gəlişinə xitam vermək, onun qarşısını almaq və hakimiyyətə dolayısı ilə demokratik görüntü yaratmaqdan ibarətdir. Bu blokun xidməti belədir" ("Xalq cəbhəsi", 14 yanvar 2006).

Beləliklə, deyə bilərik ki, seçicilərin mövqeyinə təsir göstərən əsas məqamlardan biri "Rəsul Quliyevin qayıdışı" ssenarisinin uğursuzluğu və yalnız şou xarakteri daşıması olubdur. ADP sədrinin "qayıdışı" ətrafında baş verən hadisələr, xüsusilə də bu hadisələrdə əli olan məmurların həbsi seçkilərin nəticələrinə müəyyən mənada təsir edən amillərdən biridir. ADP sədrinin Azərbaycana qayıtmaqdan imtina etməsi, onun dövlət çevrilişi planlarının təşkilatçısı olması faktının aşkarlanması, ilk uğursuz şoudan sonra seçkilərə kimi Azərbaycana mütləq qayıdacağı ilə bağlı vədlərə əməl etməməsi, ən nəhayət, "qayıdış ssenarisi"nin fiaskoya uğramasından sonra bir fərd kimi yoxa çıxması hətta müxalifətə meyillənən seçicilərin müəyyən qisminin mövqelərində də ciddi təbəddülata səbəb oldu. Seçkilərə bir neçə gün qalmış "Azadlıq" blokunda hiss olunan bədbin əhval-ruhiyyə, xüsusilə də ADP-çilərin tam bədbinliyə qapılması bunu deməyə əsas verir. ADP sədrinin Azərbaycana "qayıdış şousunun" baş tutmamasının müxalifətin mövqelərinə zərbə vuracağını və bu zərbənin seçkilərin nəticələrinə təsir göstərəcəyini "Azadlıq" blokunun rəhbərləri də dolayısı ilə etiraf etdilər. Hadisədən dərhal sonra mətbuata açıqlama verən Müsavat sədri İsa Qəmbərin "əminəm ki, bu hadisə heç də bütün müxalifəti zərbə altında qoymayacaq" açıqlaması həm özünü bu zərbədən sığortalamaq, həm də seçkilərə az qalmış müxalifətin çətin duruma düşdüyünü etiraf etmək anlamı daşıyırdı. Əslində, müxaliflər seçkilərdə ağır məğlubiyyətə düçar olacaqlarının qaçılmazlığını məhz 17 oktyabr hadisələrindən sonra anlamışdılar. Çünki proseslərin gedişi göstərdi ki, hakimiyyətin zorla ələ keçirilməsi "Azadlıq" bloku rəhbərlərinin (Əli Kərimli, İsa Qəmbər, Sərdar Cəlaloğlu) öz hakimiyyət iddialarını gerçəkləşdirmək üçün sonuncu vasitədir, bunun əldən çıxması isə məğlubiyyətin rəsmiləşməsi deməkdir. Seçkilər öncəsi proseslərin monitorinqi onu deməyə əsas verir ki, müxalifətin təşviqat kampaniyasının ən zəif dövrü də məhz 17 oktyabr hadisələrindən sonraya təsadüf edir.





Lakin radikal düşərgə məğlubiyyəti ilə barışmaq fikrində deyil, revanş üçün yeni yollar axtarışındadır.

Hazırda narıncı rəngdə köynəklərini, yaxud qalstuklarını geyib islam inqilabından danışmaqdan belə çəkinmirlər. Onlar üçün bütün yollar məqbuldur. Bu "ideya" ilə son vaxtlar Pənah Hüseynov daha fəal çıxışlar edir. Onun məqsədi dindarların hesabına müxalifətin sıralarını artırmaqdır. Görünür, radikal müxalifət "narıncı inqilabı" "islam inqilabı" ilə əvəzləmək istəyindədir.

Sərdar Cəlaloğlu da öz müttəfiqlərindən geri qalmaq istəmir. "Parlamentdə müxalif siyasi güclər təmsil olunmalıdır" deyərək, o, hakimiyyətdən bu yöndə bir şey gözləmir. "Amma bir məsələ də var ki, "yuxarıların" belə bir addım atmaması mütləq vətəndaş qarşıdurması ilə nəticələnəcək". S.Cəlaloğlunun iddiasından belə nəticəyə gəlmək olar ki, Azərbaycanda hakimiyyəti seçki yolu ilə dəyişmək olmayacaq, ona görə də vətəndaş müharibəsi qaçılmazdır.

## 11. Böhrana köklənmiş təşviqat kampaniyası

Təşviqat kampaniyası seçki prosesinin ən vacib, məsuliyyətli və həlledici məqamıdır. Bu mərhələ deputatlığa namizədin seçkilərə nə dərəcədə hazır olduğunu, millət vəkili olmağın məsuliyyətini necə dərk etdiyini bilavasitə ortaya qoyur. Seçici siyasi partiya-





ların, siyasi partiya bloklarının, müstəqil namizədlərin öz ideyalarını, müxtəlif məsələlərə münasibətini, bu və ya digər problemlərin həlli ilə bağlı təkliflərini, ideyalarını, proqramlarını ictimaiyyətin diqqətinə necə çatdırmasından asılı olaraq öz qərarını verir. Buna görə də belə bir fikir mövcuddur ki, əslində, namizədin seçilib-seçilmədiyi seçki günü deyil, təşviqat kampaniyası dövründə müəyyən edilir.

2005-ci il parlament seçkilərində, xüsusilə təşviqat kampaniyası dövründə kifayət qədər qızğın rəqabət müşahidə olundu. Bütün namizədlər üçün bərabər şərait yaradılması bu rəqabəti bir növ stimullaşdırdı. Heç bir siyasi partiyaya, siyasi partiyalar blokuna, müstəqil namizədə məhdudiyyət qoyulmadı, istər KİV vasitəsilə, istər kütləvi tədbirlərdə, istərsə də canlı görüşlərdə namizədlər öz ideyalarını seçicilərə çatdırmaq imkanı qazandılar. Bununla yanaşı, seçki prosesindən əvvəl müşahidə edilən əsaslı səbəblər, eyni zamanda, təşviqat kampaniyası dövründə ortaya çıxan bir sıra amillər müxalifətin, xüsusilə onun radikal qanadının ciddi uğur qazana bilməyəcəyini söyləmək üçün əsas yaratmışdı.

Məsələ ondadır ki, radikal müxalifətin son 13 illik fəaliyyəti cəmiyyətdə bu qüvvə haqqında stereotiplər formalaşdırıbdır. İctimaiyyətin radikal müxalifət haqqında anlayışı ondan ibarətdir ki:

- müstəqilliyin son 13 illik tarixi göstərir ki, yalnız hakimiyyətə gəlmək ideyası ilə yaşayan radikal müxalifət xalqdan uzaq düşmüş, ictimaiyyət arasında özünə yetərli dayaq qazana bilməmişdir;

- radikal müxalifət cəmiyyətin inkişaf prioritetləri, regional proseslərin gedişi, dünyada cərəyan edən qlobal proseslər barədə aydın təsəvvürə malik deyil, mövcud reallığı qəbul edə, ona uyğunlaşa bilmir;

- radikal müxalifət ölkənin taleyüklü problemlərinin həlli ilə bağlı səmərəli bir təklif, ideya, proqram irəli sürməyib, bütün məsələlərə səthi yanaşıbdır;

- müxalifətin hakimiyyətlə rəqabət aparmaq imkanları yoxdur, hakimiyyətlə müqayisədə müxalifət çox zəif və acizdir;

- radikal müxalifət hədsiz davakar, emosional, iddialı, özü haqqında qeyri-adekvat fikirdə olan kiçik qüvvələr toplusudur;

- xalq arasında dayağı olmayan radikal müxalifət məqsəd və məramından asılı olmayaraq, istənilən xarici qüvvə ilə əməkdaşlığa hazırdır və bu fakt dəfələrlə sübut olunubdur;

- radikal müxalifətin intellektual potensialı olduqca zəifdir, onu təmsil edən şəxslər ya tanınmır, ya da mənfi imicə malikdirlər;

- radikal müxalifət rəhbərlərinin hakimiyyət hərisliyi, uzun illər boyu dəyişməz qalması, öz partiyalarının





daxilində avtoritar metodlara üstünlük vermələri və sair onları beynəlxalq təşkilatların da gözündən tamam salıbdır;

Sadalanan bu gerçəkliklər radikal müxalifətin bütün seçkilərdə məğlubiyyətini şərtləndirən əsas səbəblərdir. Reallıq göstərir ki, radikal müxalifət mahiyyət etibarilə ictimai dayaqlarını gücləndirmək, intellektual potensialını artırmaq, geniş sosial təbəqələrlə iş qurmaq, cəmiyyətin maraqlarının təmin edilməsi istiqamətində səmərəli fəaliyyət göstərmək iqtidarında deyildir. Bunun üçün onun intellektual və təşkilati resursları da yoxdur. Bütün problemlərin kökünün yalnız hakimiyyətin apardığı siyasətdə olduğunu iddia edən radikallar fikirlərini təkzibedilməz faktlar əsasında cəmiyyətə çatdıra bilməmişlər, yalnız populist çıxışlar, əsassız iddialar və təhqirlərlə ictimai rəyi özlərinə qarşı yönəltmişlər. Buna görə də cəmiyyət radikal müxalifəti qara, şər qüvvə kimi təsəvvür edir, onunla təmasda olmaq istəmir, bu qüvvələri birmənalı şəkildə özündən uzaqlaşdırır.

**Populist vədlər, əsassız ittihamlar.** Təşviqat kampaniyası bu səbəbləri təsdiqləməklə yanaşı, bir sıra yeni fikirlərin yer tapmasına şərait yaratmışdı. Müxalifət namizədlərinin çıxışlarının təhlili göstərir ki, onlar təşviqatı iki istiqamətdə qurmuşdular:

1. Təmsil etdikləri qurumları həddən artıq tərifləmək.

2. Hakimiyyətin qurucu fəaliyyətinə qara yaxmaq.

Məsələnin mahiyyəti barədə daha dəqiq təsəvvür olması üçün bir sıra faktlara diqqət yetirək. "Azadlıq" blokunun rəhbərləri – Ə.Kərimli, İ.Qəmbər, S.Cəlaloğlu çıxışlarını hakimiyyətin kəskin tənqidi və heç bir reallığa uyğunlaşmayan vədlər üzərində qurmuşdular. Məsələn, Müsavat sədri İsa Qəmbər 4 dəqiqəlik pulsuz efir vaxtının təxminən 3 dəqiqə 30 saniyəsini yalnız ölkədəki ictimai-siyasi proseslərə, faktları təhrif edərək hakimiyyətin tənqidinə sərf edir, qalan 30 saniyə ərzində isə "Azadlıq" blokunun qeyri-real vədlərini səsləndirirdi. Bu vədlər hətta iqtisadiyyatla yaxından tanış olmayan şəxsə də fantaziya, utopiya kimi görünürdü. Axı hətta siyasətdən uzaq şəxs başa düşürdü ki, Neft Fondunun vəsaitlərinin paylanması ağılsızlıqdır, maaşların birdən-birə 400-500 dollar səviyyəsinə qaldırılması mümkün deyildir. AXCP (i) sədri Əli Kərimlinin çıxışları ağ yalan və ümumi frazeoloji improvizasiyalardan ibarət olmuşdu. ADP sədrinin birinci müavini S.Cəlaloğlu bütün efir vaxtını kifayət qədər mənfi imicə malik partiya sədri R.Quliyevin ictimaiyyət arasında reabilitasiyasına sərf edirdi. R.Quliyevin çıxışları isə seçicilərdə onun haqqında mənfi təsəvvürü daha da gücləndirmişdi. "Azadlıq" blokunun digər funksionerləri –





R.Arifoğlu, A.Hacılı, V.Əyyub, A.Şahbazov, H.Rüstəmov, Q.Əlibəyli, F.Mustafayev, Q.Məmmədov və digərlərinin çıxışları təhlil üzərində deyil, kəskin ittihamlar üzərində qurulmuşdu. Eynilə ALP-ni təmsil edən Ə.Temirxan da L.Ş.Hacıyevaya qarşı ünvanlanmış tənqidlərə cavab verməklə, onu tərifləməklə və hakimiyyətə qarşı əsassız ittihamlar irəli sürməklə yadda qalmışdır.

Təşviqat kampaniyası dağıdıcı, barışmaz müxalifətin siyasi və iqtisadi savadsızlığını, onun həqiqi faktlara və rəqəmlərə əsaslanaraq ideoloji mübarizə aparmaq istəyində olmadığını nümayiş etdirdi. Deputatlığa namizəd olan radikal müxalifət ideoloqları və funksionerləri elə ilk çıxışlarında hətta elm və siyasətlə məşğul olmayan sadə vətəndaşların belə bildiyi faktları və rəqəmləri təhrif etmək, kütlə şüuru ilə manipulyasiya etmək yolunu tutmuşdular. Doğrudan da, inandırıcı deyil ki, həmişə savadlı və məlumatlı olmaları ilə öyünən müxalifət başçıları və fəalları Azərbaycanın dövlət büdcəsinin nə qədər olduğunu və növbəti ilə necə nəzərdə tutulduğunu, orta aylıq əmək haqqını, son iki ildə neçə müəssisə açıldığını, iş yeri yaradıldığını, Ermənistanda və Azərbaycanda ümumi daxili məhsulu, adambaşına düşən milli gəliri bilməsinlər. Bu cür təhrifçi-böhtançı təşviqat insanlarda ikrah və istehza doğurur, YAP namizədləri və bitərəflər tərəfindən təkzib və ifşa olunurdu.

Digər tərəfdən, müxalifət funksionerləri və ideoloqları seçicilərin rəğbətini qazanmaq üçün populist şüarlara, qeyri-real vədlərə üstünlük verdilər. Əmək haqlarının dəfələrlə yüksəldiləcəyi, Neft Fondunun vəsaitlərinin əhali arasında bölüşdürüləcəyi haqqında heç bir iqtisadi hesablanmaya əsaslanmayan bəyanatlar da seçicilər tərəfindən ciddi qəbul olunmurdu. İnsanlar cəbhəçi-müsavatçıların 1992-1993-cü illərdəki iqtisadi eksperimentlərinin xalqımıza necə bəlalar və məhrumiyyətlər gətirdiyini yaxşı xatırlayırlar.

Radikal müxalifətin təşviqat kampaniyasında bölücü, insanları bir-birinə qarşı qoyan, xalqı parçalamağa hesablanmış, hakimiyyət nümayəndələrini, siyasi qüvvələri təhqir edən fikirlər geniş yer aldı. Əli Kərimli televiziya çıxışlarında Azərbaycan xalqını iki yerə – varlılara və yoxsullara, haqlılara və hüquqsuzlara bölür, sosial ədavət təbliğ edirdi. Təbii ki, vətəndaşlarımız bu siyasi uğursuzların 1990-cı illərin əvvəllərindən Azərbaycan vətəndaşlarını necə böldüyünü, ayrı-ayrı əhali qruplarına, ziyalılara, veteranlara, sahibkarlara, bəzi regionların nümayəndələrinə qarşı etinasız və ədalətsiz münasibətini unutmayıblar. Prezident İlham Əliyevin "Mən bütün azərbaycanlılar üçün yaxşı Prezident olacağam" bəyanatı və siyasəti ilə müqayisədə, müxalifət başçılarının hərəkətləri və fikirləri, əlbəttə, cılız və miskin görünürdü.





Radikalların deputatlığa namizədləri çox hallarda real faktlar və dəlillərlə danışmağı bacarmayaraq, ritorik suallara əl atır, siyasi lirika nümunəsi göstərirdilər. Bəziləri isə mömin elektoratın rəğbətini qazanmaq üçün dini mövzulara müraciət edir, radikal dini şüarlar səsləndirir, moizələr oxuyur, qarğışlar yağdırırdılar. Dindar əhali isə onların səmimi olmadığını, seçici səsi qazanmaq üçün taktiki gedişlər etdiyini başa düşür və bunu ikrah hissi ilə qarşılayırdı.

Təşviqat kampaniyasının gedişində xalq müxalifətin əsas simalarını bir daha görmək, müşahidə etmək imkanı qazandı. İnsanlar bir daha əmin oldular ki, radikal müxalifətin rəhbərlərinin, ideoloq və funksionerlərinin təbiəti, şüuru, düşüncəsi, fəaliyyət metodları və prinsipləri uzun illər ərzində qətiyyən dəyişməyibdir, bu müxalifət yenə də anarxiya, xaos, hakimiyyətsizlik təbliğ edir, səriştəsizlik, bölücülük stixiyasını təcəssüm etdirir. Radikallar xalqa böyük sarsıntılar və qarşıdurmalar vəd edirdilər, insanlar isə hakimiyyətin şəxsində böyük inkişaf və sabitlik mənbəyi görür və onu qoruyub saxlamağa ehtiyac duyurdular.

Beləliklə, radikal müxalifət ideoloqları nəzəriyyədə də olsa, sübut edə bilmədilər ki, hansısa problemi hakimiyyətdən daha yaxşı həll edə bilərlər. Lakin keçən əsrin 90-cı illərinin əvvəlində, ümumiyyətlə, həll edə bilmədiklərini praktikada göstərmişlər.

Gözlənildiyi kimi, seçicilər söyüş və ittiham bolluğunda barışmaz müxalifətin təmsilçilərindən yeni bir ideya, təklif eşitmədilər. Maraqlıdır ki, apardığı siyasətə görə hakimiyyəti kəskin tənqid edən müxalifətin irəli sürdüyü təkliflərin, əslində, hakimiyyətin həyata keçirdiyi siyasətin bəsit inikası olduğu seçicilərin diqqətindən yayınmadı. Qərb mətbuatı, tanınmış xarici politoloqlar etiraf edirdilər ki, Azərbaycanın inkişaf prioritetləri ilə bağlı radikal müxalifətin irəli sürdüyü bəzi təkliflər hakimiyyətin həyata keçirdiyi siyasətdən fərqlənmir. Məsələn, Müsavat sədri İsa Qəmbər istər iqtisadiyyatın inkişaf etdirilməsi, sosial siyasət, xarici siyasət və digər sahələrdə görülən işləri daha yaxşı görəcəklərini bildirməklə kifayətlənirdi. Belə səthi və uğursuz çıxışlar, özünü hakimiyyətə qarşı alternativ hesab edən radikal müxalifətin fərqli siyasətinin olmaması həm ictimaiyyətdə, həm də xaricilərdə radikal müxalifətin hakimiyyətə qarşı yetərli qüvvə olmaması barədə fikri daha da gücləndirdi.

Əslində, 2005-ci il parlament seçkiləri müxalifətin müxalifətçilik prinsipləri barədə aydın təsəvvürünün olmadığı fikrinin həm ictimai rəydə, həm də beynəlxalq təşkilatların, digər dövlətlərin nümayəndələrinin rəyində hakim kəsilməsinə şərait yaratdı. Bir daha təsdiqləndi ki, radikal müxalifəti cəmiyyətin inkişaf





parametrləri, prioritet vəzifələri, ölkənin inkişaf istiqamətləri maraqlandırmır. Onlar hakimiyyətin devrilməsini bütün problemlərin həllinin əsas düsturu hesab edirlər. Təhqir, şantaj, böhtan və yalana əsaslanan bu mövqe, təbii olaraq, ictimaiyyətdə və beynəlxalq aləmdə radikal müxalifət barədə mənfi təsəvvürlərin güclənməsini şərtləndirdi.

**Radikal müxalifətin antimilli, dağıdıcı mahiyyəti.** Özlərinin hakimiyyət ambisiyalarını Azərbaycanın milli maraqlarından üstün tutan müxalifət heç vaxt xalq tərəfindən dəstək ala bilməyəcəkdir. Bu, aksiomadır. Radikal müxalifət bunu anlamaq istəmir. Müxalifətin mətbuat materiallarının və liderlərinin bəyanatlarının təhlili onların antimilli və dağıdıcı qüvvə olduğu haqqında düşünməyə kifayət qəbər əsas verir.

Sağlam məntiqlə yanaşsaq, sivil dünyada qəbul olunmuş normalara görə, rəqiblər arasında siyasi mübarizə milli marağı üstələməli deyil. Ancaq həyatda fəsadlara da rast gəlmək olur. Bu mənada radikal müxalifətin əməlləri özünü daha qabarıq göstərir. Məhz ona görə də bu müxalifət cəmiyyətdə antimilli qüvvə kimi qiymətləndirilir. Faktlara müraciət edək. Parlament seçkilərindən sonra Avropa Şurasına radikal müxalifətin nümayəndələri tərəfindən 120-dən çox şikayət ərizəsi göndərilibdir. Bu müraciət-ərizələrdə, əsasən,

"Azərbaycana qarşı sanksiya tətbiq edilsin", "Azərbaycan Avropa Şurasından çıxarılsın" və buna oxşar digər tələblər qoyulur. Hətta belə qeyri-ciddi təklif irəli sürülür ki, Avropa Şurasının təzyiqi ilə mart ayında Azərbaycanda yeni parlament seçkiləri keçirilsin.

Görünür, bu adamlar üçün müqəddəs heç nə yoxdur. Öz məqsədlərinə nail olmaq üçün Vətəni də ayaq altına atmağa hazırdırlar. Elə bu faktın özü radikal partiyaların antimilli mahiyyətinin bariz nümunəsidir.

Bu partiyaların rəhbərləri yaxşı bilirlər ki, Azərbaycanın nümayəndə heyətinin səlahiyyətlərinin təsdiq edilməməsi və ya ona qarşı hər hansı digər sanksiyanın tətbiq edilməsi Azərbaycan-Avropa Şurası münasibətlərinə xələl gətirməkdən başqa bir nəticə verməyəcəkdir. Ona görə ki, ölkədə parlament seçkiləri keçirilib, onun nəticələri rəsmi olaraq Azərbaycanın Konstitusiya Məhkəməsi tərəfindən təsdiq edilib və parlament öz fəaliyyətinə başlayıbdır. Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin təsdiq edilməməsi parlament seçkilərinin nəticələrinə yenidən baxılmasına əsas yarada bilməz. Bir şey məlumdur: öz Vətənini sevən hər bir azərbaycanlı belə bir sanksiyanın Azərbaycana tətbiq olunmasını, ölkənin imicinə zərbə vuran qərarı arzulamamalıdır.

Siyasətin milli maraqların əsasında qurulması ölkənin müstəqilliyini və cəmiyyətin inkişafını təmin edən





amildir. Təəssüf ki, radikal müxalifət bu vacib postulata etinasızlıq göstərir. Prezident İlham Əliyev bu mənada öz mövqeyini belə ifadə edir: "Azərbaycan rəqabət yox, qarşıdurma yox, əməkdaşlıq məkanına çevrilməlidir. İlk növbədə, Azərbaycanın milli maraqları təmin olunmalıdır. Mən Azərbaycanın milli maraqlarının təmin olunmasında əlimdən gələni əsirgəmirəm... Ən əsası Azərbaycanın milli maraqları, Azərbaycan xalqının inkişafı, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsidir" ("Azərbaycan", 3 dekabr 2005).

Radikal müxalifətin antimilli, dağıdıcı qüvvə olduğunu göstərən əsas hadisələrdən ən təsirlisi, heç şübhəsiz ki, R.Quliyevin qayıdış şousu və Ruslan Bəşirli hadisələridir. Birinci hadisə ilə bağlı yuxarıda geniş məlumat verildiyindən, diqqəti ikinci hadisə üzərində saxlayaq. "Yeni Fikir" Gənclər Təşkilatının sədri Ruslan Bəşirlinin Ermənistan xüsusi xidmət orqanları ilə cinayət əlaqəsinə girməsi, maddi dəstək müqabilində seçkilər ərəfəsində Azərbaycanda sabitliyin pozulması üçün təmsil etdiyi təşkilat adından öhdəlik götürməsi radikal müxalifətin antimilli imicini daha da gücləndirən amil olmuşdur. "Ruslan Bəşirli presedenti" müxalifətin öz siyasi maraqlarını təmin etmək naminə xarici xüsusi xidmət orqanları ilə birbaşa əməkdaşlıq etməsinə dair təkzibolunmaz faktdır və bu fakt da

seçicilərin, hətta müxalifətə meyillənən seçici qruplarının bu düşərgədən üz döndərməsinə əsas vermişdi. Bu hadisə "Azadlıq" blokunun birlik görüntüsü yaratmaq cəhdlərinin iflasında ciddi şərt olaraq, partiya sədrlərinin eyni məsələ ətrafında 180 dərəcə fərqli mövqelərdən çıxış etməsinə səbəb olmuşdur. AXCP sədri Əli Kərimli Ruslan Bəşirli ilə bağlı məsələyə tələm-tələsik, bir-birini təkzib edən reaksiyaları ilə özü ətrafında formalaşdırmağa çalışdığı siyasətçi imicini tamamilə ləkələdi. O, Ruslan Bəşirliyə qarşı ittihamların uydurma olduğunu bəyan edərək, bu hadisəni ictimai rəyə "hakimiyyət Azərbaycanda gənclər hərəkatını boğmaq üçün bu cür üsullardan istifadə edir" şəklində sırımağa çalışsa da, bu, əks effektlə nəticələnmişdir. Əli Kərimlinin bu paradoksal mövqeyi, üstəgəl, onun himayəsində olan bir şəxsin Ermənistan xüsusi xidmət orqanları ilə danışıqlara girərək, AXCP sədri adından öhdəlik götürməsi sözsüz ki, seçkilər ərəfəsində siyasi baxımdan daha da fəallaşan seçicilərin mövqeyinə də təsir göstərmişdir. Seçici mövqeyi seçki ərəfəsində müxtəlif qüvvələrin apardığı təbliğat kampaniyasının, baş verən proseslərin təsiri əsasında yaranır. Bu mənada 2005-ci il parlament seçkiləri ərəfəsində formalaşan seçici şüurunda "ermənilərlə əməkdaşlıq edən Ruslan Bəşirli və onu himayə





edən AXCP sədri Əli Kərimli" kimi bir stereotip yaranmışdı. Bu stereotip də radikal müxalifətin əsil simasını, yəni antimilli və dağıdıcı simasını bir daha açmış, onun seçici etimadı qazanmaq cəhdlərinin iflasa uğramasında müəyyən rol oynamışdır.

Bu hadisədən sonra R.Quliyevin "qayıdış" şousunun iflasa uğraması "Azadlıq" blokunun "birləşmiş müxalifət – yeni güc mərkəzi" görüntüsü yaratmaq istiqamətində fəaliyyətlərinə də zərbə vurmuşdur. Seçiciləri populist ideyalar ətrafında birləşdirərək, kütləvi şüuru süni blok formatları ilə yükləməyə çalışan müxalifətin ilk cəhdinin uğursuzluqla nəticələnməsi və bu prosesin "Ruslan Bəşirli hadisəsi", "Rəsul Quliyevin qayıdışı" kimi çirkin hadisələrlə müşayiət olunması radikal müxalifətin mənəvi iflasının səhifələridir.

**Mitinq taktikasının iflası.** Təşviqat kampaniyasının tərkib hissəsi kimi radikal müxalifət kütləvi tədbirlərin keçirilməsinə böyük əhəmiyyət verirdi. Söz yox ki, bəzi xarici və yerli dairələrin yaxından köməyi ilə həyata keçirilən kütləvi tədbirlərin əsas məqsədi "müxalifət-xalq birliyi" formulunun təsdiq edilməsindən ibarət olmalı idi. Lakin bu ilin may ayından başlayaraq, seçkilərə qədər və ondan sonra davam edən yürüş-mitinq cəhdləri gözlənilən nəticəni vermədi. Müxalifət ən yaxşı halda meydana 5-6 min adam toplamağa nail

olurdu ki, bu da "müxalifət–xalq birliyi" formulunun reallıqdan uzaq olduğunu açıq şəkildə nümayiş etdirdi.

Sentyabrın sonu – oktyabrın əvvəlində başlayan mitinqlərin əsas hədəfi başqa olmuşdur. Belə ki, "Qələbə" meydanında keçirilən aksiyaların səmərəsizliyi radikal müxalifəti məyus etmişdi və o, şəhərin mərkəzi meydanlarına meyillənməyə qərar verdi. Bundan məqsəd kənar müşahidəçilərin hesabına öz sıralarını genişləndirmək, izdiham görüntüsü yaratmaq və xalqın müxalifəti dəstəkləmədiyi barədə ictimaiyyətdə yaranmış rəyi dağıtmaq idi. Lakin qanunun tələblərinin təmin edilməsi istiqamətində hakimiyyətin həyata keçirdiyi təsirli tədbirlər radikalların bu cəhdinin də heç bir nəticə verməməsinə səbəb olmuşdur.

Radikal müxalifətin mitinq taktikası göstərdi ki, icazəli aksiyalara muzdluların hesabına 5 min nəfərə yaxın adam topladığı halda, icazəsiz aksiyalarda iştirak edənlərin sayı olduqca azdır. Bu aksiyalara, əsasən, "Azadlıq" blokunun fəalları və onların qohumları qoşulurdu ki, nəticədə də mitinq iştirakçılarının ümumi sayı 700-800 nəfərə yaxın olurdu. Ümumilikdə, radikal müxalifət mitinq taktikası ilə Gürcüstan və Ukrayna müxalifətinin həyata keçirdiyi planı yamsılasa da, onun öhdəsindən gələ bilmədi: xalq müxalifəti dəstəkləmədi, istər Bakıda, istərsə də bölgələrdə keçirilən aksiyalarda pul hesabına iştirak edənlərin sayı çox az oldu. Aksiyalarda eyni simalar iştirak etdi ki, onlar da eyni sözləri eşitməkdən, eyni tənqid və təhqirləri dinləməkdən cana doyduqlarını son mitinqlərdə açıq ifadə etməyə başladılar. Radikal müxalifətin həm cinayətkar məmurlar, həm də xaricdən şübhəli qüvvələr tərəfindən maliyyələşdirildiyi barədə faktların açıqlanması mitinqə gələnlərin sayını xeyli azaltdı. Müxalifətin mitinq taktikası əvvəlcədən nəzərdə tutulmuş ideyanın əksinə olaraq, onun ziyanına işlədi, antimilli, antiiqtidar qüvvələrin dayaqsız, nüfuzsuz, ideyasız, davakar bir toplum olduğunu açıq göstərdi.





Beləliklə, seçki prosesinin təşviqat kampaniyası ictimai rəydə və beynəlxalq təşkilatların, xarici dövlətlərin nümayəndələrində müxalifət haqqında aşağıdakı rəylərin güclənməsinə şərait yaratdı:

- radikal müxalifət əsil müxalifətçilik prinsiplərindən xəbərsizdir, hakimiyyətə opponentliyin yalnız ittiham və dağıdıcılıq üzərində qurulduğu təsəvvüründədir;
- radikal müxalifətin nə ölkənin inkişafı ilə bağlı aydın təsəvvürü, konsepsiyası, nə də proqramı, ideyası var;
- "Azadlıq" bloku və ona yaxın qüvvələr səriştəsiz, hər şeyi inkar etmək əsasında seçki təbliğatı qurmaqla nə öz sıralarının sayını artırdı, nə də onların hakimiyyətə qarşı kampaniyası hər hansı effektlə nəticələndi;

- ənənəvi müxalifətin vədləri heç bir real əsaslara malik deyildi, bəsit kütlə psixologiyası ilə manipulyasiya məqsədi daşıyırdı;
- "Azadlıq" blokunun ölkənin inkişafı ilə bağlı irəli sürdüyü fikirlər ən yaxşı halda, hakimiyyətin həyata keçirdiyi siyasətin bəsit inikasıdır;
- radikal müxalifət hər şeyi qara rəngdə görür, ölkədəki inkişafı etiraf etməyə özündə güc tapmır, konstruktiv mövqe ilə çıxış etmək iqtidarında deyil;
- antiiqtidar qüvvələr həddən çox radikal, davakar, ambisiyalıdır, bütün məsələlərə öz siyasi, qrup maraqları prizmasından baxır, digərlərinin mənafeyini və mövqelərini qətiyyən qəbul etmirlər. Onlar üçün ən əlverişli şərait ölkədə anarxiyanın baş verməsidir və bunun üçün də radikal müxalifət bütün səylərini qoyur. Əmin-amanlıq, ümumi inkişaf onlara sərf etmir.

## 12. Radikal müxalifət və xarici amil

Məlum olduğu kimi, son zamanlar postsovet məkanında baş verən hakimiyyət dəyişikliklərində xarici amilin rolu böyük olmuşdur. Düzdür, bu dəyişikliklərin baş verməsində əsas amillərin bu və ya digər ölkənin daxilində baş verən proseslərlə bağlılığı da danılmazdır.





Belə ki, sosial gərginlik, əhalinin iqtidardan narazılığı, zəif hakimiyyət və güclü müxalifət olması, müxalifətlə bəzi hakimiyyət dairələrinin birləşməsi, güclü müxalifət liderinin olması hakimiyyət dəyişikliyi prosesinə təsir göstərən şərtlərdir. Təcrübə göstərdi ki, yalnız bu şərtlərin mövcud olduğu təqdirdə xarici dəstək amili təsirli ola bilər. Hələ parlament seçkilərindən əvvəl əksər ekspertlər bildirmişdilər ki, Azərbaycanda vəziyyət Gürcüstan və Ukraynadakından köklü şəkildə fərqlənir. "İnqilabın" baş verməsi üçün bu iki ölkədə müşahidə olunan əsas şərtlər Azərbaycanda yoxdur. Bundan da belə qənaət hasil olurdu ki, həmin ölkələrin müxalifətinə göstərilən xarici dəstək Azərbaycanda təsirli olmayacaqdır. Bu ilin iyununda Azərbaycanda səfərdə olan ABŞ Milli Təhlükəsizlik Şurasının Avrasiya üzrə direktoru Metyu Brayzanın fikirləri bu baxımdan olduqca maraqlıdır: **"ABŞ Azərbaycanda inqilab üçün əsas görmür və Vaşinqton Azərbaycanda nəinki inqilab baş verməsinə, hətta inqilab cəhdlərinə belə imkan verməyəcəkdir. ABŞ Azərbaycanda hazırkı hakimiyyətlə işləmək niyyətindədir. Vaşinqton istəyir ki, Azərbaycanla bağlı başlanmış layihələrin həyata keçirilməsi prosesi davam etsin. Biz əmin deyilik ki, hakimiyyəti əvəz edəcək qüvvələr ABŞ-ın istədiyi səviyyədə əmək-**

**daşlığı və tərəfdaşlığı həyata keçirəcəklər. Qeyri-müəyyən və inanılmamış qüvvələri hakimiyyətə gətirmək ABŞ-ın yaxın planlarına daxil deyildir. Üstəlik, ABŞ Azərbaycan müxalifətinin qüvvəsini, xalq arasında nüfuzunu və demokratik islahatlara hazırlıq səviyyəsini yetərli hesab etmir".**

Elə həmin ay nüfuzlu araşdırma mərkəzləri Azərbaycanda "inqilabın" qeyri-mümkünlüyü barədə rəy verdilər. Avropanın nüfuzlu "Çettem-Haus" təşkilatı iyunda açıqlanmış hesabatında bildirmişdi: "Azərbaycan müxalifətinin radikal, mülayim, mötədil və mühafizəkar bölümləri ilə hazırkı iqtidar komandasının atdığı addımların ekspozitiv təhlili göstərir ki, Azərbaycanda payızda keçiriləcək parlament seçkiləri ilə bağlı inqilab gözləməyə dəyməz. Müxalifət qüvvələri ümid edirlər ki, Birləşmiş Ştatların və Avropa strukturlarının təzyiqləri güclü olacaq, Azərbaycanın mövcud hakimiyyəti də müxalifətin qarşısında geri çəkiləcək, "məxməri inqilab" baş verəcəkdir. Lakin belə ümidlərin özünü doğrultma ehtimalı azdır. Azərbaycanda hakimiyyət payızda keçiriləcək seçkilərin nəticələrinin dünya birliyi tərəfindən tanınmasını istəyir".

Paris Siyasi Araşdırmlar Fondu da Azərbaycanda "məxməri inqilabın" reallaşma şanslarının olmadığını bəyan etmişdi. Fondun hesabatında deyilirdi: "Qərb anlayır ki, Azərbaycanda qəfil inqilab baş verərək, iqtidardakı indiki komanda zor gücünə hakimiyyətdən uzaqlaşdırılarsa, ölkədə fəaliyyət göstərən Avropa və ABŞ şirkətləri bəzi problemlərlə üzləşəcəkdir. Şübhə yoxdur ki, hakimiyyət dəyişikliyi olarsa, ölkədə etnik və məhəlli separatizm təmayülləri güclənəcəkdir. Vahid lideri olmayan müxalifət də "məxməri inqilabı" həyata keçirmək gücündə deyil, ən azı ona görə ki, MDB-nin indiyədək belə inqilabların reallaşdığı bütün ölkələrində proseslərə hakimiyyət təmsilçiləri olan məmurlar, "kontr-elita"lar rəhbərlik ediblər. Azərbaycandakı hakim komandada isə indiki rəhbərliyə qarşı çıxan və narazılığı aşkar şəkildə bəyan edən nüfuzlu, ən başlıcası isə, kütlə tərəfindən qəbul ediləcək xarizmaya malik yüksək çinli dövlət məmuru yoxdur".





Eyni zamanda, xüsusi qeyd etmək lazımdır ki, dünyada tanınmış İFES, Soros Fondu, Respublikaçılar İnstitutu, "Gellup İnternational" təşkilatı tərəfindən Azərbaycanda keçirilən sorğular Azərbaycan Prezidentinin reytinqinin 75 faizdən yüksək olduğunu göstərmişdi ki, bu da xalqın hakimiyyəti dəstəklədiyini təsdiqləməklə yanaşı, "inqilabla" bağlı bütün illüziyaların üzərindən də xətt çəkdi. Hətta müxalifətçilərin özləri də bu həqiqəti etiraf edirdilər. Məsələn, AXCP (k) sədri Mirmahmud Mirəlioğlu deyirdi: "Mən Azərbaycanda

inqilabçı görmürəm. Özlərini inqilabçı adlandıranları çox gözəl tanıyırıq. Onların indiyədək etdikləri "inqilabları" da yaxşı xatırlayırıq". Eynilə Zərdüşt Əlizadə, Araz Əlizadə, Rasim Musabəyov və bir çox başqaları Azərbaycanda "inqilab" ideyasının reallaşacağına inanmadıqlarını bildirmiş, bunu faktlarla əsaslandırmışdılar. Seçkilərdən sonra yaranmış vəziyyət bu proqnozların həqiqət olduğunu bir daha təsdiq etdi.

Təbii ki, müxalifət də bu reallığı görürdü. Lakin təəssüf ki, hakimiyyət ehtirası, iqtidara nifrət həmişə olduğu kimi, bu dəfə də radikal müxalifətin vəziyyəti real qiymətləndirmək və nəticə çıxarmaq imkanlarını məhdudlaşdırdı. Çoxsaylı proqnozların, rəy sorğularının nəticələri barədə mənfi fikir formalaşdırmağa çalışan radikal müxalifət rəhbərlərinin, xüsusilə də "Azadlıq" blokuna rəhbərlik edən şəxslərin xarici səfərlərində əsas məqsəd dəstək amili olmuşdur. Bu səfərlərdə bir sıra maraqlı məqamlar açıq şəkildə müşahidə edilmişdir. Birincisi, müxallifət potensial imkanlarından yüksək olması haqqında rəy formalaşdırmağa çalışmışdı, ikincisi, hakimiyyət haqqında olduqca mənfi obraz yaratmağa cəhd etmişdi, üçüncüsü, xarici dəstək müqabilində milli maraqlara zidd çoxsaylı bəyanatlar və vədlər vermişdi. Eyni zamanda, xarici mətbuata verilən müsahibələrdə və xaricilərlə görüşlərdə İ.Qəmbər və





Ə.Kərimli ayrı-ayrılıqda özləri haqqında "müxalifət lideri", rəhbərlik etdikləri qurumlar haqqında "ana müxalifət" illüziyası formalaşdırmağa çalışmışdılar ki, bu da onların arasında liderlik uğrunda gizli, bəzən də açıq mübarizə getdiyini ortaya qoymuşdu.

Beynəlxalq təşkilatların, müxtəlif dövlətlərin Azərbaycanda seçki prosesinə münasibətinin təhlili göstərir ki, onlar heç də müxalifətə dəstək vermək məqsədi güdməmişlər. Beynəlxalq təşkilatların və bəzi dövlətlərin nümayəndələrinin ara-sıra sərt bəyanatlarının əsas istəyi Azərbaycanda gedən demokratikləşmə prosesinin daha da sürətləndirilməsi məqsədi ilə bağlı olmuşdur. Lakin ictimai rəydə "Qərb və ABŞ bizi dəstəkləyir" fikrini formalaşdırmaq istəyən radikal müxalifət bunu "Qərbin müxalifətə dəstəyi" kimi qələmə vermək üçün ciddi səylər göstərmişdir.

Seçki prosesi, xüsusilə seçkidən sonra baş verən hadisələr göstərdi ki, beynəlxalq ictimaiyyət, bəzi qanun pozuntuları istisna edilməklə, Azərbaycanda seçkilərin demokratik keçirildiyini etiraf edir. Əlbəttə, buna Azərbaycan hakimiyyətinin qəbul etdiyi qərarlar və hakimiyyətin seçkiləri demokratik keçirmək iradəsi bilavasitə təsir etmişdir. İstər ATƏT, Avropa Şurası, NATO PA və Avropa Birliyinin təşkil etdiyi Beynəlxalq Müşahidə Missiyasının hesabatında, istərsə də

ABŞ, Rusiya, Türkiyə, Gürcüstan, Bolqarıstan, Rumıniya və digər dövlətlərin açıqlamasında seçkilərin demokratiyaya doğru irəliləyiş olduğu göstərilmişdir.

Belə halda sual olunur – beynəlxalq birlik Azərbaycan müxalifətini niyə dəstəkləmədi?

1. Beynəlxalq birlik gördü ki, Azərbaycanda demokratik islahatlar həyata keçirən, ölkəni Qərbə inteqrasiyaya doğru düzgün istiqamətdə aparan, real gücə, xalqın dəstəyinə malik iqtidar mövcuddur.

2. Beynəlxalq birlik Azərbaycan müxalifətinin hakimiyyətə iddialı, ancaq zəif, heç bir real proqramı olmayan, radikal, lakin zəif, bütün məsələlərə yalnız öz məhdud hakimiyyət maraqları prizmasından yanaşan, ölkəni idarə etmək üçün potensialı olmayan bir qüvvə olduğunu müşahidə etmişdir.

3. Beynəlxalq birlik müxalifətdə ideoloji boşluq olduğunu, onun sabit mövqeyinin olmadığını, xüsusilə "Azadlıq" blokunun hadisələrin cərəyanından asılı olaraq mövqeyini demokratik dəyərlərdən islam fundamentalizminə, onun oriyentasiyasının Qərbdən Şərqə doğru dəyişməsi ehtimalının böyük olduğunu görmüşdür.

4. Beynəlxalq birlik böyük strateji əhəmiyyətə malik, müxtəlif regional və beynəlxalq layihələrin mərkəzində yerləşən Azərbaycan kimi bir ölkədə böhranın, qarşı-





durmanın olmasında, ictimai-siyasi sabitliyin pozulmasında maraqlı deyildir. Regionda strateji maraqları olan Qərb və ABŞ bölgədə sabit, dinamik inkişaf edən demokratik Azərbaycanı görmək istəyir, bunu yalnız mövcud iqtidarın təmin edəcəyini görür və qiymətləndirir.

5. Müxalifətin iddia etdiyinin əksinə olaraq, beynəlxalq birliyin məqsədi Azərbaycanda hakimiyyət çevrilişi həyata keçirmək deyil, demokratikləşmə prosesini sürətləndirmək olmuşdur.

Sadaladığımız amillər göstərir ki, radikal müxalifətin iddialarının əksinə olaraq, Qərb və ABŞ Azərbaycanda heç də hakimiyyət dəyişikliyində maraqlı olmayıblar. Bu ölkələrdə belə qəbul edilib ki, ölkə güclü hakimiyyət və ona alternativ ola biləcək müxalifətin mövcudluğu şəraitində demokratik hesab oluna bilər. Məsələyə bu prizmadan yanaşdıqda, beynəlxalq birliyin məqsədlərindən biri konstruktiv müxalifətin güclənməsini təmin etmək olmalıdır. Lakin hadisələrin gedişi göstərdi ki, özünü "əsas müxalifət" kimi qələmə verən radikal qüvvələr heç də demokratik dəyərlərin daşıyıcısı deyillər. Böyük ehtimal var ki, bundan sonra beynəlxalq birlik köhnə müxalifətin siyasi səhnədən sıxışdırılıb çıxarılmasına və Azərbaycanda yeni, konstruktiv, sivil əməkdaşlığa meyilli müxalifətin formalaşmasına təsir imkanlarını axtaracaqdır.

## 13. Süni birliyin sonu

Parlament seçkilərində "Azadlıq" blokunun sarsıdıcı məğlubiyyətindən sonra radikal düşərgədə ənənəvi kəskin ziddiyyətlər özünü bütün gücü ilə göstərməkdədir. Ziddiyyətlər zahirən "Milli Məclisə getmək-getməmək", "may ayında təkrar seçkilərdə iştirak etmək-etməmək" məsələləri ətrafında müşahidə olunsa da, əslində, bunların kökü daha dərinliklərə gedir. Söhbət əbədi "müttəfiq-rəqiblərin" bir-birini zəiflətmək, kimin radikal müxalifətin lideri və 2008-ci il prezident seçkilərində radikalların vahid namizədi olmasından gedir. Əsas problem bundan ibarətdir. Hətta seçkiqabağı dövrdə "Azadlıq" blokunun təsis olunması, Lalə Şövkətin virtual "Milli Birlik Hərəkatı" yaradıb bu bloka qoşulması heç də radikal müxalifətin birliyindən xəbər vermirdi. Təcrübə göstərir ki, radikal düşərgənin başçıları şəxsi maraq naminə elan olunmuş birliyi hər an pozmağa hazırdırlar. Sadəcə olaraq, bu müvəqqəti birlikdə hərə öz mahnısını ifa edir. Seçkilərdən sonra isə elə bir vaxt gəlib ki, artıq radikal düşərgədə hərə öz dəqiq yerini müəyyənləşdirməlidir.

Müsavat Partiyası Milli Məclisin işində və təkrar seçkilərdə iştirak etməyin tərəfdarıdır və yəqin ki, bunu da edəcəkdir. Bu, həmin partiyanın siyasi səhnədə qalmaq üçün son şansıdır və onu əldən buraxmaq istəmir.





AXCP və ADP isə birmənalı şəkildə parlamentin işində və təkrar seçkilərdə iştirakın əleyhinə çıxış edirlər. AXCP və ADP-nin mövqeyini başa düşmək çətin deyil: bu partiyalardan yalnız bir nəfər /AXCP/ deputat mandatı qazanıb, təkrar seçkilərdə onların mandat qazanmaq, MSK-da təmsil olunmaq şansı çox azdır. Müsavatın isə vəziyyəti bir qədər yaxşıdır: partiya 5 deputat mandatı qazanıb, MSK-nın tərkibinin formalaşmasında iştirak edə bilər, təkrar seçkilərdə də əlavə mandat qazanmağa ümid edir. Müsavat Partiyasında onu da yaxşı xatırlayırlar ki, 2000-ci il parlament seçkilərindən sonra Əli Kərimli müttəfiqlərinə verdiyi vədlərə baxmayaraq, partiyadaşları ilə birlikdə Milli Məclisə getdi. Bu da çox əhəmiyyətli amildir ki, təmsilçilərinin Milli Məclisdə iştirakı AXCP-yə parlament tribunasından istifadə edərək öz mövqelərini möhkəmlətmək, xarici əlaqələrini gücləndirmək, radikal düşərgədə birincilik uğrunda mübarizədə rəqabət qabiliyyətini artırmaq imkanı vermişdi. Müsavat bu amili də nəzərə almamış deyildir. Müsavatda onu da görürlər ki, yalnız radikal, küçə mübarizə metodlarına üstünlük vermək cəmiyyətdən təcrid olunmağa, onsuz da zəif olan sosial bazanın tamamilə dağılmasına gətirib çıxarar.

Öz məqsədlərinə nail olmaq üçün AXCP və ADP Müsavatı şantaj edir, onu siyasi səhnənin arxasına itə-

ləmək, yaxud öz iradələrinə tabe etdirmək, fərqli addım atacağı halda, Müsavatın xəyanətkar obrazını formalaşdırmaq və iqtidarla əməkdaşlığa gedən partiya kimi cəmiyyətə təqdim etmək istiqamətində iş aparırlar. Mətbuat orqanlarında Müsavata qarşı kəskin yazılar artıq sistemli xarakter alıbdır. AXCP sədrinin müavini Nurəddin Məmmədli bildirir ki, "əgər bu gün fikir müxtəlifliyindən, ideya ziddiyyətlərindən söhbət gedirsə, bu, birinci növbədə Müsavatın mövqeyi ilə əlaqələndirilməlidir" və belə olacağı təqdirdə onun parçalanacağına işarə vurur ("Ayna", 20 yanvar 2006). O, Lalə Şövkətin "Müsavat Partiyası parlamentdə iştirakla bağlı qərar versə, biz həmin partiya ilə münasibətlərə yenidən baxmalı olacağıq" fikrini başadüşülən sayır və AXCP-nin də analoji addım atacağını istisna etmir ("Gün səhər", 27 yanvar 2006).

Şəxsən Əli Kərimlini narahat edən məsələlərdən biri də onun təklənmə qorxusudur. AMİP-in parçalanması və ADP daxilində vüsət alan qarşıdurmalar bu partiyanın aqibəti haqqında bədbin proqnozlara əsas verir. Təbii ki, hadisələrin belə axarı Əli Kərimlini qorxudursa da, belə görünür, İsa Qəmbəri narahat etmir. Zira o hesab edir ki, özü daha ağıllı taktika seçibdir. Bu vəziyyətdə Əli Kərimli iki çətin məsələni həll etməyə məcburdur: birincisi, çalışıb radikalların lideri titulunu





əldə etsin; ikincisi, böyük səylər bahasına olsa da, iddialı müttəfiqlərini öz təsiri altında saxlasın. Radikal müxalifətin davranışı göstərir ki, hər iki məsələnin müsbət həlli yoxdur.

Müsavat rəhbərliyi Arif Hacılının şəxsində "müttəfiq-rəqiblərinə" ultimativ şəkildə cavab verir: "Müxalifətin birliyi ilə bağlı öz konsepsiyamızı təklif edəcəyik, başqasının diktəsi ilə fəaliyyət göstərmək niyyətində deyilik. Əgər konsepsiyamız qəbul olunacaqsa, birliyin yaranması mümkün olacaq.Yox, əgər görsək ki, bu mexaniki birlik müxalifətin inteqrasiyasına deyil, mahiyyətcə parçalanmasına və 2008-ci il prezident seçkisində namizəd və ya vahid namizəd olmaq uğrunda mübarizəyə xidmət edir, həmin birlik yaranmaya bilər. Kimlərinsə bizə diktə etdiyi şərtlər daxilində süni inteqrasiyaya gedib, hansısa siyasətçinin 2008-ci il prezident seçkilərinə hazırlıq kampaniyasında iştirak etmək niyyətində deyilik. 2000, 2003, 2005-ci illərin seçkiləri göstərdi ki, prezidentliyə namizəd Müsavat Partiyasından olmalıdır" ("Yeni Müsavat", 24 yanvar 2006).

AXCP və ADP də öz növbələrində bu tipli bəyanatları daha sərt şəkildə cavablandırırlar. Nurəddin Məmmədlinin fikrincə, "Arif Hacılı "Azadlıq" blokunun formalaşmasına mane olmaq üçün təxribat edir." ADP funksioneri Akif Şahbazov da Müsavata qarşı

buna bənzər ittihamlarla çıxış edir ("Gündəlik Azərbaycan", 24 yanvar 2006).

Avropa Şurası Parlament Assambleyası tərəfindən Azərbaycan nümayəndə heyətinin mandatının təsdiq edilməsi radikal müxalifəti ağır vəziyyətə salıbdır. Bir neçə ay eyforiya içərisində yaşayan radikal müxalifətin arzuları puç oldu. O, uzun müddət özünü inandırırdı ki, beynəlxalq təşkilatlar Azərbaycana təzyiq edəcək, Andreas Qross kimi xarici siyasətçilərin köməyi ilə parlament seçkilərinin nəticələri AŞPA tərəfindən tanınmayacaq və Azərbaycana qarşı sanksiya tətbiq olunacaqdır. Bu da imkan verəcəkdir ki, Azərbaycanda yeni parlament seçkiləri keçirilsin. Əlbəttə ki, bu cəfəng və çox sadəlövh bir arzu idi. Onu da qeyd etmək lazımdır ki, Əli Kərimlinin çıxışının A.Qrossun təqdim etdiyi hesabatın qısa variantı olması bu materialın AXCP-nin mətbəxində hazırlanması haqqında yəqinlik yaradır.

Hər bir ağıllı siyasətçi başa düşürdü ki, AŞPA Azərbaycan nümayəndə heyətinin mandatını təsdiq edəcəkdir. Çünki bu nüfuzlu beynəlxalq təşkilatın əsas təsisçiləri yaxşı dərk edirlər ki, postsovet dövlətlərində demokratikləşmə və liberallaşma mərhələ-mərhələ, təkamül yolu ilə gedə bilər. Azərbaycanda isə bütün çətinliklərə və problemlərə baxmayaraq, son on ildə bu proses ilbəil sürətli addımlarla gedir. Digər tərəfdən,





Avropa Şurası Azərbaycanla münasibətlərini pozmaq niyyətində deyildir. Bu qurumun ölkədə gedən inkişaf proseslərindən, yaşanan problemlərdən və keçirilmiş parlament seçkilərindən ətraflı məlumatı var. Seçkilərlə bağlı problemlər bütün ölkələrdə var, o cümlədən ABŞ, İngiltərə və s. demokratik dövlətlər bu problemlərdən xali deyildir.

Beləliklə, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin mandatının təsdiqlənməsindən və bu nüfuzlu təşkilat Azərbaycanla hərtərəfli əməkdaşlığı davam etdirməyə hazır olduğunu bildirdikdən sonra"Azadlıq" bloku daxilində ziddiyyətlər daha da kəskinləşmişdir. Məlumdur ki, Avropa Şurası Azərbaycan müxalifətini daxili siyasi proseslərdə konstruktiv mövqe tutmağa, parlamentin işində və təkrar seçkilərdə iştirak etməyə çağırdı. Yeni şərait bir çox radikal siyasətçiləri çaşqın vəziyyətə saldığından, onlar "qapazaltı" axtarmağa başladılar. "Gün səhər" qəzetinin haqlı olaraq qeyd etdiyi kimi, "seçki öncəsi müxalifətin monolit birliyindən danışan partiya funksionerləri hazırda hakimiyyətə qarşı yox, bir-birinə qarşı mübarizəyə girişiblər" ("Gün səhər", 27 yanvar 2006). Belə bir vəziyyətdə AXCP, ADP, ALP funksionerləri – Həsən Kərimov, Akif Şahbazov, Əvəz Temirxan, bir tərəfdən, bu vaxta qədər özləri üçün isti-

nadgah hesab etdikləri Avropa Şurasını prinsipsizlikdə, xalqa xəyanətdə (?!) ittiham edir, digər tərəfdən, Müsavatı qətiyyətsizlikdə və konkret mövqe nümayiş etdirə bilməməkdə günahlandırırlar. Onlar parlamentdə və təkrar seçkilərdə iştirak etməyəcəklərini bir daha bildirir, Müsavatı da əslində hədələyərək, fərqli qərar verəcəyi halda, radikal müxalifət tərəfindən boykot ediləcəyi haqda xəbərdarlıq ünvanlayırlar. ALP sədr əvəzi, seçki təşviqat kampaniyası zamanı ultra-radikal çıxışları və bəyanatları ilə seçilən Əvəz Temirxanın fikrincə, Müsavat müxalifətin qapısına penalti təyin etdirdi ("Gün səhər", 27 yanvar 2006).

AXCP rəyasət heyətinin üzvü, hələ 1998-ci ildə "Müxalifətin mitinq taktikası" və "AXCP-nin iqtidara qarşı təbliğat mübarizəsi" kimi bədnam sənədlərin müəllifi Fuad Qəhrəmanlı hədələyir ki, "bu məsələdə əks fikirlərin ortaya atılması siyasi təftişçilik, mübarizədən yorulmaq, hakimiyyət zorakılığı ilə barışmaqdan başqa bir şey deyil". O, ciddi siyasətçi görkəmi alaraq iddia edir ki, biz dünyanı müxalifətsiz parlament faktı ilə üz-üzə qoyacağımız təqdirdə, beynəlxalq birlik Azərbaycanda situasiyanın dəyişməsi üçün səylər göstərməyə məcbur olacaqdır" ("Azadlıq", 27 yanvar 2006). Bu cür cəfəng fikirlərə və təhlilsayağı mülahizələrə radikal müxalifət mətbuatında geniş yer verilir.





Müsavat funksioneri Arif Hacılı öz növbəsində bu cür ittihamlara və dəlillərə qarşı partiyasının mövqeyini müdafiə edir. O, Avropa Şurasının qərarını əsas götürərək təsdiq edir ki, müxalifətin istər seçki prosesindən, istərsə də seçki komissiyalarından özünü kənarda qoymaq siyasəti demokratiyanın inkişafına xidmət etmir. Bu, Avropa Şurasının mövqeyidir və Azərbaycandakı proseslərin demokratik inkişafına ən səmimi yanaşan beynəlxalq qurumlardan birincisi elə Avropa Şurasıdır ("Gün səhər", 27 yanvar 2006). A.Hacılı "müttəfiq-rəqib" partiyaları xəbərdar edərək bildirir ki, Müsavat Partiyası parlamentdə iştirakla bağlı qərar qəbul edərsə, digər partiyaların onunla əməkdaşlıq məsələsinə yenidən baxması sonda onların özünə ziyan gətirəcək: "Həmin partiyaların belə qərarları olacaqsa, təbii ki, bu, demokratik qüvvələrin və cəmiyyətin xeyrinə olmayacaq. İstənilən halda, onlar özləri belə bir mövqedən ziyan çəkəcəklər" ("Gün səhər", 27 yanvar 2006).

AXCP-nin ruporu olan "Azadlıq" qəzeti parlamentlə və təkrar seçkilərə getmək məsələsi ilə bağlı Müsavat funksionerləri tərəfindən verilən bəyanatları "dava salıb aradan çıxmaq cəhdi" adlandırır. Qəzet ultimativ bir tonda bildirir ki, Müsavat parlamentə və təkrar seçkilərə qatılmaq qərarı versə, hər şeydən əvvəl, müxalifətin çətinliklə əldə edilmiş indiki birliyi pozulacaqdır ("Azadlıq", 29 yanvar 2006).

Müsavat Partiyasının mövqelərindən çıxış edən "Paralel" qəzeti "Azadlıq" blokunda süni birlik və AXCP-nin birincilik iddiaları haqqında geniş məqalə dərc edibdir. Məqalədə əksini tapmış fikirlər radikal düşərgə daxilindəki münasibətlər üçün səciyyəvi olduğundan, onun əsas məqamlarını olduğu kimi veririk. Qəzet yazır ki, sıralarında bir-birini həzm edə bilməyən yüzlərlə siyasi funksioner və fəalların olduğu partiyaların müttəfiqliyi özünüaldatma idi. "Bu, əvvəlcədən iflasa məhkum idi. Hətta hər iki partiya parlamentdə təmsil olunsaydı belə, onların müttəfiqliyi sona qədər baş tutmayacaqdı.

Bundan başqa, heç o da mümkün deyildi ki, Müsavatın ölkədə yaxşı tanınan, yerlərdə böyük nüfuz sahibi olan deputatlığa namizədləri ilə yanaşı, AXCP-nin əksəriyyəti cavan uşaqlardan ibarət olan namizədləri dürüst seçkilərin keçiriləcəyi təqdirdə, eyni uğurla parlamentə düşə biləydilər" ("Paralel", 30 yanvar 2006).

Qəzet hamıya məlum olan belə bir faktı təsdiq edir ki, "əslində, aparıcı partiyaların "Azadlıq" blokunda birləşməsi ideyası bir-birilə dərin konfliktdə olan qüvvələrə əcnəbi demokratlar tərəfindən verilmişdi. Bunun yalnız o xeyri oldu ki, "müxalifət qələbə istəyirsə, mütləq birləşməlidir" tezisinin təsir gücü xeyli azaldı. Məlum oldu ki, zorən birləşmələr də demokratiyanın bərqərarına gətirib çıxarmır".





Müxalifət düşərgəsindəki birlik səmimi deyildi. Partiyalar daimi çəkişmələrdə idilər. Hətta mitinqlərdə hansı liderin birinci, hansının axırıncı çıxış etməsi, yürüşlərdə hansı partiyanın dəstənin başında, hansının axırda dayanması, adicə bəyanat və yazılarda partiyaların adlarının hansı ardıcıllıqla ("AXCP-Müsavat-ADP", yoxsa "Müsavat-AXCP-ADP") yazılması məsələləri də geniş müzakirə, gərgin çəkişmə mövzusu idi.

Qəzet Müsavat rəhbərliyinin fikrini ifadə edərək yazır ki, Müsavat AXCP rəhbərliyinin artmaqda olan şantajları qarşısında artıq başqa yol tuta, onun yanında dayana, özünü yendirə bilməz. "Bu halda partiyanın ictimai-siyasi nüfuzuna olduqca ağır zərbə dəyə bilər. Öz müttəfiqinin ona qarşı bu sayaq aqressiv mövqe tutması Müsavatı vadar edir ki, tamam fərqli bir yol tutsun, öz ətrafında başqa siyasi qüvvələri cəmləşdirməklə yeni, söz-söhbətsiz, səmimi bir blok yaratsın". Gördüyümüz kimi, Müsavat "Azadlıq" blokundan kənarda yeni blok yaradacağını bildirir.

Daha sonra: "Cəbhəçilərin istədiyi odur ki, Müsavat seçkilərdə qazanmış olduğu siyasi dividendi əlindən versin, özünütəcrid kampaniyasına qoşulsun, ölkənin siyasi sisteminə daxil olmağın yaratdığı üstünlüklərdən istifadə edərək, daha da güclənə bilməsin. Müxalifət düşərgəsinin özünütəcrid yolu tutmuş cinahında isə

məhz AXCP öndədir, hirsli və ambisiyalıdır. Müsavat da o yolu seçsə, demək, AXCP-nin kölgəsində qalacaq, birincilik AXCP-yə mənsub olacaq" ("Paralel", 30 yanvar 2006). Bu ifadələr radikal düşərgədə gedən mübarizələrin həqiqi səbəblərini dəqiq göstərir.

Beləliklə, parlament seçkilərində məğlubiyyət və seçkilərdən sonrakı şəraitdə gedən maraqlar mübarizəsi, radikal müxalifət daxilində ən kəskin ittihamlar və mövqe savaşı radikal müxalifətin aqibəti haqqında kifayət qədər suallar doğurur. Çox güman ki, ilk növbədə, radikalların növbəti amorf və süni birliyi olan "Azadlıq" bloku da özündən əvvəlki çoxsaylı müxalifət konqlomeratlarının taleyini təkrarlayacaqdır.



# NƏTİCƏ

2005-ci il parlament seçkilərinin təhlili göstərdi ki, Azərbaycanda sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesi artıq dönməz xarakter alıb və bu prosesi əngəlləməyə qadir olan qüvvə yoxdur. Hakimiyyət cəmiyyətin liberallaşması, demokratik dəyərlərin bərqərar olması, vətəndaş cəmiyyətinin qurulması, Azərbaycanın Qərbə, Avratlantik məkana inteqrasiyası vasitəsilə sivil dünyanın bir hissəsinə çevrilməsi istiqamətində müstəqil və məqsədyönlü siyasət aparır. Hakimiyyət həm daxili, həm də xarici siyasətdə impulsiv, ölçülüb-biçilməmiş qərarların tərəfdarı deyildir. Bütün məsələlər üzrə prinsipial qərarlar təhlildən sonra qəbul olunur və ölkənin, regionun davamlı inkişafına xidmət edir. Seçki prosesi göstərdi ki, Azərbaycan hakimiyyəti beynəlxalq standartlara uyğun, eyni zamanda, ölkənin hazırkı inkişaf mərhələsini və özünəməxsus xüsusiyyətlərini nəzərə alan seçki keçirmək iqtidarındadır və bunun üçün qəti iradəsi vardır. Eyni zamanda, seçki prosesi göstərdi ki, Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real gücə və nüfuza malik, sivil, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycan

dövləti quruculuğu prosesində böyük əməyi olan, ölkənin inkişafı ilə bağlı real və fundamental konsepsiyaya malik iqtidar mövcuddur. Heydər Əliyev ideologiyasını rəhbər tutan hakimiyyət komandası Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı yeni, möhtəşəm uğurlara aparmaq iqtidarındadır.

Lakin 2005-ci il parlament seçkiləri Azərbaycanda radikal, dağıdıcı, ambisioz müxalifətin olduğunu bir daha açıq nümayiş etdirdi. İctimai rəyə hakim kəsilmiş və beynəlxalq birliyin də şərik çıxdığı rəy bir daha öz təsdiqini tapdı: Azərbaycanda radikal müxalifət adına iddialı olan qüvvələr xalq içərisində möhkəm dayaqlardan məhrumdurlar, demokratik müxalifət formalaşmayıbdır. Müxalifətin radikal qanadının əsas məqsədi Azərbaycanı inkişaf etdirmək, problemlərinin həllinə nail olmaq deyil, müstəqilliyinin 15-ci ilini yaşayan ölkəmizi yeni siyasi təlatümlərə, qarşıdurmalara, iğtişaşlara sürükləməkdir. Açıq göründü ki, radikal müxalifət Azərbaycanın inkişaf etdirilməsi yolları barədə aydın təsəvvürə malik deyil, bu günə kimi hər hansı bir taleyüklü problemlə bağlı konseptual fikir ortaya qoymayan qüvvələr yalnız hakimiyyət hərisliyi ilə yaşayır, onların davası isə kürsü davasıdır, revanşdır.

Radikal müxalifətin əsil simasını tam açıqlığı ilə görmək üçün seçkilərdən sonra cərəyan edən proseslərə və baş verən hadisələrə diqqət yetirmək kifayətdir. Xatırladaq ki, seçkilərdən sonra Beynəlxalq Müşahidə Missiyasının, xüsusilə də ABŞ-ın mövqeyi müxalifətin ümidlərini puç etdi. BMM-in müşahidə aparılan məntəqələrin 83 faizində seçkilərin yaxşı keçdiyini bəyan etməsi və seçkilərin bəzi hallarda ATƏT və Avropa Şurası standartlarına uyğun gəlməməsi barədə bəyanatı radikal müxalifəti məyus etdi. Bundan sonra ABŞ səfirliyinin seçkiləri demokratiyaya doğru irəliləyiş kimi qiymətləndirməsi və seçki pozuntularının aradan qaldırılması istiqamətində hakimiyyətin addımlarını təqdir edən bəyanatı, ABŞ Dövlət Departamentinin analoji açıqlaması müxalifətin qərəzli iddialarının üzərindən xətt çəkdi. Digər tərəfdən, bu yaxınlarda ANS kanalına müsahibə verən ABŞ dövlət katibinin Avropa və Avrasiya üzrə köməkçisi Metyu Brayza bildirmişdir: "Mən bəzi seçki dairələri və məntəqələrində baş vermiş xoşagəlməz halların aradan qaldırılması istiqamətində Azərbaycan hökumətinin gördüyü işləri təqdir edirəm və hesab edirəm ki, seçkilərin beynəlxalq standartlara cavab vermədiyi bəzi dairələrdə çatışmazlıqların aradan qaldırılması istiqamətində Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlərə dəstək vermək lazımdır". ABŞ-ın demokratiya dəyərlərini neft maraqlarına qurban verdiyi ilə

bağlı fikirlə razılaşmayan M.Brayza demişdir: "Biz anlayırıq ki, rəhbərliyin siyasi legitimliyi olmayan heç bir ölkədə sabitlik əldə etmək olmaz. Siyasi legitimlik məhz demokratik proseslər sayəsində mümkündür. Əgər demokratik proseslər olmasa, biz Azərbaycanla heç bir strateji, təhlükəsizlik və enerji maraqlarımıza nail ola bilmərik". M.Brayza Azərbaycanın ABŞ-ın dostu və strateji tərəfdaşı olduğunu, iki ölkə arasında bütün istiqamətlərdə uğurlu əməkdaşlığın inkişaf etdiyini bildirmişdir. Eyni zamanda, o, Azərbaycan Prezidentinin, hakimiyyətinin Azərbaycanda demokratik dəyərlərin bərqərar olması ilə bağlı qəti iradəsinin olduğunu təsdiqləyibdir: **"Prezident İlham Əliyev ciddi liderdir. Mən onun uzaqgörən rəhbər olduğunu düşünürəm. Onun təkcə enerji və təhlükəsizlik məsələləri barədə fikirləri deyil, həm də demokratik dəyərlər barədə düşüncələri də mənim xoşuma gəlir. İnstinktim mənə deyir ki, bizim demokratiya dəyərləri barədə fikirlərimiz əsasən üst-üstə düşür".**

Bütün bunlar göstərdi ki, radikal müxalifət başçılarının rəsmi Vaşinqtonun onları dəstəkləyəcəyi barədə iddiaları yalan və ictimaiyyəti çaşdırmaq cəhdindən başqa bir şey deyildir. Təsadüfi deyil ki, Müsavat sədri İsa Qəmbərin və radikal müxalifətin





digər başçılarının seçkilərdən əvvəl Qərbin və ABŞ-ın "Azadlıq" blokunu dəstəklədiyi və 2003-cü illə müqayisədə rəsmi Vaşinqtonun Azərbaycandakı proseslərə münasibətində köklü dəyişikliklər hiss olunduğu barədə bəyanatlarına münasibət bildirən bu blokun namizədlərindən biri bütün bunların yalan olduğunu etiraf etmişdir. O, deyib ki, bütün bunlar əhalini meydanlara çıxarmaq, seçici səslərinə nail olmaq üçün deyilibdir. Bu həqiqət Müsavatın Divan üzvü Hikmət Hacızadə tərəfindən də etiraf olunub və o, radikal müxalifət başçılarının və funksionerlərinin xalqa nağıl danışdığını etiraf edibdir.

Mövcud reallıqlar fonunda olduqca ağır duruma düşmüş radikal müxalifət təəssüf ki, öz ənənəvi ampluasından əl çəkmir, indi də məğlubiyyətinin məsuliyyətini öz üzərlərindən atmaq üçün seçkiyə aidiyyəti olan hər şeyi və hamını ittiham etməyə başlayıbdır. Son vaxtlar ittiham olunanların siyahısına ABŞ Prezidenti Corc Buş, vitse-prezident Dik Çeyni, dövlət katibi Kondoliza Rays, ABŞ-ın Azərbaycandakı səfiri Rino Harniş və digər ölkələrin rəsmiləri də əlavə olunmuşlar. Müxalifət ideoloqlarının iddiasına görə, ABŞ dövləti onlara münasibətdə ədalətsiz mövqe tutub və guya demokratiyanı iqtisadi və strateji maraqlara qurban veribdir.

Burada maraqlı bir məqama diqqət yetirmək zəruridir. Məsələn, mitinqə arzuolunan qədər, yəni 50 min nəfər deyil, 5-6 min iştirakçı toplaşanda müxalifət xalqı "öz taleyinə biganə olmaqda", passivlikdə ittiham edirdi. Onların qələbəsini göstərməyən bütün "exit-poll"ar və aşağı reytinqlərini açıqlayan sorğu mərkəzləri tənqidə məruz qalırdı. Seçkinin nəticələrini tanıdığına görə Türkiyə, İran, Rusiya, Rumıniya, Bolqarıstan, Gürcüstan dövlətləri ilə yanaşı, bir çox beynəlxalq təşkilatların rəhbərləri də Azərbaycan müxalifətinin qəzəbinə tuş gəlmişlər. Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiye bütün Avropa Birliyinə ünvanlanan ittihamları təkbaşına həzm etmək zorunda qalmışdı. ABŞ-dan və digər ölkələrdən olan müstəqil müşahidəçilər hakimiyyətlə əlbir olmaqda ittiham edilmişlər. ABŞ-da Azərbaycan üzrə mütəxəssislərin Azərbaycan müxalifətinin zəif olması haqda çıxardıqları analitik nəticələrə görə onlar radikallar tərəfindən "diktatorları dəstəkləyən kateqoriyaya aid politoloqlar" adı "qazanmışlar". Nəhayət, seçkilərlə bağlı yekun protokolu imzaladığına görə, Müsavatdan olan MSK katibi Vidadi Mahmudlu, AMİP-çi Arzuxan Əliyev, ADP-çi Yusif Bağırzadə və müxalifəti təmsil edən digər MSK üzvləri "bir nömrəli satqın" elan olunmuşlar. Beləliklə, "Azadlıq" bloku





bütün dünya ilə üz-üzə durmağı və bütün dünyanı ittiham etməyi öz məğlubiyyətini etiraf etməkdən daha üstün tutur. Görünür ki, onlar hamını və hər şeyi tənqid və ittiham etməyi mümkün sayırlar, yalnız özlərini hər hansı tənqiddən yüksəkdə hesab edirlər. Radikal müxalifətin seçkilərdən sonrakı mövqeyinin təhlili onu deməyə əsas verir ki, onlar ciddi namizədlər siyahısı ilə çıxış etmədiklərinə, cəlbedici ideya və platforma ortaya qoya bilmədiklərinə, seçki kampaniyasını zəif və səriştəsiz apardıqlarına, seçkilərdə məğlub olduqlarına, xarici müşahidəçilər, beynəlxalq təşkilatlar, müxtəlif dövlətlərin rəsmiləri onları deyil, Azərbaycan hakimiyyətini təbrik etdiyinə görə, özlərindən başqa hamını günahkar siyahısına salırlar.

Lakin radikal müxalifət düşünmək belə istəmir ki, seçki ərəfəsində və seçkidən sonra keçirilən kütləvi aksiyalar onun real gücə malik olmadığını açıq-aydın göstərmişdir. Milyonlarla seçicinin səsini almağa iddia edən radikal müxalifət partiyaları hamısı birlikdə nəinki elan etdikləri 75 faiz deputat mandatını, heç seçicilərin 10 faizinin səsini qazana bilmədilər. Bu da onların seçkiyə qədər keçirilən sosioloji sorğulardakı 5-8 faizlik reytinqdən yuxarı qalxa bilmədiklərini əyani sübut etmişdir. Belə olan təqdirdə ABŞ, beynəlxalq aləm 75 faizdən artıq real dəstəyi olan hakimiyyəti kənarda qoyub, ictimai

rəyə sayğısızlıq nümayiş etdirərək, müxalifəti sonadək necə dəstəkləyə bilərdi və dəstəkləməlidirmi?

Göründüyü kimi, demokratiya pərdəsi altında gizlənənlərin əsil siması açıldıqca və beynəlxalq aləm belə müxalifətlə iş aparmağın qeyri-mümkünlüyünü dərk etdikcə, radikal müxalifətin də ona qarşı davakarlığı artır. İndi ABŞ-ın, beynəlxalq aləmin radikal müxalifətin əsassız şəkildə hakimiyyətə qarşı illərlə nümayiş etdirdiyi davakarlığı təhlil etmək imkanı var. Rəsul Quliyevin, İsa Qəmbərin, Əli Kərimlinin, Lalə Şövkətin lider olduqları partiyaların fəaliyyəti, onların ölkədə "narıncı inqilab" yolu ilə hakimiyyəti ələ keçirmək cəhdlərinin iflasa uğraması onu deməyə əsas verir ki, bu müxalifət 1993-cü ildən bu günə qədər düçar olduğu ağır məğlubiyyətlər silsiləsindən özü üçün nəticə çıxarmaq iqtidarında deyildir. Onların qısasçılıq mahiyyəti və hakimiyyət hərisliyi iqtidarın müsbət addımlarını da görüb qiymətləndirməyə imkan vermir. Onlar Milli Məclisə seçkilərlə bağlı Prezidentin gördüyü tədbirlərin ölkə vətəndaşları və beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsini etiraf etməyə də özlərində cəsarət tapmırlar. Bu isə bir həqiqətdir ki, görülmüş işlərin nəticəsində 6 noyabr seçkiləri ölkədə demokratik seçki praktikasında yeni bir mərhələnin başlanğıcını qoydu. Yeni seçki ənənələrinin yaradılması hakimiyyətin vacib vəzifələrindən biri idi. Bununla da Gürcüstan, Ukrayna və Qırğızıstanda "zəfər yürüşü" edən "inqilaba" Azərbaycanda imkan verilmədi və xaricdən süni surətdə ixrac edilən hakimiyyət dəyişikliyi modelinin perspektivsizliyi sübut olundu, nəticədə isə, ümumiyyətlə, bu "inqilabın" postsovet dövlətlərində yürüşünə son qoyuldu. Bu gün radikal müxalifəti artıq nə ictimaiyyət, nə də beynəlxalq birlik "Azadlıq" bloklu liderlərinin arzu etdikləri kimi dəstəkləmir və onların ümidi yalnız A.Qross və A.Herkel kimi subyektiv mövqeli şəxslərədir.





Beləliklə, müxalifət niyə növbəti dəfə sarsıdıcı məğlubiyyətə uğradı? Faktların təhlili göstərir ki, burada obyektiv və subyektiv, taktiki səbəblər mövcuddur.

**Obyektiv və subyektiv səbəblər, zənnimizcə, aşağıdakılardan ibarətdir:**

- Azərbaycanda sivil dünyada qəbul edilən anlamda müxalifətçilik institutu hələ formalaşmayıbdır. Demokratikləşmənin dərinləşməsi, vətəndaş cəmiyyətinin bərqərar olması istiqamətində hakimiyyətin atdığı məqsədyönlü addımlar onu deməyə əsas verir ki, Azərbaycandakı siyasi proseslər hazırda radikal, dağıdıcı müxalifətin siyasi səhnəni tərk etməli və əvəzində konstruktiv, sivil müxalifətin formalaşması mərhələsinin başlamalı olduğunu göstərir.

• Müxalifətin ciddi şəkildə ideologiya problemi mövcuddur. Yeni Azərbaycan Partiyası istisna olmaqla, Azərbaycanda mükəmməl, elmi əsaslara malik ideologiyası və proqramı olan siyasi partiya yoxdur.

• Mövcud müxalifət xalqın, əhalinin geniş təbəqələrinin dəstəyindən məhrumdur. Seçkilər ərəfəsində və sonrakı dövrdə aparılan sorğular, müxalifətin keçirdiyi mitinqlər xalqın bu qüvvələri dəstəkləmədiyini açıq göstərdi.

• Müxalifətdə nüfuzlu, xarizmatik lider rolunu üzərinə götürəcək siyasi partiya və şəxs yoxdur. Müxalifət düşərgəsində ambisioz, merkantil, dağıdıcı simalar mövcuddur ki, onların arasında liderlik uğrunda gedən, heç bir sağlam məntiqə və siyasi əxlaq normalarına sığmayan amansız mübarizə ictimaiyyətin müzakirə mövzusu və istehza obyektidir. Bu şəxslər insanların şüurunda 1992-1993-cü illərin xaosu, özbaşınalığı və hərc-mərcliyi ilə assosiasiya olunur.

• Müxalifətin intellektual potensialı və idarəçilik təcrübəsi, onun formalaşmış sabit komandası yoxdur.

• Azərbaycan müxalifətinin ölkənin inkişaf prioritetləri barədə elmi cəhətdən əsaslandırılmış aydın proqramı, konsepsiyası, ideyası yoxdur. Müxalifət nəinki bütövlükdə dövlətin, cəmiyyətin, hətta ayrılıqda hər hansı sahənin inkişafı ilə bağlı mükəmməl ideya ortaya qoya bilmir.





• Müxalifət dağınıq haldadır, pərakəndədir, onun birləşmə cəhdləri isə müvəqqəti olur, görüntü xarakteri daşıyır.

• Müxalifətdaxili ənənəvi ziddiyyətlər, partiyalar və başçılar arasındakı mövcud təbii antaqonizm müxalifət barədə mənfi rəyin formalaşmasında təsirli səbəblərdən biridir.

• Müxalifət partiyalarında, əsasən də "Azadlıq" blokuna daxil olan partiyalarda avtoritar idarə üsulu hökm sürür. Bu səbəbə görə də həmin partiyalarda yeniləşmə, müasirləşmə və demokratikləşmə prosesi getmir.

**Taktiki səbəbləri araşdırarkən görürük ki:**

• Radikal müxalifət seçki proqramının müəyyənləşdirilməsində ciddi səhvlərə yol vermiş, seçki prosesini hakimiyyətə gəlmək üçün vasitə kimi qiymətləndirmişdir.

• Azadlıq" bloku seçkilərə "narıncı inqilab" eyforiyası ilə qatılmış, ölkədə mövcud vəziyyəti düzgün qiymətləndirməmiş, Gürcüstan və Ukraynada baş verən hadisələrin Azərbaycanda təkrarlanmasının qaçılmaz olduğunu iddia etmiş, öz fəaliyyətini buna uyğunlaşdırmışdır.

• Radikal müxalifət populist şüarlara və qeyri-real vədlərə əsaslanan təşviqat kampaniyası qurmuş, verdiyi vədlərlə, əslində, ictimai rəylə manipulyasiya etdiyini nümayiş etdirmişdir.

• "Azadlıq" blokunun seçki siyahısının müəyyənləşdirilməsi prinsipi yanlış olmuş, bu da partiyaların daxilində mövcud narazılığı daha da gücləndirmişdir.

• Radikal müxalifətin namizədliyini irəli sürdüyü şəxslər cəmiyyətdə tanınmayan, hətta namizədlikləri irəli sürülən dairələrdə nüfuzu olmayan şəxslər olmuşdur. Bir çox hallarda isə onlar tanınsa da, mənfi imicə malik şəxslər idilər.

• Dağıdıcı müxalifət xarici amili seçkilərdə qələbə çalmağın əsas şərti kimi qiymətləndirmiş və gücünü müxtəlif şübhəli xarici dairələrlə əlaqələr yaratmağa, onların dəstəyinə nail olmağa yönəltmişdir.

• Seçkilər zamanı baş vermiş bəzi hadisələr, xüsusilə də "Ruslan Bəşirli hadisəsi" və "Rəsul Quliyevin qayıdış şousu" müxalifətin nüfuzunun daha da aşağı düşməsinə şərat yaratmışdır. İctimaiyyət radikal müxalifətin hakimiyyətə gəlmək üçün hətta ermənilərlə və korrupsiyalaşmış məmurlarla işbirliyinin və bununla da bir daha onun antimilli fəaliyyətinin şahidi olmuşdur.

• Barışmaz müxalifətin mitinq takitikası heç bir nəticə verməmiş, etiraz aksiyalarına pulun hesabına adamların gətirilməsi onun ictimaiyyət arasında dayaqlarının son dərəcə zəif olmasını göstərmişdir.

Bütün bunlar onu göstərir ki, seçkilər nəticəsində Azərbaycanda siyasi qüvvələr nisbətində əsaslı dəyi-





şikliklər baş verəcəyi şübhəsizdir. Bu seçkilər radikal, dağıdıcı, barışmaz müxalifətə daha bir sarsıdıcı zərbə vurdu. Bütün sivil ölkələrdə seçkiləri uduzan partiyaların rəhbərləri siyasi səhnəni tərk edirlər. Lakin belə bir siyasi mədəniyyət Azərbaycan müxalifəti üçün yad olduğundan, radikalların iflası, müxalifətçiliyin yeniləşməsi prosesinin təbii yola gedəcəyini hələ gözləmək lazımdır. Bunu "narıncı inqilab bitməyib" ifadəsi ilə İsa Qəmbər "Azadlıq" radiosunun "Panorama" verilişində bir daha təsdiqləyibdir ("Yeni Müsavat", 15 yanvar 2006).

"Azadlıq" blokunun mərkəzi seçki qərargahına rəhbərlik etmiş Pənah Hüseynov parlament seçkilərində blokun məğlubiyyətini açıq etiraf etsə də, onun fikrincə, blokun konseptual siyasətində ciddi dəyişikliklər olmamalıdır. Dəyişikliklər ancaq taktiki gedişat və şüarlarla bağlı ola bilər. "2005-ci il parlament seçkilərinin rəsmiləşdirilmiş nəticələrinə görə, ciddi məğlubiyyətə uğramış... müxalifətin hazırkı vəziyyəti heç də onun perspektivsizliyi anlamına gəlmir. Bu baxımdan, həmin qüvvələr fundamental siyasi dəyərlərini dəyişməli, yenisinə etiqad bağlamalı deyil. Ancaq eyni zamanda, cəmiyyətin ümumi sosial-siyasi inkişafında baş vermiş dəyişiklikləri nəzərə almamaq olmaz. Yeni şəraitə uyğun olaraq, müxalifət özünün taktiki gedişlərində, ideoloji şüarlarında dəyişiklik etməyə məhkum-

dur" ("Gün", 7 yanvar 2006). Pənah Hüseynovun bu mövqeyi bir daha təsdiq edir ki, radikal müxalifət daxilində dərin kök salmış dağıdıcılıq və pozuculuq prinsiplərindən əl çəkmək fikrində deyildir.

Görünür, radikallığı ilə seçilən Pənah Hüseynov libasını dəyişərək, indi də dağıdıcı müxalifətin ideoloqu sifətində "missiyasını" davam etmək istəyir. O, hesab edir ki, radikal müxalifət, ilk növbədə, sosial bazasında yeniləşmə aparmaq istəyində olmalıdır. Əgər indiyə qədər bu müxalifətin əsas dayağı həyat səviyyəsi aşağı olan təbəqələrdən ibarətdirsə – qaçqınlar, işsizlər, müflisləşmiş iş adamları, kasıblaşmış kəndlilərdisə (bolşeviklərin sosial bazasından heç də fərqlənmir- *R.M.*), Pənah Hüseynov bundan sonra bu elektorata yeni təbəqənin əlavə olunmasını təklif edir. Və ilk növbədə, orta təbəqəni nəzərdə tutur. Buraya müxtəlif dövlət idarələrində işləyən məmurlar da aid edilir. Pənah Hüseynov hesab edir ki, "onlar müxalifətin protest elektoratının tərkibinə götürülməli və demokratik qüvvələrin dayağına çevrilməlidirlər". Beləliklə, "müxalifətdə, onun sosial bazası arasında müəyyən durğunluq və məyusluq" halları aradan götürüləcək, fəallıq artacaqdır.

Maraqlı etirafdır. Əslində, radikal müxalifətin hansı sosial qrupların nümayəndələrinə arxalanması əvvəldən də məlum idi. Lakin məhdud marginal və lümpen





sosial qrupların cüzi bir hissəsi bütün xalqın iradəsini və maraqlarını ifadə edə bilməz. Buna baxmayaraq, radikallar bəyan edirlər ki, guya xalq onlarladır. Çox cəfəng, əsası olmayan iddiadır. Son parlament seçkiləri xalqın kimlə olmasını çox aydın göstərdi. Düzünə qalsa, radikal partiyaların rəhbərlərini sosial baza məsələsi o qədər də maraqlandırmır. Çünki həqiqi böyük sosial qrupları inandırmaq lazımdır ki, hakimiyyət onların maraqlarını təmin etmir. Bu da real deyildir. Ölkənin inkişafı, insanların həyat tərzinin və maddi vəziyyətinin get-gedə yaxşılaşması göz qabağındadır, təkzibedilməz faktdır. Başqa yol düşünmək üçün isə qabiliyyət lazımdır. Digər tərəfdən də, radikalların vaxtı məhduddur, zaman onların əleyhinə işləyir. Ona görə də tələsirlər, əsas məqsədə tez çatmaq istəyirlər: hakimiyyəti ələ keçirmək, revanş götürmək – fərqi yoxdur, hansı sosial qüvvələr və kimin hesabına. Məhz buna görə də vaxtlarını əsaslı proqramlar hazırlamağa sərf etmək istəmirlər. Ancaq siyasətləri var – müxtəlif, bir-biri ilə uzlaşmayan iddiaların və romantik arzuların kombinasiyasının üzərində qurulmuş siyasət.

Pənah Hüseynovun fikrincə, müxalifət düşərgəsində "inqilabi dəyişiklik baş verməsə, özü də sürətlə baş verməsə, bu düşərgənin təmsilçiləri cəmiyyətin marginal qüvvəsinə çevriləcəklər. O da etiraf olunma-

lıdır ki, bu qüvvələrin cəmiyyətdə aparıcı olmamasının bir səbəbi də xarici amildir. Bu dəstək indiki kimi zəifləməkdə davam edəcəksə, marginallaşma prosesi sürətini artıracaqdır. Mənə elə gəlir, bir həqiqəti də demək lazımdır ki, Azərbaycanda yaxın dövrdə qeyri-ənənəvi mübarizə formalarından istifadə meyilləri güclənəcəkdir. Söhbət qanunla tənzimlənməyən və ya qanunazidd, məxfi-gizlin mübarizə üsullarından gedir... Azərbaycanda demokratikləşmənin siyasi inqilab formasında baş verəcəyi düşüncəsində qalıram" ("Gün", 7 fevral 2006).

Göründüyü kimi, Pənah Hüseynov çox ziddiyyətli fikirlər söyləyir. Bu da radikal müxalifətin mahiyyətindən irəli gəlir.

Uzun müddətdir ki, müxalifət partiyaları daxilində radikalların müxalifət adını inhisara almasına, onların mübarizə metodlarına qarşı narazılıq güclənməkdədir. Bu gün mətbuatda müzakirə olunan mövzulardan biri də "Müxalifət Avropa Şurasına müraciət edəcək", "Müxalifət parlamenti tanımayacaq", "Müxalifət yeni seçkilər tələb edir", "Müxalifət parlamenti qeyri-legitim hesab edir" və sairdir. Düşünmək olar ki, bu, müxalifət qurumlarının yekdil mövqeyidir. "Azadlıq" blokunun təsisçiləri özlərini "aparıcı müxalifət" adlandıraraq, bütün müxalifəti təmsil etməyə iddia edirlər. Lakin "Azadlıq" bloku bütöv müxalifət düşərgəsini





"özəlləşdirə" bilməz və bütövlükdə müxalifət adından danışa bilməz. Azərbaycandakı müxalifət yalnız "Azadlıq" blokundan, "Milli Birlik Hərəkatı"ndan yox, müxtəlif rənglərdən ibarətdir. Sabir Rüstəmxanlının fikrincə, "Azərbaycanda bir çox başqa müxalifət partiyaları da var ki, illər uzunu demokratiyanın qələbəsi, vətəndaş cəmiyyəti quruculuğu, insan haqlarına hörmət istiqamətində mübarizə aparıblar... Müxalifətin parlamentə getməsindən söhbət gedirsə, bu gün müxalifət parlamentdə təmsil olunur. Müxalifət Vətəndaş Həmrəyliyi Partiyasının, Ümid Partiyasının, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının, Böyük Quruluş Partiyasının, yəni İqbal Ağazadənin, Fazil Qəzənfəroğlunun, Əli Məsimovun və b. timsalında parlamentə qatılıb" ("Xalq qəzeti", 7 yanvar 2006).

Həqiqətən, özünü müxalifətdə hesab edən, xalq hərəkatı ideyaları ilə yaşayan bir çox insanlar "Azadlıq" blokunda və "Milli Birlik Hərəkatı"nda olan radikal başçıların milli maraqlara zidd, nəyin bahasına olursa-olsun, hakimiyyəti ələ keçirmək məqsədi güdən fəaliyyətini qəbul etmir və başa düşmək istəmirlər. Onlar radikalların küçə-meydan mübarizə taktikasını, qeyri-qanuni yollarla hakimiyyətə gəlmək iddialarını, qarşıdurma çağırışlarını da qəbul etmirlər. Bir çox müxalifətçilər radikalların ideyasızlığını, onların real

proqramlarının yoxluğunu, 1990-cı illərin səviyyəsində ilişib qaldıqlarını görürlər. Onlar "Azadlıq" bloku rəhbərlərinin müxtəlif xarici dairələrdən, donor təşkilatlardan və fondlardan asılılığını qəbul etmir, bunu müxalif siyasətçiyə yaraşmayan hal hesab edirlər. Onlar haqlı olaraq düşünürlər ki, siyasi addımlarında həmişə müxtəlif xarici təşkilatların rəyini əsas götürən, xaricilərin göstərişləri ilə oturub-duran, hətta Dağlıq Qarabağ məsələsində də öz müstəqil mövqeyi olmayan qüvvələr Azərbaycanın maraqlarını qoruya bilməz. Bu, xalqdan ayrı düşmüş, sistemdən kənar, antisistem müxalifətdir. Beləliklə, xalqa, millətə, dövlətə xidmət edən, öz gücünü daxildən alan müxalifətin formalaşması məsələsi müzakirə mövzularından olaraq qalır.

2003-cü il prezident seçkilərindən sonra Azərbaycanda yaranmış ab-hava, iqtisadiyyatın sürətli inkişafı, islahatların aparılması, ümumiyyətlə, liberal dəyərlərə diqqətin artırılması demokratik müxalifətin zəruriliyini daha da aktuallaşdırıbdır. Bugünkü radikal müxalifət özünü hələ ki, bolşevik psixologiyasının daşıyıcıları kimi təqdim edir. 13 ilə yaxın bir vaxtda hakimiyyət uğrunda davakar savaş aparan, lakin bu iddianı reallaşdıra bilməyən müxalifətin dəyişməz qalması ölkənin demokratik inkişafına böyük əngəldir. Ona görə də cəmiyyətin mütləq əksəriyyəti indiki dövrdə müasir dünyagörüşə,





yeni ideoloji-siyasi baxışlara, sivil mübarizəyə hazır olan müxalifətin formalaşmasını istəyir desək, səhv etmərik. Baxmayaraq ki, İsa Qəmbərin fikrincə, "bu, mümkün olan şey deyil" ("Paralel", 15-22 yanvar 2005).

Əlbəttə, bu, sadə məsələ deyil və tapşırıqla öz həllini tapmır. Bunun üçün zaman lazımdır və ən əsası radikal, dağıdıcı müxalifətin daxilində saflaşma getməlidir, demokratik düşüncəli adamların sayı köhnə məfkurənin sahiblərindən üstün olmalıdır. Qeyd etməliyik ki, artıq bu gün belə prosesin müəyyən təzahürlərini görmək mümkündür. Geniş ictimai dəstəyi olmayan "Azadlıq" blokuna daxil olan partiyaların üzvlərinin bir qismi daha onları daim məğlubiyyətə aparan liderlərin arxasınca getmək istəmir. Həmin partiya rəhbərlərinin təfəkkürünün 1980-ci illərin sonundan bu günə qədər donub qalması, hakimiyyəti ələ keçirmək naminə milli maraqları, müqəddəs məqsədləri tapdalamaları və digər mənfi fəaliyyətləri bu partiyaların üzvlərinin çoxunu üz döndərib getməyə məcbur edir.

Çox maraqlıdır, radikalların davakar nümayəndəsi Pənah Hüseynov da hesab edir ki, "hər bir dövlətin özünəməxsus siyasi mentaliteti, siyasi adət-ənənələri var. Bunu da qeyd etmək yerinə düşərdi ki, artıq neçə illərdir ki, Azərbaycan müxalifətini eyni simalar ifadə edir. Bu da onunla əlaqədardır ki, bizdə siyasi səhnədə

rəqabət mühiti hələ formalaşmayıb. Sözsüz ki, hələ keçən seçkilərdən sonra bəzi siyasətçilərin siyasi arenada qalması haqda suallar yaranmışdı" ("Savaş" 17 dekabr 2005). Müxalifət üçün gözlənilməz etirafdır.

Radikal müxalifətçilik bir ideya və siyasi cərəyan kimi artıq arxivə təhvil verilir, onun sosial bazası ərimiş və daralmaqdadır. 2003-cü il 15-16 oktyabr hadisələrindən sonra dağıdıcı müxalifət sarsıdıcı zərbə aldı, sosial bazası sürətlə dağılmağa başladı. 2005-ci il parlament seçkilərindən sonra radikallar daha bir ağır zərbə aldılar. Partiyaların rəhbərliyində və rayon təşkilatlarında istefalar, bütöv yerli təşkilatların özünü buraxması bu dağılma prosesinin qarşısıalınmaz xarakter aldığını göstərir. Düşünmək olar ki, radikal müxalifətçiliyin dağılması və konstruktiv, sivil, vətənpərvər müxalifətin formalaşması müəyyən müddət davam edəcəkdir. O da birmənalıdır ki, bütövlükdə yeni, konstruktiv müxalifətin sosial bazası, şübhəsiz, radikal müxalifət tərəfdarlarının keyfiyyətcə yeni müxalifətin sıralarına keçməsi, siyasi dəyərlərə və mübarizə formalarına yeni yanaşma nəticəsində baş verəcəkdir. Bütün hadisələr və faktlar onu göstərir ki, 2003-cü il prezident seçkilərindən sonra Azərbaycan cəmiyyəti həyatının yeni dövrünə qədəm qoymuşdur. Yeni dövrdə isə yeni, sivil müxalifətə sosial tələbat var və onun yaranması artıq zaman məsələsidir.



# MÜNDƏRİCAT

**Oxucuya** .... 5

**I. Seçki prosesinin ayrı-ayrı mərhələləri** .... 9
Seçki qanunvericiliyinin təkmilləşdirilməsi mərhələsi .... 11
Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə parlament seçkiləri kampaniyasına start verilməsi .... 26
Seçkiqabağı təşviqat mərhələsi (7 sentyabr-5 noyabr) .... 37
Səsvermə günü seçki prosesinin gedişi .... 53
Səsvermədən sonrakı mərhələ (qanun pozuntularının aradan qaldırılması istiqamətində atılan addımlar) .... 62

**II. Beynəlxalq müşahidəçilər** .... 69
ATƏT .... 72
MDB-nin müşahidə missiyası .... 76
ABŞ .... 81
Avropa .... 95
Rusiya və Müstəqil Dövlətlər Birliyi .... 103
Türkiyə .... 116
İran .... 118

**III. Demokratik seçki nümunəsi** .... 121
Yeni Azərbaycan Partiyası ölkənin ən güclü və nüfuzlu siyasi qüvvəsidir .... 124
İqtisadiyyatın inkişafı və xalqın rifah halının yaxşılaşdırılması istiqamətində atılmış addımlar .... 134
Xarici siyasət və Dağlıq Qarabağ probleminin həllimnə yönəlmiş fəaliyyət .... 143
Korrupsiyaya qarşı mübarizə .... 151
"Azadlıq" blokunun parlament seçkiləri ilə bağlı planlarının bəzi cizgiləri .... 155
Müxalifətin məğlubiyyətinin səbəbləri .... 164
İdeoloji boşluq .... 179
Məğlubiyyətə yönələn seçki strategiyası .... 188
Ziddiyyətli seçki siyahısı .... 192
"Narıncı inqilab" eyforiyası .... 195
Böhrana köklənmiş təşviqat kampaniyası .... 208
Radikal müxalifət və xarici amil .... 224
Süni birliyin sonu .... 232

**Nəticə** .... 243

Redaktorlar: *Aslan Aslanov*
*Vaqif Musayev*

Texniki redaktor: *Dağbəyi İsmayılov*

Kompyuter səhifələyicisi: *Cəvani Ağayev*

Korrektor: *Bətul Eyvazlı*

Yığılmağa verilmişdir 15.02.2006. Çapa imzalanmışdır 21.02.2006.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 16,5. Ofset çap üsulu.
Tirajı 500. Sifariş 10.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.